DÜNYA ƏDƏBİYYATI

# SƏDİ ŞİRAZİ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

SƏDİ ŞİRAZİ

Ш(5)
S 41

204447-2

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab "**Sədi Şirazi.** Bustan" (Bakı, Azərnəşr, 1964) və "**Sədi Şirazi.** Gülüstan" (Bakı, Azərnəşr, 1987) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Farscadan tərcümə edənlər:

| | |
|---|---|
| "Bustan" əsəri | **Mirmehdi Seyidzadə** |
| "Gülüstan" əsəri: | |
| şeirlər | **Məmmədağa Soltan** |
| nəsr | **Rəhim Sultanov** |
| | **İsmayıl Şəms** |
| Ön sözün müəllifi: | **Məsiağa Məhəmmədi** |

**891.55 - dc 21**
**AZE**
**Sədi Şirazi. Seçilmiş əsərləri.** Bakı, "Öndər nəşriyyat", 2004, 400 səh.

Firdovsi, Xəyyam, Hafiz, Nizami, Füzuli kimi Şeyx Sədi Şirazi də dünya mədəniyyət xəzinəsində özünəməxsus yer tutan cahanşümul və görkəmli şairlərdəndir. İran mədəniyyətinin dünya ədəbiyyatına vermiş olduğu bu qüdrətli söz ustasının ölməz əsərləri yüzillərdir əhəmiyyət və təsirini itirməyərək oxucularına faydalı nəsihətlər verir, bəşəri düşüncələr, nəcib duyğular aşılayır.

Həqiqət və gözəllik aşiqi Sədi farsdilli ədəbiyyata çox ciddi yeniliklər gətirmiş, hətta müəyyən baxımdan inqilab etmiş nəhəng sənətkardır.

Bu kitaba didaktik poema janrının parlaq nümunəsi olan "Bustan"ı ilə yanaşı, böyük şairin özündən sonrakı bütün əsrlərdə Yaxın və Orta Şərq xalqlarının çox sevdiyi kitablardan biri olub, uzun illər dərslik kimi istifadə olunan və dünyanın mədəni xalqlarının dillərinə çevrilən "Gülüstan"ı, eləcə də bir sıra lirik əsərləri – qəsidə, rübai, qəzəl və qitələri daxil edilmişdir.

**ISBN 9952-416-42-2**

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# SƏDİ: HƏQİQƏT VƏ GÖZƏLLİK ŞAİRİ

On üçüncü yüzilliyin ortalarında – müsəlman dünyasının şərqdən dağıdıcı monqol basqınlarına, qərbdən isə amansız səlib yürüşlərinə məruz qaldığı bir vaxtda o qədər də böyük olmayan qədim Şiraz şəhərində bəşər zəkasının o vaxta qədər yaratmış olduğu elmi bilikləri dərindən mənimsəmiş və zəngin müdriklik məqamına yetişmiş Şeyx – Sədi Şirazi deyirdi ki, şəhərləri, kəndləri viran qoyan, yüz minlərlə insanı qılıncdan keçirən fatehlərin firavan və qayğısız həyata bəslədikləri ümidlər əbəsdir, aldadıcı ilğımdan başqa bir şey deyil: bədənin bir üzvü ağrı və əzab içində olduğu halda, başqa bir üzvün rahat yaşayıb normal fəaliyyət göstərməsi qeyri-mümkündür. Heyhat, müasirləri Sədinin bəyan etdiyi bu böyük həqiqəti anlamaqdan uzaq idilər. Bəşəriyyət yalnız yeddi əsrdən – milyonlarla insanın varlığına son qoymuş iki dünya müharibəsinin alovundan keçdikdən sonra Sədi həqiqətinə yetişdi və Birləşmiş Millətlər Təşkilatı yaradıb ulu Şeyxin sözlərini də onun şüarına çevirdi. Amma təəssüf, ötən yarım əsr bir çox hallarda bu həqiqətin yalnız şüar səviyyəsində dərk olunduğunu göstərməkdədir. Və nə qədər ki, belədir, Sədinin ideyası öz aktuallığını saxlayır və insanların zaman-zaman həmin ideya işığında düşünüb-daşınmasına, öz əməl və davranışlarını onun mizanında ölçüb-biçməsinə ehtiyac da qalır.

Əlbəttə, Sədinin bədii-estetik və fəlsəfi-etik fikir tarixindəki rolu təkcə qeyd olunan ali həqiqəti ən yüksək poetik biçimdə bəyan etməsi ilə məhdudlaşmır. O, farsdilli ədəbiyyata çox ciddi yeniliklər gətirmiş, hətta müəyyən sahələrdə inqilab etmiş nəhəng sənətkardır. Sədi "Gülüstan" əsərinin müqəddiməsində[1] "öz adının dillərdə əzbər olduğunu, sözlərinin bütün dünyanı tutduğunu" qeyd edir.

"Əfsəhül-mütəkəllimin" ləqəbi ilə məşhur olan Şeyx Əbu Məhəmməd Müsliheddin ibn Abdullah Sədi Şirazi XIII əsrin əvvəllərində, təqribən hicri 606-cı (miladi 1209-cu) ildə şeir və sənət diyarı olan Şirazda dünyaya gəlmişdir. Sədinin doğum tarixi dəqiq bilinmədiyindən uzun müddət araşdırma və mübahisə predmeti olmuşdur və mübahisələr bu gün də davam etməkdədir.

Əlbəttə, bu, sadəcə maraq və dəqiqlik naminə aparılan mübahisə deyil, şairin yaradıcılıq bioqrafiyasına birbaşa dəxli olan məsələdir. Bir çox tədqiqatçılar Sədinin əsərlərindəki, xüsusən "Gülüstan"dakı ayrı-ayrı faktlara və işarələrə əsaslanaraq, onun yüz ildən artıq ömür sürdüyünü bildirmiş, beləliklə, şairin 1189-cu, hətta 1184-cü ildə doğulduğu nəticəsinə gəlmişlər.

Sədinin yaşadığı əsr müsəlman Şərqi tarixində dönüş nöqtələri sayıla biləcək hadisələrlə zəngin idi. Şairin solmaz "Gülüstan"ını yaratdığı 1258-ci ildə Bağdad monqolların hücumuna tab gətirməyərək təslim olmuş, Abbasilər xilafəti süqut etmiş və beləliklə, Yaxın və Orta Şərqin tarixində bütöv bir mərhələyə yekun vurulmuşdu. Qanlı səlib yürüşlərinin tən yarısı (V-VIII yürüşlər) da Sədinin yaşadığı dövrə təsadüf etmişdi. Sədr hər iki fəlakətin təsirini öz şəxsi



həyatında hiss etmiş, bunların hər ikisi onun yaradıcılığında dərin izlər buraxmışdı. Bu hadisələr bütöv bir regionda qeyri-sabitlik, vahimə, ümidsizlik yaratmış, son nəticədə mənəvi-əxlaqi dəyərlərin tənəzzülünə gətirib çıxarmışdı.

Sədi nisbətən qayğısız uşaqlıq illərini Fars atabəylərinin – Salğurilərin (1148-1287) paytaxtı olan doğma Şirazda keçirmişdi. Onun babaları Şirazın nüfuzlu üləmaları olmuşdular. Atası Şeyx Abdullah da atabəy Səd ibn Zənginin[2] (1195-1226) mülazimlərindən idi, sarayda söz sahibi olan din alimlərindən sayılırdı.

Sədi Şirazda mükəmməl ibtidai təhsil almışdı. Bir çox orta əsr şairlərindən fərqli olaraq, Sədinin əsərlərində uşaqlığı ilə bağlı çox maraqlı parçalara rast gəlirik. Bu parçalardan aydın olur ki, o xüsusən atasını çox sevmiş, atası da onun təlim və tərbiyəsi üçün əlindən gələni əsirgəməmiş, daim onu diqqət və qayğı ilə əhatə etmişdir. Lakin zalım fələk tezliklə onu atasından ayırmış və o, ana babası Məsud ibn Müslih əl-Farsinin (məşhur filosof, riyaziyyatçı və astronom Qütbəddin Şirazinin atasının) himayəsinə keçmişdir. Babasının himayəsi altında biliklərini təkmilləşdirən Sədi daha sonra təhsilini davam etdirmək üçün dövrün dəbinə uyğun olaraq Bağdada – məşhur "Nizamiyyə" mədrəsəsinə yollanır. Lakin Sədinin Şirazı tərk etməsini yalnız dəblə əlaqələndirmək düzgün olmazdı. Belə ki, Sədinin Bağdada yollandığı il Məhəmməd Xarəzmşahın oğlu Sultan Qiyasəddin Pirşahın hücumu nəticəsində Şirazdakı sakitliyə son qoyulmuşdu. Atabəy Səd ibn Zəngi müqavimət göstərməyə qadir olmayıb İstəxr qalasına sığınmış, Sultan Qiyasəddin Şiraza daxil olmuş, daha sonra Farsın digər məntəqələrini də ələ keçirmişdi. Sonralar yalnız xəlifənin işə qarışması nəticəsində Qiyasəddin Farsdan çıxıb getmiş və Səd ibn Zəngi yenidən tam hakimiyyətini bərpa etmişdi.

Sədi məhz bu zaman, yəni 1224-cü ilin əvvəllərində öz sözləri ilə desək, "aləmin zənci saçları tək bir-birinə qarışdığını görüb" doğma şəhərindən ayrıldı və Kazerun-Bəsrə yolu ilə xilafətin paytaxtına – Bağdada üz tutdu. Amma gənc Sədi yəqin ağlına da gətirmirdi ki, bu ayrılıq 30 ildən də artıq çəkəcək və o, bir də 1256-cı ildə çox sevdiyi Şiraza qayıda biləcək. Qarşıda isə bir neçə illik təhsil və maraqlı əhvalatlarla, eyni zamanda əzab və təhlükələrlə dolu sonsuz, kəşməkəşli səyahətlər dayanırdı. Şairin həyatının bu dövrü elmi ədəbiyyatda "Sədinin birinci səyahəti" kimi təqdim olunur.

Bağdad mühiti və sonrakı səyahətlər Sədi şəxsiyyətinin formalaşmasında və dünyagörüşünün təşəkkülündə həlledici rol oynamışdır. O zaman Bağdad bütün xilafətin intellektual elitasının cəmləşdiyi yer, Sədinin təhsil aldığı "Nizamiyyə" isə o dövrdə təkcə Şərqin deyil, bəlkə də bütün dünyanın ən böyük universiteti idi. Məlumdur ki, dövlətin maliyyələşdirdiyi "Nizamiyyə" mədrəsələrinin əsası məşhur vəzir Xacə Nizamülmülk Tusi tərəfindən qoyulmuşdu və bunların ən böyüyü Sədinin bura gəlişindən təqribən 160 il əvvəl açılmış Bağdad "Nizamiyyə"si idi. Gecə-gündüz fəaliyyət göstərən mədrəsədə tələbələrə əsasən ərəb dilinin qrammatikası, Quran, fiqh, hədis, üsul elmləri, qismən də tibb, fəlsəfə və nücum öyrədilirdi. Bağdad "Nizamiyyə"si-

nin tarixində ən mühüm hadisələrdən biri 1091-ci ildə məşhur müsəlman mütəfəkkiri – İmam Əbu Hamid Məhəmməd əl-Qəzzalinin (1058-1111) Nizamülmülk tərəfindən müdərris təyin olunması idi. Aydındır ki, Nizamülmülk bu addımı ismaililərə qarşı ideoloji mübarizəni gücləndirmək məqsədilə atmışdı. Dörd il mədrəsədə çalışan Qəzzali tədris proqramında ciddi dəyişikliklər etmiş, burada şafei fiqhinin və əşəri kəlamının dayaqlarını yeni əsaslar üzərində möhkəmləndirmişdi. Qəzzalinin əsərləri, xüsusən "İhya ülum əd-din" burada dərs vəsaiti kimi tədris olunurdu. Beləliklə, Bağdad "Nizamiyyə"si Qəzzalinin ideya və düşüncələrinin güclü təsiri altında idi. Bu təsiri Sədinin yaradıcılığı və dünyagörüşündə də görürük. Təsadüfi deyil ki, o, "Gülüstan"da Qəzzalini böyük hörmətlə yad etmiş və "imami-mürşid" adlandırmış, ismaililərdən danışarkən isə "Allah onlara lənət eləsin!" ifadəsini işlətmişdir. Sədinin əsərlərində Qəzzalinin "İhya ülum əd-din", "Kimiyayi-səadət" və digər kitablarının izlərini müşahidə etmək mümkündür.

Sədi qısa müddət ərzində tələbələr arasında xüsusi istedadı ilə seçilir və müəllimin köməkçisi (müid) təyin olunur. O, eyni zamanda "Nizamiyyə"dən kənarda dərs deyən nüfuzlu alimlərin və sufi şeyxlərinin mühazirə və məclislərinə getməyə başlayır ki, bunlardan ən mühümü məşhur "Əvarif əl-məarif"in müəllifi, sührəvərdiyyə təriqətinin banisi Şeyx Şihabəddin Əbu Həfs Ömər Sührəvərdi (1145-1235) idi. Əbdürrəhman Cami hətta Sədinin onunla birlikdə Həcc ziyarətinə getdiyini də yazır. Hər halda Sədi bir şerində onu da "şeyxi-danayimürşid" adlandıraraq, ondan aldığı nəsihəti xatırlamışdır. Görünür, Sədi təsəvvüfə dair biliklərini ilk növbədə Sührəvərdidən əxz etmişdir. Müasir İran tədqiqatçısı Ziya Müvəhhid yazır ki, o dövrdə "mürşid" sözünü elə-belə işlətməzdilər və Sədinin məhz bu iki şəxsi (Qəzzalı və Sührəvərdini) bu adla yad etməsi onlar arasında xüsusi dünyagörüşü əlaqəsindən xəbər verir. Hər halda Sədinin təsəvvüfə baxışındakı bir çox məqamlar onun sührəvərdiyyə təriqətinə yaxınlığından söz açır. Qeyd edək ki, İmam Qəzzalinin qardaşı Əhməd Qəzzali də sührəvərdiyyə silsiləsinə daxil idi və bəzi tədqiqatçılar onun "Səvanih"i ilə "Gülüstan" arasında müəyyən əlaqə görürlər.

Sədi öz müəllimləri sırasında "mürəbbi" deyə daha bir ad çəkmişdir. Əbülfərəc İbn əl-Cövri. Gənc Sədiyə səma məclislərinə getməməyi məsləhət görən bu Cövzinin kimliyi daim sədişünaslar arasında mübahisə mövzusu olmuşdur və həmin mübahisə bu gün də davam edir.

Təhsilini başa vurduqdan sonra Sədi aramsız səyahətlərə başlamışdır. Bu səyahətlərin təəssüratları Sədinin əsərlərində, xüsusən "Gülüstan"da bol-bol əksini tapmışdır. Həmin təəssüratlar o qədər canlı və təsvirlər o qədər inandırıcıdır ki, bəzi tədqiqatçılar (məsələn, A.Masse) bu məlumatlar əsasında Sədi səyahətlərinin dəqiq marşrutunu müəyyənləşdirməyə çalışmışlar. Lakin "Gülüstan" nə avtobioqrafik əsərdir, nə də səyahətnamə və oradakı hər məlumatı tarixi fakt kimi almaq təhlükəlidir. Məsələn, əksər tədqiqatçıların rəyinə görə, Sədinin Kaşğarda, Bəlxdə və Hindistanda olması barədə əhvalatlar yalnız şair təxəyyülünün məhsuludur. Sədinin səyahətləri içərisində Həcc səfərləri xüsusi yer tutur. Dövlətşah Səmərqəndi Sədinin on dörd dəfə Həcc ziyarətində olduğunu, Ə.Cami isə onun dəfələrlə piyada Həccə getdiyini yazır. Bundan əlavə Sədi təqribən üç il Suriyada olmuş, həmçinin Livana, Misirə, Yəmənə səfərlər etmiş, quru və dəniz yolu ilə müsəlman aləminin ən müxtəlif guşələrinə getmiş, ən müxtəlif insanlarla görüşmüş, cürbəcür vəziyyətlərə düşmüşdür. "Gülüstan"da və "Bustan"da öz əksini tapan bu səyahətlərin bir sıra məqamları Sədi bioqrafiyasının real epizodları hesab olunur. Bu səfərlər gedişində şair dəfələrlə Bağdada, bəzən də Dəməşqə qayıdır. Sonuncu dəfə Dəməşqdən Həmədan-İsfahan yolu ilə hərəkət edərək otuz neçə illik ayrılıqdan sonra doğma şəhəri Şiraza gəlir və bununla da Sədinin "birinci səyahəti" başa çatır. Görünür ki, şairin bu qərarına monqolların Bağdada yaxınlaşması da təsirsiz olmamışdır. Şirazda isə vəziyyət başqa cür idi: hakimiyyətdə olan atabəy Əbubəkr ibn Səd (1226-1260) monqollara otuz min dinar ödəməklə öz vilayətinin toxunulmazlığına nail olmuşdu. Sədi də: "qayıdıb ölkəni asudə gördüm" – deməklə buna işarə etmişdir.

Beləliklə, Sədi Şiraza qayıtdı. Lakin bu, otuz il əvvəlki Sədi idimi?

Sədinin daxilindəki və baxışlarındakı təbəddülatı onun bir hərəkəti də nümayiş etdirdi: böyük ehtiramla qarşılansa da, Sədi saraya yox, xanəgaha üz tutdu və Şirazın kənarında – "Şeyxi-Kəbir" adı ilə məşhur olan Əbu Abdullah İbn Xəfifin (882-982) ribatında məskən saldı. Bu, həmən İbn Xəfif idi ki, Əbülhəsən Əşəridən (873-935) dərs almış, Mənsur Həllac (858-922) zindanda ikən onun görüşünə getmişdi. Özü də şafei məzhəbindən idi və sührəvərdiyyə silsiləsinə daxil edilirdi. Bu fakt bir daha bizi Sədinin Qəzzali və Sührəvərdi ilə əlaqəsi üzərində düşüncələrə qaytarır...

Amma Sədinin bu hərəkəti heç də onun sarayla münasibətlərdən qaçması, ictimai proses və problemlərdən uzaqlaşması demək deyildi (sadəcə, o, saray şairi olmağı arzulamırdı), əksinə, Sədinin Əbubəkrlə, ibn Sədlə xüsusən onun oğlu Səd ibn Əbubəkrlə çox yaxşı münasibətləri yaranmışdı və o, az sonra yazdığı iki şah əsərini də bu iki şəxsə ithaf etmişdi. Şairin özünün qeyd etdiyinə görə, o, hicrətdən 655 il sonra (1257-ci ildə) "Bustan"ı (Əbubəkr ibn Sədə ithaf olunub), 656 il sonra (1258-ci ildə) isə "Gülüstan"ı (Səd ibn Əbubəkrə ithaf olunub) qələmə almışdır. "Gülüstan"ın əvvəlində şair əsəri yazarkən, əlli yaşını arxada qoyduğunu açıq bəyan edir. Bu fakt bir daha Sədinin hicri VII əsrin əvvəllərindən tez doğulmadığını təsdiq edir. Əgər Sədinin, tutalım, 1184-cü ildə doğulduğunu qəbul etsək, onda onun əsas əsərlərini 70 yaşda yazdığını deməliyik ki, bu da heç cür inandırıcı deyil. 50 yaş isə həm yaş psixologiyası, həm də yaradıcılıq psixologiyası baxımından qanunauyğundur.

"Bustan" və "Gülüstan"ın fakturasını təşkil edən materialı Sədinin məhz gənclik illərində – uzun-uzadı səyahətlər və cürbəcür macəralar zamanı topladığını şərh etməyə ehtiyac yoxdur. Lakin yalnız indi – əlli yaşını haqladığı zaman o, həmin materialın "əsl yiyəsinə" çevrilmişdi – bunu həmin materialın saf-çürük və təhlil edilərək, konkret bir fərdin şəxsi təcrübəsi və müşahidələri şəklində deyil, əbədi həqiqətlər və hikmətlər toplusu kimi təqdim olunması

sübut edir. Bununla da Sədi öz əsərlərinin bütün dövrlər üçün müasirliyini və yaşarlılığını təmin etmişdir.

Sədi "Gülüstan"ın dibaçəsində adının dillərə düşməsindən, yazılarının qızıl vərəq tək əldən-ələ gəzməsindən söz açır. Əksər tədqiqatçılar da Sədinin artıq Şiraza gələrkən, tanınmış və böyük şöhrət qazanmış şair olduğunu vurğulayırlar. Bəs onda niyə XIII əsrin birinci yarısına aid heç bir antologiyada Sədi şeirlərindən nümunələrə rast gəlinmir? Nə üçün düz on il Sədinin vətənində yaşayan, 1233-cü ildə yazdığı məşhur "Əl-Möcəm" əsərini həmən Əbubəkr ibn Sədə ithaf edən Şəms Qeys Razi Sədidən bir beyt belə verməyib? Niyə sonralar Sədi ilə şəxsən tanış olub ona böyük ehtiram göstərən Əlaəddin Cüveyninin "Gülüstan"dan az sonra yazılmış "Tarixi-cahangüşa" əsərində, eləcə də Nəsirəddin Tusinin məşhur "Meyarül -əşar"ında Sədidən misallar gözə dəymir? Belə olan halda "Bustan" və "Gülüstan"ın yazılışına qədər Sədinin hansı şöhrətindən danışmaq olar?!

İran tədqiqatçısı Nasir Purpirar Sədi əsərlərini müxtəlif yönlərdən təhlil edərək, bildirir ki, şair hətta "Külliyyat"ında dörd bölmədə toplanmış bütün qəzəllərini də Şiraza qayıdışından, daha doğrusu, "Gülüstan"dan sonra yazmışdır. Bəs o vaxtadək Sədi heç nə yazmamışdırmı? Bu suala cavab vermək üçün tədqiqatçı "Gülüstan"dan (qəribə olsa da, indiyədək heç kəsin lazımi diqqət vermədiyi) aşağıdakı sözlərə dərindən baxmağı təklif edir: "Bir gecə ötən günləri xatırlayıb hədər getmiş ömrümə təəssüf edir, könül sarayımın daşını göz yaşlarımla deşirdim və öz halıma münasib olan bu beytləri deyirdim:

Ömürdən gedir bu keçən hər nəfəs,
Baxıram ətrafa qalmamış bir kəs.
Ey yatan əlli il qəflətdə bütün,
Qoyma ki, boş keçə bu qalan beş gün.
Utansın o kəs ki, ömrü puç etdi,
Dünyadan köçəndə xəcalət etdi...

Bu düşüncələrdən sonra belə qərara gəldim ki, xəlvət bir guşəyə çəkilib boş söhbətlərdən uzaqlaşım, dəftərimi mənasız sözlərdən təmizləyib bir daha gərəksiz şeylər deməyim".

Beləliklə, Sədi o vaxta qədər də yazmışdır – amma "Külliyyat"ında gördüyümüz "xəbisat" və "müzhikat" tipli yazılar! Yəni hazırcavablıqla deyilmiş, satirik, hətta pornoqrafik elementlərlə dolu lətifələr və şeirlər! Sədinin düşüncələrə daldığı o gecəni "öhdəlik və tövbə gecəsi" adlandıran N.Purpirar şairin məhz bu yoldan imtina etdiyini və yaradıcılığında yeni mərhələyə başladığını bildirir – əgər o vaxta qədər Sədi dəyərli bir əsər yazsaydı, onları "mənasız sözlər" adlandırıb dəftərindən silməyə qərar verməzdi. Sədinin həqiqi yaradıcılığı bundan sonra başlamış və yalnız bundan sonra o, şöhrətin zirvəsinə ucalmışdı – yaş amili isə yaranan əsərlərin kamilliyinə müsbət təsirini göstərmişdi.

Beləliklə, Şiraza qayıdandan sonra Sədidə baş verən təbəddülat əslində onun "ikinci doğuluşu" idi. (Bu cür mənəvi və ruhi dəyişmə Sədinin "mürşidi"



Qəzzalidə də, müasiri Cəlaləddin Rumidə (1207-1273) də baş vermişdi – oğlu Sultan Vələdin dediyi kimi, "fitvalar verən şeyx eşqdən şair olmuşdu"). Elə bu dövrdən etibarən də Sədinin bioqrafiyası, tarixi şəxsiyyətlər və hadisələrlə əlaqəsi barədə məlumatlar daha aydın və konkret xarakter alır.

1258-ci ildə Hülaku (1256-1265) Bağdadı tutur və xəlifə Mütəsimi qətlə yetirərək, Abbasilər xilafətinə son qoyur. Sədi bu hadisəyə mərsiyə səciyyəli iki qəsidə (biri ərəb, digəri fars dilində) həsr edir və xilafətin süqutuna göz yaşı axıtmağın vacibliyini bildirir, baxmayaraq ki, şairin məmduhu Əbubəkr ibn Səd Hülakunun müttəfiqi idi və hətta Bağdadı tutmaq üçün Hülakuya kömək də göndərmişdi. İki il sonra Hülaku Luristanı fəth edəndə Əbubəkr oğlu Səd ibn Əbubəkri qiymətli hədiyyələrlə onun hüzuruna göndərir, amma oğlu geri dönməmiş xəstələnib vəfat edir. Taleyin gərdişindən oğul da qayıdarkən yolda xəstələnir və atasından on iki gün sonra dünyasını dəyişir. Sədi hər iki ölümü təsirli mərsiyələrlə qarşılayır. 1260-cı ildə baş vermiş bu hadisələrdən sonra Şirazda siyasi sabitlik pozulmağa başlayır. Səd ibn Əbubəkrin arvadı Türkan xatun 12 yaşlı oğlu Məhəmmədi şah elan edir, əslində isə vilayəti özü idarə etməyə başlayır. 2 il 7 aydan sonra Məhəmməd qəsrin damından yıxılıb ölür. Türkan xatun öz kürəkəni Məhəmmədşah ibn Salğuru taxta çıxarır. Lakin onun eyş-işrətə qurşandığını, vilayətin işlərilə məşğul olmadığını görüb 8 aydan sonra onu həbs etdirib Hülakunun yanına göndərir və əvəzində onun qardaşı Səlcuqşah ibn Salğuru şah elan edir. Bu Səlcuqşah əvvəlcə Türkan xatuna evlənir, sonra onu öldürtdürür, bunun ardınca monqollara itaətsizlik göstərməyə başlayır. Cəmi 5 ay hakimiyyətdə qalan Səlcuqşah Hülakunun göndərdiyi qoşun tərəfindən məğlub edilib öldürülür. Bununla da, yəni 1263-cü ildə əslində Salğurilərin hakimiyyəti başa çatır, hərçənd Səd ibn Əbubəkrlə Türkan xatunun kiçik qızı Abiş (Əbiş) xatun düz 1287-ci ilə qədər formal şəkildə Fars hökmdarı olur. Abiş xatun Hülakunun on birinci oğlu Mənku Teymurun arvadı idi, odur ki, çox vaxt Şirazda olmurdu, vilayəti isə monqol hakimləri idarə edirdi. Abiş xatun sonralar monqol hökmdarı Ərğun şahın qəzəbinə düçar olub cəzalandırılır və 1287-ci ildə ağır xəstəliklərdən vəfat edib Təbrizdə dəfn olunur. Bundan sonra Fars vilayəti qəti şəkildə monqolların idarəçiliyinə keçir.

Sədi adı keçən Salğuri hökmdarlarının hamısına (Məhəmmədşah ibn Salğur istisna olmaqla), o cümlədən Türkan xatuna müxtəlif məzmunlu şeirlər həsr etmişdir.

Sədi Səlcuqşahın qiyamının baş verdiyi 1263-cü ildən sonra yenidən Şirazı tərk etməli olur və "Sahibdivan" ləqəbi ilə məşhur olan vəzir Şəmsəddin Cüveyni və onun qardaşı Əlaəddin Cüveyni ilə görüşmək üçün Bağdada yollanır. Bu, Sədinin "ikinci səyahəti" hesab olunur. Lakin Cüveyni qardaşları Təbrizdə olduğundan Sədi onlarla görüşə bilmir. Belə olduqda yenidən Həcc ziyarətinə gedir və ondan sonra Təbrizə yollanır. Təbrizdə o, Cüveyni qardaşları ilə yanaşı yenicə hakimiyyətə gəlmiş monqol hökmdarı Abaqa xan (1265-1282) ilə də görüşür. Mənbələrin verdiyi məlumatlar Sədi ilə Cüveyni qardaşları arasında xüsusi münasibətlər olduğundan xəbər verir. Onların Sədini Abaqa

xana təqdim edərkən, özlərinin "təriqət ataları" adlandırması da bunu göstərir. Bu qardaşların Sədiyə yardımları barədə mənbələrdə çeşidli bilgilər verilir. Sədi də onlara çoxlu şeirlər həsr etmişdir, o cümlədən Şəmsəddin Sahibdivana həsr olunmuş şeirlər şairin "Külliyyat"ında ayrıca "Sahibiyyə" bölümündə toplanmışdır.

Təbrizdə olarkən, Sədi o dövrün görkəmli şairlərindən Hümam Təbrizi (1238-1314) ilə də görüşmüşdür. Bundan sonra Sədi Ruma (Kiçik Asiyaya) səfər etmiş və mötəbər mənbələrdə, o cümlədən Əhməd Əflakinin "Mənaqibül-arifin" əsərində verilən məlumata görə, Konyaya gedərək Mövlana Cəlaləddin Rumi ilə görüşmüşdür (bəzi müəlliflər Sədinin əvvəlcə Ruma, sonra Təbrizə getdiyini yazırlar). Bunun ardınca Sədi Şiraza qayıtmış və ömrünün sonunadək orada yaşamışdır. Sədinin "ikinci səyahəti"nin nə qədər davam etdiyi dəqiq məlum deyil. Lakin bir neçə qəsidə həsr etdiyi Əmir Ənkiyanunun hakimliyi dövründə (1268-1271) Şirazda olduğunu əsas götürsək, bu səyahətin beş-altı ildən artıq çəkmədiyini söyləyə bilərik. Sədi ömrünün son illərini yaradıcılığa və "Külliyyatı"nın tərtibinə həsr etmişdir. O, hicri 691-ci (1291/92) ildə vəfat etmiş, Şiraz kənarındakı dağın ətəyində, sonralar "Sədiyyə" adı ilə məşhurlaşan yerdə dəfn olunmuşdur.

"Səfvətüs-səfa" müəllifinin yazdığına görə, Şeyx Səfiəddin Ərdəbili (1252-1334) gənc yaşlarında sührəvərdiyyə təriqətinin önəmli nümayəndələrindən olan Nəcibəddin Buzğuş (vəf. 1279) ilə görüşmək üçün Şiraza gəldiyi zaman Sədi ilə də görüşmüşdür.

Beləliklə, həyatının ikinci dövründə fövqəladə şöhrət və nüfuz qazanan Sədi zəmanəsinin həm siyasi və dövlət xadimləri ilə, həm də fikir və sənət adamları ilə sıx münasibətlərdə olmuşdur.

Sədi ömrünün sonlarında özü əsərlərinin tərtibi və qaydaya salınması ilə məşğul olmuşdur. Şairin "Külliyyat"ının müəllif nüsxəsindən köçürülmüş əlyazma günümüzə qədər gəlib çatmışdır. Bundan sonra naməlum bir tərtibçi də Sədi "Külliyyat"ının üzərində işləmişdir. Nəhayət, XIV əsrin əvvəllərində Əli ibn Əhməd ibn Əbubəkr Bisütun adlı bir şəxs Sədi irsini tam şəkildə toplayıb sistemləşdirmiş və "Külliyyat"ın tərtibi sahəsində işini iki mərhələdə həyata keçirmişdir: 1326-cı ildə tərtib olunmuş "Külliyyat"da qəzəllər mətlə beytlərinin birinci hərfinə əsasən əlifba sırası ilə düzülmüşdür. Lakin bunun o qədər də səmərəli olmadığını görən Bisütun 1334-cü ildə qəzəlləri beytlərin son hərfinə əsasən düzmüş və beləliklə, "Külliyyat"ın qəti variantını şeirsevərlərin ixtiyarına vermişdir. "Külliyyat" üzərindəki işini Bisütun yazdığı ön sözdə geniş şəkildə şərh etmişdir. "Külliyyat"a "Bustan" və "Gülüstan"dan əlavə, Sədinin risalələri, qəsidələri (ərəb və fars dillərində), qəzəlləri (dörd bölmədə), rübailəri, qitələri, məsnəviləri, tərcibəndləri, müləmmə və müsəlləsləri və s. daxildir. Bu əsərlər nəinki fars ədəbiyyatının, bütövlükdə dünya poeziyasının ölməz nümunələridir.

Sədi farsdilli ədəbiyyat tarixinə bir neçə istiqamətdə yeniliklər gətirmiş sənətkardır. Sədi həm didaktikada, həm lirikada, həm nəzmdə, həm də nəsrdə bədii kamilliyin zirvəsinə ucalmış qüdrətli söz ustasıdır.



Həmin məqamlardan ən başlıcası, heç şübhəsiz, Sədinin fars ədəbi dilinə göstərdiyi xidmət, orta əsr şairləri içərisində bu baxımdan Sədini yalnız Firdovsi ilə müqayisə etmək olar. Firdovsinin "əcəmi diriltmək" üçün vasitə kimi baxdığı fars dili müasir səviyyəsi və imkanları üçün məhz Sədiyə borcludur. Bu baxımdan Sədi irsinin tədqiqi və nəşri sahəsində misilsiz xidmətləri olan mərhum Məhəmmədəli Füruğinin sözləri diqqətəlayiqdir: "Bəzən söz xiridarları təəccüblənirlər ki, Sədi 700 il əvvəl bizim bugünkü dilimizdə danışmışdır. Amma əsil həqiqət belədir ki, Sədi 700 il əvvəl bizim bugünkü dilimizdə danışmayıb, əksinə, biz 700 ildən sonra Sədidən öyrəndiyimiz bir dildə danışırıq". Bu sözlər Sədinin fars dilinə göstərdiyi xidmətin dəqiq inikasıdır. Farsdilli ədəbiyyat tarixində Sədi qədər fars dilinin imkan və incəliklərini duyan, bu dildə yaza-yaza bu dili yaradan ikinci sənətkar tapmaq çətindir. Sədinin dil yaradıcılığının miqyasını dərk etmək üçün XII əsrdə və XIII əsrin birinci yarısında fars dilində yaradılmış ədəbi nümunələrə nəzər salmaq kifayətdir: saysız ərəbizmlər, mürəkkəb və dolaşıq ibarələr, dilin "nəfəsini kəsən" yapma təşbehlər və cansız metaforalar. Amma ömrünün böyük bir hissəsini ərəb ölkələrində keçirən, ərəb dili və ədəbiyyatını "əllaməlik edənlərin" hamısından yaxşı bilən Sədi bu yolla getmədi; mükəmməl təhsil almış ensiklopedik zəka sahibi olsa da, kitablardan oxuduqlarını, elmi erudisiyasını ədəbiyyata yük etmədi. Amma əks ifratçılığa da yuvarlanmadı – purizm tərəfdarı kimi çıxış edib ərəb dilindən gələn sözlərə müharibə elan etmədi. O, tarixi-ictimai şəraitin diktəsi ilə fars dilində vətəndaşlıq hüququ qazanmış ərəbizmləri qəbul edərək, ilk növbədə, öz ana dilinin normalarına, onun daxili enerjisinə, ritminə, ahənginə və ən başlıcası, canlı xalq dilinə istinad elədi, nəticədə fars ədəbi dilinin, onun ifadə imkanlarının, bədii üslubunun etalonu sayıla biləcək ölməz əsərlərini yaratdı. Təsadüfi deyil ki, sonralar nəinki Şərqdə, hətta Qərbdə də onun əsərləri, ilk növbədə "Gülüstan"ı fars dilini öyrənənlər üçün dərslik statusu qazandı. Bu baxımdan, yəni ədəbi dilin təşəkkülü və inkişafına göstərdiyi xidmət nöqteyi-nəzərindən Sədini Azərbaycan ədəbiyyatında Molla Pənah Vaqiflə, rus ədəbiyyatında Aleksandr Puşkinlə müqayisə etmək olar.

Sədinin bu uğuru təkcə onun dilə münasibəti ilə deyil, bütövlükdə ədəbi-estetik mövqeyi ilə şərtlənmişdi. Sədi özündən əvvəlki şerin, xüsusən saray ədəbiyyatının estetikasını inkar edirdi.

Sədi farsdilli şerin bir neçə janrında inqilab etmiş sənətkardır. Bunlardan birincisi, təbii ki, saray ədəbiyyatının sevimli janrı olan qəsidədir. Sədi təkcə qəsidənin poetikasını deyil, məzmunu və funksiyasını da dəyişmiş söz ustadıdır. Mədhiyyəçiliyi rədd edən, yaltaqlığı rüşvətin bir növü sayan, ona bu yolla getməyi məsləhət görənlərə "quzğun kimi leş yeməkdənsə, Simürğ kimi qənaət Qafında yaşamağı" üstün tutduğunu bildirən Sədi qəsidəni nəsihətçiliklə zənginləşdirir, onu həqiqəti demək vasitəsinə çevirir. Hökmdarlara və əmirlərə ictimai gerçəklik barədə həqiqətləri çatdırmaqda, özü də açıq-aşkar deməkdə Sədinin göstərdiyi cəsarət heyrətamizdir. Şair sanki bu heyrətin izhar olunacağını qabaqcadan görüb bu işdə başqa yol olmadığına işarə edir: "Həqiqət elədir ki, onu gərək aşkar deyəsən!"

Əgər biz "Sədi kimdir?" sualına qısa cavab tapmaq istəyiriksə, deməliyik: həqiqət və gözəllik şairi! Gözəllik isə şairin başqa bir janrda – qəzəldə göstərdiyi fəaliyyətin mahiyyətində dayanır. Əslində farsdilli qəzəlin tam formalaşması Sədinin adı ilə bağlıdır. Hafiz demişkən, "hamının nəzərində qəzəlin ustadı Sədidir". Hafiz özü Sədinin 30-dan artıq qəzəlinə nəzirə yazmış, bütövlükdə 200 dəfədən çox onun qəzəllərindən bəhrələnmişdir. Bu fakt Sədinin qəzəl janrının tarixindəki yerini yaxşı nümayiş etdirir.

Farsdilli qəzəlin struktur və formal parametrlər baxımından yetkin və bitkin bir janra çevrilməsi, onun mövzu və motivlərinin müəyyənləşməsi Sədi yaradıcılığında baş vermişdir. Lakin Sədinin qəzəldəki inqilabı formal göstəricilərlə məhdudlaşmır. O özünə qədərki qəzəlin təsvirçilik və mücərrədliyindən imtina edərək, onu təbii yaşantıların, real hissi təcrübənin ifadə vasitəsinə çevirmiş, eyni zamanda aşiqanə məzmunu irfani və didaktik məqamlara zənginləşdirmişdir.

Sədidə eşqin və gözəlliyin tərənnümü o qədər real və canlıdır ki, hətta ittihamlara tuş gəlir. Sədi heç bir riyakarlıq etmədən bəşər övladına xas olan təbii hiss və yaşantıları qələmə alır, başqalarının ürəyindən keçən ən məhrəm duyğulara güzgü tutur, insanların gizli saxladıqları, hətta özlərinə belə etiraf etməyə çəkindikləri istəkləri dilə gətirir.

Sədi öz cəsarətindən qalmır, "gözəllik bağında" da həqiqətpərəstlikdən əl çəkmir və bununla da "həqiqətlə gözəlliyin bir olduğunu" (Vazeh) nümayiş etdirir.

Sədi qəzəllərinin gözəl cəhətlərindən biri də beytlər arasında məntiqi əlaqənin mövcudluğu (Hafizdən fərqli olaraq), bir mövzunun inkişaf etdirilməsi, bir ovqatın izlənməsidir. Sədi qəzəlinin sehri onda bədii fiqurlardan çox ritmə, metaforiklikdən çox ahəngə üstünlük verilməsindədir. Sədini Hafizdən fərqləndirən başqa bir cəhət qəzəlin klassik mənasına sadiqliyi, onun ərəb köklərindən tam ayırmamasıdır.

Sədi yaradıcılığında didaktik başlanğıc dominantlıq təşkil edir – bu, şübhəsiz faktdır. Şairin qəsidə və qəzəlləri (bura qitələri də əlavə edək) didaktik elementlərlə zəngindir, "Bustan" və "Gülüstan" isə büsbütün didaktik əsərlərdir. Sədi öz nəsihətlərini məharətlə oxuculara aşılayır.

Didaktikadan didaktikaya da fərq var. Sədi bütün digər məsələlərdə olduğu kimi nəsihət və tərbiyəçilikdə də zorakılığın, başqasına nəyisə güclə qəbul etdirməyin tərəfdarı deyil.

Yox, Sədi nəsihətlərindən yorulmaq mümkünsüzdür! Şair onları quru və usandırıcı şəkildə deyil, bədii cəhətdən təsirli vasitələrlə, sərrast aforizmlər və gözəl hekayətlər libasında, məntiqi və inandırıcı bir tərzdə oxucusuna təqdim edir. Bu gün Sədinin onlarla, hətta yüzlərlə kəlamının fars dilinin daşıyıcıları arasında zərbiməsəl kimi işlənməsi "o öz nəsihətlərini necə çatdırmışdır?" sualına ən yaxşı cavabdır.

Sonra gələn şairlər "Gülüstan"a bənzər əsərlər yazmağa çox çalışmışlar. Cami "Baharistan", Məcdəddin – "Xaristan", Qaani – "Pərişan", Sünbüli



– "Gəndistan"[3] əsərlərini "Gülüstan"a nəzirə kimi yazmışlar. lakin bu əsərlərin heç biri Sədi "Gülüstan"ı səviyyəsinə yüksələ bilməmişdir.

Bəs Sədi nəsihətləri kimin üçün nəzərdə tutulurdu? Təkcə qəsidələr həsr etdiyi hökmdarlar və əyanlar üçünmü?! Yox, Sədinin didaktikası ən müxtəlif təbəqələrə ünvanlanıb, onun müraciət obyekti bütövlükdə "bəni-Adəm"dir, bəşər övladıdır. Elə bu da Sədi yaradıcılığının ən mühüm xassələrini müəyyənləşdirən, onun farsdilli ədəbiyyata gətirdiyi yenilikləri şərtləndirən çox vacib amildir.

Ədəbiyyatın maarifləndirici, islahedici funksiyasını bu səviyyədə götürməklə, Sədi sələflərinin bir çox ənənələrindən uzaqlaşmalı olur. Bəllidir ki, Sədiyə qədər də İranda didaktik mahiyyətli zəngin ədəbiyyat olmuşdur. Hələ Sasanilər dövründə inkişaf edən, sonralar ərəb dilinə tərcümələrdən keçib yenidən farsdilli ədəbiyyatın dövriyyəsinə qatılan bir qrup əsərlər əsasən yüksək təbəqələr üçün nəzərdə tutulurdu. İkinci bir qolu isə Sədinin dövründə çiçəklənmə mərhələsini yaşayan sufi eposu təşkil edirdi. Amma Sədi nə şah övladlarının və əyan balalarının, nə də təsəvvüf əhlinin və müridlərin tərbiyəsi ilə məhdudlaşmaq fikrində deyildi – o, tərbiyələnmə işinin cəmiyyət və bəşəriyyət miqyasında aparılması məqsədini qarşıya qoyurdu və elə bu məqsəd də onun əsərlərində bütün parametrlərlə öz əksini tapırdı.

Bu baxımdan Sədinin, "Bustan"da ehtiramla xatırladığı Firdovsinin yolu ilə getməməsi də (müasirlərinin qınaqlarına rəğmən) təbiidir. Əvvələ, Sədi bədii yaradıcılıqda Firdovsi kimi şüubi şüurundan deyil, ümumbəşəri dəyərlərdən və ideallardan çıxış edirdi. Onu yalnız İranın xilası deyil, dünyanın nicatı maraqlandırır və düşündürürdü. Firdovsidən fərqli olaraq, o nəinki müsəlman ərəblərə, heç "kafir" atəşpərəstlərə də həqarət gözü ilə baxmırdı ("Bustan"dakı İbrahim peyğəmbərlə atəşpərəstin hekayətini yada salaq!). Bu, heç də Sədidə vətənpərvərliyin olmaması kimi başa düşülməməlidir. Sadəcə o, öz təliminə uyğun olaraq, vətənin xoşbəxtliyini bəşəriyyətin səadətinin tərkib hissəsi kimi götürürdü; vətənpərvərliyini isə o, ana dilinə xidmətdə göstərirdi. İkincisi, Sədinin dövründə qəhrəmanlıq eposu yazmaq gülünc və mənasız bir iş olardı – həmin dövrdə sel kimi axıb gələn monqol qoşunlarına ismaili dəstələrindən başqa müqavimət göstərən olmamışdı. Bu məğlubiyyət ovqatında, vahimə və dəhşət atmosferində pafoslu qəhrəmanlıq əsəri yaratmağın nə yeri vardı?! Əksinə, bu məğlubiyyətin səbəblərini araşdırmaq lazım idi – Sədi əsərlərində pərakəndə şəkildə olsa da, bu səbəblər göstərilir. Onlardan ən başlıcası mənəvi və əxlaqi tənəzzül idi ki, məğlubiyyət onu daha da dərinləşdirmişdi. Belə bir şəraitdə məhz didaktik ədəbiyyata ehtiyac vardı. Nəhayət, üçüncüsü, Sədini yalnız şahların həyatı və davranışı maraqlandırmırdı. O, ən ədalətli şahın belə cəmiyyəti xoşbəxtliyə çıxaracaq gücdə olmasına inanmırdı – bunun üçün bütün cəmiyyət islah olunmalı, təkmilləşməlidir. Odur ki, hakimiyyət və cəmiyyət münasibətlərinin dialektikasını yaxşı duyan Sədi üzünü təkcə şahlara yox, həm də adi insanlara tuturdu. Bu baxımdan "Bustan"ın "Şahnamə"yə antiteza kimi yazılması ideyası kifayət qədər ağlabatan və əsaslıdır. Bəllidir ki, hər iki əsər eyni bəhrdə – mütəqaribdə yazılmışdır. Üstəlik,

"Bustan"ın ilkin adının "Sədinamə" olması da düşündürücüdür – yəni bu, "şahların kitabı" deyil, Sədinin, əslində isə bütün insanların kitabıdır. Sədi insanın başqaları ilə döyüşünü deyil, özü ilə döyüşünü mühüm sayır və bunu qələmə alır.

"Bustan" və "Gülüstan"a verilən qiymətlər içərisində mərhum Ə.Zərrinkubun fikirləri daha maraqlıdır. Alimin yazdığına görə, "Bustan"da Sədi "dünya necə olmalıdır?" sualına, "Gülüstan"da isə "dünya necədir?" sualına cavab vermişdır. O, "Gülüstan"ı "cənnət bağçası" adlandıran Caminin rəyini şairanə mübaliğə sayaraq, bildirir ki, əslində burada "dünya cəhənnəmi" öz əksini tapıb. Özü də bu inikas o qədər canlı və diridir ki! "Gülüstan"dakı ziddiyyətlərin əslində dünyanın təzadları olduğunu bildirən Ə.Zərrinkub bundan ötrü Sədini tənqid edənlərin haqlı olmadığını vurğulayır. Amma burada başqa bir məna da var: bir-birinə zidd mövqelərdən çıxış edən Sədi göstərmək istəyir ki, bu dünyada hərənin öz həqiqəti var və heç kəs həqiqətin son və mütləq məqamına iddia etməməlidir (mütləq həqiqət yalnız Allahdır və Allahdadır). Bəs onda bu saysız həqiqətlər arasındakı ziddiyyət və münaqişələr necə həll edilməlidir? Sədi bizə güzəşt və kompromis yolunu göstərir. Cəmiyyət qarşılıqlı əlaqə və asılılıqda olan vahid orqanizmdir. Həqiqi xoşbəxtliyə çatmaq üçün onun sülh, anlaşma və dözümlülük şəraitində yaşamaqdan özgə çarəsi yoxdur. Bu tolerantlığın bərqərar olması üçün insanlar "Bustan"da təbliğ olunan keyfiyyətlərə yiyələnməlidirlər. Hansılardır bu keyfiyyətlər? Ədalət, yaxşılıq, fədakarlıq, təvazökarlıq, qənaətcilik, şükranlıq... və sevgi! Bir sözlə, "adəmiyyət"! "Bustan" qəhrəmanları bu keyfiyyətləri ilə Avropanın ən böyük humanist və altruistlərinə örnək ola bilərlər. Təsadüfi deyil ki, Avropada maarifçiliyin yayıldığı dövrdə Sədi böyük populyarlıq qazanmışdı. Ernest Renan isə heyrətlə bildirirdi ki, Sədi sanki bir Avropa yazıçısıdır.

Sədinin təsəvvüfə münasibəti də qeyd olunan təməl prinsiplə şərtlənmişdir. Sədi sələfi və müasiri olan təsəvvüf şairləri kimi metafizik mənaların dərinliklərində ilişib qalmır, sufizmin konseptual müddəalarını sadə və anlaşıqlı şəkildə bəyan etməklə, onu ən geniş kütlələrə dadızdırmağa çalışır. "Adəmiyyət" fəlsəfəsinə əsaslanan cəmiyyətdə Sədi dinin və mistikanın yerini mənəvi başlanğıcın gücləndirilməsi və qorunmasında görür. Sədi deyir ki, mənəvi dəyərlərin itirildiyi, əxlaqi normaların gözlənilmədiyi, Allah xofunun unudulduğu cəmiyyətdə nə yüksək maddi rifah, nə də elmi və texnoloji tərəqqi insanları həqiqi xoşbəxtliyə qovuşdura bilməz. Məgər yola saldığımız XX əsrin tarixi Sədinin haqlı olduğunu sübut etmirmi?!

***Məsiağa Məhəmmədi***



# Bustan

## BU KİTABIN YAZILMASININ SƏBƏBİ

Dolaşdım dünyanı, səyahət etdim,
Hər cürə insanla ünsiyyət etdim.
Ərməğan axtarıb tapdım hər yerdən.
Sünbüllər topladım mən xirmənlərdən...
Görmədim şirazlı kimi xoşsifət,
Tanrı bu torpağa yağdırsın rəhmət!
Mən Şamda, ya Rumda gəzdiyim zaman
Şirazlı mərdləri yad etdim hər an.
İstədim gəzdiyim bağdan, çəməndən
Dostlar məclisinə boş dönməyim mən.
Dedim ki, Misirdən qayıtsa hər kəs
Ordan qənd gətirər, əliboş dönməz.
Qəndim olmasa da, dərin sözüm var.
Misrin qəndindən də şirin sözüm var.
Bu o qənd deyil ki, olsun ağızda,
Tapar ağıllılar bunu kağızda...
Sözdən on qapılı bir saray qurdum,
Bu qəsrə hikmətdən bəzəklər vurdum.
Xalqı qorumaqdan danışır biri,
Öyrədir insana elmi, tədbiri.
İkinci söhbəti açır kərəmdən,
Deyir şükr eyləyən uzaqdır qəmdən.
Üçüncü danışır qəlb riqqətindən,
Azad könüllərin məhəbbətindən.
Verir təvazöə dördüncü qiymət.
Açır razılıqdan beşinci söhbət.
Altıncı deyir ki, qənaət öyrən!
Yeddinci söyləyir: tərbiyət öyrən.
Səkkizinci fəsil göstərir ki, sən
Sağlam olmağınçın şükr etməlisən.
Doqquz, təbliğ edir tövbə və savab,
Onuncu fəsillə qurtarır kitab.



23444ꝫ
...ndov adına
...rbaycan MKK
kitabxanası

Kitabı yazmışam xoş bir əyyamda,
İki çox mübarək gözəl bayramda.
Altı yüz əlli beş tarixində mən
Dəyərli gövhərlər saçdım təbimdən.
Ətəyim doludur dürr ilə gövhər,
Yenə xəcalətdən çəkirəm kədər
Ki, dürr dənizində sədəfim də var.
Kiçik bağçada da yetişər çinar...
Bunu yaxşı düşün, ey arif insan!
Hünər sahibləri aramaz nöqsan.
İstər ipək tiksin, istər zərxara,
Tikən sətin astar qoyar paltara.
Paltarın astarı deyilsə ipək,
Acıqlanmayasan buna sən gərək.
Mən öz sənətimdən deyiləm məğrur,
Dərvişəm, neyləyim, hünərim budur.
Nə qədər olsa da pislər günahkar,
Tanrı yaxşılara onu bağışlar.
Mənim sözlərimdə nöqsan görəndə,
Kərəm et, oxucum, bağışla sən də.
Xoşun gəlsə də min beytdən biri,
Onun xatirinə pisləmə şeri.
Müşkün bir dəyəri olarmı Çində?
Şerin də qiyməti yox fars içində.
Şeirlə doludur çünki bu ellər...
Sədinin hünəri o şəxsə bənzər
Ki, bir gül gətirə güllü bostana,
İstiot apara ya Hindistana.
Xurma çox şirin də olsa, yenə sən
Onun da içində çərdək görərsən.





# ƏDALƏT VƏ İNSAF HAQQINDA

## ƏNUŞİRƏVANIN VƏSİYYƏTİ

Ölüm yatağında olduğu zaman
Hörmüzə demişdir Ənuşirəvan:
Oxşa könülləri, xalqı sal yada,
Təkcə öz halına qalma dünyada.
Öz rahatlığını düşünsən, heç kəs
Ölkəndə gün görüb yaşaya bilməz.
Ağıllı istəməz ki, yatsın, çoban,
Olsun canavara sürüsü qurban.
Düşün yoxsulların halını hər an.
Şahı rəiyyətdir edən hökmran.
Soltan bir ağacdır, rəiyyət rişə.
Ağac kökü üstə durur həmişə.
Xalqın ürəyini incitsən əgər,
Sənin öz kökünə baltalar dəyər.
Düz yol istəyirsən – ədalətli ol.
Xalqına, elinə sədaqətli ol.
İnsanı yaşadan budur doğrusu:
Yaxşılıq ümidi, pislik qorxusu.
Bu iki nöqtəni bilsə hökmran,
Ölkəsində hamı yaşayar asan.
Yoxsulu düşünsə ölkənin şahı,
Tanrı yer üzündə olar pənahı.
İstəyir ki, mülkü qalmasın viran,
Şah gərək zalıma verməsin aman.
Xalqı düşünməsə əgər hökmdar,
Sanma ki, mülkündə xoşbəxtlik olar.
Rəiyyət incisə hökmranından,
Məmləkətdə bolluq olmaz heç zaman.
Gərək rəiyyəti qorxmasın şahdan,
Şah gərək çəkinsin böyük Allahdan.

Xalqının işini eyləsən bərbad,
Ölkəni yuxunda görərsən abad.
Zülmdür ölkəni dağıdan, yıxan:
Böyüklər bu sözü unutmaz bir an:
Gərək rəiyyəti incitməsin şah,
Çünki rəiyyətdir ölkəyə pənah.
Kəndlinin, muzdurun işi, zəhməti
Verib hökmdara bunca dövləti.
Sənə ömür boyu yaxşılıq edən
İnsafmı yamanlıq görsün əlindən?!

## PƏLƏNGİ RAM ETMİŞ İNSAN

Həqiqət əhlindən bir rəvayət var,
Böyüklərdən belə bir hekayət var:
Qamçı əvəzinə götürüb ilan,
Minmişdi pələngə bir mahir insan.
Heyrətlə soruşdu ondan bir nəfər:
Nədəndir səndə bu qoçaqlıq, hünər?
Yırtıcı heyvanı aram etmisən,
Xoşbəxtsən, pələngi sən ram etmisən.
Cavabında kişi dedi: bu pələng,
Qüvvətli kərgədan, fil, ilan, nəhəng
Əgər olub mənim əlimdə əsir,
Sən heyrət eyləmə, haqqın işidir.
Boyun qaçırmasan sən haqdan əgər,
Çəkinməz hökmündən sənin vəhşilər.
Bir hakim tanrının olsa hökmündə.
Qoruyar haqq onu ən ağır gündə.
Haqq sevərsə əgər saxlayar səni,
Üstünə gəlməyə qoymaz düşməni.
Birini pələngə minən görəndə,
Bir dəfə bərk dəhşət oyandı məndə.
Bir anda o qədər artdı həycanım,
Sandım ki, çıxacaq bədəndən canım.



Kişi gülümsəyib göstərdi şəfqət,
Dedi: Sədi, buna eyləmə heyrət!
Həqiqət yolundan dönməsə hər kəs
Çatar arzusuna, diləyi sönməz.
Sədinin dediyi bu doğru sözlər
Sənə fayda verər, dinləsən əgər.

## XOSROV VƏ ŞİRUYƏ

Yumanda əbədi Xosrov gözünü
Şiruyəyə dedi ürək sözünü:
Çalış ürəyində olsun bir niyyət,
Ölkəndə xoş günlər görsün rəiyyət.
Oğul, ədalətdən üz döndərməsən,
Xalq düşüb əzaba çəkinməz səndən.
Rəiyyət zülmdən qaçır hər zaman,
Çirkin ad qoymasın gərək hökmran.
Xalqı incidəndə azğın hökmdar,
Kəsir öz kökünü demək o qəddar.
Qılınclar, nizələr yıxmayan şahı,
Yıxar bir qarının yanıqlı ahı.
Bir çıraq yandırıb məzlum dul qadın,
Odundan şəhəri bürüyüb yanğın...
Soruşsan dünyada kimdir bəxtiyar,
Deyərəm: insaflı, adil hökmdar.
Çatsa adil şaha ölüm növbəti,
Yağar məzarına xalqın rəhməti.
Yaxşı da, yaman da keçər dünyada,
Çalış yaxşılıqla düşəsən yada.
Əgər hakimlərin olsa haqsevən,
Ölkəni daima abad görərsən.
Sənə də düşməndir eli incidən,
Xalqa zərər verib, xeyrini güdən.
O hakimlərdə ki yoxdur ədalət,
Xətadır onlarda olsa rəyasət.

Xəzinə toplamaq bəhanəsilə
Onlar min əziyyət çəkdirir elə.
Olmasa padişah haqq tərəfdarı,
Bir gün ellər yıxar o hökmdarı.
Qalmaz həmişəlik zalım hökumət,
Qalar ancaq ona əbədi lənət.
Yaxşılar yamanlıq görərmi eldən?
Yamanlıq eyləsən, öz düşməninsən.
Düşmənə mükafat verməyib, gərək
Kökünü kəsəsən onun ağac tək.
Quduz canavara rəhmin gəlməsin,
Vaxtında məhv elə, o yekəlməsin.
Xalqın sürüsünə daraşmadan qurd,
Kəs onun başını, dağılmasın yurd.
Quldurlar soyanda bir sövdəgəri,
Nə gözəl deyibdir o, bu sözləri:
Mərdlik gözlənilməz quldur, qaçaqdan,
Kişilik uzaqdır namərd alçaqdan.
Soysa tacirləri əgər hökmdar,
Ölkəsi, ordusu xeyirsiz qalar.
Ağıllı yamanlıq görsə bir yerdə,
Getməz o ölkəyə ömründə bir də.
Olsa müsafirə əgər hörmətin,
Gəzər yad ellərdə sözün-söhbətin.
Çalış acizləri etmə müztərib,
Səndən incimosin əsla bir qərib.
Olsan səyyahlara əgər aşina,
Səyyah yaxşı adı yayar hər yana.
Yadlara hörmət et, ayıq ol ancaq,
Səni aldatmasın hər yetən alçaq.
Üzdə dost göstərir özünü düşmən,
Gərək yabançıdan sən çəkinəsən.
Bilsən əcdadının qədrini uca,
Adın ləkələnməz dünya durduqca.
Nə qədər ki, vardır əlində qüdrət,
Kərəm sahibi ol, göstər mərhəmət.



## ŞAPURUN XOSROVA MƏKTUBU

İşdən kənar etdi Şapuru Xosrov,
Kədərdən sarsıldı, xəstələndi o.
Yazdı hökmüdara: Ey böyük soltan,
Mən ölüb getsəm də fani dünyadan,
Sənin fəzilətin qalacaq ancaq,
Olmaz ədalətdən boyun qaçırmaq.
Gəncliyim yolunda keçib, hökmran,
Qovma qocalıqda məni qapından.
Qəribdən çirkin iş baş versə əgər,
İncitmə onu, yad ölkəyə göndər.
Bəsləmə qəlbində ona ədavət,
Olur öz düşməni ondakı xislət.
Əgər fars elində gəlib dünyaya,
Göndərmə Səqlaba, Ruma, Sanaya.
Pisləri göndərsən başqa bir yurda,
Verər başqasına əziyyət orda.
Sənin də ölkənə gətirər ləkə,
Deyərlər məhv olsun elə bir ölkə
Ki, belə insanlar yetişdiribdir.
Kim buna tərbiyə, ədəb veribdir.
Kimin uzun illər xidmətləri var,
Qocaldı, pis baxma ona, hökmüdar.
Qocalıqdan düşüb o ağır halə,
Əlindən nə gələr, edəcək nalə.
Saxlaya bilməsə biri əmanət,
Yanında gözətçi qoy onun, əlbət.
Əgər gözətçi də etsə xəyanət,
Göstərmə onlara artıq dəyanət.
Əmanət saxlayan qorxmayıb şahdan,
Çəkinsin o gərək böyük Allahdan.
Onu bil ki, görsən əgər yüz adam,
Axtarsan, bircəsi olar düz adam.
Qoysan iki dostu bir yerdə işə,
Səbəbdir səninçin böyük təşvişə.
Verib iki yoldaş möhkəm əl-ələ,

Oğurluq edərlər səndən kələklə.
O zaman ki qorxdu oğru oğrudan,
Qorxusuz, xətərsiz gedər karivan.
Birini eylədin xidmətdən kənar,
Əfv eylə sonralar onu, hökmüdar,
Sən bir ümüdsizə eyləsən imdad,
Yaxşıdır min qulu etməkdən azad.
Əməl kəndirini yazığın qırma,
Yaranın üstündən bir yara vurma.
Baxır ata necə doğma oğluna,
Elə baxmalıdır şah öz quluna.
Ata övladını döysə də hərdən,
Silir göz yaşını, salmır nəzərdən.
Yumşaqlıq göstərsən qudurar yağı,
Çox təzyiq üsyankar edər qorxağı.
Yumşaqlıqla sərtlik olur bərabər,
Təbibdə həm dərman olur, həm neştər.
Cavanmərdlik eylə, sən haqq ilə ol;
Haqq sənin olsa da sən xalq ilə ol.
Hamının həyatı sovrular bada,
Bir yaxşı ad qalar ancaq dünyada.
Tiksən karvansara, körpü, dəyirman,
Adın yaşayacaq sənin hər zaman.
Qoymasa özündən hər kəs yadigar,
O bir ağacdır ki, gətirməyib bar.
Səni unutmasın istəsən cahan,
Etmə böyüklərin adını pünhan.
Xeyirli iş görüb getməsə hər kəs,
Adı yaxşılıqla onun çəkilməz.
Səndən əvvəllərdə çox şahlar varmış,
Hamı böyük-böyük hökmüdarlarmış.
Naz-nemət içində ömür sürdülər,
Öldülər, qaranlıq qəbrə girdilər.
Birindən cahanda yaxşı ad qaldı,
Birinin tarixdə adı bəd qaldı.
Bədxahın sözüylə qalxma yerindən,
Hər işi əvvəlcə öyrən dərindən.



Səndən üzr istəsə əgər təqsirkar,
Bağışla suçunu, olma çox qəddar.
Biri eyləmişsə kiçik bir günah,
Öldürmə istəsə o səndən pənah.
İlk günah edənə eylə nəsihət.
İkincidə həbs et, ver çox əziyyət.
Gördün ki, nəsihət, həbs etmir əsər,
Sındır ağac kimi onu yerə sər.
Yaxşı düşün, xəta çıxmasın səndən,
Calanmaz ayırsan başı bədəndən.
Sınar asanlıqla ləli-bədəxşan,
Sınığı yamanmaz lakin heç zaman.

## AĞILLI VƏZİR

Dənizlər, səhralar keçib bir nəfər
Bir dəfə Ümmana etmişdi səfər.
O görmüşdü ərəb, türk, tacik və rum
Bir çox fənlər ona olmuşdu məlum.
Bilikli insandı, dünya görmüşdü.
Fikrini biliyə, elmə vermişdi.
Olduqca yoxsuldu bu kişi ancaq.
Yanmış çuxasında vardı yüz yamaq.
Bədəni qocanın ağac kimiydi,
Lakin yarpaqlara möhtac kimiydi.
O gəlib sahildə bir yerə çatdı,
Qəlb açan, çox abad şəhərə çatdı.
Burda səxavətli bir sultan vardı,
Çox adil, insaflı bir hökmdardı.
Acizə göstərir kərəm, mərhəmət,
Yoxsul insanlara edirdi hörmət.
Bilikli kişidən şah tutub xəbər,
Əmr etdi aparıb onu nökərlər
Təmiz yuyundurub, geyindirsinlər.
Nəyə ehtiyacı varsa versinlər.
Geyinib-kecindi, kefi kökəldi,

Kişi hökmdarın yanına gəldi.
Baş əyib soltana, dua eylədi...
Adil hökmdarsa ona söylədi:
Aç, gizlin qalmasın, bir de görüm sən
Bizim bu ölkəyə hardan gəlmisən?
Mənim paytaxtıma gələn zamandan
Burda nə görmüsən yaxşı-yamandan.
Alim cavab verdi: soltan var olsun,
Dünyalar durduqca bəxtiyar olsun.
Gəzdim çox evləri bu şəhərdə mən,
Qəm-kədər görmədim ürəklərdə mən.
Şəhərdə heç yeri xarab görmədim,
Bir sərxoş görmədim, şərab görmədim.
Vardır hökmdarda böyük mərhəmət,
Xalq səndən razıdır, çəkmir əziyyət.
Alimin dürr kimi saçdığı sözlər,
Şahın nəzərində göründü gövhər.
Odur ki, alimə çox hörmət etdi.
Səxavət göstərib, mərhəmət etdi.
Verdi xəzinədən ona gövhər, zər.
Tutdu hər ölkədən, hər yerdən xəbər.
Alim söhbət açdı gəzdiyi yerdən,
Qürbət şəhərlərdən, qərib ellərdən.
Şah düşündü: bunu eyləsəm vəzir,
Ölkəyə göstərər çox gözəl təsir.
Sonra fikirləşdi: yox tezdir hələ,
Soltanlar hər işi görər təmkinlə.
Qoy bunu yaxından öyrənim, mənə
Böyüklər gülməsin, vurmasın tənə.
Görüm dərrakəsi, hünəri varmı?
Səltənət işindən xəbəri varmı?
Sınaqsız iş görsə bir insan əgər,
Çəkər nəticədə, şübhəsiz, zərər.
Bir hökmü fikirlə yazmasa qazı,
Şikayətçi ondan qalarmı razı?
Yusifin ürəyi olsa da təmiz,
Ancaq qırx yaşında olmuşdu əziz.



İnsanı sınaqdan çıxarır əyyam,
Gərək təcrübədən çıxsın hər adam.
Alimi sınadı bir müddət soltan,
Gördü qəlbi safdır, özü mehriban.
Əxlaqı təmizdir, mərifətlidir,
Xisləti gözəldir, mərhəmətlidir,
Hər işdə çox düzgün, doğru rəyi var.
Baş vəzir eylədi onu hökmdar.
Az zamanda oldu ölkənin gözü,
Təsir göstərirdi hikmətli sözü.
Elə qüdrətliydi ondakı qələm,
Qoymurdu bir qəlbi incitsin ələm.
Bədxahlar ağzını aça bilmədi,
Araya bir fitnə saça bilmədi.
Arpa qədər zərər görməsə paxıl,
Yenə çalışar ki, bitməsin taxıl,
Çünki ürəyini paxıllıq əzir...
Vardı bu sarayda köhnə bir vəzir,
O, təzə vəzirə kin bəsləyirdi;
Qəlbini həsəddən qurdlar yeyirdi.
Lakin mübarizə deyildi asan,
O, təzə vəzirdə tapmırdı nöqsan.
Hökmdarın iki kənizi vardı.
Gözəllikdə günə, aya oxşardı.
Birisi huriydi, birisi pəri.
Onlar sayılırdı saray dilbəri.
Vardı bir-birinə elə oxşarı,
Sanki bir almadır bölünüb yarı.
Hikmətli vəzirin şirin sözləri
Məftun eyləmişdi iki dilbəri.
Ağıllı vəziri görüb mehriban,
Ona dost olmuşdu bu iki canan.
Vəzir də başqa bir hissi-hörmətlə,
Saf qəlblə, bəşəri bir məhəbbətlə
Bu iki gözəli sevirdi, ancaq
Yoxdu ehtirasa qəlbində maraq.
Köhnə vəzir bunu duydu, gizlicə

Gedib şaha xəbər verdi bir gecə.
Xəbisliklə dedi: bilmirəm nədən
Bu gəlmə adamı vəzir etmisən?
Çox şöhrətpərəstdir, xəyanətkardır,
Saray qızlarıyla arası vardır.
Kimin ki, peşəsi olub səyahət,
Nə ölkə düşünər, nə də ki, dövlət.
Belə bir insanda olmaz sərəncam,
Təqti səltənəti eyləyər bədnam.
Şahın nemətini unutmaram mən,
Odur gördüyümdən, eşitdiyimdən
Gəlib səni gərək edəm xəbərdar.
Həm də, şah sağ olsun, əldə sübut var!
Açıb bir nökərim onun sirrini,
Ağuşunda görüb qızın birini.
Mən işi yoxladım, bildim, indi sən,
Hökmdar sağ olsun, özün bilərsən,
Kələklə bu sözü elə anlatdı,
Yaxşını pislədi, şahı aldatdı.
Bədxahlar bir işi elə qandırar,
Şahların qəlbini alovlandırar.
Hiylə işlədərsə əgər bir azğın,
Kiçik bir atəşdən doğurar yanğın.
Soltan elə qızdı bu pis xəbərdən,
Qəzəbdən az qaldı atılsın yerdən.
Yazığın qanını tökmək istədi...
Sonra o, qəlbində düşünüb dedi:
Öz yetirməsinə mərd olan qıymaz.
Soyuqqanlı olmaq yaxşıdır bir az.
Əlinlə ucalıb əgər bir insan,
Onu məhv etməyin sayılar nöqsan.
Görməsəydim əgər mərifət, hünər,
Ona tapşırmazdım mən böyük işlər.
Bəlkə bu sözləri uydurur düşmən,
Hər işin məğzini bilməliyəm mən.
Sirri ürəyində saxladı pünhan,
Saldı bu hikməti yadına soltan:



Könül bir zindandır saxlar gizlin raz,
Lakin sirr açılsa zəncir saxlamaz.
Şah təzə vəziri sınadı bir də,
Şübhəli hal gördü təzə vəzirdə.
Bir gün ay çöhrəli kənizin biri
İncə gülüşlərlə süzdü vəziri.
Sevənlər eşqini anlatmaz sözlə,
Ürək sözlərini deyər qaş-gözlə.
İstəsən ki, qədrin daim ucalsın,
Qoyma ayüzlülər qəlbini çalsın.
Sevgidən həzər et, ziyan görərsən!
Eşqin axırını yaman görərsən!
Necə sakit sular axmaqdan doymaz,
Göz də gözəl görsə baxmaqdan doymaz.
Daha yer qalmadı şübhəyə bir an.
Qəzəb atəşilə odlandı soltan,
Yenə də bu işdə gözləyib tədbir,
Coşmadı, ahəstə söylədi: vəzir!
Mən səni ağıllı bir adam sandım,
Ölkəni tapşırdım sənə, inandım.
Sanırdım ki, vardır dəyanət səndə,
İndi mən görürəm xəyanət səndə.
Sənə layiq deyil belə ucalmaq,
Neyləyim ki, xəta məndədir ancaq.
Olmasaydım əgər sənə arxayın,
Mənim ailəmə çıxmazdın xain.
Vəzir şaha dedi: böyük hökmdar!
Mənim öz qəlbimə etibarım var.
Fitnəkar adamlar qursa min fitnə,
Qorxum yoxdur, əsər eyləməz mənə.
Madam ki, özümə şübhəm yoxdur, mən
Çəkinib qorxmaram heç bir kimsədən.
Ona məsələni anlatdı soltan.
Söylədi: bəlkə də uydurur düşman.
Köhnə vəzir belə deyir barəndə,
İndi öz fikrini aç, söylə sən də.
Vəzir barmağını dişləyib güldü.

Yağının işini anlayıb bildi.
Dedi: ondan mənə gəlir hər bəla,
Nə desə təəccüb etmərəm əsla.
Mən onun yerinə olmuşam vəzir,
Odur ki, paxıllıq qəlbini əzir.
Artıb yüksəlincə mövqeyim mənim
O zamandan oldu qatı düşmənim.
Mərhəmət edəndən hökmdar mənə,
Bir yağı kəsildi o qəddar mənə.
Görsə mənə hörmət bəsləyir soltan,
Ardımca gəzəcək daima düşman.
Hörmətin gətirsə hər kimə zillət,
Gözləmə sən ondan əsla məhəbbət.
Hansı kitabdasa mən oxumuşam,
Kim isə yuxuda görür bir axşam:
İblis gözəllikdə huriyə bənzər.
Üzü gün kimidir, boyu sənubər.
İblisə heyrətlə söyləyir ki, sən
Məncə mələklərdən daha gözəlsən.
Sənin ki, ay kimi gözəlliyin var,
Nədən çirkin deyir sənə insanlar?
Şahın eyvanında sənin surətin
Çəkilib olduqca yöndəmsiz, çirkin.
Şəklin hamamlarda olur eybəcər,
Kimsə surətinə salmayır nəzər.
Elə ki bu sözü iblis dinləyir,
Yanıqlı ah çəkib bədxah inləyir.
Deyir: mənim şəklim o deyil, ancaq
Düşmən əlindədir qələm, budur bax!
Eybəcər göstərir şəklimi düşmən,
Çünki qovdurmuşam onu cənnətdən.
Ey soltan adım pak, qəlbimdir təmiz,
Mənə ləkə vurmaq deyil səbəbsiz.
Yerini tutduğum vəzirdən gərək
Mən qaçım bir ağac, o qurur kələk.
Lakin mən qorxmuram qəzəbindən, şah,
Çünki yoxdu məndə əsla bir günah.



Malı əskik satan darğadan qorxar,
Düz olan adama kim qara yaxar?
Düz yazır əlimdə hər sözü qələm,
Yüz böhtançı olsa mənimçin nə qəm.
Eşidib bu sözü şah qəzəbləndi,
Elə bil göylərə qalxıb o endi.
Dedi: təqsirini yuma dilinlə,
Sözün pərdəsində gizlənməz hiylə.
Düşmənin deməyib bu qüsurunu,
Özüm gözlərimlə görmüşəm bunu.
Mən fikir vermişəm sənə əzəldən,
Gözünü çəkmirsən iki gözəldən.
Kişi gülüb dedi: doğrudur bu söz,
İnsan həqiqətə yuma bilməz göz.
Ömrün uzun olsun sənin, hökmdar.
Lakin bu işdə bir incə nüktə var.
Yaxşı bilirsən ki, aydındır bu iş,
Baxar qüdrətliyə həsrətlə dərviş.
Keflə, əyləncəylə keçib zamanım.
Getdi artıq mənim gənclik dövranım,
Zövq alıb bunların gözəlliyindən,
Gənclik zamanımı düşünürəm mən.
Bir zaman gül kim yanağım vardı,
Şəffaf büllur kimi tənim parlardı.
İndi ağ kəfənə layiqəm ancaq,
Belim bükülübdür, saçım qardan ağ.
Bir zamanlar idi saçlarım qara,
Kürəyim sığmırdı mənim paltara.
Düşüb ağzımdakı səf-səf mirvari,
Ağzım xatırladır uçuq divarı.
Anıb keçən ömrü indi riqqətlə,
Baxıram gənclərə böyük həsrətlə.
Keçdi o günlərim toyda, düyündə,
Ötüb keçəcəkdir şəksiz bu gün də.
O hikmət sahibi saçınca gövhər,
Şaha təsir etdi dediyi sözlər.
Şah dedi: olsa da məndə çox qüdrət,

Daha qüdrətlidir lakin həqiqət.
Belə gözəl sözlər söyləyən insan
Gözəllərə baxsa, sayılmaz nöqsan.
Əqlə etməsəydim əgər riayət,
Bunu məhv edərdi yersiz ədavət.
Kim tez qılınc çəkib etsə yamanlıq
Əlini dişləyib çəkər peşmanlıq.
Uysan qərəzkara çəkərsən zərər,
Sonrakı peşmanlıq verməz bir səmər.
Ağıllı insana şah verdi sərvət,
Bədxah cəzalanıb çəkdi əziyyət.
Tədbirlə, ağılla iş gördü soltan,
O getdi, adını unutmaz dövran.

## ADİL HÖKMDAR

Deyirlər bir böyük adil hökmdar
Çox ucuz parçadan geyirmiş paltar.
Biri deyir ona: bəxtiyar soltan,
Geyin paltarını Çin qumaşından.
Şah cavab verir ki, bu mənə bəsdir.
Sadəlik yaxşıdır, bəzək əbəsdir,
Onunçün deyildir yığdığım xərac,
Özümü bəzəyim, zinətlənsin tac.
Bəzənib-düzənsəm qadın kimi mən,
Necə məğlub olar əlimdə düşmən?
Mənim də ürəyim çox şey istəyir,
Lakin xəzinə tək mənim deyildir.
Xəzinə xərclənər qoşun-ləşkərə,
El malı verilməz zərə-zivərə.
Hökmdardan razı olmasa ordu,
Heç zaman ürəklə qorumaz yurdu.
Alıb ulağını düşmən kəndlinin,
Soltan ondan töycü niyə istəsin?
Düşmən ulaq alsa, padşah xərac,
Batar o diyarda bütün taxtü-tac.



Heç insaf deyil ki, şığıyıb göydən,
Qartal qarışqadan alsın güclə dən.
Kim ki incitməyib acizi heç vaxt,
Yaşayar dünyada daima xoşbaxt.
Bir məzlum inləyib eyləsə nalə,
Zalımın həyatı gedər zəvalə.
Bacarsan, xoşluqla fəth elə ölkə,
Qan tökmə, adına gəlməsin ləkə.
Torpağa tökülən bircə damla qan
Bahadır dünyanın soltanlığından.

## BULAQ BAŞINDA

Deyirlər ki, Cəmşid bir dağ başında
Yazmış bu sözləri bulaq daşında:
Çoxları bizimtək bu sudan içmiş,
Birdən göz yumaraq dünyadan keçmiş
Tutmuş bu cahanı çox şahlar, ancaq
Olmuş son məskəni bir qarış torpaq.
Küləklər əsərək hər səhər-axşam
Böyük Süleymana verirmiş salam.
Bir gün Süleyman da sovruldu bada,
İnsan oğlu, məğrur olma dünyada!
Əgər düşmənini eyləsən əsir,
Onu çox incitmə, öz dərdi bəsdir.
Düşmənin qanını tökməkdənsə sən,
Daha xoşdur onu pərişan görsən.

## DARA VƏ ÇOBAN

Deyirlər ki, Dara, böyük hökmran,
Ovda ayrı düşür bir gün ordudan.
At qovur, yetişir geniş bir düzə.
Çoban qaçıb gəlir şahla üz-üzə.
Bu gələn çobanı şah sanır düşmən,

Deyir: qoy məhv edim onu oxla mən.
Bu niyyətlə Dara çəkəndə kaman,
Çobanı vurmağa alanda nişan,
Çoban söyləyir ki, böyük hökmdar!
Pis gözdən saxlasın səni ruzigar.
Mənəm atlarını otaran çoban,
Bu çöllər məskənim olub hər zaman.
Gəlir öz yerinə ürəyi şahın,
Gülüb deyir: oldu tale pənahın!
Kamanı çəksəydim, çoban, bir anda
Cəsədin qalardı bu biyabanda.
Çoban gülüb deyir: böyük hökmran,
Doğru söz kəskindir məncə qılıncdan.
Həqiqət budur ki, şah gərək gendən
Dostunu tanıyıb seçə düşməndən.
Budur böyüklüyün şərti həyatda
Ki, öz kiçiyini saxlasın yadda.
Ey şah, dəfələrlə çöldə-çəməndə
Söhbətə tutmusan məni görəndə.
İlxının içində mən yüz min atdan
Birini tanıyıb seçərəm, inan.
Çünki bir çobanam, ağlım, huşum var,
Sən də bir çobansan xalqa, şəhriyar.
Nəsihət Daraya eyləyir əsər,
Bu söz qılınc kimi göstərir kəsər.
Utanıb çobana şah verir xələt;
Düşünür: qəlbimdə qalsın bu hikmət.
Çobandan tədbiri şahın olsa az,
Taxtı uzun zaman möhkəm dayanmaz.
Qəflət yuxusuna gctsə əgər şah,
Çatmaz qulağına cldən qopan ah.
Elə yat ki, məzlum nalə edəndə
Onun naləsini duyasan sən də.
Dövründə zalımlar zülm edir əgər,
Xalqa səndən gəlir, demək, zülümlər.
Tutubsa yolçunu bir quduz köpək,
Gərək sahibini müqəssir bilək.



Sədi, sözdə vardır qəhrəmanlığın,
Söz sənin qılıncın, hökmranlığın.
Ya bağlan tamaha, əl çək hikmətdən,
Ya aç həqiqəti, açıq söylə sən!
Tamahkar deyilsən, hikmət dəftərin
Açılsın, parlasın qoy söz gövhərin.

## QIZIL ÜZÜK

Əbdül Əziz oğlu adil soltanmış,
Səxavətli, yaxşı bir hökmranmış.
Onun bir qiymətli üzüyü varmış.
Qaşı günəş kimi parıldayarmış,
Saçarmış ətrafa gecələr işıq,
Varmış bu gövhərdə başqa yaraşıq.
Bir il quraqlıqdan gəlib zavalə,
Dönür insanların bədri hilalə.
Soltan əhalidə görməyir taqət,
Deyir: nə insafdır, nə də mürüvvət
Həyat insanlara bir zəhər olsun,
Mənim üzüyümdə bu gövhər olsun.
Satır üzüyünü adil hökmdar,
Pulunu paylayır – yoxsullar, qullar
Qalmasın yalavac çörəyə möhtac,
Pulu bir həftədə eyləyir tarac.
Əyanlar tənəylə deyir: heç yerdə
Belə qızıl üzük tapmazsan bir də.
Bu sözdən ağlayır soltan şam kimi,
Olur qəlbi tutqun bir axşam kimi.
Deyir: fəlakətdən məhv olur diyar,
Çirkindir bəzənsə əgər hökmdar.
Qızıl üzüksüz də keçinərəm mən,
Xalqımı qurtarım gərək qüssədən.
Bütün insanların halına sən bax,
Qalma öz halına dünyada ancaq.

Hünər sahibləri istəməz əsla
Özü xoş dolansın, el çəksin bəla.
İpəklər içində yatsa hökmran,
Rahatlıqla yatmaz yoxsullar, inan.
Əgər oyaq qalsa şah otağında,
Yoxsul rahat yatar öz yatağında.
(Şükür ki, Sədoğlu Əbubəkr soltan
Yaradıb bax elə gözəl bir dövran,
Rahat yaşayırıq biz kölgəsində;
Bir fəsad qalmayıb fars ölkəsində.)
Eşitdim mənalı gözəl bir nəğmə,
Mənə çox xoş gəldi bu şirin nəğmə:
Ağuşumda olan zaman dilbərim,
Çox gözəl keçirdi bütün günlərim.
Gördüm sərxoş kimi yarı yuxulu,
Həsrətlə söylədim: ey sərv boylu!
Yatma nərgiz kimi çəməndə nazla,
Oxu bülbül kimi gözəl avazla.
Yatma, ey fitnəkar, yatma, ey gözəl!
Gəzdir yaqut meyi məclisdə əl-əl.
Yar dedi: sən fitnə sanırsan məni,
Neçin oyadırsan, neçin, fitnəni?
Adil hökmdarın dövründə heç kəs
Ölkədə fitnəni oyanmış görməz.

## QƏHƏTLİK

Elə bir qəhətlik sardı Dəməşqi
Ki, bütün aşiqlər unutdu eşqi.
O qədər paxıllıq tutdu göyləri,
Nə bağlar su gördü, nə əkin yeri.
Qurudu qədimdən qalma hər bulaq,
Qaldı yetimlərin göz yaşı ancaq.
Dulların ahından başqa bir duman,
Bir tüstü çıxmadı evdə ocaqdan.



Yarpaqsız ağaclar yoxsula döndü
Pəhləvanlar aciz bir qula döndü.
Çəyirtkə bir əkin, bir bağ qoymadı,
İnsan çəyirtkəni yedi, doymadı.
Bir dosta rast gəldim aclıq günləri,
Gördüm bir sümükdür kişi, bir dəri.
Onun vardı lakin cahı-cəlalı,
Qızılı, gümüşü, dövləti, malı.
Dostumdan soruşdum: sənə nə olmuş?
Nədən rəngin belə saralıb solmuş?
Acıqlanıb dedi: ağlın, huşun var!
Məncə mənasızdır belə suallar.
Görmürsən çətinlik yetişib hara?
Əzabdan, zillətdən xalq düşüb dara.
Bu il göydən əsla yağış yağmadı,
Çıxdı insanların göyə fəryadı...
Dedim: bundan sənə qorxu var məgər?
Tiryək olmayanda öldürər zəhər.
Biri məhv olursa yoxsulluğundan,
Varlısan, neyləyər ördəyə tufan.
Necə ki ağıllı baxar axmağa,
Dostum da başladı mənə baxmağa,
Dedi: dostu suda boğulan görsən,
Göz yumub qıraqda dura bilərsən?
Sanma bədbəxtlikdən rəngim solmuşdur,
Yoxsullar qəmilə qəlbim dolmuşdur.
Ağıllı heç kəsi istəməz qəmli,
Çünki bu, onu da edər ələmli.
Doğrudur, bədənim sağlamdır mənim,
Bir xəstə görəndə titrəyir tənim.
Dərdli bir xəstənin yanında heç kəs
Oturub ləzzətlə kef edə bilməz.
Yanımda ac, yoxsul görsəm mən əgər,
Yediyim tikəni sanaram zəhər.
Bir dostu düşübsə əgər zindana,
Kef ləzzət verərmi bağda insana.

## BAĞDADDA YANĞIN

Od tutub ahından bir gecə xalqın,
Bağdad şəhərini sarmışdı yanğın.
Biri dedi: şükür, yaxşıdır halım,
Yanmayıb dükanım, sağ qalıb malım.
Bir arif söylədi: ey arsız insan,
Xalqı düşünmürsən, öz hayındasan!
Deyirsən od tutub yansın bir şəhər,
Mənim sarayıma dəyməsin zərər.
Aclar mədəsinə daş basan zaman,
Durub daş ürəkli baxar qıraqdan.
Udsa ürək qanı əli qabarlı,
Yağlı tikə uda bilərmi varlı?
Görsən, bir dərdlini sən ayaq üstə,
Demə ki, bədəni deyildir xəstə.
Dostlardan mənzilə tez çatan qoçaq
Dalda qalanları düşünər ancaq.
Görəndə palçığa batıb bir eşşək,
Şahların qəlbini dərd alsın gərək.
Səadət mülkündə olarsa hər kəs,
Sədinin bir sözü edər ona bəs.
Dinlə, bir nəsihət söyləyirəm mən –
Kim tikan əkibsə, dərməz yasəmən.

## KƏLLƏ VƏ ALİM

Deyirlər Dəclədə bir quru kəllə
Bir arif kişiyə söyləyib belə:
Mən də bir zamanlar hökmdar idim,
Ölkələr fəth edən tacdar idim.
Bəxtim kömək etdi, diz çökdü yağı,
Aldım qüdrətimlə bütün İraqı.
İstədim Kirmanı tutum sonra mən,
Əfsus kəlləm oldu qurdlara məskən.
Uyma gəl qəflətə qoca dünyada,
Ölən insanları sən gətir yada.



## ZÜLMÜN SONU

Quyuya düşmüşdü elə bir alçaq
Ki, şirlər əlində əsirdi zağ-zağ.
Yamanlıq etmişdi daima adət,
Odur bütün gecə çəkdi əziyyət.
İnləyib qışqırdı, kömək istədi,
Bir nəfər başına daş vurub, dedi:
Səndən bir köməklik görməyib heç kəs,
Köməklik gözləmə kimsədən əbəs.
Bu bəla özündən gəlib başına,
Əkdiyin çıxıbdır sənin qarşına.
Az deyil zülmündən çəkən qüssə, qəm.
Yaralı qəlbinə kim qoyar məlhəm?
Bizə quyu qazmaq etmişdin adət.
Bax, özün quyuya düşdün nəhayət!
Mərdlər quyu qazar susuzlar içsin,
Namərd quyu qazar adamlar düşsün.
Yamanlıq eyləyən yaxşılıq görməz,
Söyüd ağacları üzüm bar verməz.
Xalqa bu dünyanı etmə qaranlıq,
Bir yaxşılıq qalar, bir də yamanlıq.
Payız zamanında sən arpa əksən,
Sanma biçin vaxtı buğda biçərsən.
Zəqqum ağacını canla bəsləsən,
İnanma ki, ondan meyvə dərərsən.
Bitməz xərzəhrədən heç zaman xurma,
İnsan əkdiyini biçər daima.

## ATA NƏSİHƏTİ

Biri övladına verdi nəsihət:
Ağıllı sözlərə eylə sən diqqət!
Gücsüz uşaqları incitmə, bala,
Sən də bir güclüdən çəkərsən bəla.
Olsan xalqa ziyan verən canavar,

Gün gələr səni də pələng parçalar.
Vardı uşaqlıqda qolumda qüvvət,
Acizlər çəkirdi məndən əziyyət.
Bir gün bir güclüdən yumruq yedim mən,
Bir də zəifləri incitmədim mən.

## İKİ QARDAŞ

Deyirlər ki, qərbdə bir məmləkətdə,
İki qardaş varmış bir səltənətdə.
Qardaşlar olubmuş fildən qüvvətli,
Həmi çox bilikli, həm mərifətli.
Atası görür ki, iki qəhrəman
Layiqdir ölkədə olmağa soltan.
Odur məmləkəti bölür tən yarı,
Qoyur öz yerində gənc oğulları.
Deyir: məndən sonra bu iki qardaş
Səltənət üstündə etməsin savaş.
Dolanır fəsillər, keçir bir zaman,
Qocalmış hökmdar gedir dünyadan.
Ömür kəndirini qırınca əcəl,
Sönür ürəyində qocanın əməl.
Qalır bir ölkədə iki hökmdar,
Çatır oğullara xəznə, ordular.
Oğullar yanaşı getmir qol-qola,
Bunların hərəsi düşür bir yola.
Birisi göstərir xalqa ədalət,
O biri zülm ilə toplayır sərvət.
Biri yoxsullara zər-zivər verir,
Səxavət göstərir, hörmət göstərir.
Tikir xəstəxana, yaradır ordu,
Abad eyləməyə çalışır yurdu.
Xəznə boşalsa da, varlanır ölkə,
Soltanın adına gəlməyir ləkə.
(Əbubəkr Sədin zamanı kimi,
Ədalətli, gözəl dövranı kimi.)
Yoxsullar soltandan aldıqca ənam,



Ona səna deyir hər səhər-axşam.
Bu böyük ölkədə hələ gül qədər
İncimir əlindən onun könüllər.
Xalqın ehtiyacı olmur köməyə,
Qorxmur o ölkəyə Qarun gəlməyə,
Baş əyir əmrinə mərd qəhrəmanlar,
Ona hörmət edir çox hökmranlar.
Zalım qardaş isə xalqı qoyur ac,
Yoxsul kəndlilərdən alır çox xərac.
O sövdəgərlərə gün vermir əsla,
Yoxsulun başına yağdırır bəla.
Təkcə yoxsullara çəkmir göz dağı,
Olur öz-özünə hökmdar yağı.
Nə xalqa gün verir, nə yeyir özü;
Quduz hökmdarın doymayır gözü.
Toplayıb yığdıqca çoxlu simü zər,
Dağılır ölkədə qalmayır ləşkər.
Görürlər hamıya zülm edir alçaq,
Çəkir sövdəgərlər o yurddan ayaq.
Nə ticarət qalır, nə əkin-biçin.
Ölkə bir zindana dönür ellərçin.
Baxtı hökmdara olmayınca yar,
Çapır ölkəsinə onun yağılar.
Fələk məhv eyləyir o hökmdarı,
Tapdayır yurdunu düşmən atları.
Kimdən vəfa umsun, adil olmayıb.
Kimdən xərac alsın, kəndli qalmayıb.
Yaxşılıq görərmi vəfasız məgər!
Arxasınca nifrin yağdırır ellər.
Yaxşıya uymayıb o qəddar olmuş,
Yamanlıq eyləyib zülmkar olmuş.
Yaxşı ad qazanar adil dünyada.
Zalımı nifrətlə salarlar yada.
Adil hökmdardan yaxşı ad qaldı.
Cəlalı gün-gündən artdı, ucaldı.
Zalım hökmdarsa qoydu pis adət,
Nifrətlə yad etdi onu rəiyyət.

## QIZIL ARSLANIN QALASI

Göylərə baş çəkən Əlvənd dağından
Yüksək qala tikir Qızıl Arslan.
Yolu gəlinlərin saçı tək qıvrım,
Sağ yanı coşqun çay, solu uçurum.
Qala mavi göydə aya bənzərdi,
Tərifi ağızda, dildə gəzərdi.
Belə eşitmişəm babalardan mən,
Şaha qonaq gəlir uzaq ölkədən.
Bu qonaq gəzmişdi bir çox diyarı,
Ağıllı insandı, haqq tərəfdarı.
Yüksək mərifəti, hikməti vardı,
Natiqlikdə böyük qüdrəti vardı.
Şah dedi: gəzmisən eldə, obada,
Belə möhkəm qala varmı dünyada?
Alim gülüb dedi: möhkəmdir qalan.
Lakin demirəm ki, ona arxalan.
Olub səndən qabaq bir çox hökmdar,
Yaşayıb, dünyanı tərk edib onlar.
Ey şah, qalmayacaq bu dövran sənə.
Gələn soltanlar da məhv olar yenə.
Atanın dövrünü bir an yad eylə,
Qəlbi əndişədən sən azad eylə.
Şah atan torpağın içində qalmış,
Başının altında yoxdur bir balış.
O zaman ki gəlib çatdı son nəfəs,
Artıq hər bir şeydən ümidini kəs.
Ağıllı bilər ki, bu cahan heçdir,
Ömür beş günlükdür, bu dövran heçdir.

## ALP ARSLANIN ÖLÜMÜ

O gün ki, Alp Arslan dünyadan getdi,
Oğlu taxta çıxıb soltanlıq etdi.
Çəkərək saraydan şahı məzara,
Bir qarış yer verdi xalq hökmdara.



Çox ayıq bir dəli söylədi: oğlan
Atanın yerində olmuş hökmran.
Ey fələk, dünyadan gedibdir ata,
Oğlu əvəzinə minibdir ata.
Belədir dünyanın işi, heç zaman
Əbədi qalmayır kimsəyə dövran.
Qocalar gedincə, cavanlar gəlir,
Nə canlar məhv olur, nə canlar gəlir.
Bil ki, vəfasızdır gördüyün cahan,
Gəzəyən mütrübə bənzər bu canan.
Gündə bir mənzildə gəzir bu dilbər,
Axtarır özünə hər gecə bir ər.
Köçüb gedəcəksən bir gün elindən,
Çalış ki, yaxşılıq gəlsin əlindən.

## İBRƏT DƏRSİ

Kəsraya söylədi bir cəsur insan:
Ey Cəmin varisi, böyük hökmran!
Cəmşidin olsaydı, inan ki, bəxti,
Sənə yetişməzdi bu tacü təxti.
Əgər Qarun kimi olsa xəzinən,
Yenə bu dünyadan boş gedəcəksən.

## ZALIM HÖKMDARLA YOXSUL KƏNDLİ

Ğurda çox zalım bir hökmdar varmış,
Güclə kəndlilərdən ulaq alarmış.
İşlədib verməzmiş nə ot, nə ələf.
Ulaqlar acından olurmuş tələf.
Dövran alçaqlara verəndə sərvət,
Yoxsula çəkdirər əzab, əziyyət.
Damı uca olsa alçağın əgər,
Aşağı qatlara zir-zibil tökər.

Belə eşitmişəm: zalım Şəhriyar
Bir dəfə ovlaqda axtarır şikar.
O bir ceyran görür, qovur ceyranı.
Qoşundan ayrılır, gəzir səhranı.
Axtarır, tapmayır hökmdar yol-iz,
Gecəni bir kənddə qalır çarəsiz.
Bu kiçik obada varmış olduqca
Ağıllı, bilikli, kamil bir qoca.
Qoca öz oğluna söyləyir: səhər
Şəhərə edəndə, ay oğul, səfər
Ulağı aparma, əlindən çıxar.
Bizim bu ölkədə var bir hökmdar,
Taxtı tabut olsun, xalqı incidir.
Div kimi insanın ətini didir.
Bu eldə görməyib kimsə azadlıq,
Odur olmayacaq xoş həyat, şadlıq.
Nə qədər getməyib o cəhənnəmə,
Zülmündən batacaq insanlar qəmə.
Qocaya heyrətlə söyləyir oğlu:
Piyada kim gedər bu qədər yolu.
Ata can, bu işə bir tədbir axtar.
Sən dünya görmüşsən, düz tədbirin var.
Atası deyir ki, daşla vurub sən
Gərək ulağını şikəst edəsən.
O azğın görsə ki şikəstdir ulaq,
O zaman əl çəkər yaxandan ancaq.
Gəmini sındırıb Xızır peyğəmbər,
Qoymadı keçirsin ələ düşmənlər.
Bir il gəmi tutar quldur dəryada.
İllərcə çirkin ad qoyar dünyada.
Tfu bu şahlığa, belə dövlətə!
Belə hökmranlıq gəlsin lənətə!
Oğul atasının bu sözlərindən
Duyur həqiqəti daha dərindən.
Zavallı ulağı daşla vuraraq
Qolunu, qıçını eyləyir çolaq.



Atası söyləyir ona: ay bala,
Bu şikəst heyvanla indi çıx yola.
Oğlan hökmdara lənət yağdırır,
Söyüşlər yağdırır, nifrət yağdırır.
Sonra bir karvanın düşür dalınca.
Əlini qaldırır göylərə qoca,
Deyir: haqq! Ölümdən mənə ver aman,
Görüm o zalımı torpaqla yeksan.
O azğını ölmüş görməsəm, əlbət,
İnan ki, məzarda yatmaram rahət.
Doğmaqdansa divəbənzər bir insan,
Doğsun boylu qadın zəhərli ilan!
Qadından yamandır, bir nankor igid,
Mərdimazardansa yaxşıdır bir it.
Düşmənində olan sağlam mətadan
Öz sınıq mətaın yaxşıdır, inan.
Dinmədən bunları şah eşidirmiş,
Atını bağlayıb yatağa girmiş...
Fikirdən soltanı alır bir qayğu.
Gözünə getməyir bu gecə yuxu.
Xoruzlar banlayır, açılır səhər.
Keçir pərişanlıq, keçir qəm, kədər.
Şahın atlıları gəzir hər yanı,
Səhər gəlib burda tapır soltanı.
Görürlər at üstə durub hökmdar,
Tez atından yerə enir atlılar.
Şaha təzim edir tamam igidlər,
Coşur dərya kimi, qaynayır ləşkər...
Şahın xidmətçisi bir qədim dostu,
Yaxın adamıydı, bu həkim dostu,
Deyir: yatmamışam gecəni bir an,
Gözümüz, qəlbimiz qalıb nigaran.
Şah açıq söyləyir olan işləri,
Bütün əhvalatı, kəşməkəşləri.
Lakin pıçıldayır dostuna pünhan:
Gecəni sübhədək ac qaldım, inan,

Burda mənə toyuq bişirən yoxdur,
Ancaq ulaq qıçı sındıran çoxdur.
Şahın əmri ilə məclis qurulur,
Süfrələr salınıb, badə vurulur.
Elə ki nəşədən soltan zövq alır,
Dünənki qocanı yadına salır.
Onun əl-qoluna bağlayıb zəncir,
Şahın qabağında edirlər əsir.
Zalım şah sıyırır kinlə xəncəri.
Kəndlinin qaçmağa olmayır yeri.
Görür həyatının son dəmidir bu,
Açır ürəyini bilmədən qorxu.
Bıçaq başı üstə dayanan zaman,
Qələmin yazdığı olar çox rəvan.
Görməyir qurtuluş qəzəbdən, kindən,
Oxları yağdırır bir-bir tərkindən.
Evdə ümid yoxdu yatmağa bir də,
Bu gün yatacaqdı kəndli qəbirdə.
Deyir: tək deyiləm mən, ey şəhriyar,
Sənə lənət deyir bütün ruzigar.
Qoy sənə bu sözüm gəlməsin acıq,
Xalq gizlin söyləyir, mən dedim açıq.
Yalnız mən etmirəm cövründən nalə,
Bütün xalq zülmündən düşüb məlalə.
Məni öldürsən də, ancaq yaxşı bil,
Xalqı məhv eyləmək asan iş deyil.
Sözlərim qəlbinə toxunarsa, sən
Zülmün rişəsini gərək kəsəsən.
Məni məhv etməkdən nə çıxar gerçək,
Çarə istəyirsən zülmdən əl çək!
Olsan ömür boyu bədxah, zülmkar,
Sanma ellər səni xeyirxah sanar.
Sənə bu sözlərim gəlirsə ağır,
Sən öz vicdanını köməyə çağır.
Beş gün bu dövranda yaşayaram mən.
Üç gün zövq alarsan sən də işrətdən.



Qalmaz bu dünyada əlbət zülmkar,
Lakin ona lənət daimi qalar.
Dinləsən, faydalı olar nəsihət,
Yoxsa peşmanlıq çəkərsən, əlbət.
Məzlumlar yatmırsa ağır zülmündən,
Bilmirəm sən necə yata bilərsən.
O zaman soltanın olar qüdrəti
Ki, xalqın soltana olsun hörməti.
Bir cəhrə əyirən qarı qarğısa,
Şahın səltənəti olar çox qısa.
Başını qılınca eyləyib sipər,
Kəndli şaha dedi ibrətli sözlər.
Qəflət məstliyindən ayıldı soltan.
Sanki qulağına dedilər bu an:
Əlində məhv olub min insan canı,
İncidib öldürmə gəl bu qocanı.
Bir zaman düşünüb xəyala getdi,
Sonra o qocanı şah azad etdi.
Özü zəncirini açdı qolundan,
Öpdü, qucaqladı kəndlini soltan.
Böyük qulluq verdi, hörmət göstərdi,
Qocanın ümidi yaxşı bar verdi.
Qaldı bu hekayət dünyada dastan,
Bəxtiyar yaxşı iş görər hər zaman.
Öyrən ağıllıdan gözəl xasiyyət,
Cahil eyb axtarmaq eyləyər adət.
Düşməndən öyrənər eybini insan,
Çünki dost gözündə görülməz nöqsan.
Səni tərifləyən yaxşı dost deyil,
Dost odur ki desin: öz eybini bil.
Xəstəyə qənd vermək xoş deyil, inan,
Xəstə fayda görər acı dərmandan.
Bir qaşqabaqlının dediyi sözlər
Dost sözündən artıq eyləyər əsər.
Kimsə bundan yaxşı nəsihət deməz,
Edər ağıllıya bir işarə bəs.

## MƏMUN HAQQINDA HEKAYƏ

Elə ki Məmuna çatdı xilafət,
Aldı gül bədənli incə bir afət.
Kənizin ay kimi camalı vardı,
Böyük dərrakəsi, kamalı vardı.
Keçib əzizlərin qanı çənginə,
Dönmüşdü dırnağı innab rənginə.
Abid aldadırdı o hilal qaşı,
Günəş yaratmışdı onu nəqqaşı.
Vüsal gecəsində xəlvət otaqda
Məmunla yatmadı qız bir yataqda.
Qəzəbdən odlandı, artdı həycanı,
Öldürmək istədi Məmun cananı.
Qız dedi: başımı qılıncla kəssən,
Yatmaram səninlə bir yataqda mən.
Heyrətlə söylədi Məmun: ey nigar,
Sənə xoş gəlməyən nə xislətim var?
Qız dedi: ölsəm də düz deyim gərək,
Ağzının iyindən bulanır ürək.
Bir dəfə can verər insan xəncərə,
Ağız qoxusundan ölər min kərə.
Bu sözdən xəlifə tutuldu, lakin
Qıza bəsləmədi ürəyində kin.
Gecəni yatmayıb xəyala getdi,
Səhər həkimlərlə o söhbət etdi.
Bütün ölkələrin alimlərini
Çağırıb, söylədi öz kədərini.
Kənizdən incimiş olsa da xətri,
Sağaldı, ağzından gəldi gül ətri.
Dedi ki, bu pəri dildarım olsun!
O eybimi açdı, qoy yarım olsun!
Yolunun üstündə bilsə quyu var,
Gərək desin sənə həqiqi dostlar.
Yol azmışa yolun düzdür söyləsən,
Sən ona çox böyük pislik edərsən.
Eybini üzünə söyləməsələr,



O eybi sanarsan böyük bir hünər.
Hər kimin layiqi acı zəhərdir,
Deməyin layiqin baldır, şəkərdir.
Bunu yaxşı deyib bir dərman satan,
Sağalmaq istəsən iç acı dərman!
Əgər istəyirsən faydalı şərbət,
Gəl eşit Sədidən acı nəsihət.
Çünki hər sözündə mərifət vardır,
Şəkərə qatılmış ibarət vardır.

## HAQQ SÖZ

Eşitdim bir yoxsul haqq söz demişdi,
Şah onun sözündən çox incimişdi.
Zavallı kişini salıb zindana,
Gücünü göstərdi padşah ona.
Yoxsula bir dostu söylədi xəlvət:
Şahla bəhs eyləmək deyil məsləhət.
Yoxsul dedi: gərək düz danışım mən,
Qorxmayım bir günlük qara məhbəsdən.
Saray xəfiyyəsi bunu eşitdi,
Şaha yetirməkçin saraya getdi.
Şah dedi: yanılır o sərsəm insan,
Məzarı olacaq qaranlıq zindan.
Bunu o yoxsula xəbər verdi qul.
Yoxsul dedi şaha: söylə, ay oğul!
Yaralı könlümdə yoxdur mənim qəm,
Bircə saatlıqdır bütün bu aləm.
İstər yaxşılıq et, istərsə öldür.
Bu könlüm kədərsiz, qəmsiz könüldür.
Yoxdur sənin kimi ordum, qüdrətim,
Var mənim ailəm, böyük zəhmətim.
Dünyadan gedincə bir həftəyə biz
Bərabər olarıq torpaqda şəksiz.
Beş günlük dünyaya uyma, hökmran,
Yandırma özünü xalqın ahından.

Səndən əvvəl gələn şahlar da vardı,
Zülm etdi, onları ölüm apardı.
Çalış bu dünyada qazan yaxşı ad
Ki, səni nifrətlə etməsinlər yad.
Kim qoysa dünyada bir çirkin adət,
Xalq ona yağdırar daima lənət.
Güclünün başı da çatsa göylərə,
Axırda girəcək bir qarış yerə.
Eşidib padşah bundan incidi,
Dili çıxarılsın boynundan, dedi.
Bundan da qorxmadı haqq sevən əsla,
Dedi: çəkinmərəm görsəm hər bəla.
Dilim kəsilsə də bir qəmim yoxdur,
Mənim deyilməmiş sözlərim çoxdur.
Zalım eyləsə də mənə yüz sitəm,
Axırım uğurlu olacaq, nə qəm.
Sənin xoş keçsə də həyatın bu gün,
Matəmin ellərə olar toy-düyün.

## HƏYATIN SONU

Bir qolu güclünün qazancı azdı,
Yeməyə naharı, şamı olmazdı.
Yemək qazanmaqçın çəkirdi torpaq,
Çətindi ruzunu güclə qazanmaq.
Yemək həsrətindən ürəyi büryan,
Daima keçirdi halı pərişan.
Uğursuz aləmlə gah savaşırdı,
Kəc baxtın əlindən dərdi daşırdı,
Görsə xalq zövq alır eyşü işrətdən,
Ağuya dönürdü suyu möhnətdən.
Ağır həyatından dərd çəkir başı,
Zillətlə tökürdü acı göz yaşı.
Deyirdi: xalq yeyir aş, toyuq-cücə,
Acından mən yata bilmirəm gecə.



Pişiklər əyninə kürk geyinib, bax,
İnsafdır mən gəzim qışda lüt-çılpaq?
Fələyin yazığı gəlsəydi mənə,
Keçsəydi əlimə bu an xəzinə,
Ayağım torpağa bataydı birdən,
İndi bir xəzinə tapaydım yerdən.
Kədər qubarını sovurub yelə,
Xoş gün keçirərdim beş gün zövq ilə.
Bir dəfə düşünüb gəzirdi yenə,
Gördü bir ovuqda çürümüş çənə,
Yoxdur dodağında şən gülüşləri,
Torpağa düşmüşdü inci dişləri.
Edərək o dilsiz ağız nəsihət,
Dedi: yoxsulluğa döz, çəkmə möhnət!
İçsən ürək qanı, yesən də şəkər,
Qara yer ağzını çürüdüb tökər.
Qəm yeyib şikayət etmə cahandan,
Bizsiz də keçəcək bu qoca dövran.
Ona təsir etdi deyilən sözlər,
Silindi o anda qəlbindən kədər.
Nəfsinə söylədi: öz yükünü çək!
Həyatın mənası belədir gerçək.
İstər yük daşısın başında insan,
İstər bu dünyaya olsun hökmran.
Çıxarar başından hər şeyi torpaq,
Dünyada bir gözəl ad qalar ancaq.
Qoy bunu düşünsün, bilsin hər xoşbəxt,
Səxavət qalacaq, deyil tacü təxt.
Aldatmasın səni bu cahü cəlal,
Sənin də ömrünə gələcək zaval.
Haqqı düşünməli varlılar hər an,
Necə olsa keçib gedəcək dövran.
İstəsən ki, xarab olmasın ölkən,
Həqiqət, ədalət ara daim sən.
Bir gün öləcəksən, saç dünyaya zər,
Sədi sözlərilə saçmışdır gövhər.

## FAYDALI NƏSİHƏT

Çalış düşməninlə girişmə hərbə,
Tədbirlə vur ona sən ağır zərbə.
Yağıya çatmasa gücün, qüvvətin,
Fitnəni saxlayar zərin, nemətin.
Düşmən güclü olsa, özünü saxla,
Səxavətlə onun ağzını bağla.
Qüvvətli yağıya versən əgər zər,
Onun iti dişi dərhal kütləşər.
Düşmənin bağlayıb gərək dilini
Tədbirlə çalasan zəfər təblini.
Düşmənlə dost kimi eyləyib ülfət,
Onun dərisini soy tapsan fürsət.
Rüstəm tədbir gördü hərbə girəndə,
Nər İsfəndiyarı saldı kəməndə.
Kiçik ordulardan eylə çox həzər,
Kiçik damlalardan yaranır sellər.
Sanma ki, qaşını çatmaq yaxşıdır.
Düşməni dost olsa mərdin naxşıdır.
Kimin ki, düşməni dostundan çoxdur,
Demək olar, onun arxası yoxdur.
Böyük ordulara qarşı durursan,
Elə bil neştərə yumruq vurursan.
Meydanda gücsüzlə vuruşsan əgər,
İgidlər adına namərd deyərlər.
Tutaq ki, var səndə şir kimi pəncə,
Davadan sülh daha yaxşıdır məncə.
Gördün ki, kar etmir düşmənə hiylə
Onda qılınc olsun gərək vəsilə.
Yağı sülh istəsə, girişmə hərbə,
Döyüş istəyəndə, vur ona zərbə.
Düşmənin önündə duranda mətin,
Birə-min görünər sənin qüdrətin.
Döyüşlə intiqam al yağılardan,
Xətadır kinliyə olmaq mehriban.
Mehribanlıq etsən qudurar alçaq,



Kibri, azğınlığı çoxalar ancaq.
Gördün ki, azğınlıq eyləyir yağı.
Mərdlərlə vur ona sən də göz dağı.
Xoşluqla iş keçən zamanlar fəqət,
Kin, qəzəb göstərib işlətmə qüvvət.
Qapından əcz ilə girəndə düşmən,
Kini, küdurəti çıxar qəlbindən.
Kərəmli olmağı sən peşə eylə.
Lakin hiylələrdən əndişə eylə.
Yaxşı tədbir tökər ağıllı qoca.
Çünki təcrübəsi çoxdur olduqca.
Cavanlar qılıncla yıxar düşməni,
Qocalar tədbirlə sıxar düşməni.
Qoca tülkü kimi işlətsə hiylə,
Fil yıxan cavanlar aldanar dilə.
Ordunun qəlbində durmasan əgər,
Anlaya bilməzsən kimdədir zəfər.
Gördün ordun sənə çevirib arxa,
Tək vuruşma səni düşmənin yıxa.
Əsgərin min olsa düşmən iki yüz,
Gecə yağılarla gəlmə üzbəüz.
Beş atlı çıxanda gecə kənardan,
Beş yüzlük əsgəri məhv edər, inan.
Düşmənin yolunu kəsəndə gecə,
Yoxla ətrafını incədən incə.
Düşmən ordusundan sən uzaqda dur,
Çadırı bir günlük yol üstündə qur.
Əfrasiyab kimi olsa da əgər,
Vur azğın düşməni, sarsıt, yerə sər.
O zaman ki hədsiz özünü yordu,
Meydanda dayanmaz, basılar ordu.
Yorsa nadanlıqla özünü düşmən,
O yorğun orduya hücum eylə sən.
Düşmənin basıldı, qaldır bayrağı,
Sənə təslim olsun əzilmiş yağı.
Qaçan yağıları əgər çox qovsan,
Sən uzaq düşərsən ordugahından.

Gördün ki, sarmışdır göyü toz, bulut,
Əlində qılıncı daha möhkəm tut.
Qarət arxasınca getsə ordular,
Meydanda arxasız qalar hökmdar.
Zəfər istəyirsən, davadan qabaq
Ordunu sən qoru, ona yaxşı bax.
Orduda ərlərin sayını artır,
İgidin haqqını, sayını artır.
Yaxşılıq görəndə çəkinməz ərlər
Ölümdən, göstərər meydanda hünər.
Nə qədər ki düşmən çalmayıb təbil,
Ərlərin əlini öpüb qədir bil.
Sülh vaxtı orduya baxsa şəhriyar,
Hərb zamanı ordu ölkəni saxlar.
Azğın rəislərə tapşırma yurdu,
Qoy gözətçi olsun ölkəyə ordu.
Doydursa ordunu nazü nemətin,
Çatar yağılara gücün, qüvvətin.
Ordu yarpaq yesə əgər acından,
Hərb vaxtı yolunda keçərmi candan?
Öz qan bahasını yeyirsə əsgər,
Çətinlik çəkməyi insafdı məgər?
Orduya verməsə qızıl padşah,
Ordu hərb zamanı götürməz silah.
Əgər bir əsgəri sıxsa ruzigar,
Döyüş meydanında sıradan çıxar.
Düşmənlə vuruşa igidlər göndər,
Şirin qabağında dura bilər nər.
Dünya görmüşlərə artır hörməti,
Onların rəyinin çoxdur qiyməti.
Qılınc vuran igid gənclərdən qorxma,
Qocanın fəndindən sən qorun amma.
Çox isti-soyuqdan çıxıbdır qoca,
Olur ağlı, fikri göylərtək uca.
Ağılı, kamalı olan bir cavan,
Qocanın sözündən çıxmaz heç zaman.
Təcrübəsizlərə böyük iş versən,



Sanma ki, ölkəni abad görərsən.
Ordunu ordular yıxana tapşır,
Döyüşlərdə qalib çıxana tapşır.
Kiçiyə böyük iş vermə, hökmran,
Yumruqla sınarmı bir dəmir zindan?!
Rəiyyətə baxmaq, orduya baxmaq,
Deyildir sadə iş, oyun-oyuncaq.
İstəsən ki, yaxşı keçsin ruzigar,
Qoyma iş başına cavan adamlar.
Ov iti bir anda cumar pələngə,
Gənc aslan tülküylə girişməz cəngə.
Oğlunu yanında bəsləsə hər kəs,
Övladı hərb vaxtı döyüşə bilməz.
Bərkdən-boşdan çıxıb güləşən ərlər,
Döyüşdə göstərər böyük hünərlər.
Naz-nemət içində bəslənən insan
Qorxar hərb zamanı görəndə meydan.
Kim qalxsa köməklə əgər yəhərə,
Onu bir uşaq da endirər yerə.
Ordudan qaçırsa əgər bir nəfər,
Vur onu düşməndən qabaq yerə sər.
Kim qaçsa arvadtək hərb meydanından,
Döyüşkən müxənnəs yaxşıdır ondan.

## HİKMƏTLİ SÖZLƏR

Nə xoş söyləyibdir oğluna Gorgin:
Elə ki düşmənlə davaya girdin,
Qaçma qadın kimi hərb meydanından.
Kişi ol döyüşdə, qorxma canından.
Hərb vaxtı döyüşdən qaçan bir əsgər,
Bütün igidləri bədnam eyləyər.
Vuruş meydanına girməsə əgər,
Bilinməz dostlarda sədaqət, hünər.
Keçib bir-birinin yolunda candan,
Dostlar dava vaxtı çıxar sınaqdan.

Əgər qardaşını tutubsa düşmən,
Sinəni onlara gərməlisən sən.
Didsə bir-birini iki canavar,
Rahat nəfəs alar çöldə qoyunlar.
Düşmən düşməninlə vuruşanda, sən
Dostlarla oturub kef eyləyərsən.
Davada düşmənlə vuruşan zaman,
Gərək sülhə gizlin hazırlaşasan.
Ölkələr fəth edən şahlar həmişə
Sülhü qorumağı etmişlər peşə.
Qəlbini əlinə alsan, igidlər
Qarşında diz çöküb səcdə edərlər.
Ordu başçısını ələ keçirsən,
Onu öldürməyə çox tələsmə sən.
Öldürsən, adına toxunar ləkə,
Bəlkə də başına gələr təhlükə.
Yaralı əsiri məhv etsən əgər,
Bir də əsir düşməz orduna əsgər.
Əsiri incidən, öldürən insan,
Bil ki, əsir edər səni də dövran!
Kim özü çəkibsə əsirlik, zillət,
Edər əsirlərə mərhəmət, hörmət.
Səndən hörmət görsə əsir bir sərvər,
Başqa igidlər də sənə baş əyər.
On xəfiyyə olsa əlində əgər,
Sənə fayda verər yüz hücum qədər.
Gəlib dost göstərsə özünü düşmən,
Qafil olma onun hiylələrindən.
O yada saldıqca keçmişi, yenə
Qəlbində bəsləyər ədavət sənə.
Xainə inanma, desə xoş sözlər,
Yəqin et balına qatıbdır zəhər.
Dostun döyüş vaxtı etməsə kömək,
Qaçmağı qənimət biləsən gərək.
Bir qələm əhlinə eylə çox hörmət,
Bir də igidlərə sən bəslə rəğbət
Bir ağıllı insan, bir də qəhrəman



Adını yüksəldər sənin hər zaman
Kim qılınc ya qələm tuta bilməsə,
Ona heç acıma yıxılıb ölsə.
Qələm əhli bəslə, qəhrəman bəslə,
Mütrüb kömək etməz sənə xoş səslə.
Düşmənlə davada girəndə cəngə,
Uymasan yaxşıdır mütrübə, çəngə.
Oyuna qızışdı neçə hökmdar,
Yurdunu oyuncaq etdi yağılar.
Demirəm, düşmənin hərbindən çəkin,
Sülh vaxtı düşmənin şərrindən çəkin.
Çoxları gündüzlər sülh deyir, ancaq
Gecə hazır tutur əlində mizraq.
Zireh geyib yatar igidlər gecə,
Yataq qadınlara yaraşar məncə.
Çadırın içində döyüşkən qoçaq,
Yatmaz qadın kimi yataqda çılpaq.
Gizlincə davaya hazır olmasan,
Düşmən hücum çəkər üstünə pünhan.
Bunu yaxşı düşün, unutma ancaq,
Kəşfiyyatçı olur orduya dayaq.

## DƏYƏRLİ SÖZLƏR

İki düşməninin arasında sən,
Ağlın varsa, rahat dura bilməzsən.
Açsa iki düşmən bir-birinə raz,
Onların şərrindən canın qurtarmaz.
Sən öz düşməninin birini aldat,
O biri düşmənin kökünü qır, at.
Gördün ki birisi girişir hərbə,
Tədbir qılıncıyla vur ona zərbə.
Düşmən ordusunda olanda üsyan,
Sən öz qılıncını çəkmə qınından.
Onun düşməniylə gedib dost olsan,
Ona öz sarayı olacaq zindan.

Dost-düşmən bilməsə dünyada hər kəs
Düşmənin şərrindən qurtara bilməz.
O kəs ki tanıyır cibkəsənləri,
Cibində qoruyur dürrü, gövhəri.
Tutduğun əsiri saxlama əsgər,
Olsun ki, sənə də xəyanət eylər.
Doğma ordusunu satan bir alçaq,
Sənə də səmimi bağlanmayacaq.
Andına inanıb işi boş tutma,
Ona göz qoymağı əsla unutma.
Qeyidsiz buraxsan yeni əsgəri,
Qaçar o, qayıtmaz bir daha geri.
Döyüşdə düşmənin yurdunu tutsan,
Qoy orda dustaqlar olsun pasiban.
Onlar zalimlərdən intiqam alar,
Sənin düşmənini tutub parçalar.
Basdın düşmənini, yıxdın dövləti,
Orda yaxşı saxla sən rəiyyəti.
Fürsət tapıb bir də şah girsə hərbə,
Ona rəiyyəti endirər zərbə.
Bir şəhər tutdunmu, ehtiyat saxla,
Düşmənin üzünə qapını bağla.
Sanma ki, şəhərdən qıraqdır yağı.
Kəsilməz şəhərdən casus ayağı.
İşi gör vuruşan zaman tədbirlə,
Daim niyyətini düşməndən gizlə.

## AĞILLI NƏSİHƏT

Hər kəsə sirrini açıb demə, sus,
Çünki var süfrəndə çox zaman casus.
Şərqlə girişəndə İskəndər hərbə,
Hər an ehtiyatla baxarmış qərbə.
Söz yaymışdı Bəhmən Zabülüstandan
Soldan gələcəyəm, saldırdı sağdan.
Qəsdini bilərsə başqa kəs əgər,



Sənin tədbirinə düşmənin gülər.
Kinli olma, göstər səxavət, kərəm,
Olsun fərmanında qoy bütün aləm.
Bir iş ki, xoşluqla düzəlir, qəzəb
Ya kin göstərməyə görülməz səbəb.
İstəsən qəlbini sarmasın kədər.
Çalış qəmdən azad olsun dərdlilər.
Ordunun gücüylə tapmazsan qüvvət,
Get natəvanlardan sən gözlə hümmət.
Qolugüclülərin köməyindənsə
Xoşdur zəif sənə dua eyləsə.
Dərvişə sığınsan, əmin ol buna,
Sən qalib gələrsən yüz Firuduna.

# SƏXAVƏT HAQQINDA

## COMƏRD İNSAN HEKAYƏSİ

Bir comərd qocaya dedi bir nəfər:
Əngələ düşmüşəm, yamandır işlər.
On dirhəm borc aldım bir əclafdan mən,
İndi ağlım çaşıb tənələrindən.
Gecələr halımı edib pərişan,
İzləyir gündüzlər məni hər zaman.
Tikanlı sözlərdən yaradır könlüm,
Od vurulmuş kimi paradır könlüm.
Elə bil anadan o doğulan dəm,
Tanrı vermiş ona yalnız on dirhəm.
İnsanlıq dərsindən bir hərf də bilmir,
Sanki pul görməsə gözləri gülmür.
Günəş dağ başından hələ çıxmadan
Hər gün qapımızı döyür o nadan.
Bu daşürəklinin əlindən, görən,
Tapılarmı məni xilas eyləyən?
Bu sözdən kövrəldi qəlbi olduqca,
Verdi on dirhəmi xeyirxah qoca.
Fırıldaqçı alıb qızılı həmən
İtdi qızıl kimi bir anda gözdən.
Qocaya bir nəfər dedi: bilirsən
O kimdir, çıxarıb qızıl verirsən?!
Elə kələkbazdır, fırıldaqçıdır,
Ölsə, ağlamasan ona yaxşıdır.
Elə hiyləgərdir görsə şiri-nər,
Min kələklə qoyar üstünə yəhər.
Əbu-Zeydə kələk gələr şahmatla,
Aldadar bir anda vəziri atla.
Qoca qəzəblənib ona dedi: sus!
Dinməsən yaxşıdır sən, ey uğursuz.
Heç insaf deyil ki, dərdli bir insan,



Sənə boyun əysin, boş qaytarasan.
Əgər düz idisə dediyi sözlər,
Qoymadım abırı tökülsün hədər.
Əgər kələk gəlib mənə o nadan,
Yenə tutduğumdan deyiləm peşman.
Hiylə ilə məndən o qızıl alıb,
Çox şükür üzümdə abırım qalıb.
Yaxşıya, yamana payla simü zər,
Sənə xeyir verər, şərri rədd edər.
Ağıllı insanla edəndə söhbət,
Çalış, öyrənəsən yaxşı nəsihət.
Əgər dərin ağlın, huşun varsa, sən
Sədinin sözünə qiymət verərsən.
O çox vaxt danışır belə hallardan,
Bəhs etmir qaş-gözdən, qara xallardan.

## SƏXAVƏTLİ OĞUL

Tərk edib dünyanı getdi bir nəfər,
Oğluna irs qaldı yüz min dinar zər.
Etməyib sandıqda qızılı pünhan,
Geniş bir ürəklə xərclədi oğlan.
Qızıl toplamağa etmədi maraq,
Gəlirdi evinə yoxsullar qonaq.
Süfrəsində olur çox qohum, çox yad.
Hamının qəlbini eyləyirdi şad.
Biri tənə ilə söylədi ona:
Külək tək sovurma pulu hər yana.
Bir ildə düzəlir böyük bir xərmən,
Ona bircə anda od vurarsan sən.
Hər zaman əlində qalmaz bu nemət,
Vardır çox hikmətli doğru hekayət.
Bir zahid oğluna söyləyib: oğlum,
Comərd ol səfərdə, qurbanın olum.
Əlin açıq olsun, səxavət göstər,
Xərclə, sən hər yerdə kəramət göstər.

Uzağı görəndi ağıllı oğlan,
Hörmətlə zahidə deyib: ata can,
Cibini saxlasan əlin boş qalmaz.
Qənaət eyləsən varın azalmaz.
Qızına söyləyib kəndli bir qadın;
Çalış qara günçün məhsulun qalsın.
Kuzən boş olmasın gərək heç zaman,
Həmişə su axmaz kəndin arxından.
Şirin pəncəsini zərlə əzərsən,
Olar o dünyanı almaq zər versən.
Bir anda dostların xərcləyəndə zər,
Dəyər düşmənlərdən sənə çox zərər.
Varın olsa, dostlar qapını açar,
Olmasa, yar-yoldaş yanından qaçar.
Əlin boş olanda yüz qat əyilsən,
Yenə də heç kəsə gərək deyilsən.
Zər olsa cini də tora salarsan,
Divi kor eyləyib, satın alarsan.
Zərlə sevər səni bütün gözəllər,
Zərsiz qaçıb səndən kənar gəzərlər.
Əliboş ümidin tez çıxar boşa,
Zərlə döndərərsən ağ divi daşa.
Varını ovcuna qoysan bir anda,
Çətinlik çəkərsən cib boşalanda.
Yoxsullar səyinlə varlanmaz, ancaq
Düşüb yoxsulluğa qalarsan çılpaq.
Bu sözlər oğlanı yandırdı, yaxdı,
Başında elə bil ildırım çaxdı.
Dedi: gəl eyləmə mənə nəsihət,
Babamdan atama qaldı bu sərvət.
Atam da, babam da getdi həsrətlə,
Qaldım yerlərində mən bu sərvətlə.
Mən getsəm, oğluma çatacaq malım,
Xəsislik eyləyib neçin alçalım.
Verirəm xalqıma bu gün neməti,
Xəsis gizlətməsin sabah sərvəti.



Yaxşı ye, yaxşı gey, yaxşı bağışla,
Səni qarşılasın hamı alqışla.
Ağıllı həm yeyər, həm verər yada,
Həsrətlə can verər xəsis dünyada.

## SƏXAVƏTLİ YOXSUL

Biri xərcləyəndi, sərvəti yoxdu,
Kərəm sahibiydi, qüdrəti yoxdu.
Gərək səxavətli çəkməsin zillət,
Olmasın alçağın əlində sərvət.
Lakin mərd olanlar çatmır murada,
Yüksəlmir, alçalır daim dünyada.
Uca dağ başında sel tutmaz qərar,
Aşır qayalardan tökülür sular.
Odur ki, bu comərd kərəm sahibi
Olmamışdı dinar, dirhəm sahibi.
Çətinliyə düşüb, çəkib dərdi-sər.
Məktub göndərmişdi ona bir nəfər.
Məktubda yazırdı: ey comərd insan,
Pulçun olmuş yerim qaranlıq zindan.
Alicənab adam məktubu alır,
Bir az fikrə gedir, qanı qaralır.
Görür əli boşdur, çəkir qəm, kədər.
Dustağı tutana göndərir xəbər:
Tutduğun dustağı zindandan burax,
Mən zamin olaram düşməsin qaçaq.
Sonra tez o durub gəlir zindana,
Deyir: bu şəhərdən qaç get bir yana.
Əgər sərçə görsə açıqdır qəfəs,
Tez uçar, fürsəti əlindən verməz.
Dustaq külək kimi qaçır bir anda,
Çatmayır tozuna onun tufan da.
Kərəm sahibini tutub deyirlər:
Onu sən bu saat tapmasan, əgər
Pulu verməlisən, heç görən olmuş

Qayıtsın qəfəsdən uçub qaçan quş?
Qaçan tapılmayır, bu comərd insan
Tutulub zindanda qalır bir zaman.
Olur gecə-gündüz həyatı bərbad,
Nə şikayət edir, nə də ki, fəryad.
Bir ağıllı onu görüb deyir: sən
Neçin tutulmusan? Oğru deyilsən.
O deyir: əyrilik bilmərəm əsla.
Bir yazıq insançın çəkirəm bəla.
Kömək edib zamin dayandım ona,
Düşdüm əvəzində qara zindana.
O kərəm sahibi ölürsə, ancaq
Onun yaxşı adı daim qalacaq.
Əgər sağ insanın ölübsə qəlbi,
Yaşayır o canlı bir məzar kimi.
Qəlbi diri olsun insanın gərək,
Can nəyə lazımdır, olmasa ürək.

## ASLAN VƏ ÇOLAQ TÜLKÜ

Biri çolaq tülkü görüb çəməndə,
Dedi: yoxmu, tanrı, ədalət səndə!
Bunun nə əli var, nə də ayağı.
Dolana bilməyir çəməni, dağı.
Görəsən bəs yazıq burda nə yeyir?
Bu an nərə çəkib yetişdi bir şir.
Bir çaqqal ovlayıb gəlmişdi aslan,
Onun qabağından qalan bu ovdan
Tülkü də doyunca yeyərək yatdı.
Çolaq tülkünün də ruzusu çatdı.
Kişi fikirləşdi: haqq verir ruzi;
Odur dolandıran dünyada bizi.
Bir qarışqa kimi girərəm küncə,
Fil də ruzi yemir qüvvətlə məncə.
Evdə boş oturub buraxdı işi,
Ruzini Tanrıdan gözlədi kişi.



Otaqda oturub saydı günləri,
Axırda bir sümük oldu, bir dəri.
Onda zəiflikdən qalmadı nəfəs,
Mehrabın ardından yüksəldi bir səs:
Nə çıxar çolaq bir tülkü olmaqdan!
Çalış, ol qüvvətli igid bir aslan.
Yemə tülkü kimi sürdən-sümükdən.
Güclü aslan kimi get ov gətir sən.
Kimdə aslan kimi olarsa qüvvət,
Çəkməz tülkü kimi heç kəsdən minnət.
Qabaqdan qalana dikmə gözünü,
Qazan, comərd göstər daim özünü.
Qoy səni doydursun çəkdiyin əmək,
Sənə öz hünərin eyləsin kömək.
Yadın çörəyini yeyər müxənnət,
Kişini saxlayar çəkdiyi zəhmət.
Demə başqasına yapış əlimdən,
Ey gənc, zəiflərin sən tut əlindən.
Hər kəsdən amanlıq görsə yer üzü,
Tanrı verər ona həmişə ruzi.
Səxavətli şəxsin olar kamalı,
Xəsis başı boşdur, çoxsa da malı.
Yaxşılıqla salsan gücsüzü yada,
Yaxşılıq görərsən sən də dünyada.

## HATƏMİN SƏXAVƏTİ

Deyirlər ki, Hatəm ilxı saxlarmış,
Onun yel yerişli bir atı varmış.
Qaçışda ildırım, yerişdə yorğa,
Çatmazmış tozuna tufan, qasırğa.
Çöllərə şeh səpər onun qaçışı,
Elə bil yağarmış neysan yağışı.
Keçib dərələrdən coşqun sel kimi,
Düzlərdən ötərmiş güclü yel kimi,
Hatəmin vəsfində eldən-obadan,

Rumda rəvayətlər eşidir soltan.
Deyirlər səxavət əkizdir ona.
Bir atı vardır ki, gəlsə cövlana,
Suda gəmiləri buraxar dalda.
Göydə uçuşana çatmaz qartal da.
Şah dedi: hər sözə sübut lazımdır.
Sübut olmayanda sükut lazımdır.
Hatəmdən atını istəyərəm mən.
Versə bilərəm ki, səxavətindən
Gedən söhbətlərin hamısı düzdür;
Hatəmin kərəmi bir deyil, yüzdür.
Verməsə, bilərəm boş təbildir bu.
Çalınır, ətrafa salır gurultu.
Bir alim kişini eyləyib rəhbər,
Ona yoldaş etdi soltan on nəfər.
Susuz səhralardan gözü dumanlı,
Əzablı yol keçib ürəyi qanlı
Zindərudə çatan susuzlar kimi
Gələrək tapdılar məşhur Hatəmi.
Hatəm bir at kəsib ziyafət verdi,
Gələn qonaqlara çox sərvət verdi.
Gecəni keçirib elçilər, səhər
Şahın istəyini ona dedilər.
Hatəm sərxoş kimi oldu pərişan,
Gözündən od çıxdı, başından duman.
Söylədi: ey adlı-sanlı kişilər!
Dünən bunu demək olmazdı məgər?
O külək yerişli atı kəsib mən
Kabab bişirmişəm sizinçin dünən.
Yağan yağışlardan. çağlayan seldən
Mal gətirmək mümkün olmadı çöldən.
Qapımda yox idi inəyim, kəlim,
Yalnız ata çatdı, qonaqlar, əlim.
Rəva bilmədim ki, qonağım gəlsin.
Ac yatıb, səhər ac yola düzəlsin.
Ellərin içində adım-sanım var.
Atsız da dünyada dolanmaq olar.



Gələn qonaqlara Hatəm zər verdi,
Yaxşılıq eyləyib hörmət göstərdi.
Elçilər Hatəmi çox comərd sandı,
Ona vida edib, Ruma yollandı.
Danışdı Hatəmin səxavətindən,
Rum soltanı ona söylədi əhsən.

## YƏMƏN HAKİMİ İLƏ HATƏMİN DASTANI

Bilmirəm danışıb bu dastanı kim.
Yəmən ölkəsində varmış bir hakim.
Səxavət sahibi, sərvət sahibi,
Olduqca əlaçıq, hörmət sahibi.
Xalq ona deyirdi bulud kərəmi,
Yağış tək səpirdi zəri, dirhəmi.
Yanında çəkilsə Hatəmin adı,
Elə bil sınırdı qolu-qanadı.
Deyirdi: Hatəmdən danışmayın çox,
Onun mənim kimi mülkü, malı yox.
Bir dəfə bu soltan qurur ziyafət,
Sazlar dilə gəlir, başlanır işrət.
Bir nəfər söhbəti açır Hatəmdən,
Danışır ondakı lütfü kərəmdən.
Paxıllıq hakimə göstərir əsər,
Çağırır bir adlı-sanlı dilavər.
Deyir: yaşadıqca Hatəm ellərdə,
Adım yaxşılıqla gəlməz dillərdə.
Heç bir kəs, heç yerdə danışmaz məndən.
Get onun başını ayır bədəndən.
Hatəmi məhv etsin deyə pəhləvan
Silaha qurşanıb çıxır saraydan.
Çox gəzir, rast gəlir gözəl bir gəncə.
Yatır ürəyinə onu görüncə.
Bilikli, xoşsifət, şirindil cavan
Gecə pəhləvanı saxlayır mehman.

Səxavət göstərir, edir çox hörmət,
Oyadır qəlbində sonsuz məhəbbət.
Öpür ayağından, əlindən səhər.
Deyir: burda qalsan bəxtin gülümsər.
Pəhləvan söyləyir: vacib işim var,
Tapşırıq veribdir mənə hökmdar.
Cavan deyir: mənə söyləsən əgər,
O işi görərik bu gün bərabər.
Pəhləvan söyləyir: şübhəsiz ki, sən
Bu sirri kimsəyə açıb deməzsən.
Yəqin tanıyırsan məşhur Hatəmi.
Tutub bu elləri onun kərəmi
Hökmdar göndərib məni Yəməndən,
Başını ayırım onun bədəndən.
Lütf elə, Hatəmi gəl mənə göstər.
Düşməni amansız düşmənə göstər.
Cavan gülüb deyir: mənəm o Hatəm.
Bu qılınc, bu da sən, gəl öldür bu dəm.
Gündüz başlanmamış sən işə başla.
Durmuşam qarşında mən canla-başla,
Pəhləvan bu sözü eşidən kimi,
Titrəyir nanə tək qəlbinin simi.
Hatəmin önündə düşür torpağa,
Deyir: canım olsun sənə sadağa.
Atır qılıncını, atır kamanı,
Deyir: sənin kimi gözəl cavanı
Gül qədər incitsəm, çox pis arvadam.
İgidlər içində mərdliyə yadam.
Hatəmlə öpüşüb yola düzəlir,
At çapıb pəhləvan Yəmənə gəlir.
Baxıb simasından anlayır soltan,
Səfərdən əliboş gəlib pəhləvan.
Şah deyir: işindən mənə ver xəbər,
De, neçin göstərə bilmədin hünər?
Hansı igid sənə eyləyib həmlə,
Döyüşdə taqətsiz düşmüsən belə.
Pəhləvan torpağı öpür hörmətlə,



Deyir çox təmkinlə, çox sədaqətlə:
Hatəmdə mən gördüm elə xoş sifət,
O qədər səxavət, elə mərifət,
Onun mərdliyinə qəlbən inandım,
Etdiyi hörmətdən elə utandım.
Məni qılınc kimi kəsdi ehsanı,
Kim qıyıb öldürər elə insanı?
Pəhləvana qızıl verir hökmran,
Söyləyir: hələlik bu qoca dövran
İkinci Hatəmi yetirməyibdir,
Ellər barəsində çox düz deyibdir:
Hatəm səxavətlə yaranıb əkiz,
Onun kərəmidir sonsuz bir dəniz.

## XƏSİS VƏ OĞLU

Bir nəfər çox xəsis pul yığan vardı.
Yeməzdi, içməzdi, qızıl yığardı.
Nə dost-aşnaya xəbər verərdi,
Nə də özü yeyib xoş gün görərdi.
Qızılı, gümüşü yığıb hər gecə
Küpdə basdırardı yerə gizlincə.
Pusquda dayanır oğlu bir kərə,
Baxır qızılları qoyduğu yerə.
Torpaqda çıxarıb sovurur yelə,
Yerinə daş qoyur çox məharətlə.
Oğlan xəzinəni yeyir müxtəsər,
Qalmayır qızıldan, gümüşdən əsər.
Oğlanda bax belə bədxərclik vardı,
Tez-tez papağını rehin qoyardı.
Ata pul yığandı, oğul xərcləyən.
Ata ac qalandı, övladı yeyən.
Gecəni yatmayıb ata inləyir.
Səhər oğlu gülüb ona söyləyir:
Yeməyə, içməyə sərf olunar zər.
İstər qızıl saxla, daş saxla istər.

Qızılı insanlar çıxarır daşdan.
Yesin, gizlətməsin yardan-yoldaşdan.
Dünya görmüşlərin əllərində zər
Bir parça dəyərsiz kəsəyə bənzər.
Etsən ailənlə sən yaman rəftar,
Sənin ölümünü istəyər onlar.
Damdan da yıxılıb əzilsən əgər,
Çəkməz sənin üçün ailən kədər.
Hər xəsis varlı ki qızıl yığandır,
Xəzinə üstündə yatan ilandır.
Başında olmasa xəsisin ilan,
Yığdığı illərcə qalmazdı, inan.
Əcəlin qılıncı ilanı kəsər,
Özgəyə yetişər o xəzinələr.
Yığma qarışqa tək, dünyada kef çək,
Qəbr içində səni qurdlar yeyəcək.
Sədinin sözləri bir nəsihətdir,
Onun hər kəlməsi dərin hikmətdir.
Yazıq o şəxsə ki, sevmir nəsihət,
Nəsihət sevənlər qazanar sərvət.

## YAXŞILIĞIN SONU

Bir gənc bir qocaya hörmət etmişdi,
Kərəm göstərmişdi, xidmət etmişdi.
Bir gün bədbəxtliyə düşdü bu cavan,
Onu öldürməyə göndərdi soltan.
Yığışıb hər yandan gəldi adamlar,
Doldu başdan-başa küçələr, damlar.
Qoca gördü o gənc olubdur əsir.
Başının üstünü cəlladlar kəsir.
Alicənab şəxsə ürəyi yandı,
Çünki ona hörmət edən cavandı.
Şivən qopardı ki, heyf, öldü soltan,
Qaldı hökumətsiz, hakimsiz cahan.
Qılınc çəkmiş türklər bunu eşitdi,



Şahın ölümünə təəssüf etdi.
Hamının göylərə qalxdı fəryadı,
Vurub üz-gözünə onlar ağladı.
Başlarında alov, dillərində ah,
Gəldilər, gördülər salamətdir şah.
Aradan çıxartdı bu gənci tədbir.
Ağıllı qocanı tutdular əsir.
Qəzəblə şah dedi: söylə görüm sən
Ölüm diləmisən mənimçin nədən?
Qoca cavab verdi: soltan sağ olsun!
Sənin hikmətinlə bu cahan dolsun.
Mən yalandan dedim ölüb hökmran,
Ölümdən qurtuldu bir yazıq insan.
Bu sözlər soltanın xoşuna gəldi,
Qocaya dinmədi, qəlbi kövrəldi.
Üz qoydu qaçmağa o yazıq cavan,
İstədi ölümdən o qurtarsın can.
Biri dedi: kimsə əcəldən qaçmaz,
Ölümdən kim səni eyləyib xilas?
Cavan bu adama söylədi ki, mən
Qurtarmışdım yazıq qocanı dərddən.
Çətinlikdə tutdu o da əlimdən,
Odur xilas oldum vaxtsız ölümdən.
Toxumu insanlar səpir torpağa,
Bir gün o torpaqdan məhsul yığmağa.
Sən eşitməmisən bu sözü yoxsa:
Bir divi öldürüb kiçik bir əsa.
Bu bir hədisdir ki, deyib Mustafa:
Bəxşiş dəf eyləyir insandan bəla.

## ARILAR

Zəhərli arılar evə dolmuşdu,
Bu işdən kişi çox qəmgin olmuşdu.
Arvad dedi: kişi, gəl toxunma sən,
Arılar bu evi edibdir məskən.

Kişi çıxıb getdi, arılar birdən,
Axışıb arvadı sancdı yer-yerdən.
Arvad dama çıxıb eylədi fəryad,
Qışqırıb ərindən istədi imdad.
Kişi dedi: arvad, eyləmə nalə,
Sən saldın özünü bu ağır halə.
Səndən bir yaxşılıq görsə də alçaq,
Sənə yamanlığı artırar ancaq.
Sən xalqı incidən bir zalım görsən,
Vur qılıncla, düşsün başı bədəndən.
Döyüş vaxtı əsgər neyi neyləyər,
Bir nizə min neyə olar bərabər.
Bu məsəl çox gözəl deyilib bişək:
Təpik vuran ata ağır yük gərək.
İt nədir ki, ona açasan süfrə,
Köpəkçin bir parça sümük at yerə.
Pişiyə xoş baxsan göyərçin qapar.
Canavar bəsləsən Yusifi yırtar.
Yaxşılıq eyləsə gözətçi hər kəs
Oğrunun əlindən rahatlıq görməz.
Yaxşı layiq olar mala, hörmətə,
Yaman düşməlidir dərdə, zillətə.
Əgər bir binada olmasa əsas,
Göyə yüksəlsə də faydası olmaz.

## SƏXAVƏTİN GÜCÜ

Bir dəfə keçirdim yol qırağından,
Bir qoyun aparır gördüm bir cavan.
Dedim: öz xoşilə qoyun yol getmir,
Arxanca qoyunu çəkir bu kəndir.
Ansızın gənc oğlan qoyunu açdı,
Qoyun yenə onun dalınca qaçdı.
Qoyunu günlərcə bəsləmişdi gənc,
Sevib məhəbbətlə səsləmişdi gənc.
Yanında keçmişdi körpəlik çağı,



Sanırdı qoynunu ana qucağı.
Gənc dedi: bu kəndir çəkməyir onu,
Verdiyim yemlərdir əyən boynunu.
Filə yaxşı baxsa əgər bir filban,
Fil hücum eyləməz ona heç zaman.
Köpəyə yal versən, tanıyar səni,
Kərəmlə basarsan güclü düşməni.
İki gün yem versən şir aram olar,
Üstünə atılmaz, sənə ram olar.

## TƏMSİL

Yaxşı söyləmişdir Bəhram hökmran,
Səhrada dəyəndə yerə atından:
Əmrimdə olmadı mənim bu köhlən,
Sürüdən başqa at tutmalıyam mən.
Dəclə sakit ikən bağla səddini,
Coşanda azmasın o öz həddini.
Kəməndinə düşdü qurd, vermə aman,
Öldür, azad olsun sürün qorxudan.
Gözləmə səcdəni azğın iblisdən.
Yaxşılıq gözləmə heç zaman pisdən.
Saxla düşmənini sən əndişədə,
Olsun divin yeri gərək şişədə.
İlana rast gəlsən axtarma ağac,
Başını daşla əz tapmasın əlac.
Qələm əhli bədxah olursa əgər,
Qələm deyil, tutur əlində xəncər.
Qanunsuz iş görür əgər bir vəzir,
Səni oda salır tökdüyü tədbir.
Demə, belə vəzir ölkəmə bəsdir,
Sarayda saxlamaq onu əbəsdir.
Sədinin sözünə eyləsən əməl,
Şahlığında olar möhkəm bir təməl.

## ÜÇÜNCÜ FƏSİL

# EŞQ HAQQINDA

### SƏMƏRQƏND GÖZƏLİ

Vardı Səmərqənddə incə bir dilbər,
Dodaqları baldı, sözləri şəkər.
Günəşə bənzərdi o sahibcamal,
Hüsnü gətirərdi dinə min zaval.
Dünya yaranandan belə bir afət
Hələ görməmişdi heç yerdə xilqət.
Yol gedəndə hamı ona baxırdı,
Eşqi könülləri oda yaxırdı.
Onu bir aşiqi izləyən zaman,
Acıqlı baxaraq dedi o canan:
Ey azğın, mən sənə vurulmuşammı?
Ya sənin toruna düşən quşammı?
Geri dön, sən məni izləsən əgər,
Xəncərimlə qanın tökülər hədər.
Birisi söylədi: o qızdan əl çək,
Get axtar özünə başqa bir çiçək.
Sanmıram çatasan bir gün murada,
Qanın itib gedər sənin arada.
Sədaqətli aşiq düşüb məlalə,
Qopardı ürəkdən yanıqlı nalə.
Dedi: yar qılıncı məni məhv etsin,
Al qanım qoy axıb torpağa getsin.
Düşmənin yanında deyilsin barı.
Bunu öz əliylə öldürüb yarı.
Abırım getsə də, öz sevdiyimdən
Ayrıla bilmərəm bir dəqiqə mən.
Mənə söyləmə ki, sevməkdən çəkin,
Gəl özün bu sözü deməkdən çəkin.
Qanımı töksə də dilbər sevgilim,
Yenə razı qalar, inan ki, qəlbim.



Yandırsa atəşdə gecələr məni,
Xoş ətri dirildər hər səhər məni.
Sevgi meydanında duran qoçaqlar,
Sədi eşq yolunda ölsə də sağdır.

### MƏHƏBBƏT

Xoşdur məhəbbətin sevinci, qəmi,
Xoşdur yaraları, xoşdur məlhəmi.
Sevənlər istəməz şahlıq, səltənət,
Səbirlə, ümidlə yaşayar fəqət.
Eşqin badəsinə kim verib könül,
Acılıq duysa da edib təhəmmül.
Aşiqlərə meyin xumarı xoşdur.
Gülzarın həm gülü, həm xarı xoşdur.
Dost yolunda səbir sanma zəhərdir,
Dostun zəhəri də dosta şəkərdir.
Eşqin sərxoşunu qorxutmaz kədər,
Dəvə məst olanda yaxşı yük çəkər.
Aşiqə xoş olur düşsə də bəndə,
Qorxmaz bağlansa da aşiq kəməndə.
Sevər tənhalığı eşqin soltanı,
Ona xoş görünər eşqin hər anı.
Dirilik suyudur sevgi zülmətdə,
Böyük müəmmalar var məhəbbətdə.
Beytülmüqəddəsə bənzəyir aşiq,
Xaraba olsa da saçır nur, işıq.
Aşiqlər bənzəməz ipək qurduna,
Yanar pərvanətək eşqin oduna.
Aşiqin yanında olsa dilaram
Yanar susuzluqdan qəlb, olmaz aram.
Susuzluq aşiqin deyil nisgili,
Sönməz eşq yanğısı axıtsan Nili.
Torpaqdan yaranmış incə bir sənəm,
Alır aramını, verir qüssə, qəm.

Oyaqlıqda salır fitnələr xalı,
Yuxuda incidir səni xəyalı.
Hörmətlə öpürsən ayaqlarından,
Yarsız heç görünər gözündə cahan
Sevgilin edəndə qızıldan həzər,
Sənin nəzərində torpaq olar zər.
Canansız qəlbini sənin heç bir kəs
Oxşayıb bir an da ovuda bilməz.
Gözündür mənzili sevimli yarın,
Göz yumsan, qəlbində olur dildarın.
Aşiqsən, qorxmazsan rüsvay olmaqdan,
Cananın yolunda fəda olmaqdan.
Canını verərsən istəsə canan,
Çəksə qılıncını, keçərsən başdan,
Eşqin binası ki, belə havadır,
Fitnələr saçandır, fərmanrəvadır.
Həqiqi aşiqlər eşqin bəhrində,
Tufanlar qopsa da, üzər dərində.
Aşiqi məst edir eşqin naləsi,
Aşiqçin bir heçdir aləmin səsi.
Canan olan yerdə nəyə lazım can,
Cananla xoş olur aşiqə cahan.
Təbiblər acizdir eşq əlacından,
Aşiqin dərdinə tapılmaz dərman.
Aşiq həqiqətə, haqqa tez qoşar,
Eşqin şərabilə məst olub yaşar.
Əzəldən, Ələstdən bir səs yüksəlir,
Eşqin fəryadıdır hər zaman gəlir.
Aşiqə tənhalıq olur daim xoş,
Ayağı torpaqdır, ürəyi atəş.
Aşiq nərə çəksə, yerdən qopar dağ,
Naləsindən olar şəhərlər torpaq.
Aşiq gah daş kimi eyləyir sükut,
Gah dönür küləyə, gah olur bulud.
Səhərlər yaş axır onun gözündən,
Sanki sellər axır gedir üzündən.
Eşq yolunda çapır gecə atını,



Məhəbbətdən alır qol-qanadını.
Sevəni cəzb edir sevdiyi nigar,
Oxşamaz qəlbini başqa bir dildar.
Gecəsi gündüzdür, gündüzü gecə
Məhəbbət odunu sanır əyləncə.
Aşiqlər unudur iki dünyanı,
Aşiqin sevdiyi canandır canı.

## PALTARI YANAN GÖZƏL

Məclisdə rəqs edir incə bir dilbər,
Ona məftun olur bütün könüllər.
Donunun ətəyi birdən odlanır,
Onu sevənlərin qəlbi tək yanır.
Canan kədərlənir, olur pərişan,
Onun bu halını görüb dostlardan
Biri söyləyir ki, paltarınçın sən,
Neçin dərdə düşüb kədərlənirsən,
Sənin bir ətəyin yanıbsa mənim
Od tutub yanıbdır bütün xərmənim.
Sevənlər bir candır iki bədəndə,
Yar yolunda yarın varı gedəndə,
Özünü düşünüb çəkməz qəm, kədər.
Eşqini düşünər sevimli dilbər.

## HƏQİQİ AŞİQ

Xatirimdədir ki, bir cavan oğlan
Səhrayə qaçmışdı halı pərişan.
Hicrindən atası düşmüşdü dərdə,
Yuxusuz qalırdı il gecələr də.
Etdilər oğlana dostlar məzəmmət,
Dedi: eyləməyin siz mənə töhmət.
Yar çağırdı, oldu məskənim səhra,
Olmaram heç kəsə daha aşina.

Həqqin camalını görəndən bəri
Bir xəyal sanıram bütün göyləri.
Pərişan aşiqçin bir olur fələk,
Ya div bil aşiqi, ya dilbər mələk.
Sevənlər eşqdə olur pəri tək,
Lakin vəhşi kimi həyat sürür tək.
Olur əli gödək, qolu qüvvətli,
Özü sərxoş olur, sözü hikmətli.
Bəzən bir guşədə tənha dolanır,
Bəzən bir məclisdə odlanıb yanır.
Nə qorxur kimsədən, nə sevda bilir,
Həyat aləmini o röya bilir.
Olur ağlı-huşu çox pərakəndə,
Dinləmir nəsihət, töhmət edəndə.
Ördəklər batarmı dəryadə məgər?
Yananda qorxarmı oddan səməndər?
Aşiqdə çox olur səbr, hövsələ,
Gəzir səhraları o, mətanətlə.
Yayınır hər zaman xalqın gözündən,
Danışmaq istəmir əsla özündən.
Meyvəli bir bağdır gətirir çox bar,
Həyat aləmində deyil günahkar.
Aşiqdir sədəfdə pünhan mirvarı,
Coşmayır dərya tək gur dalğaları.
Xoşbəxtsən, qaçma, ol aşiqə həmdəm,
Aşiq div cildində deyildir adəm.
İnsanlıq deyildir sümüklə, ətlə,
İnsan gözəl olmaz gözəl surətlə.
Aşiq bir soltandır çox qüdrəti var,
Olmaz hər kənizə, qula xiridar.
Şehin hər damlası olsaydı gövhər,
İncidə, gövhərdə olmazdı dəyər.
Aşiqçin ən uca dağlar pəst olur,
Bir damla şərabla aşiq məst olur.
Qorxmaz eşq yolunda kəskin qılıncdan,
Aşiq haqdan dönüb qaçmaz bircə an.



## SUSUZLUQDAN ÖLƏN

Biri susuzluqdan can verən zaman
Deyirdi xoşbəxtdir suda boğulan.
Bir yolçu soruşdu: fərq varmı bunda.
Ya quruda ölsün adam, ya suda?
Can verən dedi ki, məqsəd başqadır.
Mənim susuzluğum ancaq eşqədir.
Aşiq ol, cananın ətəyindən tut.
Canını qurban ver, aləmi unut.
O zaman alarsan sən gözəl cənnət –
Məhəbbət yolunda çəksən əziyyət.
Kəndli tum səpəndə çəkir çox zillət.
Xərmən zamanında alır bol nemət.

## GƏLİNİN ŞİKAYƏTİ

Qocaya şikayət edib növcavan
Gəlin, dedi: ərim deyil mehriban.
Keçir bu oğlanla həyatım acı,
Keçir hər dəqiqəm, saatım acı.
Bu mənzildə vardır çoxlu yaşayan,
Heç biri mənim tək deyil pərişan.
Elə mehribandır arvadla əri,
İki canda vardır bir ürəkləri.
Ərim bir dəfə də üzümə gülməz,
Halımı soruşub, dərdimi bilməz.
Dünya görmüş qoca bunu eşitdi,
Əvvəlcə bir anlıq xəyala getdi.
Sonra söylədi ki, ər olsa göyçək,
Ay qızım, sən onun cəfasını çək.
Madam ki tapmazsan elə bir gözəl,
Gərək üzməyəsən o gözəldən əl.
Qəlbini oxşayan canandan qaçma,
Sənə həyat verən insandan qaçma.

## MƏRVLİ TƏBİB

Vardı pəri üzlü bir təbib Mərvdə,
Qaməti, duruşu olmazdı sərvdə.
Eşqin xəstəsinə qaragöz dilbər
Baxıb əhvalından tutmazdı xəbər.
Hekayət eyləyir dərdli bir qərib:
"Cəzb etdi bir zaman məni bu təbib.
Deyirdim: məbada ki, mən sağalım
Onu görmək üçün qoy xəstə qalım.
Çatmaz eşqə ağlın gücü, qüdrəti,
Məhəbbət yaşadır əbədiyyəti".

## MƏCNUNUN SÖZLƏRİ

Bir nəfər Məcnuna dedi: neçin sən
Leylinin kuyuna daha gəlmirsən?
Sənə yad kimidir nazənin Leylin.
Yoxsa sevgilinə qalmayıb meylin?
Bu sözdən ağlayıb Məcnun inlədi:
Ey xacə, yaxamdan əl götür, dedi.
Yaralı könlümü çəkiblər dara,
Yaramın üstündən gəl vurma yara.
Sanma ki, uzaqlıq səbrdən olur,
Elə uzaqlıq var cəbrdən olur.
Dedi müsahibi: ey vəfalı yar,
Leyliyə bəlkə bir sifarişin var?
Məcnun söylədi ki, dost olan yerdə,
Gəl mənim adımı sən çəkmə bir də.

## SOLTAN MAHMUD VƏ AYAZ

Qəznə soltanına dedi bir nəfər:
Məncə Ayaz deyil o qədər dilbər.
Gözəl ətri, rəngi yoxsa bir gülün,
Yersiz sanılmazmı eşqi bülbülün?



Mahmuda bu sözlər yaman toxundu,
Gözlərində onun kədər oxundu.
Dedi: cəzb etməyir qəddü qaməti,
Xoş gəlir Ayazın mənə xisləti.
Dərədə yıxıldı dəvə bir səhər,
Sandıqdan töküldü yerə incilər.
Sürətlə atını Mahmud səyritdi,
Mirvari dağılan dərədən getdi.
Nökərlər gördülər gedibdir Soltan,
Hamı qaçdı yığsın mirvari, mərcan.
Şahın arxasında Ayaz qaldı tək,
Şah görüncə onu oldu sevincək.
Dedi: sünbül saçlım, o incidən sən,
Nə qədər toplayıb yığa bilmisən?
Ayaz dedi: gəldim sənin dalınca,
Mənə min gövhərdən dostluqdur uca.
Nəyimə lazımdır mirvari, inci,
Şahın xidmətidir könül sevinci.
Çox yanlış olardı təriqət əhli,
Haqdan üz döndərsin, haqq bilsin cəhli.
Dostdan gözləyirsən əgər sən nemət,
Dostluq deyil, səni cəzb edir sərvət.
Hər insan tamahçın açsa ağzını,
Eşitməz qəlbilə qeybin razını,
Həqiqət bəzəkli otağa bənzər,
Tamahkarlıq toza, torpağa bənzər.
Nə qədər də iti olsa gözləri,
Görə bilməz insan tozanaq yeri.

## TƏMSİL

Atəşböcəyinə dedilər ki: sən
Neçin gündüz çıxıb işıq vermirsən?
O cavab verdi ki, dostlar, gündüz də
Oluram hər zaman mən bağda, düzdə.
Lakin Günəş çıxır, parlayır göylər,
Mənim varlığımdan görünmür əsər.

## PƏRVANƏNİN EŞQİ

Biri pərvanəyə söylədi ki, sən
Halına münasib yar sevməlisən.
Gəl salma özünü çətin yollara,
Şamın eşqi hara, yazıq, sən hara.
Səməndər deyilsən, atəşə girmə.
İgidliyin yoxdur, döyüşə girmə.
Günəş görsə qaçar yarasa, durmaz;
Ağıllı özündən güclünü vurmaz.
Ağıllı düşməni sevməz heç zaman,
Dost olmaz düşmənlə ariflər, inan.
Əgər canın yanıb gedirsə hədər,
Kim deyər yaxşıdır tutduğun işlər?
Şahdan qız istəsə əgər bir gəda,
Döyülüb qovular, baş tutmaz sövda.
Şahlar məclisini bəzəyən nigar
Sənə vurularmı, olarmı dildar?
Sanma ki, şam gəlib belə məclisə
Uyar sənin kimi yazıq müflisə.
Bütün məclisləri işıqlandırar,
Zavallı, o səni odda yandırar.
Yanıqlı pərvanə cavab verdi: mən
Qorxmuram yanmaqdan, oddan, atəşdən.
Qəlbimdə Xəlil tək bir atəşim var.
Bu alov görünür gözümə gülzar.
Sanma ətəyini çəkir cananın,
Sevgisi ayrılmaz qəlbidir canın.
Sanma öz rəyimlə girərəm oda,
Eşqin zənciridir mənim boynumda.
Sanma yalnız indi alovlanmışam.
Oddan uzaqda da oda yanmışam.
Sevgili aşiqə eyləyəndə naz,
Aşiq zahidlərin sözünə uymaz.
Dostun ayaqları altında ölsəm,
Bunu eyib sanar hansı bir sərsəm?
Cananın yolunda getsə də canım,
Var olsun qoy mənim dilbər cananım.



Əgər yanmağımdan xoşlanırsa yar,
Qoy məni yandırıb kül etsin odlar.
Demə ki, özünə bir həmdərd ara,
Könül vurulmuşdur sevdiyim yara.
Bu ona bənzər ki, əqrəb sancana
Desinlər inləyib düşmə həycana.
Hər kəsə nəsihət əsər eyləməz,
Ona dil tökmək də əbəsdir, əbəs.
Cilovu əlindən gedən yazığa,
Demə asta yeri, batarsan zığa.
Bu söz Sindbadda deyilib gerçək
Ki, sevgi atəşdir, həvəs bir külək.
Küləkdən atəşin qüvvəti artar,
Pələngi vurarsan, hiddəti artar.
Özgəyə yamanlıq eyləsən əgər,
Axırda sən özün çəkərsən zərər.
Çalış sən özündən gözəl yar axtar,
Özün tək insanla sürmə ruzigar.
Xudpəsənd yar tapar özünə bənzər,
Xətərli yerlərdə sərxoşlar gəzər.
Sevda yollarına düşdüyüm andan,
Əl çəkdim dünyada mən başdan, candan.
Həqiqi aşiqsən sən, başından keç,
Başından keçməyən aşiq deyil heç.
İndi ki üstünü alacaq əcəl,
Qoy səni öldürsün sevdiyin gözəl.
Madam ki, dünyada ölür hər insan,
Qoy səni öldürsün nazlı bir canan.
Madam bir gün sənin çıxacaq canın,
Ayağı altında çıxsın cananın.

## ŞAM VƏ PƏRVANƏ

Yuxu gözlərimdən çəkildi axşam,
Eşitdim pərvanə dedi ki, ey şam,
Mən aşiqəm, yansam əgər rəvadır,
Sənin yanmağında nə məna vardır?

Şam ona söylədi: ey havadarım!
Əlimdən getmişdir sevimli yarım.
Bal kimi o şirin yarım gedəndə
Fərhad tək yanaram odlara mən də.
Şamın sellər kimi daşqındı dərdi,
Göz yaşı üzündən axıb gedərdi.
Deyirdi: baxma ki, nur saçıram mən,
Gör necə yaş axıb gedir gözümdən.
Hünərin deyildir sənin məhəbbət,
Səndə nə səbir var, nə də ki cürət.
Sənin bir qanadın od tutur ancaq,
Mən başdan-ayağa odlanmışam, bax.
Sən kiçik şölədən qaçırsan axşam,
Mənsə dayanmışam, yanıram tamam.
Gecə keçmişdi ki, bax, birdən-birə,
Söndürdü şamı da bir pəriçöhrə.
Şam başı tüstülü, kədəri daşqın,
Deyirdi: bax, sonu belədir eşqin.
Aşiqlik istəsən əgər sən, odlan!
Məhv ol, eşq odunda axıradək yan.
Aşiqin qəbrində ağlamaq boşdur,
Şadlıq et ki, ölüm aşiqə xoşdur.
Həqiqi aşiqsən olma mərəzsiz,
Yaşa Sədi kimi kinsiz, qərəzsiz.
Başına od yağsa hər yandan əgər,
Çəkinməz meydandan yenə igidlər.
Çəkinsin, girməsin dənizə insan.
Girdi, qorxutmasın gözünü tufan.



DÖRDÜNCÜ FƏSİL

# TƏVAZÖ VƏ SADƏLİK HAQQINDA

## İNCİ

Buluddan dənizə düşdü bir damla.
Onu utandırdı sahilsiz dərya.
Dedi: dərya olan yerdə nəyəm mən?
Dəryanın yanında heç bir şeyəm mən!
Damla kiçikliyi boynuna aldı;
Bir sədəf damlanı qoynuna aldı.
Gün gəldi bu damla bir inci oldu,
Dilbər gözəllərin sevinci oldu.
Sadəlik göstərib damla alçaldı;
Odur ki, axırda belə ucaldı.

## YOXSUL FƏQİH

Köhnə paltar geymiş fəqih deyirlər,
Qazının evinə gəldi bir səhər.
Keçdi yuxarıda əyləşdi...Qazı
Onun bu halından oldu narazı.
Müərrif yapışıb ətəklərindən,
Danlayıb kişini ona dedi: sən
Bilmirsən yuxarı deyildir yerin?
Axı yoxdu sənin qiymətin, qədrin.
Ya keç aşağıya, ya çıx get burdan,
Yeri rütbəsilə tutur hər insan.
Mənim sözlərimə daha nə hacət,
Yerini bilməyən çəkər xəcalət.
Mövqeyini bilib anlarsa hər kəs,
Xar olub yüksəkdən aşağı enməz.
Pəncən yoxdur sanma özünü aslan,
Böyüklük hər kəsçin deyildir asan.
Yoxsul arif gördü iş düşüb ləngə,

Taleyi girişib onunla cəngə.
Gözündən od çıxdı, başından tüstü,
Aşağı tərəfə keçdi əlüstü.
Məclisdə fəqihlər girişdi bəhsə,
Gurultu qoparıb verdi səs-səsə.
Fitnə qapısını açıb yer-yerdən,
Qarışıqlıq düşdü araya birdən.
Cəngi xoruz kimi hamı vuruşdu,
Qışqırıb hiddətlə, qabardı, coşdu.
Biri sərxoş kimi qəzəblənirdi,
Biri göyə qalxıb, yerə enirdi.
İşə salmışdılar elə bir düyün,
Onu həll eyləmək deyildi mümkün.
Köhnə paltar yoxsul aşağı başdan,
Şir kimi meydana atıldı bir an.
Dedi: ey qanun və şəriət əhli!
Davadan iş çıxmaz, buraxın cəhli.
Dəlildə, sübutda olur güc, qüvvət,
Qanun olan yerdə iş görməz hiddət.
Bilin ki, məndə də var topla çövkan,
Dedilər: çıx danış, bu sən, bu meydan.
Qabağa yeriyib arif təmkinlə,
Danışıb qəlbləri aldı o, ələ.
Oldu sübutları o qədər möhkəm,
Bütün davalara çəkildi qələm.
Hər yandan dedilər ona: afərin!
Doğrudan da varmış böyük hünərin.
Arif söz atını elə oynatdı,
Qazı eşşək kimi palçığa batdı.
Sarığı göndərdi ona hörmətlə,
Mərhəmət göstərib, dedi şəfqətlə:
Bağışla bilmədim mən hünərini,
Aşağıda sandım sənin yerini.
Varkən səndə belə bilik, mərifət,
Yerin yuxarı olmalı, əlbət.
Müərrif sarığı ona verəndə,
Arif işarəylə söylədi: məndə



Olmayıbdır əsla təkəbbür, qürur,
Sarığı başıma qoyma, kənar dur.
Görsə yoxsul dostlar sarıq başımda,
Azad nəfəs ala bilməz qarşımda.
Məni rəhbər bilib etsələr hörmət,
Yoxsullar görərlər məndən həqarət.
Zərdən ya palçıqdan düzəlsin kuzə, –
Bulağın suyu bir görünər bizə.
Ağıl deyil zərli sarığa bağlı,
Kişinin başında olmalı ağlı.
Başdan böyüksə də küdü, balqabaq,
Başlarında beyin yoxdur heç ancaq.
Öyünmə sarıqla, saqqalınla sən,
Sarıq pambıqdandır, saqqalsa tükdən.
İnsana insanlıq verməyir camal,
Büt gözəl görünür, ancaq olur lal.
İnsanın ölçülür yeri hünərlə
Ucalıb nəhs olma, dönmə zühələ.
Həsirin qəmişi ucasa əgər
Daha faydalıdır ondan neyşəkər.
Ardınca yüz kölə getsə də, yenə
Ağlın yoxsa, böyük deməzlər sənə.
Bir dəyərsiz muncuq batmışdı gilə,
Dedi onu inci sayan cahilə:
İpəyə sarıyıb eyləmə zərli,
Məni səndən heç kəs almaz, ay dəli.
Ələfin yanında olsa yüz çiçək,
Yenə ələfliyi qalacaq, gerçək.
Varlı varla yaxşı görünməz, bişək,
Çulu atlas olsa eşşəkdir, eşşək.
Arif kişi dedi öz bildiyini,
Yudu söz suyuyla qəlbindən kini.
Qəlbi inciyənin sözü olur bərk,
Sarsılan düşməni vurasan gərək.
Düşmənin beynini əz fürsət varkən,
Aparar qubarı fürsət ürəkdən.
Qazı bu sözlərin oldu əsiri,

Gözünü yaşartdı böyük təqsiri.
İliyinə qədər bu söz işlədi,
Əlinin dalını möhkəm dişlədi.
Yoxsul arif çıxıb getdi otaqdan,
Gəzdi kimsə ondan tapmadı nişan.
Böyüklər çəkdilər ucadan nərə;
Kafir göyə uçdu, batdımı yerə?
Nəqib soraqlaşıb qaçdı hər yana,
Dedi, kim rast gəlib belə insana.
Dedilər: elə şəxs bizim şəhərdə
Sədidir, yazdığı bütün sözlərdə
Vardır şirinliklə acı həqiqət,
Ona min afərin, ona min hörmət.

## ARİF VƏ SƏRXOŞ

Belə söyləyirlər, sərxoş bir nadan
Tutub bir arifin arxalığından,
Onu yaxalayıb möhkəm vururdu,
Arif dinməyirdi, sakit dururdu.
Yaxınlaşıb ona dedi bir nəfər:
Səndə heç kişilik yoxmudur, məgər?
Yumruqla cavab ver, sən də azğına.
Xoş xislətli arif söylədi ona:
Qızğın arslan kimi sərxoşla heç kəs
Əlbəyaxa olub vuruşa girməz.

## MƏRUF HAQQINDA HEKAYƏ

Mərufda var idi böyük mərifət,
Sadə insanlara edirdi hörmət.
Deyirlər bərk xəstə yoxsul bir insan
Bir dəfə Mərufa gəlibmiş mehman.
O qədər zəifmiş başıdaz qonaq,
Canı asılıbmış bir tükdən ancaq.



Bu kişi Mərufun evində qalır,
Gecə ahü-zarı göyə ucalır.
Naləsindən yata bilməyir heç kəs,
Xəstə başqasını duymaz, düşünməz.
Acıdil xəstənin söyüşlərindən
İnciyir hamının qəlbi dərindən.
O qədər ətrafa o hədyan saçır,
Fəryadından bütün ev xalqı qaçır.
Dayanmaq taqəti olmur heç kəsdə,
Bu evdə bir Məruf qalır, bir xəstə.
Gecələr yatmayır Məruf bircə an,
Çox əziyyət çəkir öz qonağından.
Yuxu ordu kimi hücum edincə
Mərufu bərk yuxu tutur bir gecə.
Yuxuya dalanda onun gözləri,
Yağdırır xəstə bu acı sözləri:
Belə alçaqlara olsun yüz lənət,
Namussuzdur, onda yoxdur mərhəmət.
Əynində olsa da zahid paltarı,
Nə etiqadı var, nə də ilqarı.
O sərxoş ki, alır yuxusundan həzz
Yuxusuz insanın dərdini bilməz.
Bircə an gözünü tutmuşdu yuxu,
Xəstə donquldanıb söydü Mərufu.
Məruf sükut edib vermədi cavab,
Çəkdi hərəm əhli xeyli ıztirab.
Arvadı Mərufa dedi: ay kişi,
Gördünmü nanəcib xəstə dərvişi.
Qov getsin, rədd olsun, başqa bir yerdə
Ölsün, biz qalmayaq qəmdə, kədərdə.
Yaxşılıq, mərhəmət yerində xoşdur,
Pislərə yaxşılıq eyləmək boşdur.
Heyifdir azğınçın yerin, yatağın,
Balışı daş olsun gərək alçağın.
Yamana yaxşılıq etmə heç zaman,
Şoranlıq torpaqda bağ salar nadan.
Demirəm yaxşıya etmə mərhəmət,

Əclaf adamlara eyləmə hörmət.
Qaba adamlarla etmə xoş rəftar,
İtə pişik kimi çəkilməz tumar.
Nanəcib insanın üstə qələm çək,
Qədır bilməyəndən yaxşıdır köpək.
Alçaq yaxşılığı duymaz, anlamaz,
Nə versən alçağa, onu buza yaz.
Elə bir alçağa məncə heç bir kəs
Mərhəmət göstərib yaxşılıq etməz.
Mərufa arvadı edəndə tənə,
Dedi: bu sözləri demə, gəl mənə.
Onun söyüşünü dinləmə, get yat,
Xəstəlikdən yazıq olmayıb rahat.
Dərd ona üz verir, danışır belə,
Dinmərəm, məndə var böyük hövsələ.
Xəstəlik eyləyib onu biqərar,
Neyləyək, belədir xəstə olanlar.
Keyfin kök olanda, halın xoş, gərək
İnsan xəstələrçin yandırsın ürək.
Cansız surət olsan sən tilisim tək,
Ölsən, adın qalmaz cansız cisim tək.
Kərəm ağacını əkən adamlar,
Gün gələr, götürər əkdiyindən bar.
Kim təkəbbür tacı qoymasa əgər
Həyatda hər zaman o xeyir görər.
Hər kəsdə olarsa qürur, nadanlıq,
Xar olar o, görməz heç mehribanlıq.
Varsa da Kərxdə çox məzarıstan,
Mərufun qəbridir dillərdə dastan.

## LOVĞA ŞAGİRD

Bir az nücum elmi bilirdi biri,
Lakin vardı onun çox təkəbbüri.
Qəlbində lovğalıq, başında qürur,
Uzaq yoldan gəlib o məğrur-məğrur.



Guşiyardan bilik almaq istədi,
Onun məktəbində olmaq istədi.
Lakin qürurunu görüb müəllim,
Ona bircə hərf də etmədi təlim.
Səfərdən faydasız geri dönəndə,
Böyük alim ona dedi ki, səndə
Yaman lovğalıq var, bədgümanlıq var.
Bilikdən məhrumdur bütün lovğalar.
Bilikdən başını dolu sanırsan,
Odur boş qayıdıb sən aldanırsan.
Özünü Sədi tək biliksiz bilsən,
Mərifət yığarsan sən xirmən-xirmən.

## HATƏM HAQQINDA HEKAYƏ

Belə söyləyirlər ki, Hatəm kardı,
Sanma bu sözlərdə həqiqət vardı.
Vızıltı qoparıb milçək ilişdi,
Bir səhər hörümçək toruna düşdü.
Pusquda durmuşdu sakit hörümçək,
Toru qənd düşünüb gəlmişdi milçək.
Hatəm baxıb ona dedi: tamahkar!
Sanma ki, hər yerdə şəkər var, qənd var
Axmaqlar aldanar şirniyə, qəndə,
Görməz toru, gedib düşər kəməndə.
Biri söylədi: ey haqq sevən insan!
Belə eşitmişdim, guya sən karsan.
Duydun bir milçəyin səsini belə,
Bizim hamımızdan daha diqqətlə.
Kiçik vızıltıdan oldun xəbərdar,
Sənə bundan sonra deyilərmi kar?
Hatəm gülüb dedi: əzizim mənсə,
Kar ol, qulaq asma ancaq bivecə.
Özümü karlığa vurmasaydım mən,
Xəbərdar olmazdım əsla eybimdən.
Evimdə kim olsa mənə həmsöhbət,

Məni kar biləndə itməz həqiqət.
Bütün nöqsanımı deyər, çəkinməz,
Kar olmasam yaltaq eybimi deməz.
Bilsəm xislətimdə var hansı nöqsan,
Dərk edib düzəldə bilərəm asan.
Pis söz dinləyəndə edərəm həzər,
Nadan məclisinə etmərəm güzər.
Hatəm kimi kar ol yaltağa uyma,
Nalayiq sözləri dərk edib duyma.

## LOĞMAN HAQQINDA HEKAYƏT

Deyirlər ki, Loğman qara sifətdi,
Kobud görünürdü, zahiri bəddi.
Biri öz köləsi sanıb Loğmanı.
Tutub işə salır arif insanı.
Loğman çox əziyyət, çox zəhmət çəkir,
Bir ildə kişiyçin bir saray tikir.
Hardansa kişinin tapılır qulu,
Tutduğu iş ona gəlir qorxulu.
Yalvarır, yaxarır kişi Loğmana,
Loğman gülümsəyib söyləyir ona:
Bir il ürəyimi eyləmisən qan,
Bir saatda necə çıxarım yaddan?
Fəqət təqsirindən keçirəm yenə,
Xeyr işindən zərər gəlməyib mənə.
Səninçin zəhmətlə saray yaratdım,
Hikmətdə özüm də yüksəldim, artdım.
Mənim bir köləm var, ona bu gündən
Daha çətin işlər gördürmərəm mən.
Çəkdiyim zəhməti salaram yada,
Onun həyatını vermərəm bada.
Əziyyət çəkməsə böyükçün hər kəs,
Yanmaz zəiflərçin, o qədir bilməz.
İnciyən güclünün ağır sözündən.
İncitməz zəifi heç vaxt özündən.



## HƏQİQİ AŞİQ

Bir nəfər Sədi tək ürəyi sadə
Verib bir gözəlçin könlünü badə,
Düşməndən cəfalar görürdü hər an.
Kötəkdən olsa da onun bağrı qan,
Acıqlanmayırdı bu işdən ancaq.
Kimsə görməyirdi onda qaşqabaq.
Dedilər ki, arın yoxmudur məgər,
Susursan dəydikcə sənə kötəklər?
Düşmən zərbəsinə miskinlər dözər.
Əlini canından acizlər üzər.
Aşiq cavab verdi elə sözlərlə,
O sözlər layiqdir yazılsın zərlə:
Könlümün mülkünü tutmuş məhəbbət,
Orda yuva sala bilməz ədavət.

## MƏRHƏMƏTLİ QOCA VƏ OĞRU

Təbriz şəhərində bir qoca vardı,
Gecələr yatmayıb oyaq qalardı.
Bir gecə gördü ki, kəməndlə oğru
Dırmaşır sürətlə düz dama doğru.
O, səs-küy qoparıb xalqı oyatdı,
Gələnlər ağaca, daşa əl atdı.
Oğru görüb adam tutub hər yanı,
Qorxuda-xətərdə qalıbdır canı.
Yalnız bir tərəfdən yolu açıqdı,
Sürətlə əkilib aradan çıxdı.
Yumşalıb qocanın qəlbi oldu mum,
Düşündü: oğrunu mən etdim məhrum.
Qaranlıqda dönüb başqa tərəfdən,
Oğruya yanaşıb dedi: dostum, mən
Səndəki cürətə olmuşam heyran,
Hələ görməmişəm sənin tək insan.
İgidlik ikidir: biri düşməni

Mərdliklə əzməkdir, ikinci, səni
Düşmən bürüyəndə qaçmaqdır əlac,
Gərək etməyəsən ömrünü tarac.
Səndə var dediyim bu iki xislət,
Həm çeviklik, həm də yaxşı cəsarət.
Xətadan-bəladan var əmin yerim,
Kərəm qıl, gəl gedək sənə göstərim.
O bir saraydır ki, bağlı hər yanı,
Heç kəsin o yerə gəlməz gümanı.
Qoyum bir-birinin üstə neçə daş,
Çıx mənim çiynimə saraya dırmaş.
Əlinə nə keçdi ordan çırpışdır;
Əliboş dönməkdən məncə bu xoşdur.
Şirin dilə tutub qoca oğrunu,
Öz evinə tərəf apardı onu.
Qəlbi açıq qoca evdə nə vardı,
Oğruyçun tulladı, oğru apardı.
Dedi: qaç, dayanma, ol duman, tüstü,
Canını xətərdən qurtar əlüstü.
Oğru qaçdı, qoca səs-küy qopardı.
Dedi, var-yoxumu oğru apardı.
Oğru dolu getdi, qoca oldu şad
Ki, bir avaranı eyləyib dilşad.
Yaxşının əlindən yaxşılıq gələr,
Yaman adamı da xoşbəxt istəyər.



BEŞİNCİ FƏSİL

# TƏSLİM VƏ İTAƏT HAQQINDA

## TALE VƏ QÜVVƏT

İsfahanda mənim bir dostum vardı,
Yaman döyüşkəndi, həm də əyyardı.
Xına tək qızarar qandan xəncəri,
Kabab eyləyərdi o düşmənləri.
Tərkində olardı hər gün kamanı,
Qığılcım saçardı polad peykanı.
Elə dilavərdi, elə qəhrəman,
Onun qüdrətindən qorxardı aslan.
Elə ki kamanla hərbə gələrdi,
Vurub düşmənləri iki bölərdi.
Qalxanı deşərdi atdığı peykan,
Sanki qızıl gülü deşir bir tikan.
Gəlsəydi döyüşə neçə pəhləvan,
Onun pəncəsindən qurtarmazdı can.
Sərçə tək çəyirtçə ovlayar, gəzər,
Yanında igidlər sərçəyə bənzər.
Pələnglər olmuşdu bir əyləncəsi,
Şirləri əzirdi güclü pəncəsi.
Dağ tək igidlərin o kəmərindən
Tutsa, qaldırardı dərhal yerindən.
Zireh geyimliyə vursa bir təbər,
Yəhərlə bərabər ikiyə bölər.
Belə bir pəhləvan, belə bir insan
Hələ görməmişdi bu geniş cahan.
Arif adamlara edərdi hörmət,
Mənə də qəlbində vardı məhəbbət.
İş belə düşdü ki, səfərə getdim,
O yaxın dostuma mən vida etdim.
İraqdan ayrılıb bir neçə müddət,
Mən Şam şəhərində etdim iqamət.
Gah rahatlıq gördüm, gah zillət çəkdim.

Ümidlə yaşadım, əziyyət çəkdim.
Şamda yaşamaq da bezdirdi məni.
İstədim yenə də görüm vətəni.
Qəzadən dəyişdi yenə səfərim,
İraq ölkəsinə düşdü güzərim.
Bir gecə düşünüb xəyala daldım,
O igid dostumu yadıma saldım.
Onun hicranından sıxıldı ürək,
Düşdü xatirimə keçmiş duz-çörək.
Görüş arzusuyla yola düzəldim,
İsfahana onun yanına gəldim.
Gördüm ki, dostumun halı yamandır,
İki qat bükülüb, beli kamandır.
Qarlı dağlar kimi ağarıb başı,
Axır qocalıqdan gözünün yaşı.
Qüvvətli qəlbinə dağ çəkib fələk,
Onun əl-qolunu bağlayıb fələk.
Çıxarıb başından qüruru dövran,
Hünəri qalmayıb, olub natəvan.
Dedim ki, aslanlar ovlayardın sən,
Qoca tülkü kimi nədən düşkünsən?
Gülüb cavab verdi: tatar davası
Qoymadı başımda döyüş sövdası.
Hər yer qamışlığa döndü nizədən,
Od rəngində gördüm bayraqları mən.
Çökdü gözlərimə qatı bir duman,
Taleyi sönəndə neyləyər insan?
Hücum eyləyəndə mən igidlərə,
Mizraqla üzüyü salardım yerə.
Taleyim etmədi döyüşdə kömək,
Dövrəyə alındım üzük qaşı tək.
Meydandan qaçmağı bildim qənimət,
Nadanlar buraxar əlindən fürsət.
Köməklik etsə də polad cövşənim,
Bəxtimin ulduzu gülmədi mənim.
Qələbə açarı əldə olmasa,
Zəfərin qapısı açılmaz əsla.



Pələnglər sarsıdan güclü bir ordu
Qarşımızda polad dağ kimi durdu.
Gördük ki, göylərə qalxıb toz-torpaq,
Dəmir dəbilqəni eylədik papaq.
Sürdük bulud kimi ərəb atını,
Al qana boyadıq yerin qatını.
Hücuma keçəndə bu iki ləşkər,
Elə bil toqquşdu göylərlə yerlər.
Oxlar dolu kimi döydü hər yanı,
Coşdu hər tərəfdə ölüm tufanı.
Dumandan elə bil yer asimandı,
Qılınclar ulduz tək parladı, yandı.
Piyada rast gəldik atlı düşmana,
Vuruşduq onunla qalxan-qalxana.
Qılıncla, mizraqla döyüşdüksə biz,
Yenə gətirmədi dönük bəxtimiz.
Tale yar olmasa döyüşdə əgər,
Kişilər qüvvətlə necə iş görər?
Bizim qılıncımız olsa da kəskin,
Nədənsə bəxt bizə bəsləyirdi kin.
Odur ordumuzda heç bir pəhləvan
Qalmadı, olmasın qanına qəltan.
Sünbül dəni kimi dağılıb yerə,
Döyüşdə səpildik geniş düzlərə.
Qaçdıq tordan qaçan balıqlar kimi,
Qaldıq ayaq altda yağan qar kimi.
Zindanı deşərdik oxumuzla biz,
İpəyə batmadı dəmir nizəmiz.
Tale üz döndərib olmasa yavər,
Qəza oxlarına neyləyər sipər?
Tanrı bəxş etməsə əgər səadət
Neyləyər qolunda olan güc, qüvvət.
Əgər bəxt olmasa, inan ki, səndə,
Nə mümkün fələki salmaq kəməndə?
Qarışqa məhv olmur zəifliyindən,
Şir güclü olsa da əzilər bəzən.
Hər kəsin fələyə çatmayır əli,

Onun gərdişinə boyun əyməli.
Ömür qalsa, səni nə sancar ilan,
Nə də parçalayar vəhşi bir aslan.
Ömür bitsə, sənə dərman neyləyər?
Olar bircə anda şərbətin zəhər.
Rüstəmin bitmişdi ömrü dünyada,
Gücsüz Şəğad verdi ömrünü bada.

## ƏRDƏBİLLİ PƏHLƏVAN

Bir dəmir pəncəli gənc Ərdəbildə
Hədəfi deşməklə məşhurdu eldə.
Bəhrami-Gur kimi kəmənd atardı.
Bir dağ keçisini dərhal tutardı.
Bir keçə geyimli meydana gəldi,
Onun qarşısında cövlana gəldi.
Ərdəbilli gördü o pəhləvanı,
Ox alıb, tərkindən çəkdi kamanı.
Keçə geyimliyə əlli ox atdı,
Oxların hamısı hədəfə çatdı.
Biri də deşmədi keçəni ancaq.
O keçə geyimli tərpənib qıvraq.
Ansızın əl atdı uzun kəməndə,
Saldı ərdəbilli igidi bəndə.
Birbaş ordugaha gətirib onu,
Əlini bağlayıb əydi boynunu.
Ərdəbilli gecə yatmadı bir an,
Səhər bir gözətçi dedi: pəhləvan,
Oxun dəmir deşər, bunda nə sirr var
Keçə geyimliyə oldun giriftar?
İgid ağlayaraq dedi: heç bir kəs
Əcəlin əlindən qurtara bilməz.
Bir pəhləvandım ki, girəndə hərbə
Zal oğlu Rüstəmə vurardım zərbə.
Bəxtimin gücüylə fili yıxardım,
Bütün döyüşlərdən qalib çıxardım.



Parlaq bəxtim oldu qaranlıq gecə,
Döndü dəmir oldu adi bir keçə.
Əcəl çatsa, deşər nizə cövşəni,
Çatmasa, bir köynək qoruyar səni.
Əcəl qılıncını siyirən zaman,
Cövşən geyinsə də çılpaqdır insan.
Bəxtiyar bir adam olsa da çılpaq,
Onun bədəninə işləməz bıçaq.
Əcəli çatmasa, məhv olmaz nadan,
Arif də qurtarmaz əcəl oxundan.

## XƏSTƏ VƏ HƏKİM

Bir kürd xəstələnib yatmadı gecə;
Həkim baxıb ona söylədi: məncə
Çox meynə yarpağı yeyibdir kişi,
Bu gecə, yəqin ki, bitəcək işi.
Dəysə bir sinəyə iti ox əgər,
Deyil pis yeməkdən mədəyçin betər.
Pis yemək ağrıdıb pozar mədəni,
Xəstəlik illərcə incidər səni.
Həkim həmən gecə dünyadan getdi,
O xəstə sağalıb qırx il ömr etdi.

## ÇİRKİNLİK VƏ BƏZƏK

Çirkin arvadına qoca bir dərviş
Görün bu sözləri nə gözəl demiş:
Çirkin yaratmışdır səni təbiət,
Dəyişməz boyaqla o çirkin surət.
Güclə mümkün deyil olmaq bəxtiyar,
Sürmənin kor gözə nə faydası var?
Yaxşılıq gözlənməz əsla ifritdən,
Mərdlik görünməyib dünyada itdən.
Gəlsə filosoflar Yunandan, Rumdan,

Bal düzəldə bilməz acı zəqqumdan.
Sən daşla silərsən, tutsa güzgü pas,
Lakin daşdan güzgü düzəltmək olmaz.
Tərbiyə versən də vəhşi heyvana,
Xisləti dəyişib dönməz insana.
Söyüddə gül açan bir budaq olmaz,
Zəncini yumaqla üzü ağ olmaz.

## ÇALAĞAN VƏ TƏRLAN

Bir dəfə çalağan dedi: a tərlan,
Mən tək uzaqgörən tapılmaz, inan.
Tərlan dedi: yaman uzaqgörənsən?
Bax, söylə o çöldə sən nə görürsən?
Bir günlük yol qədər havaya qalxdı,
Çalağan yüksəkdən aşağı baxdı.
Çalağan söylədi: mən o səhrada,
İnan ki, görürəm bir dənə buğda.
Bu sözə təəccüb eylədi tərlan,
Yerə şığıdılar çəkmədən bir an.
Elə ki, çalağan yerə yanaşdı,
Caynağına uzun bir ip dolaşdı.
Çalağan düşünüb bilmədi ki, dən
Tələyə salacaq onu qəfildən.
Nə inci alınar hər cür sədəfdən,
Nə də keçə bilər hər ox hədəfdən.
Tərlan dedi: gördün uzaqdan dəni,
Nə fayda, seçmədin ancaq düşməni.
Belə cavab verdi ona çalağan:
Sayıqlıqla qaçmaq olmaz qəzadan.
Birinin qanını tökəndə əcəl,
Qəza göz açmağa verməyir macal.
Üzgüçü nə qədər məğrur olsa da,
Yenə üzə bilməz sahilsiz suda.



# ALTINCI FƏSİL

## QƏNAƏT HAQQINDA

## QAŞQABAQLI ADAM

Bir ağıllı kişi yatırdı xəstə.
Dedilər: filandan get şəkər istə.
Dedi: qaşqabaqlı adamdan dərman
Almaqdansa, ölsə yaxşıdır insan.
Yüz ili xəstəlikdən görsəm əziyyət,
Tutqun üzlülərdən çəkmərəm minnət.
Könül istəyənin ardınca getmə,
Sən öz təmkinini saxla, məhv etmə.
Uyma nəfsə əgər ağlın, huşun var,
Nəfs edir kişini bu dünyada xar.
Qarınqulu olsan, gün gələr ki, sən
Yemək tapmayanda əzab çəkərsən.
Çörəyi bolluqda yesən əgər az,
Çətinlik vaxtında rəngin saralmaz.
Çox yeyən, qarından yük çəkir hər dəm,
Çörək tapmayanda çəkir qüssə, qəm.
Çox yeyən daima xəcalət çəkmiş,
Qarın dar olmalı, ürəyin geniş.
Arvada həddindən çox yaxın durma
Ağlın var özünü qılınca vurma.
Hədsiz olsa əgər işrətə rəğbət,
Səni məhv eyləyər axırda şəhvət.

## QARINQULU HAQQINDA HEKAYƏ

Bu xurmadan şirin hekayəti mən
Ərməğan gətirdim sizə Bəsrədən.
Bir dəfə Bəsrədə olduğum zaman,
Dostlarla keçirdik bir xurmalıqdan.
Yolçular içində bir nəfər vardı,

Çox yeyəndi, sanki qarnı anbardı.
Xurma ağacını görüb dırmaşdı,
Birdən budaq sındı, ağacdan aşdı.
Çıxdı bircə anda bədəndən canı,
Kəndxuda görüncə artdı həycanı.
Dedi: bu kişini kimdir öldürən?
Dedim ki, danışma çox qəzəblə sən,
Qarnıdır ömrünü verən zavalə,
Qarınquluqdan düşüb bu halə.
Hər xurma ağacdan dərilməz asan,
Bəzən xurma üçün məhv olar insan.
Qarın bir zəncirdir bağlayar qolu,
Olmaz qarınqulu Allahın qulu.
Qarışqa əməkdən alır çox ləzzət,
Çox yeyən çəyirtkə çəkməyir zəhmət.
Qəlbini pak elə dünyada ancaq,
İnsanın gözünü doyurar torpaq.

## ŞƏKƏR SATAN

Bir dəfə bazarda dayanıb səhər,
Tabaqda satırmış biri ney-şəkər.
Deyir bir arifə: gəl nisyə al sən,
Əlinə düşəndə pulu verərsən.
Arif verir ona gözəl bir cavab:
Mən şəkər yeməsəm çəkmərəm əzab,
Lakin sən borcunu istəyən zaman,
Ürəyim sıxılar iztirabımdan.
Ağıllı istəməz elə qənd, şəkər
Ki, olsun axırda onunçun zəhər.

## QÜRURLU YOXSUL

Xütəndə bir dəfə böyük hökmdar
Verdi bir yoxsula ipəkdən paltar.
Təşəkkür eyləyib ağıllı insan,



Şaha söylədi ki, var ol, hökmran.
Sənin bəxşişindən şad oldu könlüm,
Sandım ki, açıldı şətarət gülüm.
Dəyərli olsa da, lakin, hədiyyən,
Öz bezim yaxşıdır mənim ipəkdən.
Məsləhət budur ki, quru yerdə yat,
Gəbəyçin əyilmə yerə yeddi qat.

## QARININ PİŞİYİ

Qarının bir acgöz pişiyi vardı.
Bu pişik həddindən çox tamahkardı.
Əmirin qəsrinə getdi o, birdən
Kölələr ox atdı ona yer-yerdən.
Ağır yaralandı, qana bulaşdı,
Pişik can hayında eşiyə qaçdı.
Düşündü: bu oxdan qurtarsaydım can,
Mən öz xarabamda tutardım siçan.
Səni balçın arı sancmamış hələ,
Keçin doşabınla, qənaət eylə.

## AĞILLININ TİKDİYİ EV

Tikdi bir ağıllı kiçik bir bina,
Bir nəfər yanaşıb söylədi ona:
Madam ki, əlində imkan var, nədən
Özünçün gözəl bir saray tikmirsən?
Dedi: çox yüksəlmək boşdur, əbəsdir,
Mənə yaşamaqçın bu ev də bəsdir.
Çayların, sellərin coşqun çağında,
Ağıllı ev tikməz yol qırağında.
Yüksək kaşanələr, uca qəsrlər
Yıxıb dağıtmışdır uzun əsrlər.

# TƏRBİYƏ HAQQINDA

## İBRƏTLİ SÖZLƏR

Dağ ətəyi kimi əyilsən yerə,
Başın əzəmətlə qalxar göylərə.
Saxlasan dilini, ey arif insan,
Sən əziyyət çəkib görməzsən ziyan.
Arif sədəf kimi gec ağız açar,
Ancaq danışanda incilər saçar.
Uzun söz qulağa verər əziyyət,
Zəhləni aparar uzun nəsihət.
Bir an dayanmadan danışsa hər kəs,
Kimsənin sözünü eşidə bilməz.
Hərzəkar, boşboğaz hazırcavabdan
Yaxşıdır düşünüb danışan insan.
Sözü düşünməmiş söhbətə keçmə,
Yüz dəfə ölçməsən, bir dəfə biçmə.
Arpa boyda kiçik bir müşkü ənbər,
Yüz ətirsiz gülə olar bərabər.
Az danışan adam xəcalət çəkməz,
Peşimanlıq görüb, nədamət çəkməz.
Arif ol, söhbəti müxtəsər eylə,
Uzun danışandan qaç, həzər eylə.
Yüz əyri ox atsan olmaz dəyəri,
Bir ox at – hədəfdən getməsin əyri.
Gizlində bir elə söz danışma sən,
Bir gün qızararsan xəcalətindən.
Dörd divar içində eyləsən qeybət,
Sözünü eşidən tapılar əlbət.
Bir şəhər kimidir – sirr saxlar ürək,
Darvazası açıq olmasın gərək.
Ağıllı dilini saxlar dünyada,
Şam dilindən yanar, sovrular bada.



## TƏKƏŞ VƏ QULLARI

Təkəş qullarına bir gün açdı raz.
Tapşırdı, bu sirri danışmaq olmaz.
Sonra məlum oldu açılmışdır sirr.
Edib qullarını Təkəş müqəssir,
Söylədi: sirrimi açdım bir ilə,
Bir anda saldınız siz dildən-dilə.
Sonra da qəzəblə qoparıb fəryad,
Əmr etdi qulları öldürsün cəllad.
Bir qul baş endirib dedi: hökmdar,
Gəl bizi öldürmə, sənsən günahkar.
Əgər o çeşməni bağlasaydın sən,
Sel kimi coşmazdı öz mənbəyindən.
Özün saxlayasan gərək sirrini,
Açmasın başqası ürək sirrini.
Ver xəzinədarda qalsın gövhərin,
Lakin öz qəlbində olsun sözlərin.
Sirr açılmadıqca hünər səndədir,
Sirrin açıldımı – düşmənindədir.
Ürək quyusunda sözü bəndə sal,
Bağla bir div kimi, sən kəməndə sal.
Bir divin əlini açıb buraxsan,
Sanma ki, tutarsan onu çox asan.
Bir div çıxsa əgər dəmir qəfəsdən,
Qayıtmaz o geri, qaçıb məhbəsdən.
Rəxşin yüyənini açar bir uşaq,
Onu tuta bilməz yüz Rüstəm ancaq.
Ömründə zərərli söz demə əsla,
Çəkir insan oğlu dilindən bəla.
Bir nadan kəndliyə dedi arvadı:
Sözünlə özünə güldürmə yadı.
Gərək elə sözün, söhbətin olsun,
Sənə qaytarılsa, taqətin olsun.
Nə əksən tarlanda, onu biçərsən,
Qəlbin təmiz olsa, sözü seçərsən.
Bərəhmən söyləyib bu gözəl sözü:

Hörməti yaradar insanın özü.
Çox oyun oynasan olmaz hörmətin,
Olmaz el içində qədrin, qiymətin
Xislətin tünd olsa, el səndən qaçar
Nə aciz ol, nə də azğın zülmkar.

## ACIDİLLİ OLMAĞIN ZƏRƏRİ

Biri söyüş söydü dava zamanı,
Onu bərk döydülər, göyərdi canı.
Paltarı cırıldı, qaldı lüt-üryan,
Bir ağıllı dedi: ey xudbin insan!
Ağzını yumsaydın əgər qönçə tək,
Sinən yırtılmazdı, yeməzdin kötək.
Tənbur beyinsizdir, danışır hədyan.
Rahatlıq verməyir kimsəyə bir an.
Olmasaydı əgər alovun dili,
Onu söndürməzdi suların əli.
Hünər sahibini göstərir hünər,
Hünərdir gün kimi parlaq bir gövhər.
Xalis müşkün varsa, tərif etmə sən,
Dəyəri bilinir müşkün ətrindən.
Zərgərlər yanında boşdur and içmək.
Zərin saflığını göstərər məhək.
Min böhtan yağdırıb əbləhlər dedi:
Söz duyan əhl adam deyildir Sədi.
Kürküm də soyulsun əynimdən mənim.
Lakin boş sözlərdən getməsin beynim.

## XƏSTƏ OĞUL

Ağır xəstə idi Əzədin oğlu.
Oğlunun halını görüb qorxulu,
Onun rahatlığı yoxdu bircə an.
Əzədə dedi çox arif bir insan:



İstəyirsən oğlun olmasın xəstə,
Azad et quşları, qoyma qəfəsdə.
Əzəd haqq sevəndi, bu sözə baxdı,
Qəfəsdən quşları açıb buraxdı.
Xoşsəsli bir bülbül saxladı bağda,
Bülbülün qəfəsi asıldı tağda.
Oğlu səhər-səhər bağçaya gəldi,
Tək görüb xoşavaz bülbülü, güldü.
Dedi: olmasaydı səndə xoş nəfəs,
Bülbülüm, olmazdı məskənin qəfəs.
Dinməsən toxunmaz sənə heç bir kəs,
Dinəndə sözlərin təsirsiz keçməz.
Susub danışmırdı Sədi bir zaman,
Odur qurtarmışdı tənə oxundan.
Yadın söhbətindən kim olsa kənar,
Onun könül adlı bir həmdəmi var.
Arif ol, eyb açmaq olmasın işin,
Sən öz nöqsanını, eybini düşün.
Dinləmə nadanın boş sözlərini,
Bir çılpaq görəndə yum gözlərini.

## TƏSİRSİZ NƏSİHƏT

Huş əhli sözümə yetirsə diqqət,
Ona xoş görünər etdiyim söhbət.
Bir gün vida edib Beytülhərəmə,
Səfərə çıxmışdım Darüssəlamə.
Bir gecə mən yalnız qaldığım zaman,
Gözümə sataşdı bir qara insan.
Alıb ağuşuna ay üzlü canan,
Gördüm, dodağını dişləyir nadan.
Sanki o ifritdi, qadınsa Bilqis.
Sanki bir mələki qucmuşdu İblis.
Örtüb ağ ipəyi qara bir keçə,
Sanki birləşmişdi gündüzlə gecə.
Yanıb füzulluqdan od tutdu ürək.
Dedim ki, bunları ayıram gərək.

Döydüm o ifriti qızı buraxsın,
Gün çıxsın buluddan, işığı axsın.
Çəkildi gülşənin üstündən duman,
Yumurta qarğanın çıxdı altından.
İfrit qorxusundan qaçdı tez geri,
Lənətlər yağdırdı mənə o pəri.
Dedi: ey nanəcib riyakar insan!
Ey dünyaya uyan gözü dar insan!
İllərdi, könlümü vermişdim əldən,
Can tək sevib ona vurulmuşdum mən.
İndi bişirmişdim o xam tikəni,
Neçin sevgilimdən ayırdın məni?
Qadın bağıraraq söylədi: dəhşət!
Qalmayıb arada mərhəmət, şəfqət.
Bir gənc yoxmu mənim halıma yansın,
Gəlib bu qocadan intiqam alsın.
Eldə həyasızlıq artıb olduqca,
Naməhrəm qadına əl atır qoca.
Bu qadın o qədər səs-küy qopardı,
Həyadan tər yuyub məni apardı.
Ağlım söylədi ki, indi sən gərək
Qabıqdan çıxasan bir sarımsaq tək.
Əngəl baş verməsin deyə qorxudan,
Soyunub lüt oldum çəkmədən bir an.
Qadının yanından qaçdım lüt çılpaq;
Dedim paltar qalsın, qurtulum ancaq.
Bu işin üstündən keçdi bir müddət,
Mənə rast gələrək dedi o afət:
Məni tanıyırsan? Dedim: şübhəsiz!
Hələ bir dəfə də savaşmışıq biz.
Tövbə eləmişəm, inan ki, bir də
Füzulluq etmərəm daha heç yerdə.
Ağıllı elə iş görməz bir zaman,
Böyük zərər çəkib olsun peşiman.
O günkü iş mənə bir ibrət oldu,
O çəkdiyim bəla nəsihət oldu.
Saxla öz dilini ağlın var əgər.
Ya sus, ya Sədi tək saç sözdən gövhər.



## QEYBƏT HAQQINDA

Birisi edirdi dostlarla qeybət,
Ona bir ağıllı verdi nəsihət:
Yanımda pisləmə dedi özgəni,
Onda pis nəzərlə görürəm səni.
Xalqın pisliyini danışan bir kəs,
Nanəcib adamdır, yaxşılıq görməz.

## OĞRU VƏ DÜKANÇI

Bir oğru səhradan Sistana gəldi,
Nəsə almaq üçün dükana gəldi.
Malı əskik verdi baqqal bir çərək
Oğru söylədi ki, ilahi, gərək
Gecə oğruları yanmasın odda.
Baqqal adam soyur gündüz-günorta.
Qorxusu, ürküsü yoxdur kimsədən.
Gecə qorxa-qorxa ev soyuram mən.

## FİRİDUNUN VƏZİRİ

Firidun şahın bir vəziri vardı,
Vəzir həqiqəti yüksək tutardı.
Uzağı görəndi, fikri açıqdı,
Şahın məclisində o yaraşıqdı.
Biri gəlib şaha dedi bir səhər:
Şahım, əsirgəsin səni bu göylər!
Qərəzim yox, budur sözümün sağı,
Sənə bu vəzirin kəsilib yağı.
Ölkəndə nə qədər vardırsa ləşkər,
Hamına borc verir ovuc-ovuc zər.
Deyir: borc alanla belə şərtim var:
Şah öləndən sonra borcu qaytarar.

Bu xain vəzirin sevməyir səni,
Taxtının, tacının olub düşməni.
Şah baxıb qəzəblə dedi: ey vəzir,
Söylə bu nə sözdür dillərdə gəzir,
Əcəba nə pislik etmişəm sənə,
Gizlincə araya salırsan fitnə?
Üzdə görünür ki, dostumsan mənim,
Həqiqətdə sənsən böyük düşmənim.
Vəzir hökmranın öpdü taxtını,
Dedi: uca görüm, şahım, baxtını.
Qoy açıq söyləyim mən, ey şəhriyar!
Bütün xalq olubdur sənə havadar.
Sənin ölümünü şərt qoymuşam mən,
Borcu qaytarmağın əndişəsindən
Sənə gecə-gündüz olunur dua.
Deyirlər, şahımız görməsin bəla.
Ömrü uzun olsun şahın həmişə,
Görməsin heç zaman kədər, əndişə.
Şahın çiçək kimi açıldı üzü,
Yatdı ürəyinə vəzirin sözü.
Vəzirin daha da artdı hörməti,
Artdı şah yanında qədri-qiyməti.
Ancaq peşimanlıq çəkdi fitnəkar,
Çünki cəza verdi ona hökmdar.
Şeytanlıq eyləyib kim ara vursa,
Bəxti üz döndərər, o görər cəza.
Salır nadanlıqdan kim fitnə-fəsad,
Edir iki dostu bir-birinə yad.
Ancaq dostlar yenə birləşən zaman,
O xəcalət çəkir, olur peşiman.
Fitnə atəşini yandıran nadan
Özü də qurtarmaz oddan-alovdan.
Hər kəs Sədi kimi sevsə xəlvəti,
Olmaz bu dünyaya hüsni-rəğbəti.
Haqq sözü deməkdən gəlməz yamanlıq,
Çəkməzsən dünyada sən peşimanlıq.



## XOŞXİSLƏT QADIN

Fərmanında olsa arvadı əgər,
Öz yoxsul ərini padşah eylər.
Yanında olarsa vəfalı yarın,
Elə bil başından aşıbdır varın.
Düşünmə, bütün gün yesən qüssə, qəm.
Var gecə dərdini çəkən bir həmdəm.
Kimin qadını xoş, evidir rahət,
Bil ki, tanrı ona edib mərhəmət.
Arvad olsa əgər həyalı dilbər,
Sanki bir cənnətdə həyat sürür ər.
Kimə yar olubsa incə bir nigar.
Onun ürəyində qalmaz arzular.
Çirkin də, idbar da olsa surəti,
Arvadın xoş olsun gərək söhbəti.
Baxma gözəlliyə, çirkinliyə sən,
Xoşlan arvadının nəcabətindən.
Bədəsil gözəl yox, əsil çirkin al,
Əsillik eyb örtər, gətirməz məlal.
Pis xasiyyət olsa bir pəriçöhrə,
Ömrünü verəcək ərin hədərə.
Ona halva versən, sirkə sanacaq.
Əlindən daima acıqlanacaq.
Dilara bir qadın heç olmaz bədxah.
Bizi pis qadından saxlasın Allah.
Tutiyə bir qarğa olsa həmnəfəs,
Ona zindan kimi görünər qəfəs.
Qaşqabaqlı qadın görməkdən insan.
Xoşdur görsə əgər qaranlıq zindan.
Arvadın pis olsa, bax, budur çarə:
Ya döz, ya dünyanı dolan avarə.
Başmaq ayağını sıxmaqdansa, sən
Daha yaxşı olar başmaqsız gəzsən.
Evində düşürsə hər zaman dava,
Səfər et, görsən də əgər dərd-bəla.
Arvadı çirkinsə, idbarsa əgər,

Kişiyə toy-bayram sayılar səfər.
Hər evdən yüksəlsə qadının səsi,
O evdən uzaqdır şadlıq nəşəsi.
Ey ər, sözlərinə baxmasa qadın,
Sürmə çək gözünə, qadınsan qadın!
Arvadı bazara gedirsə, kişi
Görsün arvad kimi gərək ev işi.
Cahillik edirsə aldığın arvad,
Sən bəla almısan, ey evi bərbad.
Evdən yox olursa əmanət arpa,
İnan, qalmayacaq anbarda buğda.
Kimin ki arvadı qəlbinə yardır,
Haqqın ona böyük nəzəri vardır.
Əgər yad kişiyə gülsə arvadın,
Qalmaz el içində kişilik adın.
Arvadı əllərdə olsa əyləncə,
Ərinin başını əzməli məncə.
Arvad yada baxsa, gərək kor olsun,
Yeri ev olmasın onun, gor olsun.
Namussuz qalmaqdan yaxşıdır ölmək.
Arsız olma, səni qoy udsun nəhəng.
Gördün ki, arvadın evdə deyil düz,
Yaşama onunla, əlaqəni üz.
Baxsa yad kişiyə aldığın arvad,
İnan ki, kişilik olar sənə yad.
Bir yükdür ərinə cəfakar qadın,
Nə xoşdur dünyada vəfakar qadın.
Qadının əlindən dad çəkib hər an,
Deyib bu sözləri iki sərgərdan:
Olmasın heç kəsə qismət pis qadın,
Pis qadın, kaş ki sən yaranmayaydın!
Təzə bir arvad al, ey xacə, hər yaz,
Təzə ildə köhnə qələndər olmaz.
Görəndə qadına vurğun bir insan,
Ona tənə vurma, Sədi, heç zaman.
Bir gözəl qadını alsan qoynuna,
Sən də vurularsan könüldən ona.



## GƏNCİN ŞİKAYƏTİ

Bir gənc bir qocaya hekayət etdi,
Arvadın cövründən şikayət etdi.
Dedi: dəyirmanın alt daşı kimi,
Yüklüyəm, incidir arvad qəlbimi.
Qoca söylədi ki, səbr et, ey cavan!
Xəcalətli olmaz səbr edən insan.
Alt daşı olsan da gündüzlər əgər,
Üst daşı olursan uzun gecələr.
Sənə xoş gəlirsə bir gül, bir çiçək,
Gülşəndə tikanın cövrünü də çək.
Sənə fayda verir ağacın barı,
Onun tikanından incimə barı.

## OĞUL TƏRBİYƏSİ

On birə girəndə oğlunun yaşı,
Qoyma naməhrəmə qarışsın başı.
Pambığa od vursan bir anda yanar,
Göz yumub açınca evin odlanar.
İstəyirsən səndən qalsın yaxşı ad,
Elm öyrət oğluna, qoy olsun ustad.
Oğlunun olmasa ağlı, kamalı,
Sən öldün, neyləyir dövləti, malı.
Əgər öz oğlundan ata çəksə naz,
Oğlun çətinliyə dözümü olmaz.
Oğluna bilik ver, sevdir zəhməti.
Qoy olsun kamalı, ağlı, sənəti.
Oğlunu sevirsən, ta uşaqlıqdan
Onu çətinliyə öyrət hər zaman.
Şagirdə xoş təsir eyləməz kötək,
Ustaddan təhsinlə afərin gərək.
Olsa da Qarun tək varın, sərvətin,
Qoy oğlun işləsin, əziyyət çəksin.
Güvənmə varına, qalmaz o nemət.
Çıxar bir gün əldən yığdığın sərvət.

Qurtarar yığdığın qızıl, gümüş, bax,
Sənətsə tükənməz dövlətdir ancaq.
Hər an bir gərdiş var bu ruzigarda,
Oğlun olsa əgər qürbət diyarda,
Ona çox köməklik eyləyər sənət.
Yadlara əl açıb çəkməz əziyyət.
Sədi nədən gəlib murada vardı,
O nə səhra keçdi, nə dəniz yardı.
Uşaqkən başı çox cəfalı oldu,
Odur ki böyüyüb vəfalı oldu.
Boyun qaçırmasa hər kəs fərmandan,
Bir zaman özü də verəcək fərman.
Ustadın cövrünü görməyən uşaq,
Dövranın cövrünü görəcək ancaq.
Övladı bəsləsə atalar özü,
Olmaz yad əllərdə övladın gözü.
Olmasan övladçün qüssədə, qəmdə,
Övladın avara olar aləmdə.
Əgər bir müəllim olsa bədəsil,
Yetişdirə bilməz bəxtiyar nəsil.
Xətti qaralmamış üzü qaralan
Müxənnəsdən olmaz qəhrəman oğlan.
Gərək o namərddən qaçasan uzaq
Ki, abır tökməkdir peşəsi ancaq.
Oğul qələndərlik eyləsə əməl,
Elə bir oğuldan çəkməlisən əl.
Qəm çəkmə, pis övlad olsa da tələf,
Qoy ölsün atadan qabaq naxələf.
Arif ol, eyb açmaq olmasın işin,
Sən öz nöqsanını, eybini düşün.

## HƏR MƏCLİSDƏ OTURMA

Bir gecə qonaqlıq olmuşdu bizdə,
Müxtəlif adamlar vardı məclisdə.
Yüksəldi mütrübün incə nəğməsi,
Tutdu hər tərəfi dostların səsi.



Bir cananım vardı boyu sənubər,
Ona söylədim ki, ey nazlı dilbər,
Nə olar bizimlə əyləşərək sən,
Şam kimi məclisə işıq verəsən.
Bu sözü eşidib sevimli dildar,
Dedi: hər adamın öz məclisi var.
Kişilər məclisi layiqdir mərdə,
Gözəllər oturmaz o məclislərdə.
Səni məhv eyləyər ev yıxan gözəl,
Arvad ev yığmalı hər şeydən əvvəl.
Olsa hər məclisdə şam kimi canan,
Onun pərvanəsi olma heç zaman.
Heç sevmək olarmı bir qızılgülü
Ki, vardır hər səhər başqa bülbülü?
Gözəl, xoşxasiyyət, sevimli dilbər,
Bir könül oxşayan qönçəyə bənzər.
Bağçada qönçənin vardır səfası,
Açılsa, gül kimi olmaz vəfası.
Bir gözəl olmuşsa könül aldadan,
Huri sayılmasın gərək o şeytan.
Öpsən ayağından, o qədir bilməz,
Üstünə toz atsan, qorxub çəkilməz.
Xalqın övladına salsan kəc nəzər,
Sənin övladına kəc baxar ellər.

## BAŞQASINA NÖQSAN TUTMA

Vardı bir ağıllı fərzanə cavan,
Natiqlikdə mahir mərdanə cavan.
Yaxşı ad qazanmış, haqq tərəfdarı,
Hüsnü andırırdı gülü, gülzarı.
Sərfü nəhvi gözəl bilirdi qoçaq.
"Ş" hərfini o düz demirdi ancaq.
Dedim: düşüb onun qabaqdan dişi,
Odur ki, tələffüz edə bilmir "ş".
Bir ağıllı dostum bərk acıqlandı,

Qəzəbdən gözləri od tutub yandı.
Dedi: bir də bunu eyləmə təkrar,
Onda nöqsan görmə, çox hünəri var.
Qoy sənin beynində qalsın bu sözlər,
Bil ki, eybi açmaq deyil çox hünər.
Hər kimin var elmi, rəyi, tədbiri,
Ayağı sürüşüb getsə də əyri,
Ona bu qüsurçun çox da xor baxma.
Böyüklər söyləyib bunu daima:
Tikan da yetirir, gül də çəmənlər.
Ağıllı tikanı dərməz, gül dərər.
Əgər eyib görmək adət eyləsən,
Tovuzda sən çirkin ayaq görərsən.
Yaxşı nəzərlə bax bu insanlara,
Güzgü göstərməyir ağ üzü qara.
Bir yol tut, olsa da sənə əziyyət,
Xeyirxahlıq görsün səndən cəmiyyət.
Əvvəl gör özünün nə nöqsanın var,
Sonra başqasında sən eyib axtar.
Madam ki, özündə az deyil nöqsan,
Başqasında neçin eyb axtarırsan?
Heç kəslə qabalıq etmə dünyada,
Sən öz qüsurunu düşün, sal yada.
Madam yamanlıqdan gəlməyir xoşun,
Səndə də yamanlıq görməsin qonşun.
Əgər zahirindən görünür iffət,
Onu pis göstərmək deyil məsləhət.
Hamballıq eyləmək öz vərdişimdir,
Yaxşıyam, yamanam, bu öz işimdir.
Gözəlsə, çirkinsə əgər surətim,
Haqdandır, neyləyim, budur qismətim.
Sən get o şəxsə ver pis işçin əzab
Ki, səndən gözləyir yaxşılıq, səvab.
Yaxşılıq dünyada heç zaman itməz,
Tanrı bir yaxşıya verər on əvəz.
Ey oğul, hər kəsdə görsən bir hünər,



Çalışıb göstərmə onu bisəmər.
Bir eyib görəndə yayıb ellərə,
Vurma dünya qədər elmi sən yerə.
Necə ki, Sədinin şerinə yağı
Çalışır nifrətlə vursun göz dağı.
Yüz gözəl beytinə göz yumur düşman,
Görsə bir eybini, qoparır tufan.

## BOQRAT VƏ HƏQİQİ AŞİQ

Bir aşiq sevmişdi incə bir dilbər,
Məhəbbət salmışdı onu dərbədər.
O qədər zavallı tərə batmışdı,
Onu şəbnəm kimi tər islatmışdı.
Boqrat at üstündə yoldan ötərkən,
Soruşdu: bu halə düşübdür nədən?
Dedilər: bir abid kişidir, əsla
Əlindən çıxmayıb yazığın xəta.
Məskəni olmuşdur onun çöl, meşə,
Nədənsə insandan qaçır həmişə.
Könüldən vurulmuş o bir dilbərə,
Odur qəlbi batıb qəmə, kədərə.
Hər kəs buna etsə əgər nəsihət,
Ağlayıb söyləyir: yetər nəsihət.
Belə inləməyim sanma hədərdir,
Məni belə hala salan dilbərdir.
Görəndən o dilbər sevimli yarı
Könlümün qalmayıb artıq qərarı.
Boqrat bu sözləri eşidən zaman
Dedi: məhəbbəti sanmayın asan.
Göz görsə də könül sevməz hər kəsi,
Hərənin bir eşqə olur həvəsi.
Bunun da könlünü o salıb bəndə,
Eşqindən bir taqət qalmayıb təndə.
İncə qəlblilərdir gözələ uyan,

Çin nəqqaşlarıdır gözəllik duyan.
Sədinin hər sətri böyük kitabdır,
Gözəllər üzündə şerim niqabdır.
Necə ki ay olur qara buludda,
Hər qara sətrimdə var aydın məna.
Sədinin sözündə tapılmaz məlal,
Var hər pərdəsində bir sahibcamal.
Hər sözü məclisə yaraşıq verir,
Hərarət gətirir, gur işıq verir.
Düşmən tənəsindən incimərəm mən,
Çünki qızdırmaya düşür sözümdən.



SƏKKİZİNCİ FƏSİL

# SAĞLAMLIQ HAQQINDA

## DUSTAĞIN HALI

Birini salmışdı darğa zindana,
Məhbəs çox sıxıntı verirdi ona,
Gecəni pərişan, ürəyi xəstə,
Dərdlə keçirirdi, qulağı səsdə.
Birdən o yaxında kimsə inlədi,
Dustaq bu naləni eşidib dedi:
Sus, yetər, bu qədər eyləmə nalə,
Söyləmə düşmüsən çıxılmaz halə.
Şükr et, sarılmayıb qolların əbəs,
Məskənin olmayıb qaranlıq məhbəs.
Görəndə özündən dərdli, ələmli,
Göstərmə özünü kədərli, qəmli.

## SAĞLAM BƏDƏN

Bal şirin eyləyər sağlam mizacı,
Lakin can verənin deyil əlacı.
Əgər bir insanda qalıbsa həyat,
Ona fayda verər yediyi nabat.
Hər kəsin bədəndə qalmasa qanı,
Onu sağaldarmı həkim dərmanı?
Hər kimin beynini əzibdir polad,
Səndəl sürtsən, ona eyləməz imdad.
Xətər qılıncını sanma əyləncə,
Qəzanın önündə gəl açma pəncə.
Həzmə versə yeyib-içməyi mədən,
Saf olar ürəyin, sağ olar bədən.
Əgər bir gün mədən pozulsa tamam,
Bütün bədənini incidər təam.
Mizac isti olur, soyuq, yaş, quru,

Bu dörd şeylə artır gözünün nuru.
Bu dörd şeydən biri göstərsə qüvvət,
Bütün mizacını pozar təbiət.
Küləktək əsməsə nəfəsin bir an,
Mədən can evində qaldırar heycan.
Mədə qazanında coşmasa xörək,
Nazənin bədəni saxlamaz ürək.
Ağıllı bir şeydə görsə ziddiyyət,
Çəkinər o şeydən, eyləyər nifrət.
Artmaz çox yeməkdən canın qüvvəti,
Bədən pərvərişdən alır qüdrəti.

## SUMNAT BÜTXANASINDA

Bir gün səfər etdim mən Sumnata.
Orda bir büt gördüm bənzər mənata.
O büt qayrılmışdı fil sümüyündən,
Qəlbi cəzb edirdi baxanda gendən.
Böyük bir rəssamın mahir sənəti,
Gözəl yaratmışdı həmən surəti.
Bu ruhsuz surəti görməkçin hər an
Axışıb gəlirdi nə qədər karvan.
Çinin aşiqləri bu daş sənəmi
Sədi tək sanırdı könül həmdəmi.
Dillilər yığışıb gəlir hər yerdən,
Kömək gözləyirdi o lal dilbərdən.
Mənə təəccüblü göründü bu iş:
Canlılar cansıza edir pərəstiş!
Burda atəşpərəst bir dostum vardı,
Mənə çox yaxındı, qəlbimə yardı.
Yavaşca söylədim ona: bərəhmən,
Bu işdən olduqca heyrətdəyəm mən.
Dilsiz bir sənəmə tapınır hamı,
Belə cəhalətdə keçir əyyamı.
Bütün əli yoxdur, ayağı yoxdur,
Toxunsan yıxılar, dayağı yoxdur.



Diqqət et gözünə, bax, kəhrəbadır.
Bütdən vəfa ummaq məncə xətadır.
Dostum alovlandı dediyim sözdən.
Oldu birdən-birə o mənə düşmən.
Atəşpərəstlərə eylədi xəbər,
Dilin bəlasından çəkdim çox zərər.
İtlər sümük üstə atılar necə,
Gəbrlər üstümə cumdu öyləcə.
Onlar əyri yolu düşünürdü düz,
Qaranlıq gecəni sanırdı gündüz.
Bu bir adətdir ki, arifi nadan
Sanar özü kimi biliksiz insan.
Suda boğulantək tapmadım çara,
Dedim: qoy düşmənlə edim müdara.
İstəsən sağ qalsın başın bədəndə,
Təslim ol nadanı kinli görəndə.
Həmən bərəhmənə dedim: ey ustad,
Böyük şöhrətin var, qazanmısan ad.
Açıq söyləyirəm, bu gözəl surət
Oyadıb qəlbimdə böyük məhəbbət.
Könüllər cəzb olur lətafətindən,
Lakin xəbərsizəm kəramətindən.
Bilirsən ki, qərib mənzildə insan
Hər şeyi dərk edib düşünməz asan.
Sən bu məbədgahın baş xadimisən.
Bütün qüdrətindən, işindən desən,
Bilsəm ki, nə möcüz göstərir sənəm,
Ona mən pərəstiş edərəm hər dəm.
Azğını qaytarar yola ibadət,
Öyrənmək sayılır böyük səadət.
Sevincdən açılıb dedi bərəhmən:
Sənin sualını düz sanıram mən.
Bilmədiyi şeyi soruşsa hər kəs,
Mənzilə düz gedər, yolu itirməz.
Saysız ölkələrə etmişəm səfər,
Bütlər var özündən olur bixəbər,
Bu bütsə göstərir çox möcüzələr,

Əlini uzadır haqqa hər səhər.
Gecəni burada qalmış olsaydın,
Sirri gözlərinlə görərdin aydın.
Qocanın sözüylə mən orda qaldım,
Bijən tək özümü quyuya saldım.
Qiyamət günütək uzun bir gecə
Qəlbimi sıxmağa açmışdı pəncə.
Odpərəstlər bilmir nədir dəstəmaz.
Hamı dəstəmazsız qılırdı namaz.
Keşişlər hamısı gəzirdi murdar.
Sanki bilmirdilər dünyada su var.
Sanki eyləmişdim böyük bir günah,
Onunçun çəkirdim belə bir bəla.
Oldum mən gecəni qəmə mübtəla,
Əllərim göylərdə edirdim dua.
Birdən təbil çalan təbili çaldı,
Banladı xoruzlar, səslər ucaldı.
Gecənin zülmətli qaranlığından
Gündüzün qılıncı sıyrıldı qından.
Səhərin şəfəqi od kimi yandı,
Üfüqlər qızılı rəngə boyandı.
Elə bil döyüşə gəlmişdi tatar,
Hücuma keçmişdi sanki ordular.
Üzünü yumamış kirli gəbrlər,
Çöllərdən, dağlardan gəldilər səhər.
Yığışdı arvadlar, kişilər tamam,
Oldu bütxanada böyük izdiham.
Dayanıb baxırdım qəlbimdə dərd, qəm.
Gördüm ki, əlini qaldırdı sənəm.
Böyük izdihamdan bir səs ucaldı.
Elə bil ki, dəniz gurultu saldı.
Adamlar dağılıb getdi evinə,
Baxıb gülümsədi bərəhmən mənə.
Dedi: işdə artıq müşkül qalmadı,
Həqiqət göründü, batil qalmadı.
Gördüm sarsılmazdır azğının cəhli,



Düzəltmək çətindir belə naəhli.
Haqq söz danışmağa etmədim cürət,
Batildən gizlənsin gərək həqiqət.
Görəndə zalımın qolunda güc var,
Onunla vuruşmaq cəhalət olar.
Hiylədən göstərdim özümü giryan,
Dedim: əməlimdən olmuşam peşman.
Artdı ağlamağa onların meyli,
Daşları qoparar çayların seli.
Kafirlər yanıma gəldi hörmətlə,
Gülər üz göstərdi çox məhəbbətlə.
Mən də üzr istədim onlardan yenə.
Yaxınlaşdım bütün zərli təxtinə.
Əyilib sənəmin öpdüm əlindən,
Qəlbimdə bütlərə lənət dedim mən.
Özümü bütpərəst göstərmək üçün
Yalandan bütpərəst oldum üç-dörd gün.
Gördüm bütxanada olmuşam əmin,
Mən atdım daşını hər dərdin, qəmin.
Bir gecə qapını bağladım bərk-bərk,
Qaldım əqrəb kimi bütxanada tək.
Mən taxtın altına salınca nəzər,
Bir pərdə gördüm ki, tamam zər-zivər.
Pərdənin ardında dayanıb biri,
Tutmuşdu əlində uzun kəndiri.
O zaman mənə bu sirr məlum oldu,
Necə ki Davuda dəmir mum oldu.
Mücavir çəkəndə kəndiri hərdəm,
Əlini göylərə qaldırır sənəm.
Bərəhmən görüncə məni utandı,
Elə bil başına məbəd dolandı.
Sonra qabağımdan qaçdı bərəhmən,
Qovub bir quyuya saldım onu mən.
Bildim ki, sağ qalsa tökülər qanım,
Qanlı pəncəsindən qurtarmaz canım.
Xainin işini duydunmu, dərhal

Çalış fitnəkarı sən ayaqdan sal.
Onu sağ buraxsan, bil ki, cahanda
Qoymaz sağ qalasan səni bir an da.
Qapında qaniçən etsə də xidmət,
Gün gələr, məhv edər səni nəhayət.
Hiyləgər insana uyma heç zaman,
Qovdun, aman vermə ona bircə an.
Xaini məhv etdim çıxmasın səsi,
Məzara girənin qalmaz nəfəsi.
Gördüm qoparmışam böyük bir qovğa,
Qaçdım, dayanmadım daha mən orda.
Əlinlə odlanıb əgər neyistan,
Çəkin ki, üstünə düşməsin aslan.
İlan balasını öldürsən, gerçək,
O evdə qalmayıb köçəsən gərək.
Arı yuvasına əlini vurma,
Yuvanı dağıtdın, qaç, daha durma.
Özündən çevikə ox atma əsla,
Atdın, qaç, durma ki, görərsən bəla.
Sədinin sözünü unutma bir də,
Durma divar dibi qazdığın yerdə.
Orda dayanmadım, qaçdım Hində mən,
Hicazə yollandım keçib Yəməndən.
Duydum acısını mən o yerlərin,
Hələ indi olur təlx ağzım şirin.

## NƏSİHƏT

Çətinlik görməsə dünyada hər kəs
Xoş keçən günlərin qədrini bilməz.
Yoxsul qış günündə çəkir əziyyət,
Varlını qışda da saxlayır sərvət.
Xəstəlik çəkməsə əgər bir nəfər,
Bilməz nələr çəkir dərddən xəstələr.
Olsa hər insanın gücü, qüvvəti,



Əlsiz-ayaqsıza olsun hörməti.
Varlılar yoxsula şəfqət etsinlər,
Gənclər qocalara xidmət etsinlər.
Ceyhun sahilində yaşasa hər kəs
Çağlayan suların qədrini bilməz.
Günəşli çöllərdə susuz qalanlar
Axar su qədrini dərk edib anlar.
Dəclə sahilində olan ərəblər
Tutmaz şorandakı susuzdan xəbər.
Əgər qızdırmaya düşməsə insan
Sağlamlıq qədrini bilməz heç zaman.
Yatsan parğu kimi yataqda əgər,
Sənə cansıxıcı olmaz gecələr.
Bir xəstə görəndə gülməsin üzün,
Xəstəyə gecələr görünər uzun.
Təbil sədasından oyanan xacə,
Bilməz gözətçilər nə çəkir gecə.

## TOĞRUL VƏ KEŞİKÇİ

Bir xəzan gecəsi Toğrul hökmran
Görür ki, küçədə hindli pasiban
Yağan yağışlardan, qardan titrəyir.
Ona rəhmi gəlib hökmran deyir:
Al bu arxalığı, azacıq dayan,
Kürkümü göndərim sənə mən bu an.
Şah öz sarayına qayıdan kimi,
Əsir yavaş-yavaş səhər nəsimi.
Şahın sarayında bir kəniz varmış,
Qəlbinə hakimmiş, bəxtinə yarmış.
Toğrul elə uyur o pərizadə,
Zavallı hindlini salmayır yadə.
Toğrulun verdiyi kiçik paltarmış,
Əyninə olmayır, hindliyə darmış.
Bir yandan soyuğun bərk şiddətindən,

Bir də intizarın əziyyətindən
Hindli əldən düşür; sarayda Soltan,
Qəflətlə kef çəkir yanında canan.
Bir qadın Toğrula söyləyir səhər:
Gecə ağuşunda yatdı bir dilbər,
Daldın sübhə kimi eyşə-işrətə,
Bilmədin yoxsullar düşüb zillətə.
Bir karvan başçısı kef etsə əgər,
Quma batanlardan tutmaz bir xəbər.
Kapitan gəmidə yatsa asudə,
Bilməz zavallılar boğulur suda.
Gəl dalma yuxuya gecə karvanda,
Dəvənin yüyəni qalıb sarvanda.
Yolun dağ yoludur, qumsallıq, daşlıq,
Geri qalanlara eylə yoldaşlıq.
Dağ kimi dəvəyə minib gedirsən,
Piyadələrdən də bir xəbər tut sən.
Budur bax dünyada ən böyük bəla,
Toxun acdan olmur xəbəri əsla.

## BİLİKLİ HƏKİM VƏ LOVĞA ŞAHZADƏ

Bir şahzadə atdan yıxılıb yerə
Zərb ilə dəymişdi boynu yəhərə.
Fil kimi keçmişdi bədənə boynu.
Bu hal əldən-dildən salmışdı onu.
Həkimlər tapmırdı dərdinə dərman,
Böyük bir filosof gəldi Yunandan.
Çalışıb düzəltdi əyri damarı,
Dərddən xilas etdi ağır bimarı.
Tamam sağalınca cavan şahzadə,
Qoca filosofu salmadı yadə.
Bir gün həkim gəldi onun yanına.
Şahzadə baxmadı xoş üzlə ona.



Bu iş filosofa çox ağır gəldi,
Sıxılıb kədərlə yola düzəldi.
Söylədi: boynunu sağaltmışam mən,
Çevirmişdir indi üzünü məndən.
Həkim saraya bir toxum göndərdi,
Udla yandırmağa tapşırıq verdi.
Tumu alan kimi həmən şəhriyar
Əmr etdi ud ilə bir yandırsınlar.
Ucadan asqırdı şahzadə birdən,
Yenə boynu çıxdı əvvəlki yerdən.
Şahzadə həkimçün göndərdi xəbər,
Yüyürüb heycanla gəldi elçilər.
Gördülər həkimdən yoxdur bir nişan,
Döndülər saraya onlar kor-peşman.

DOQQUZUNCU FƏSİL

# QOCALIQ VƏ TÖVBƏ HAQQINDA

## QOCANIN DEDİKLƏRİ

Gənclik zamanında yığışıb gecə
Dostlarla qurmuşduq şən bir əyləncə.
Gül kimi təzəydik, bülbül kimi şən,
Gözəl nəğməmizlə dolmuşdu gülşən.
Fələgin cövründən saçları düm ağ
Bir qoca durmuşdu məclisdən uzaq.
Biz püstə kimiydik dodağı xəndan,
O bir fındıq kimi sakitdi hər an.
Bir gənc gedib ona dedi: ay qoca,
Nədən kədərlisən, qəmlisən bunca?
Burax dərdi-qəmi, gəl bu çəməndə
Əylən cavanlarla, kef elə sən də.
Dünya görmüş qoca baxıb diqqətlə,
Dedi bu sözləri xeyli riqqətlə:
Səhər külləkləri gəzər bağları,
Oynadar həmişə tər budaqları,
Yaz çağı otlarda olur təravət.
Payız yetişdimi, solur təravət.
Bahar ətir verir yaşıl yarpağa,
Saralmış yarpaqlar düşür torpağa.
Ömrümün qışıdır, keçib güllü yaz,
Gənclərlə oturmaq mənə yaraşmaz.
Olmuşam qanadı bağlı bir tərlan,
Gərək öz halımı düşünüm hər an.
Əl çəkdim nemətdən, işrət sizindir.
İndi əylənməyə növbət sizindir.
Başına qondumu qocalıq tozu,
Gülməz gənclər kimi insanın üzü.
Ala qarğa kimi qanadlarım ağ,
Mənə bülbül kimi layiq deyil bağ.
Tovuz cilvələnər, gəzər bağ, çəmən,



Qanadı qırılmış bir şahinəm mən.
Mən nəyəm – saralıb biçilmiş başaq,
Cavanlıq tər-təzə sünbüldür ancaq.
Çiçəklər soldumu, lətafət gedər,
Qalmaz gülüstanda təravət, gedər.
Əsasız büdrəyir ayağım mənim,
Həyat ola bilməz dayağım mənim.
Günəş batan zaman olur sapsarı,
Solur qocanın da gül yanaqları.
Uşaqlar oyuna etsə də həvəs,
Qoca əyləncəyə uymasın əbəs.
Nə gözəl deyibdir bu sözü Loğman:
Ölüm daha xoşdur pis yaşamaqdan.
İstəsən sərmayən getməsin əgər,
Evin qapısını bağla hər səhər.
Gənclər nur saçınca qaranlıq yerə,
Qocalar girəcək qaranlıq qəbrə.

## HƏKİM VƏ QOCA

Həkimin yanına gəldi bir qoca,
Bədəni zəifdi onun olduqca.
Dedi: bir nəbzimi yoxla mənim, bax,
Güclə ayağımı çəkirəm ancaq.
Elə bil batmışam palçığa-zığa,
Bir əlac, bir dərman tap mən yazığa.
Həkim dedi: çatıb son günlərin, sən
Qiyamətdə zığdan çıxa bilərsən.
Qocaldın, bəsləmə gənclik duyğusu,
Qurumuş çaylara gəlməz bir də su.
Gənclik çağlarında tərpəndin zirək,
Qocalıqda sakit yatasan gərək.
Qırxdan keçirdinmi sən öz ömrünü,
Bil ki, həyatının gəlir son günü.
Bir insan ki, güclə çəkir nəfəsi,
Başında qalarmı gənclik həvəsi?

Sevinc ürkür məndən, qəmim qalmışdır.
Başımın üstünü gecə almışdır.
Yaşıl çəmənlərdən nə zövq alım mən?
Çəmənlər bitəcək sabah qəbrimdən.
Seyr edib görmüşük gülü, gülzarı,
Tapdayıb keçmişik bir çox məzarı.
Dolanar fəsillər, gələr bir zaman,
Keçərlər bizim də torpağımızdan.
Boş keçdi gəncliyin günləri, heyhat!
Dönməz bir də geri o keçən həyat.
Ötdü şimşək kimi süratlə dövran,
Əfsus ki, o günlər dönməz heç zaman.
Əfsus, batil işə həvəskar olduq,
Haqdan-həqiqətdən biz kənar olduq,
Tənbəl bir şagirdə deyib müəllim:
Günün hədər keçdi, almadın təlim!
Əfsus, gözəl ömrü çırpmışıq daşa,
Bu son günləri də vurarıq başa.
Səadət mülkündə ömür sürənlər,
Sədinin sözünü sanar bir gövhər.

## DÜŞMƏNLƏR

İki düşmən daim girişir cəngə,
Bənzəyirdi şirlə kinli pələngə.
Onlar bir-birindən ürkürdü hər an,
Sanki başlarına dardı asiman.
Birinin ömrünü qopardı əcəl,
Onu torpaqlara apardı əcəl.
Onun ölümünə sevindi yağı,
Gəldi məzarına bir axşam çağı.
Gördü ki, sarayda ömr edən insan
Gordadır, qəm yağır məzar daşından.
Sevinib xüraman-xüraman gəldi,
Məzarın önündə dayanıb güldü.
Dedi: nə xoşdur ki, düşməni ölsün,



İnsan canan ilə kef edib gülsün.
Düşməndən bir gün çox yaşasa hər kəs,
Onunçun ağlamaq əbəsdir, əbəs.
Bu sözü söyləyib o, kinlə birdən
Bir yekə daş çəkdi təzə qəbirdən,
Gördü ki, düşməni olmuşdur torpaq;
İki gözü baxır, parlayır ancaq.
Qurdlar bədənini yeyib tərtəmiz,
Qalmayıb canından bir nişan, bir iz.
Bədəni o qədər qalıbdır darda,
Sümüyü sürməyə dönüb məzarda.
Vücudu düşübdür elə bir halə,
Fələyin cövründən dönüb hilalə.
Qüvvətli biləyi düşüb qüvvədən.
Bənd bənddən ayrılıb, çürüyüb bədən.
Kişi kövrəklənir mərhəmətindən,
Tökür göz yaşları o riqqətindən.
Elə bil ki, şimşək çaxır başında.
Əmr edir yazılsın məzar daşında:
Ölümə sevinmə, gün gələr sən də
Yatarsan qaranlıq torpaq içində.

## UŞAQKƏN

Uşaqlıq çağında bayram səhəri
Atamla gəzəndə böyük şəhəri
Fikrim əyləncəyə qarışdı, birdən
Atamı itirdim izdihamda mən.
Qorxudan alışdı bağrımın başı,
Ağlayıb inlədim, tökdüm göz yaşı.
Atam yaxınlaşıb dedi: ay bala,
Sənə deməmişəm qalma heç dala?
Hələ dirçəlmədən, boy atmadan sən
Möhkəm tut atanın ətəklərindən.
Nabələd olanlar itirər yolu,
Bələdçi mənzilə gətirər yolu.

Düşün, uşaq kimi sən də körpəsən,
Arif insanların tut ətəyindən.
Öz təmiz adına sən ləkə vurma,
Alçaq adamlarla oturub durma.
Təmiz insanlarla otur hər zaman,
Arifdən görməzsən ömründə ziyan.
Hər kəs ariflərlə oturub-durar,
Cəhlin zəncirini sarsıdıb qırar.
Diqqət ver, körpədən öyrən rəftarı:
İlk addım atanda tutur divarı.
Mərifət xirməni yığmaq istəsən,
Sünbül topla, Sədi kimi işlə sən.

## ATA NƏSİHƏTİ

Çıxmaz xatirimdən ata zəhməti,
Gəlsin haqqın ona böyük rəhməti.
Aldı uşaqlıqda mənə lövh, dəftər,
Bir də qızıl üzük, daşı ləl, gövhər.
Məni bir xurmayla tacir aldatdı,
Onu barmağımdan dartdı çıxartdı.
Dərk edib tanımaz uşaq qaş-daşı,
Bircə şirni ilə aldanar başı.
Sənə bəlli deyil ömrün qiyməti,
Odur ki sevirsən eyşü işrəti.
Ömür dedikləri dəyərli gövhər,
Qoyma ki, işrətlə məhv olsun hədər.

## CƏMŞİDİN SEVGİLİSİ

Öləndə Cəmşidin sevdiyi dilbər
Ona ağ ipəkdən kəfən biçdilər.
Cəmşid yar qəbrini öpməyə gəldi,
Ağlayıb göz yaşı tökməyə gəldi.
Gördü ki, çürüyüb, tökülüb kəfən,



Düşündü, bu sözlər keçdi qəlbindən:
Qurdlardan alınan bu ipək yenə
Məzarda qurdların keçdi çənginə.
Həyat bağındakı bütün gülləri
Sovurur heçliyə əcəl yelləri.
Sönür könüllərdə şirin diləklər,
Yıxır ağacları güclü küləklər.
Bir səhər eşitdim belə bir nəğmə,
Batdı sözlərindən ürəyim qəmə:
Əfsus, biz ölərik, qalar ruzigar,
Ətirli çiçəklər bitirər bahar.
Bir gün biz yatarıq qara torpaqda,
Aşıqlar sevişər, seyr edər bağda.
Məndən sonra çıxar bu Günəş, bu Ay,
Mənim kərpicimdən tikilər saray.

## ZÜLEYXANIN EŞQİ

Züleyxa içərək eşq badəsini,
İtirdi ağlını, iradəsini.
Sarsıtdı qəlbini şəhvət dərindən,
Yapışdı Yusifin ətəklərindən.
Misir xanımının bir bütü vardı,
Onu tanrı bilib uca tutardı.
Tez bir örtük asdı üzündən bütün
Yayınsın pis işi gözündən bütün.
Bir küncdə əyləşib Yusif ələmli,
Şəhvətli qadına baxırdı qəmli.
Öpüb əllərindən, ayaqlarından
Yusifə söylədi: hanı o peyman?
Gəl burax, əzizim, qəmi, məlalı,
Xoş keçin, buraxma eşqi, visalı.
Yusifin üzünə axdı göz yaşı,
Dedi: sanma məni nanəcib, naşı.
Sən utandın bütdən, daş parçasından,
Mən utanmayımmı böyük tanrıdan.

Ömür tələf oldu, qayıtmaz geri,
Peşmanlıq düzəltməz çirkin işləri.
Şərabı içirlər üz qızartmağa,
Mey üzü döndərir sarı yarpağa.
Üzrü bu gün istə, gələndə əcəl,
Sənə danışmağa verməyir macal.

## SƏRXOŞLUQ BƏLASI

Biri taxıl biçib döymüşdü xərmən,
Deyirdi: ruzimi toplamışam mən.
Bir gecə mey içib məst oldu ancaq,
Yandırdı taxılı zavallı axmaq.
Səhər durdu gördü xərməndən çöldə,
Qalmayıb bir dənə sarı sünbül də.
Qəm, kədər bürüdü yoxsul dərvişi,
Bir ağıllı ona dedi, ay kişi,
Uyub sərxoşluğa neçin qudurdun?
Taxıl xərməninə niyə od vurdun?
Xərməni toplayıb sonra yandıran,
Adama söyləyər hər görən nadan.
İlqarı, imanı satıb dünyada
Sovurma öz təmiz adını bada.
Bir bədbəxt çəkəndə əzab, əziyyət,
Olar xoşbəxtlərə bu halı ibrət.
Üzr istə çəkməmiş sən hələ əzab,
Döyüləndə fayda verməz iztirab.
Bu gün varlığını sarmasa qəflət,
Qızartmaz üzünü sabah xəcalət.

## ATA İLƏ QIZ

Gecəni yatmışdım etməkçin səfər.
Böyük bir karvana qoşuldum səhər.
Elə güclü külək qopdu, bir anlıq
Toz-torpaq hər yanı etdi qaranlıq.



Bu karvan əhlindən birinin qızı,
Sildi atasının üzündən tozu.
Atası dedi ki: qızım, bir zaman
Bu torpaqda qopar böyük bir tufan.
Uçar hər zərrəmiz, sovrular düzə,
Əcəl möhlət verməz bir an da bizə.
Uçar külək kimi əcəlin atı,
Olar mənzilimiz torpağın altı.

## SÜMÜK QƏFƏS

Xəbərin varmıdır, ey sümük qəfəs,
Canın bir quşdur ki, adıdır nəfəs.
Quş qaçıb olanda qəfəsdən azad
Onu tuta bilmir bir daha səyyad.
Fürsəti qaçırma, bir andır aləm,
Arifə görünür bu cahan bir dəm.
İskəndər aləmə oldu hökmran.
O getdi, yerində qaldı bu cahan.
İmkan tapmadı ki, versin aləmi,
Qayıtsın ömrünün kiçik bir dəmi.
Getdi, əkdiyini biçdi hər insan,
Bir yaxşı, bir yaman ad qaldı ondan.
Vəfasız dünyaya verməyək ürək,
Dostlar getdi, biz də yollanaq gərək.
Bizdən sonra güllər açar bu bağda.
Olar dostlar yenə kefdə, damağda.
Bu dünya dediyin sevimli dilbər
Kimə həmdəm olsa onu məhv edər.
Ayıl, sarsıtmasın səni bu qəflət,
Sabah fayda verməz çəkdiyin zəhmət.
Şiraza səfərdən qayıtmaq asan,
Təmiz yuyunarsan səfər tozundan.
Vaxt olar unudar səni bu şəhər,
Sən başqa aləmə edərsən səfər.
Axıt gözlərinin çeşməsindən su,
Əgər bir günahın varsa təmiz yu.

## QƏSİDƏ

Nə yara könül ver, nə sev bir diyar,
Dünyada çox torpaq, su, çox insan var.
Şəhər köpəkləri cəfasız olmur,
Çünki tula kimi etməyir şikar.
Təkcə gözəlləri sanma gül üzlü,
Yaşıldır ağaclar, güllüdür gülzar.
Eşələnmə evdə toyuqlar kimi,
Uç göyərçin kimi gəz diyar-diyar.
Ağacdan-ağaca qon bülbül kimi,
Könül tələsində olma biqərar.
Eşşəyə, öküzə yer tapdaq olmuş,
Çünki göylər kimi deyildir dəvvar.
Min gözəl rast gəlsə bax keç yanından,
Vermə heç birinə könül, olma yar.
Çoxlarıyla ülfət eylə, gül, danış,
Birinə bağlansan olarsan bizar.
Uysan da çox uyma xəzə, atlasa,
Çünki xəz və atlas doludur bazar.
Səfər əhli bənzər yeriyən ata,
Olmaz gözü bağlı öküztək bikar.
Kimi varlığını eyləyir əsir,
Kimi xəyalını edir tarümar.
Sən qədir bilənin xidmətində ol,
Qədrini bil, olma nəfsə giriftar.
Bədəsil yarıyla gecələr yatır,
Səhərlər dolanır yarından kənar.
Elə bir adama sən könül versən,
Özün olacaqsan onda günahkar.
Varkən şirin meyvə əlimdə, neçin
Bir ağac əkim ki, acı versin bar?!
Nədən o şad olsun, mən çəkim kədər,
Yatsın o, mən qalım oyaq, biqərar.
Azad insanları eşqin kəməndi
Bir piyada kimi sürüklər, yorar.
Dostunun yükünə kömək edər dost,



Yükləməz dostunu olsa vəfakar.
Dost sənə vəfasız olarsa əgər,
Onunla dost kimi eyləmə rəftar.
Mənim dərdlərimi çəkmirsə biri,
Mən onun dərdindən olmaram bimar.
Mənə cövrü cəfa eyləyirsə dost,
Böyük düşmənimdir yəqin o qəddar.
Nanəcib dost öpsə ayaqlarından,
İnanma, aldadır səni hiyləgər.
İbadət edəndə oğru cib kəsir,
Ovçu dən verəndə quşa tor qurar.
Ömrünü sərf etmə vəfasız yara,
Düşsən yoxsulluğa yanından qaçar.
Bir anlıq zövq üçün düşmə yüz dərdə,
Gecə şərab içən sübh olar xumar.
Bir işi görəndə çox düşün əvvəl,
Sonra peşmanlıqla olmayasan xar.
Necə bütpərəstçin əzizdir bütü,
Sən də öz xalqına ol pərəstişkar.
Ağlın cilovunu nəfsin əlinə
Verib uymaz eşqə, sevgiyə huşyar.
Sevgidən düşmüşəm çox bəlalərə,
İlan vuran adam çatıdan qorxar.
Göz görəndə könül sevər çarəsiz,
Ürək ağla baxmaz, yarı axtarar.
Aşiqə nəsihət, öyüd kar etməz,
Hər şeydən əzizdir sevgili dildar.
Atlının ardınca piyada qaçar,
Ancaq atlı qovsa sürünər naçar.
Nəfsimlə vuruşdum bütün gecəni,
Məni əldən saldı axır bu əfkar.
Düşündüm ki, neçin bir uşaq kimi
Uyum oyuncağa, olum həvəskar.
Az qalmışdı dostdan ayrılıb gedim,
Ürəyim dönmədi, oldum vəfakar.
Dedi bərkə, boşa sən çox düşmüsən,
Min dəfə etmisən tövbə, istiğfar.

Tutdu ətəyimdən dostluq söhbəti,
Dedi öz əhdini unutma qəddar.
Dostun peymanını dost tez unutmaz,
Mürüvvət əhlində olmaz bu kirdar.
Hansı dost dostunun eşqindən dönür,
Yarının sözündən heç dönərmi yar?
Hicranın ürəyi daşdan bərk olur,
Səbr ilə vüsalə yetişir dildar.
Min dərdə təhəmmül eyləsin gərək.
Hər kəsin qəlbində bir yar eşqi var.
Könül dözməlidir hər cür tənəyə,
Gül dərən əllərə tikanlar batar.
Pul nədir, din nədir, dünya nədir ki,
Eylə dost yolunda hər şeyi inkar.
Düşmən səni yardan ayırar, ancaq
Sən öz sevgilindən ayrılma zinhar.
Paxıla, bədxaha fikir vermə heç,
Çalış razı qalsın sevdiyin nigar.
Dostun inciyəndə şad olma əsla,
Dost dosta eyləməz əziyyət, azar.
Demə ki, sevgidən dönərəm, qazı –
İqrardan sonra heç dinləməz inkar.
Təbin dənizindən eşq aləmində
Sevgisiz yaranmaz dürri-şahvar
Məni sanma çox da sadəlövh adam,
Ağıllı hər sözə etməz etibar.
Demə pəhriz edir meyvədən qarı,
Əli çatmır, yalan deyir o kaftar.
Geniş hövsələli, fəqət əli boş
Sanma dost yolunda simüzər saçar.
Şerin saf qızıldan yaxşıdır Sədi,
Cəzb edərmi sənin qəlbini dinar.



# Gülüstan

## MƏRHƏMƏTLİ VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ BAŞLAYIRAM

İzzət və calal sahibi olan Allaha şükür edirəm ki, itaət etməklə ona yaxınlaşır, şükür etməklə öz nemətini artırırsan. Hər nəfəs aldıqca ömür uzanır, hər nəfəs verdikcə ürək şadlanır. Deməli, hər nəfəs almaqda iki nemət mövcuddur və hər nemətə şükür etmək gərək.

Beyt

Məgər əldə dildə var öylə hünər,
Edə xaliqə şükr lazım qədər...

Şeir

Bəndə odur kim bilə təqsirini,
Üz tutaraq Allahına yalvara,
Çünki ona layiq olan xidməti,
Kimsə bacarmaz edə bu dünyada.

Onun hesabsız rəhmət yağışı hər yerə yağmış, əsirgəmədiyi nemət süfrəsi hər yerə yayılmışdır. Öz bəndələrinin namus pərdəsini balaca günah üçün parçalamaz, səhvən onu inkar edənləri də ruzisiz qoymaz.

Şeir

Ey kəramət sahibi, başı bağlı xəznəndən,
Tərsayə də, gəbrə də bol-bol ruzi verirsən.
Düşmənlərə sən belə nəzər salan zamanda,
Unutmazsan yəqin ki, dostlarını bir an da.

Fərş sahibi, Səba yelinə əmr etdi ki, öz yaşıl fərşini Yer üzünə sərsin, bahar buludunun dayəsinə də buyurdu ki, bitkilərin qızlarını yer beşiyində boya-başa çatdırsın. Ağaclar Novruz xələtilə yaşıl paltara bürünüb, yaz mövsümünün gəlişilə budaqlarının balaları başına çiçək papağı qoydu. Onun qüdrətilə şirinlik yarandı, xurma toxumu cücərib gözəl ağaca çevrildi.

Şeir

Bulud, külək, qəmər, günəş fələk daim işdədir
Ki, bir qarın çörək tapıb sən yeyəsən ləzzətlə.
Hər şey olmuş sənin üçün hərəkətdə, fərmanda,
Düzgün olmaz sən vaxtını keçirəsən qəflətlə.

Belə xəbər verirlər kainatın başçısı, bütün mövcudatın iftixarı, aləmin qoruyucusu, insanların hamisi, zamanın son peyğəmbəri Məhəmməd Mustafa – Allah onu salamət etsin.

Beyt

Şəfaətli, itaətkar, kəramətli peyəmbər,
Ədalətli, şücaətli, mürüvvətli peyəmbər.

Beyt

Ümmətinin nə dərdi var sən tək arxa olan zaman,
Nuh gəmiçi olan yerdə qorxmaz heç kəs tufanlardan.

Beyt

Əngin fəza kəmalıdır, Günəş bənzər cəmalına,
Gözəlliyin cəlalıdır, alqış ona və alına*.

Əgər günahkar və halı pərişan olan bir bəndə ümidlə o yüksək cəlallı həqqin dərgahına yalvarış əlini qaldırıb raz-riyaz etsə, böyük yaradandan etina görmədikdə yenə əl qaldırıb ah-nalə ilə ondan kömək istəsə, Allah-taala buyurar: mənim qulumun məndən başqa köməyi olmadığından onun istəyini yerinə yetirdim, arzusuna çatdırdım ki, öz bəndəmin bu qədər yalvarışından xəcil oldum.

Beyt

Gör nə qədər Allahda vardır lütfü kəramət
Bəndə günah eyləmiş, osa çəkir xəcalət.

Onun cəlal Kəbəsində bir guşəyə çəkilib ibadət edənlər özlərinin layiqincə ibadət edə bilmədiklərin etirafla, camalının gözəlliyini vəsf

* *al* – ailə, yaxın adamlar



edənlər heyrət içində qalıb demişlər: biz sənin mərifətini layiqincə dərk edə bilmədik.

Şeir

Kim sorsa Allahın vəsfini məndən,
Nişansız varlığı bilərmi bir kəs?
Aşiqlər məşuqun ölmüşləridir,
Çıxmaz, şübhəsiz ki, ölmüşlərdən səs.

Ariflərdən biri başını aşağı salıb fikir dəryasına qərq olmuşdu, elə ki, düşüncədən ayılıb özünə gəldi, dostlardan biri soruşdu:

– Getdiyin bostandan bizə bir hədiyyə ver.

O dedi:

– Gedəndə yadımda idi ki, əgər gül ağacına çatsam, ətəyimi doldurub dostlara hədiyyə gətirəcəyəm. Lakin elə ki, bostana çatdım, gülün ətri məni o qədər məst etdi ki, ətəyimdən belə tuta bilmədim.

Şeir

Ey mürği-səhər eşqi bu pərvanədən öyrən,
Yandısa canı çıxmadı ondan yenə avaz.
Bu müddəilər bilməyir əsla nə xəbərdir,
Kim tutsa diləkdən xəbər, ondan xəbər olmaz.

Şeir

Ey xəyaldan üstün olan sirri bilinməz qüdrət,
Çox dedilər, çox eşitdik, çox oxuduq, nəhayət,
Məclis bitdi, ömür çatdı başa biz də qocaldıq,
Lakin yenə biz əvvəlki nöqtədə donub qaldıq.

## ATABƏY ƏBUBƏKR İBN SƏDİN TƏRİFİ[1]

Sədinin gözəl tərifinin dillərə düşməsi, şair avazəsinin dünyaya yayılması, şirin hekayələrinin ağızda şəkər dadıb əsərlərinin hər yarpağının qızıl vərəqi tək əldən-ələ gəzməsi, onun öz fəzilət və sənətkarlığının yetkinliyindən deyil, bəlkə cahanın hökmdarı, zəmanənin

[1] Üzərinə nömrə qoyulmuş ad və beytlər kitabın sonunda izah edilmişdir.

sərdarı, Süleyman taxtının varisi və iman sahiblərinin hamisi, şahlar şahı Atabəy Müzəffərəddin Əbubəkr ibn Səd ibn Zənginin[1] (yer üzündə Allahın kölgəsi odur. İlahi, ondan razı ol və könlünü şad elə!) Ona mərhəmət nəzərilə baxıb, sənətinə yüksək rəğbət və həqiqi məhəbbət bəsləməsindəndir. Xalqın da ona dərin məhəbbəti bu səbəbdəndir.

Ş e i r

Mənə ki, salırsan belə xoş nəzər,
Günəşdən məşhurdur yazdığım əsər.
Olsa da qulunda çox eybü nöqsan,
Hünərdir hər eybi bəyənsə sultan.

Ş e i r

Keçən gün hamamda ətirli bir gil,
Yetişdi əlimə bir dost əlindən.
Soruşdum müşksən, yainki ənbər
Ki, belə məst oldum sənin iyindən.
Dedi ki, yararsız bir palçıq idim,
Bir müddət gül ilə etdim nişimən.
Mənə dost kamalı eyləmiş təsir,
Yoxsa ki, yararsız haman giləm mən!

Allah Şiraz torpağını adil hökmdarların gücü və işgüzar alimlərin himmətilə dünya durduqca əmin-amanlıqda saxlasın.

Yəqin bu Pars mülkünə toxunmaz afəti-dövran
Ki, salmış başına sayə sənin tək sayeyi-yezdan.
Tapa bilməz yəqin hər kəs gəzərsə cümlə dünyanı,
Sənin dərgahi-alin tək ki, versin dərdinə dərman.
Özünsən arxası hər bir zavallı bəndənin daim,
Görüm versin mükafatın sənin ol xaliqi-keyhan.
Bu xaki-Parsı sən saxla ilahi badi-afətdən,
Nə qədri abü xak olsa cahanda baqi, cavidan.



## KİTABIN YAZILMASININ SƏBƏBİ

Bir gecə keçən günləri xatırlayıb hədər getmiş ömrümə təəssüf edir, könlümün saray daşını göz yaşımın almaz dənələrilə deşir, öz halıma münasib olan bu beytləri deyirdim:

Ş e i r

Ömürdən gedir bu keçən hər nəfəs
Baxıram ətrafa qalmamış bir kəs.
Ey yatan əlli il qəflətdə bütün,
Qoyma ki, boş keçə bu qalan beş gün.
Utansın o kəs ki, ömrü puç etdi,
Dünyadan köçəndə xəcalət getdi.
Köç vaxtı səhərin şirin yuxusu.
Qoyar piyadəni yoldan, doğrusu.
Hər gələn dünyada bir bina saldı
O getdi, mənzili özgəyə qaldı.
Çoxları dünyaya göstərdi həvəs.
Tikdiyi binada qalmadı bir kəs.
Vəfasız dünyaya meyl etmə, zinhar.
Dostluğa yaramaz bu köhnə qəddar
İndi ki, öləcək pis də, yaxşı da.
Xoş ona ki çatdı yaxşı bir ada.
Bir yarpaq göndər öz qəbrinə bu gün
Ki, sonra göndərmək deyildir mümkün.
Dövran bir günəşdir, ömür isə qar
Hələ gör xacədə necə qürrə var?
Ey pulsuz bazara gedən sərsəri,
Qorxuram əliboş dönəsən geri.
Sütülkən kim yesə əkinin hər il,
Başşaq toplayacaq xirmən üstü bil.

Bu düşüncələrdən sonra belə qərara gəldim ki, xəlvət bir guşəyə çəkilib heç kəslə söhbət etməyim, sinə dəftərimi mənasız sözlərdən təmizləyib, daha hədərən-pədərən danışmayım.

B e y t

Qalıb bir guşədə sakit danışmaz olsa bir insan,
Daha xoşdur, açıb dil boş, ləyaqətsiz danışmaqdan.

Elə bu zaman vaxtilə kəcavədə həmnişinim[4] və hücrədə həmdəmim[4] olan dostlarımdan biri qabaqkı adəti üzrə qapımdan içəri girdi. O, nə qədər gülüb-danışıb, zarafat etdisə, cavab vermədim və başımı ibadətdən qaldırmadım. İncik nəzərlə məni süzüb dedi:

Şeir

Bu gün mümkün ikən danışmaq sənə,
Dil ac, qardaşım, söylə, xoşluqla din!
Əcəl peyki bir gün yaxandan tutar,
Zərurət üzündən susarsan, yəqin.

Yaxın adamlarımdan biri vəziyyəti görüb, dostumu başa saldı ki, filankəs qalan ömrünü dünyada guşənişinliklə keçirib, tənhalıq və sükutla başa vurmağı qərara almışdır. Əgər bacarırsan, sən də öz başının çarəsini qıl, nə məsləhət bilirsənsə elə də et.

Dedi:

– O böyük izzətə və qədim səmimiyyətə and olsun, əgər o, mənimlə həmişəki kimi dostcasına danışmasa, əl çəkib, ayaq geri qoymayacağam. Çünki dostun könlünə dəymək nadanlıqdır. İçdiyi andın günahını isə asanlıqla yuya bilər. Onun seçdiyi bu yol düz yol deyil, ağıllı adamlar rəva bilməzlər ki, Əlinin zülfüqarı qınında, Sədinin sözü qəlbində qalsın.

Şeir

Nədir dil ağızda, ey ağlı olan,
Hünər xəznəsinə açardır inan.
Əgər bağlı olsa, kim anlar ki, o,
Cavahir satandır, ya muncuq satan.

Şeir

Ədəb sayılsa da məclisdə susmaq,
Məsləhət zamanı danışmaq gərək.
İki şey ağıla nöqsan sayılır,
Yersiz susmaq ilə yersiz söz demək.

Nəhayət, onunla danışmaqdan boyun qaçırıb, üz döndərməyə insafım yol vermədi, o mənim ən yaxın dostum və sədaqətli sirdaşım idi.



Beyt

Necə vuruşasan, o adamla sən
Ki, onun üzündən keçə bilmirsən.

Onunla söhbət etməyə məcbur oldum. Qalxıb gəzə-gəzə seyrə çıxdıq. Bahar fəsli idi, şaxtalı soyuqlar zamanı keçmiş, qızılgül dövranı çatmışdı.

Nəzm

Ağaclar üstündə yarpaq köynəyi,
Bayram paltarıdır şadlıq bağında
Birinci günüdür Ordibehiştin,[5]
Bülbüllər oxuyur gül budağında.
Qızılgül üzünə al şəbnəm qonmuş.
Sanki tər düzülmüş yar yanağında.

Gecəni dostlarımızdan birinin bağında keçirməli olduq. Gözəl və səfalı bir yer idi. Ağaclar baş-başa vermiş, sanki torpağına mina zərrələri səpilmiş, budaqlarına ulduz dənələri asılmışdı.

Şeir

Cənnəttək bir bağdır, cağlayır sular,
Quşların səsilə dolmuşdur hər yan.
Al-əlvan lalələr bəzəmiş yeri,
Meyvələr doldurmuş bağı firavan.
Külək ağacların kölgəliyində.
Rəngbərəng fərşləri döşəmiş əlvan.

Səhər açılanda qayıtmaq arzusu qalmaq istəyinə üstün gəldi, dostumun ətəyini cürbəcür güllər və çiçəklərlə doldurub, şəhərə aparmaq istədiyini gördüm. Ona dedim:

– Özün bilirsən ki, gülün davamı, gülüstanın isə vəfası yoxdur. Atalar yaxşı demişlər: ömrü az olan şeyə könül bağlamağa dəyməz.

Dedi:

– Nə etmək lazımdır?

Dedim:

– Oxuyanlara səfa, eşidənlərə şəfa verən "Gülüstan" adlı bir kitab yazmaq lazımdır ki, heç bir xəzan yeli onun yarpaqlarına əl vura bilməsin və zamanın gərdişi onun nəşəli baharını boranlı qışa çevirə bilməsin.

Şeir

Nəyinə lazımdır gül tabaq-tabaq,
Gəl, "Gülüstan"ımdan apar bir varaq.
Gül beş-altı günə saralıb-solar,
Mənim "Gülüstan"ım daim xoş olar.

Mən bu sözləri deyən kimi dostum ətəyindəki gülləri yerə töküb, ətəyimdən yapışdı və dedi:

– Kişi vədinə vəfa etməlidir.

Elə həmin gün "Ünsiyyət və söhbət qaydaları barəsində" natiqlərə fayda verən, yazıçılara sənətkarlıq öyrədən iki fəsil hazır oldu. Xülasə, gülüstandan gül qurtarmamış "Gülüstan" kitabı tamam oldu.

Lakin, həqiqətdə bu kitab o zaman bitmiş hesab edilə bilər ki, o, dünyanın pənahı, Allahın (yer üzərində) kölgəsi, yaradanın mərhəmət nuru, zamanın zinəti, sülhün dayağı, göylərdən kömək alan, düşmənlərə zəfər çalan, qalib dövlətin qüvvəti, millətin parlaq çırağı, dövranın camalı, islamın kamalı, Səd ibn Atabək, böyük, əzəmətli şahlar şahı, ümmətin ümidi, Ərəb və Əcəm hakimlərinin başçısı, quruların, dənizlərin sultanı, Süleyman mülkinin varisi, Müzəffərəddin Əbubəkr ibn Səd ibn Zənginin (Allah, onun səadətini əbədi et, calalını artır, işlərinə rəvac ver) sarayında bəyənilsin və (şahzadə) öz lütfkar nəzərlərilə ona baxmış olsun.

Şeir

Bəzərsə mərhəməti bu kitabı sərvərimin,
Olar bu Çin bəzəyi, ya ki nəqşi-"Ərjəngi"[6]
Ümidlərim bunadır ki, qəbula layiq olar
Ki, gülüstan ola bilməz məkani-diltənki
Ələlxüsus onun əvvəlində xoş xətlə,
Yazılsa Səd Əbubəkr Səd bini Zəngi.

Mənim fikrimin gəlini zinətdən məhrum olduğu üçün, utandığından başını yuxarı qaldırıb, yaslı gözlərini xəcalətin ayağı altından ayıra



bilmir. Nə qədər ki, böyük əmir, alim və ədalətli qələbələr ilhamçısı, səltənət təxt-tacını qoruyanların başçısı, məmləkətin tədbirçilər tədbirçisi, fəqirlərin pənahı, qəriblərin istinadgahı, alimlərin hamisi, zahidlərin dostu, fars əhlinin iftixarı, din və dövlətin fəxri, islamın və müsəlmanların köməkçisi, şahların, sultanların etimadlısı Əbubəkr ibn Əbunəsr (Allah onun ömrünü uzun, mənsəbini böyük, ürəyini geniş, yaxşı əməllərinin mükafatını artıq etsin. Çünki, o, dünyanın ən böyük adamlarının tərifinə layiq olmuş, xasiyyətlərin ən gözəllərini özündə toplaya bilmişdir) bu əsəri qəbul edib, onu öz mərhəməti ilə zinətləndirməyincə (bu gəlin) ariflər məclisinə çıxa bilməyəcəkdir.

Şeir

Onun kölgəsində kim olsa, əlbət,
Kini dostluq olar, günahı taət.

Dərvişlərdən başqa hər bir bəndənin və xidmətçinin bir vəzifəsi vardır. Bunlardan hər kim öz işində kahıllıq etsə və səhlənkarlığa yol versə, danlanılar və məsuliyyətə cəlb olunarlar. Dərviş tayfası isə böyüklərin nemətləri müqabilində şükür edib xeyir-dua oxuyurlar. Belə bir xidməti zahirdə etməkdənsə gizlicə etmək daha münasibdir, çünki, birincisi yaltaqlığa yaxındır, ikincisi qədirdanlığa, ona görə də tez müstəcab olar.

Şeir

Bu fələyin qaməti şadlıq ilə oldu rast
Ta ki sənin tək oğul doğdu bu bətni-zaman.
Hikməti var xaliqin, lütf eyləsə hər kəsə,
Bəndəni xas eyləyib xalqa edər hökmran.
Kim yaşadı xeyrilə, tapdı əzəl dövlətin,
Xeyir-dua saxlayar yaxşı adı cavidan.
Əhli-kəmal etsə də, etməsə də vəsfini,
Məşşatə lazım deyil gül üzə heç bir zaman.

Saray xidmətindən çəkinib guşənişin olmağımın səbəbi bu misaldakı hikmətə görədir: hind filosoflarından bir neçəsi bir yerə yığışıb Bozorçmehrin[7] fəzilətindən söhbət açmış və nəhayət, onun ağır-ağır danışmasından başqa bir eybini tapmamışlar; yəni o, danışarkən çox

düşünür, dinləyici isə onun fikrinin sonunu intizarla gözləməli olurmuş. Bozorçmehr bunu eşidib demişdir:

– Əvvəlcə "nə deyim" haqqında fikirləşmək, sonradan "niyə dedim?" peşmançılığından yaxşıdır.

Şeir

Dünya görmüş qoca söz ustadı, bil,
Əvvəlcə fikr edər, sonra açar dil.
Tələsik söyləməz sözünü bir dəm.
Fikrini kamil de, gec olsa nə qəm!
Düşünüb sonra de sözü müxtəsər,
O qədər danışma, "bəsdir" desinlər.
Nitqilə üstündür heyvandan insan,
Heyvandan əskiksən boş-boş danışsan.

Xüsusən böyük hökmdarın ariflər və bilikli alimlər iştirak edən hüzurunda danışmağa cəsarət göstərsəm, utanmazlıq edər və hüzurumübarəkə dəyərsiz mal gətirmiş olardım. Cavahirat bazarında muncuğun bir arpa qədər qiyməti olmaz. Çıraq, Günəş qarşısında işıq verməz, uca minarələr Əlvənd dağı[8] yanında alçaq görünər.

Şeir

Kim xalqa iddia göstərsə əgər,
Hər yerdən başına bir zərbə dəyər.
Sədisə yazıqdır, qəlbi azada,
Yazıqla kim dava edər dünyada?
Əvvəlcə bir düşün, sonra dilə gəl,
Divar tez yıxılar olmasa təməl.
Mən də bir gülcüyəm, bostandan uzaq.
Mən də bir Yusifəm Kənandan[9] uzaq.

Loğmandan[10] soruşdular ki, "elmi kimdən öyrəndin?" Dedi: korlardan; onlar ayaqları altını yoxlamadan irəli addım atmazlar. Atalar demişlər:

– Bir yerə girməzdən əvvəl oradan necə çıxacağını düşün!

**Fərd**. Kişiliyini sına, sonra arvad al.



Şeir

Xoruz cəld olsa da savaşda, lakin,
Qızıl quş çənginə o qadir deyil,
Pişik siçan üçün pələng olsa da,
Pələng qarşısında bir siçandır bil.

Lakin alicənab şəxslər öz tabeliklərində olan adamların eyiblərini üzə vurmayıb, xırda qüsurlarını açmadıqlarına əmin olduğumdan, müxtəsər şəkildə bir sıra qəribə hekayələri, təmsilləri, şeir və nağılları, həmçinin keçmiş hökmdarların əxlaq və rəftarlarından bəhs edən rəvayətləri bu kitabda topladım və əziz ömrümün bir hissəsini ona sərf etdim.

Şeir

Bu dünya duracaq illər boyunca,
Lakin torpaq olar bizim bu bədən.
Bir xəyal qalacaq bizdən yadigar.
Varlıqsa yox olub gedəcək həmən
Bəlkə bir xeyirxah biz yazıqları,
Rəhmətlə xatırlar dua edərkən.

Kitabı tərtib edib fəsillərə ayırarkən, mətləbi qısa bir surətdə ifadə etməyə diqqət göstərməyi lazım bildim və oxucunun darıxmaması üçün behişt bağlarına oxşayan bu "Gülüstan" kitabını səkkiz fəslə böldüm:

1. Hökmdarların rəftarı haqqında.
2. Dərvişlərin əxlaqı haqqında.
3. Qənaətin fəziləti haqqında.
4. Susmağın faydaları haqqında.
5. Eşq və cavanlıq haqqında.
6. Zəiflik və qocalıq haqqında.
7. Tərbiyənin təsiri haqqında.
8. Söhbət qaydaları haqqında.

Günümüz xoş ikən, keçmədəydi bil,
Hicrətdən altı yüz əlli altı il,
Qəsdimiz verməkdi düz yolu nişan,
Allaha tapşırıb köçdük dünyadan.

# I FƏSİL

## HÖKMDARLARIN RƏFTARI HAQQINDA

**1. Hekayət**[11]

Nağıl edirlər ki, bir padşah bir əsirin öldürülməsini əmr etmişdi. Yazıq əsirin ümidi kəsildikdə, ağzına gələni deyib padşaha söyüşlər yağdırmağa başladı. Məsəl var deyərlər: canından əl çəkən ağzına gələni deməkdən qorxmaz!

Beyt

Yoxsa bərk ayaqda qaçmağa imkan,
Kəsərli qılıncı qarmalar insan.

Şeir

Ümidsiz qalsa hər insan
Açar dil, qorxmaz aləmdə.
Hücum eylər itə birdən
Pişik məğlub olan dəmdə.

Padşah yanındakılardan əsirin nə danışdığını soruşdu. Xeyirxah vəzirlərdən biri dedi:

– Ey hökmdar, o deyir ki, qəzəblənəndə özünü saxlaya bilən adam, başqalarının da günahını bağışlaya bilər.

Padşah rəhmə gəldi, əsirin ölümündən əl çəkdi. Xeyirxah vəzirin rəqibi olan başqa bir vəzir sözə qarışıb dedi:

– Hökmdarın hüzurunda yalan danışmaq bizim kimi adamlara yaraşmaz. Bu əsir padşahı söyüb, ona nalayiq sözlər dedi.

Şah bədxah vəzirin bu sözündən hiddətlənərək dedi:

– Onun yalanı sənin doğrundan xoş idi, çünki o, xeyirxahlıq məqsədilə deyilmiş, səninki isə bədxahlıq. Ağıllı adamlar demişlər: "Sülh doğuran yalan, fitnə törədən doğrudan yaxşıdır".

Şeir

Kimin ki, sözünə əməl edir şah,
O, gərək hər sözdə olsun xeyirxah.



Fridunun[12] sarayının tağında yazılmışdır:

Lətifə

Bu dünya məgər qaldımı bir şaha?
Get öz qəlbini bağla bir Allaha.
Bu dünya, bu mülkə sığınma bir an,
O sən tək çoxun məhv edibdir, inan.
Nə fərqi gedərkən bu canü, bu tən,
Ya təxt üstə öl, ya da torpaqda sən?

**2. Hekayət**

Xorasan hakimlərindən biri yuxuda gördü ki, Mahmud Səbüktəkinin[13] bütün bədəni çürüyüb torpağa qarışmış, lakin gözləri hələ də öz hədəqəsində hərlənir və ətrafa baxır. Bütün alimlər bu yuxunu yozmaqda aciz qaldılar. Ancaq orada olan dərvişlərdən biri baş əyib dedi: "Gözləri həsrət çəkir, axı, ölkəsi əldən-ələ keçir".

Şeir

Çox gömüldü yer altına mənəm-mənəm deyənlər
Ki, onlardan bu dünyada bircə ad-san qalmadı.
Torpaq altda yatanlara bir diqqətlə nəzər sal,
Torpaq yedi, sümüyündən belə nişan qalmadı.
Yaxşı addır Nuşirəvanı[14] bu dünyada yaşadan.
Lakin, köçdü bu dünyadan Nuşirəvan qalmadı.
Ey filankəs, xeyirxah ol, bil həyatı qənimət,
Nə qədər ki, deməmişlər filan-filan qalmadı.

**3. Hekayət**

Bir şahzadə haqqında eşitmişəm ki, özü çirkin və qısaboylu, qardaşları isə gözəl və uca idi. Bir dəfə şah ona alçaq nəzərlə baxıb, etinasızlıq göstərdi. Oğlan həssas idi, başa düşdü və dedi:

– Ata, ağıllı gödək, axmaq uzundan yaxşıdır. Hər qaməti uca olanın qiyməti baha olmaz. Qoyun kiçik olsa da təmiz, fil böyük olsa da murdardır.

Ş e i r

Çox alçaq olsa da Tur dağı[15] bişək,
Allah dərgahında sayılır yüksək.

Ş e i r

Söylədi bədəncə zəif bir alim,
Bir şişman axmağa: "Varmı xəbərin
Əgər ərəb atı arıq olsa da,
Bir tövlə eşşəkdən yaxşıdır, yəqin".

Atası güldü, söz dövlət başçılarının ürəyinə yatdı, qardaşlarında isə kin oyatdı.

Ş e i r

Nə qədər dil açıb dinməmiş insan,
Hünəri və eybi qalacaq nihan.
Gördüyün hər meşə sanma ki, boşdur,
Bəlkə də yatmışdır orada qaplan.[16]

Deyirlər ki, həmin günlərdə güclü bir düşmən padşahın ölkəsinə hücum etdi. Hər iki tərəfin qoşunları üz-üzə gəldikdə döyüş meydanına birinci atılan haman oğlan oldu.

Vuruş çağı kimsə görməmişdir arxamı,
Bəlkə torpaq-qan içində görəcəksən döşümü.
Hər döyüşən öz başını itirirsə vuruşda,
Dönüb qaçan, girə verər saya gəlməz qoşunu.

Bunu deyib, özünü düşmən qoşununa vurdu, bir neçə pəhləvan öldürdükdən sonra atasının yanına gəldi, baş əydi və dedi:

Ş e i r

Məni belə zəif hesab edən sən,
Demə ancaq boydadır hər iqtidar.
Döyüşlərdə incə belli at gərək.
Kök öküzün meydanda nə xeyri var?!



Nağıl edirlər ki, düşmənin qoşunu son dərəcə çox, hökmdarınkı isə az idi. Buna görə də onun qoşunundan bir hissə döyüşdən qorxub qaçmağa başladı. Bu vaxt haman oğlan nərə çəkib dedi:

– Ey, kişisinizsə, çalışın qadın paltarı geyməyin! Süvarilər onun bu sözündən qeyrətə gəlib cəsarətləndilər, qaçanlar da geri döndülər, hamısı birlikdə düşmənə qarşı hücuma keçdi. Padşahın qoşunu həmin gün düşmənə qələbə çaldı.

Şah igid oğlunu bağrına basıb öpdü. Sonra şahın ona qarşı məhəbbəti gündən-günə artmağa başladı, nəhayət, onu özünə vəliəhd təyin etdi. Qardaşları paxıllıqdan onun xörəyinə zəhər qatdılar. Bacısı eyvandan bunu gördü, dərhal pəncərəni bərk çırpdı. Oğlan işin nə yerdə olduğunu duydu və əlini xörəkdən çəkərək dedi:

– Heyfdir, hünərlilər ölə, hünərsizlər onların yerini tuta!

B e y t

Dünyadan yox olsa gər hüma quşu,
Bir kimsə sayəban etməz bayquşu.[17]

Ataları bu xəyanətdən xəbərdar olub oğlanlarını yanına çağırtdırdı, onlara lazımi qulaqburması verdikdən sonra, hərəsinə ölkənin uzaq bir hissəsində yer ayırdı. Bununla da aralarındakı fitnə yatdı və ədavət aradan qalxdı, çünki məsəl var deyərlər: "On dərviş bir kilimə yığışar, iki padşah bir ölkəyə sığışmaz".

Ş e i r

Bir çörək taparsa mömin, düz adam,
Yarısın paylayıb, yarısın yeyər.
Padişah bir ölkə aldıqda, yenə
İkinci ölkəni almaq istəyər.

**4. Hekayət**

Ərəblərdən bir dəstə quldur dağ başında məskən salıb, karvan yolunu kəsmiş, dağın zirvəsində ən uca yerdə möhkəm bir mövqeyi tutmuşdular. Buna görə şah qoşunları quldurlara bata bilmir, camaat isə onların qorxusundan yata bilmirdi. Quldurların bu hərəkəti bir müddət

də davam edərsə, onlara üstün gəlməyin mümkün olmayacağını görən o ətrafın başçıları tədbir üçün bir yerə toplaşdılar.

Şeir

Yeni rişə atan cavan bir çinar,
Bir adam əl atsa yerindən çıxar.
Lakin kök atarsa o xeyli zaman,
Fələk də gələrsə, qoparmaz, inan.
Çeşmə tutulsa da kiçik bel ilə,
Dolarsa keçilməz böyük fil ilə.

Başçılar məsləhətləşib bir nəfəri quldurları pusmağa göndərdilər və hücum üçün fürsət gözləməyə başladılar. Pusquda oturmuş adam tezliklə xəbər gətirdi ki, quldurlar məskənlərini yiyəsiz qoyub hansı bir tayfa üzərinə isə basqına getmişlər. Bunu eşidən kimi dərhal sınanmış və müharibə görmüş bir dəstə döyüşçü göndərdilər, onlar gedib quldurların məskən saldığı dağın keçidində pusquda dayandılar. Axşamüstü quldurlar çoxlu qənimətlə öz məskənlərinə qayıtdılar, qənimətləri yerbəyer edib, silahlarını açdılar, paltarlarını soyunaraq yatdılar. Onların başının üstünü alan birinci düşmən yuxu oldu. Gecədən xeyli keçdi.

Beyt

Günəşi bürüdü zil bir qaranlıq,
Guya ki, Yunisi udmuşdur balıq.[18]

Pusqudakı igidlər dərhal hücum edib quldurların qollarını bir-bir dallarına bağladılar, səhər açılan kimi şahın hüzuruna gətirdilər. Şah quldurların hamısını öldürməyi əmr etdi. Onların içərisində gənc bir oğlan da var idi. Onun gül çöhrəsi bahar çəməni tək təzəcə çiçəklənir, gənc ömrünün həyat bağında ilk meyvələr yetişirdi. Vəzirlərdən birinin ona rəhmi gəldi, irəli çıxaraq şahın taxtı önündə təzim etdi və dedi:

– Bu gənc hələ həyat bağından meyvə dərməmiş, cavan ömrünün ləzzətini görməmişdir. Hökmdarın kəramət və səxavətinə arxalanaraq xahiş edirəm ki, şah onun qanından keçsin və bu qulunu minnətdar etsin.

Vəzirin bu sözündən xoşlanmayan şah hiddətləndi və dedi:



Beyt

Yaxşıdan ibrət götürməz, zati bəd, nacins olan,
Necə ki günbəz başında qoz dayanmaz heç zaman.

Belə yaramazların nəslini kəsib, dudmanlarını dağıtmaq lazımdır. Odu söndürüb qorunu saxlamaq, əfini öldürüb balasına rəhm etmək ağıllı iş deyildir.

Şeir

Göylərdən yağsa da dirilik suyu,
Söyüd ağacında görməzsən səmər.
Alçaq adamlarla oturub-durma,
Həsir qamışından alınmaz şəkər.

Vəzir şahın sözünü istər-istəməz təsdiq etdi, onun fikrinə afərin deyib əlavə etdi:

– Cahan hökmdarının buyurduqları həqiqətdir, yaramazlar içərisində tərbiyə alan, onların xasiyyətini də mənimsəyər. Lakin bu oğlan hələ uşaqdır və quldurların yaramaz sifətləri onda möhkəm təsir buraxa bilməz. Qulunuz ümid edir ki, əgər o, bundan sonra xeyirxah adamlar arasında tərbiyələnsə, gözəl xasiyyətlər qəbul edib, islah oluna bilər. Bir hədisdə deyilir ki, insan fitrətən pak doğulur, lakin sonra, ata-anasının tərbiyəsi ilə ya yəhudi, ya xristian, ya da atəşpərəst olur.

Şeir

Pislərə yar oldu Lutun arvadı
Ayrıldı peyğəmbər xanədanından.
İtisə bir zaman Əshabi-kəhfin,
Yaxşılarla getdi, oldu bir insan.[19]

Şahın yaxın adamlarından bir neçəsi də vəzirə qoşulub vasitəçilik etdilər. Nəhayət, şah oğlanın günahından keçdi və dedi:

– Məsləhət bilmirəm, lakin bağışlayıram.

Şeir

Zal bir gün söylədi oğlu Rüstəmə:[20]
"Biçarə və zəif sanma düşməni,

Çox gördük balaca çeşmənin suyu,
Güclənib apardı yüklü dəvəni".

Xülasə, oğlanı nazü nemətə çatdırıb, tərbiyəsini təcrübəli bir müəllimə tapşırdılar. Nəhayət, oğlan natiqlik, hazırcavablılıq və saray qaydalarını dərindən öyrənib, hamısının rəğbətini qazandı.

Bir dəfə vəzir şahın hüzurunda oğlanın fəzilətlərindən danışaraq dedi ki, ağıllı mürəbbilərin tərbiyəsi yaxşı nəticə vermiş, köhnə, yaramaz xasiyyətlərdən oğlanda əsər qalmamışdır.

Hökmdar vəzirin sözünə gülümsəyib dedi:

Ş e i r

İnsanla qalmağa etsə də adət,
Qurd oğlu qurd olar, yenə, nəhayət.

Bu hadisədən bir-iki il keçdi. Oğlan bir dəstə yerli dələ-duzlarla dostlaşıb, onlarla yoldaşlıq etməyə başladı. Əvvəlki quldurluq xasiyyətləri onda yenidən baş qaldırdı. Nəhayət, günlərin birində fürsət tapıb həmin vəziri, onun iki oğlunu öldürdü, evini soyub, var-dövlətini yığışdırdı, quldurların mağarasına qaçıb, atasının yerində oturdu və yol kəsməyə başladı. Padşah bu hadisədən xəbərdar olduqda təəssüflənib dedi:

Ş e i r

İti şəmşir olmaz paslı dəmirdən,
Gözləmə nakəsdən adamlığı sən.
Yağışla sulansa bağ da, şoran da,
Bağda lalə bitər, şoranda tikən.

Ş e i r

Şoranlıq bitirməz sünbül heç zaman
O yerdə zəhməti eyləmə hədər.
Pisə yaxşılıqla, yaxşıya pislik,
Mənaca bir şeydir, düşünsən əgər.



**5. Hekayət**

Oğulmuşun[21] sarayında çox ağıllı, düşüncəli və dərrakəli bir sərhəng oğlu var idi. Hələ uşaqlıq vaxtlarından alnında böyüklük nişanəsi parlardı.

Ş e i r

Kəmalı ulduz tək başı üstə bax.
Parlardı hər yana işıq saçaraq.

Xülasə, oğlan həm yaraşıqlı idi, həm də ağıllı. Ona görə hökmdarın rəğbətini qazanmış və mənsəbə çatmışdır. Atalar doğru demişlər: "Dövlət malda deyil, kamaldadır, ağıl yaşda deyil, başdadır". Bir gün tay-tuşları oğlanın vəzifəsinə həsəd aparıb, onu xəyanətkarlıqda təqsirləndirdilər, öldürülməsi üçün səy göstərdilər.

M i s r a

Düşmən nəçidir, dost, sənə qəmxar olsa.

Hökmdar oğlanı yanına çağırıb soruşdu: "Bunların sənə qarşı düşmənçiliyinin səbəbi nədir?"

Oğlan dedi:

– Böyük hökmdarın mərhəmətilə, paxıllardan başqa hamını razı sala bilmişəm, paxıla gəldikdə o, mənim nemətdən, hökmdarın isə səadətdən məhrum olmasını istəyir.

B e y t

Bacararam bir ürəyə toxunmayım heç zaman,
Nə edim ki, paxıl özü öz qəlbini edir qan.
Öl ey paxıl, bəlkə canın rahat ola büsbütün,
Çünki səni yalnız ölüm qurtarar bu əzabdan.

Ş e i r

Alçaqlar arzu edər ki, daim,
Dünyada olmasın bəxtəvər insan,
Gündüz yarasalar görmürsə əgər,
Bununçun varmıdır Günəşdə nöqsan?
Kor olsun minlərlə qoy elə gözlər!
Günəşə çökməsin qaranlıq bir an.

**6. Hekayət**

Belə rəvayət edirlər ki, Əcəm[22] hökmdarlarından biri rəiyyətin var-yoxunu əlindən alıb, onlara əziyyət verməyə başladı. İş o yerə çatdı ki, xalq bu zülm və sitəmə davam gətirməyib başqa ölkələrə qaçmağa və qürbətdə yaşamağa məcbur oldu. Əhali əskildikcə, ölkədə məhsul da azaldı, xəzinə boş qaldı. Bunu görən düşmənlər təzyiq göstərməyə başladılar.

Beyt

Kim müsibət günü istər ona bir yar olsun,
De ki, xoş gündə özü xalqa havadar olsun.
Qulağı halqalı qul, hörməti görməzsə gedər,
Lütf qıl, lütf sənə yadları da bir qul edər.

Bir gün onun hüzurunda "Şahnamə"[23] kitabından Zöhhakın[24] devrilməsi və Fridunun qələbəsi haqqındakı hissəni oxuyurdular. Vəzir soruşdu:

– Heç bilmək olmur ki, xəzinəsi, mülkü və qüvvəsi olmaya-olmaya Fridun hökmdarlığı necə ələ ala bildi?

Hökmdar dedi:

– Məgər eşitmədinmi ki, camaat ona tərəfdar çıxıb, ətrafında sıx birləşmiş, taxt-tacı ələ gətirməsinə kömək etmişdir.

Vəzir dedi:

– Ey hökmdar, əgər camaatı ətrafında sıx birləşdirmək şahlığın əsasıdırsa, bəs nə üçün sən xalqı başından dağıdırsan? Məgər sən şahlıq etmək istəmirsən?

Beyt

Ordunu can kimi bəslə hər zaman,
Orduyla sayılar hər yerdə sultan.

Hökmdar dedi:

– Ordu və camaatı ətrafımızda birləşdirməyin şərti nədir?

Vəzir dedi:

– Şah səxavətli olmalıdır ki, onun ətrafına toplansınlar; rəhmli olmalıdır ki, ondan qorxub qaçmasınlar; səndə isə bunların heç biri yoxdur.



Şeir

Şahlara yaraşmaz zülm etmək bir an,
Qurddan ola bilməz sürüyə çoban.
Padişah zülm etsə xalqına əgər.
Özü öz mülkünü tar-mar edər.

Ağıllı vəzirin məsləhəti hökmdarın xoşuna gəlmədi, hiddətlənərək onu zindana göndərdi. Çox çəkmədi ki, hökmdarın əmioğluları üsyan edib atalarının haqqını almaq üçün qoşun çəkdilər. Şahın zülm və sitəminə davam gətirməyən, vətənini tərk etmiş adamlar da qayıdıb onlara qoşuldular. Nəticədə hökmdar məğlub oldu və hökmdarlıq əmioğluların əlinə keçdi.

Şeir

Rəiyyətə zülm edərsə bir ağılsız hökmdar.
Düşmən bir gün edər onun ölkəsini tar-mar.
Rəiyyətlə sülh edən şah dəf edər hər afəti.
Adil şahın ləşkəridir çünki öz rəiyyəti.

**7. Hekayət**

Bir şah öz əcəm qulu ilə gəmiyə minmişdi. Demə, qul ömründə gəmiyə minməmiş, dəniz səfərinin əziyyətini görməmiş imiş. O, qorxudan əsməyə və ucadan ağlamağa başladı. Gəmidəkilər nə qədər çalışdılarsa, onu sakit edə bilmədilər. Qulun bu halı şahın kefini pozdu. Lakin bir çarə tapa bilmirdilər. Gəmidə müdrik bir adam var idi, vəziyyəti belə gördükdə dedi:

– İcazə versəniz, mən onu sakit edə bilərəm.

Hökmdar dedi:

– Son dərəcə lütf göstərmiş olarsınız.

Əmr etdi qulu dənizə atdılar. Qul bir neçə dəfə suya batıb çıxdı; sonra saçlarından tutub onu gəmiyə tərəf dartdılar. O, ikiəlli sükandan yapışıb sallandı və elə ki gəmiyə çıxdı, susub dinməz-söyləməz bir küncdə oturdu. Şaha bu qəribə gəldi! Hamin müdrik adamdan soruşdu ki, bunda nə hikmət var?

Dedi:

– Bu qul dənizdə qərq olmaq qorxusunu keçirmədiyindən gəmidəki əmin-amanlığın qədrini bilmirdi. O da məlumdur ki, fəlakətə düşməyən sakitliyin qədrini bilməz!

Şeir

Ey tox, sənə xoş gəlməyir əgər arpa çörəyi,
Bil ki, sənə xoş gəlməyən bu şey mənə nemətdir.
Cənnət əhli bir cəhənnəm sanar ikən erafı,[25]
Cəhənnəmin əhli üçün eraf özü cənnətdir.

Beyt

Fərqi vardır: birisinin ağuşunda gözəl yar,
Digərinin iki gözü yolda qalmış intizar.

**8. Hekayət**

Hörmüzə dedilər: – Atanın vəzirlərindən nə xəta baş verib ki, onları həbs etdiribsən?

Dedi: – Elə bir xəta baş verməyib ki, həbsə səbəb olsun. Lakin gördüm, zəhmim onların ürəyinə elə çöküb ki, verdiyim vədlərə belə inanmırlar. Qorxdum canlarının qorxusundan canıma qəsd etsinlər. Ona görə də alimlərin sözünə əməl etdim. Alimlər deyiblər ki:

Şeir

Kim səndən qorxursa, qıl ondan həzər,
Olsan da yüz elə şəxsə bərabər.
Pişik aciz qalsa, görmürsən, dərhal,
Pələngin gözünə atacaq çənkal.
İlan ona görə çalır çobanı
Ki, qorxur çomaqla alınsın canı.

**9. Hekayət**

Ərəb hökmdarlarından biri qocalıq vaxtında xəstələnib, həyatdan ümidini kəsmişdi. Bu zaman bir atlı gəlib, xoş xəbər verərək dedi:

– Hökmdar sağ olsun, düşmənin qalasını dağıdıb, başçılarını da əsir aldıq. Düşmənin camaatı və qoşunları hökmdarın bayrağı altına keçdilər.



Hökmdar kədərlə köksünü ötürüb dedi:

– Bu xoş xəbəri mənə yox, varislərimə ver!

Şeir

Əziz ömür başa çatdı xoş arzular içində,
Dedim kaş ki, ürəyimdən keçən girsin qapımdan.
Ürəyimdən keçən gəldi, lakin ümid yoxdur ki,
Keçən ömür geri dönə, mən də olam kamran.

Şeir

Köç təblini vurdu əcəl əlilə,
Ey gözlərim başa deyin: əlvida.
Ey əl, bilək və qol daha ayrılın.
Üzə, gözə, qaşa deyin: əlvida.
Düşmənlərin kamınca mən gedirəm,
Barı bu yoldaşa deyin: əlvida!
Mən nadan yaşadım dünyada, barı,
Dostum, sən xoş yaşa, deyin əlvida!

**10. Hekayət**

Dəməşq məscidində, Yəhya peyğəmbərin məqbərəsində olduğum zaman, ədalətsizlikdə şöhrət tapmış bir ərəb hökmdarı da təsadüfən oraya ziyarətə gəlmişdi. O, namaz qıldıqdan sonra dua oxuyub, Allahdan köməkliklər istədi.

Beyt

Kasıb da, varlı da bu yerdə quldur,
Daha dövlətlisə, daha yoxsuldur.[26]

Sonra o, mənə müraciət edib dedi:

– Dərvişlərin mərhəmətli və sədaqətli olduğuna inandığıma görə, xahiş edirəm, mənə bir məsləhət verəsiniz, çünki güclü bir düşmən məni hədələyir.

Cavabında dedim:

– Gücsüz rəiyyətə rəhm elə ki, güclü düşməndən zülm görməyəsən!

Şeir

İnsaf deyil, güclü ikən göstərərək zor, qüvvət.
Sındırasan bir yazığın pəncəsini nəhayət.
Qorxsun o kəs, biçarəyə rəhm etməyib zülm edə.
Yıxılanda kimsə ona hayan durmaz, əl-əlbət.
Hər kim əkib "pislik" dəni, yaxşı məhsul gözləsə.
Xam xəyala düşmüş olar, boşa çıxar bu niyyət.
Qulağından pambığı at, ver bu xalqın haqqını.
Sən verməsən, gələr bir gün, haqqın istər rəiyyət.

Şeir

Bir bədən üzvüdür bu bəni-adəm.
Eyni bir cövhərdən yaranmış aləm.
Bir üzvü dərdlərə salsa ruzigar.
Tutmaz başqa üzvü yerində qərar.
Özgənin dərdinə əgər qalmasan,
Yaraşmaz adına deyilsin insan.

**11. Hekayət**

Duası müstəcab olan bir dərviş Bağdad şəhərinə gəldi. Həccac Yusifə[27] xəbər verdilər, onu yanına çağırtdırıb dedi:

– Mənim üçün bir xeyir-dua ver!

Dedi:

– Ey Allah, Həccacın canını al!

Həccac soruşdu:

– Allah xatirinə, bu necə duadır?

Dedi:

– Bu duanın həm sənə, həm də bütün müsəlmanlara xeyri vardır.

Şeir

Məzlumlara zülm edən ey hökmran!
Nə vaxtadək sürəcəkdir bu dövran?!
Nə dörd əlli tutmusan bu dünyanı,
Birdəfəlik öl ki, mərdimazarsan.



**12.Hekayət**

Zalım hökmdarlardan biri, bir abiddən soruşdu:

– İbadətlərdən hansı yaxşıdır?

Dedi:

– Sənin üçün yarım günlük yuxu. Heç olmasa camaat yarım gün sənin əziyyətindən qurtarmış olar.

Şeir

Gündüz gördüm yatıbdır bir zülmkar,
Bu fitnədir dedim, yatsa yaxşıdır.
Oyaqlıqdan yatması xoş olan kəs.
Birdəfəlik yerə batsa yaxşıdır.

**13. Hekayət**

Nəql edirlər ki, bütün gecəni eyş-işrətlə məşğul olan bir hökmdar səhərə yaxın məst halda deyirdi:

Bizim üçün bu dünyada bundan artıq dəm yoxdur.
Ki, yaxşı, pis şeylər üçün fikir yoxdur, qəm yoxdur.

Bayırda, şaxtalı havada çılpaq yatmış bir dərviş bunu eşidib dedi:

Beyt

Ey deyən dünyada, ən xoşbəxt bizik,
Tutaq, sən qəmsizsən, biz də qəmsizik?

Dərvişin sözündən hökmdarın xoşu gəldi, ona min qızıl vermək istədi, pəncərədən qızıl kisəsini çıxarıb səslədi:

– Dərviş, ətəyini aç!

Dərviş dedi:

– Paltarım var ki, ətəyim olsun?!

Dərvişin belə yazıq vəziyyətini və zərif təbiətini görən hökmdarın ona həddən artıq rəhmi gəldi. O, qızıl kisəsinin üstünə bir xələt də qoyub, dərvişə verdi. Lakin çox çəkmədi ki, dərviş pulu xərclədi, xələti də satıb yedi və yenə bəxşiş ümidi ilə hökmdarın yanına qayıtdı.

Beyt

Azadə kəslərin əli boş olar,
Xəlbirdə su qalmaz, aşiqdə qərar.

Hökmdarın söz dinləməyə meyli olmadığı vaxt dərvişin gəldiyini ona xəbər verdilər. Hiddətlənib, qaşqabağını tökdü.

Buna görə ağıllı adamlar deyiblər ki, hökmdarların qəzəbindən ehtiyat etmək lazımdır. Çünki hökmdarlar ölkənin böyük məsələlərilə məşğul olduqlarından qara camaatın hayına qalmazlar.

Şeir

Hər kim gözləməsə vaxtı, fürsəti,
Ona haram olar şahın neməti.
Hər zaman sözünün bil məqamını
Boş sözlə məhv etmə ehtiramını.

Hökmdar dedi:

– O qədər dövləti az bir vaxtda dağıdıb tələf edən bu həyasız, israfçı gədanı buradan qovun! Dövlət xalqın malıdır. Kömək yoxsullar üçündür, israfçılar üçün deyil.

Beyt

Axmaq əgər yandırarsa şamını gündüz çağı,
Gecə vaxtı şamsız qalar, zülmət olar otağı.

Ağıllı vəzirlərdən biri sözə qarışıb dedi: – Ey hökmdar, məncə belə adamlara xərcliyi az-az vermək yaxşıdır ki, birdən israf etməsinlər. Cəzalandırmaq məsələsinə gəldikdə isə, əmriniz onu tərbiyələndirmək məqsədilə olsa da, bəziləri bunu sizin səxavətsizliyinizə yozarlar. Bundan əlavə, ümidvar etdiyiniz adamı yenidən naümid edib könlünü sındırmaq kəramətinizə yaraşmaz.

Beyt

Tamahkara öz qapını çalış açma heç zaman,
Açdınsa bil, bir də onu bağlamaq olmaz asan.



Şeir

Kim görmüş dünyada Hicaz[28] təşnəsi,
Şor suyun yanında yurd salıb yaşar?
Lakin harda şirin bir bulaq olsa,
İnsan, quş, qarınca ora toplaşar.

**14. Hekayət**

Keçmiş hökmdarlardan biri ölkəni idarə etmək işində bacarıqsız olub, qoşuna yaxşı fikir vermirdi. Günlərin birində ölkəyə güclü bir düşmən basqın etdi. Əsgərlər hökmdardan üz döndərib, düşmənə qarşı vuruşmaqdan boyun qaçırdılar.

Beyt

Əsgərə xəzinə qıymasa sultan,
O da əl qılınca atmaz heç zaman.

Hökmdara sədaqətsizlik göstərənlərdən birisi mənimlə dost idi. Onu danlayıb dedim:

– İllər boyu xidmət etdiyin və nemətindən faydalandığın şəxsin vəziyyəti azacıq dəyişəndə ondan üz çevirmək – sədaqətsizlik, nankorluq və alçaqlıqdır.

Dostum dedi:

– İnsaf etsən, üzrümü qəbul edərsən, çünki atım arpasızlıqdan buxovda, çulu isə qonşu yanında girovda idi. Bir də ki, döyüşçüyə pulunu əsirgəyən hökmdara canı fəda etmək olmaz!

Beyt

Sən əsgərə qızıl versən, o düşmənə meydan açar,
Son qızılı əsirgəsən, baş götürüb uzaq qaçar.

Beyt

Əgər qarnı tox olarsa, hücum edər pəhləvan,
Əgər qarnı boş olarsa, geri qaçar durmadan.

**15. Hekayət**

Bir vəzir işdən çıxarılıb, saraydan qovuldu. O, tərki-dünya olub, dərvişlərə qoşuldu. Az keçmədi ki, dərvişlərin söhbəti ona təsir etdi. O da hər cür qayğını unutdu.

Bir gün hökmdar yenidən ona mərhəmət göstərib, xidmətə çağırdı. O isə hökmdarın çağırışını rədd edib dedi:

– Ağıllı adamların əqidəsincə, səhrada qul olmaq, saraya qulluq etməkdən yaxşıdır.

Ş e i r

Qənaət küncündə oturan kəslər,
Naəhlin və itin dilini kəsər.
Qələmi sındırıb kağız cıranlar,
Qeybətçi kəslərdən yaxa qurtarar.

Hökmdar israr etdi:

– Ölkənin işlərini layiqincə yerinə yetirmək üçün bizə ağıllı, istedadlı adam lazımdır.

Vəzir dedi:

– Ey hökmdar, ağıllılığın elə əsl əlaməti olur ki, bu kimi işləri öhdənə götürməyəsən.

B e y t

Şərəflidir hüma quşu bütün quşlardan əlbət,
Sümük yeyir, çünki vermir bir canlıya əziyyət.

**Zərbi-məsəl.**

Çölpişiyinə dedilər:

– Nə üçün həmişə şirin dalınca gəzirsən?

Cavab verdi:

– Ovladığı şikarın tör-töküntüsünü yeyib, ac qarnımı doydurur və onun heybəti sayəsində özümü düşməndən qoruyuram.

Soruşdular:

– İndi ki, kölgəsində dolanır, nemətinə şükür edirsən, bəs nə üçün çox yaxınlaşmırsan ki, onun sədaqətli xadimləri sırasına keçəsən?



Dedi:

– Axı qəzəbindən də arxayın deyiləm.

B e y t

Yüz il atəşpərəst tonqal yandırar,
İçinə bir dəfə düşən tək yanar.

Saray xadimi bəzən qızıl alarsa, bəzən də baş verər.

Filosoflar demişlər:

– Hökmdarların daima dəyişilən xasiyyətlərindən qorxmaq lazımdır, çünki bəzən salamdan hiddətlənər, bəzən söyüşdən xoşlanıb xələt verərlər.

Bir də deyiblər ki, həddən artıq zarafat etmək nədimlər üçün hünər, alimlər üçün qüsurdur.

B e y t

Öz qədrini sən yaxşı bil, vüqarını vurma yerə,
Qoy mənasız zarafatlar qismət olsun nədimlərə.

**16. Hekayət**

Bir gün dostlarımdan biri yanıma gəlib həyatının uğursuzluğundan şikayətlənərək dedi:

– Ailəm çox, gəlirim yox, yoxsulluq dərdinə də tab gətirə bilmirəm. Dəfələrlə bu fikrə düşmüşəm ki, baş götürüb özgə vilayətə gedim, orada necə yaşasam, nə yaxşımı bilən olar, nə pisimi.

B e y t

Çox ac yatmış, lakin onu bilməmişdir bir insan,
Çox ölənin başı üstə tapılmamış ağlayan.

Yenə düşmənin tənəsindən qorxub düşünmüşəm ki, məni dalda lağa qoyarlar, ailəm haqqında göstərdiyim səyi namərdlik hesab edib deyərlər:

Şeir

Bircə sən o nanəcibə nəzər sal,
Gülməyəcək bəxti onun üzünə,
Tək özünə asudəlik düşünür,
Ailəni salır çölün düzünə.

Sənə məlumdur ki, mühasibat elmindən azacıq başım çıxır. Əgər sənin hörmətin xatirinə mənə bir iş versələr, ürəyim rahat olar, nə qədər ömrüm var sənə minnətdar olaram.

Dedim:

– Qardaşım, şah sarayında xidmət etməyin iki başı var: ümid və qorxu, yəni bir tərəfdən çörək, digər tərəfdən can qorxusu. Çörək ümidilə canı qorxuya salmaq isə ağıllı adamların işi deyil.

Şeir

Heç bir şeyi olmayana deməzlər,
"Torpaq və bağ vergisi ver dargaya"
Ya qüssəyə, qəmə, dərdə razı ol,
Ya da pay ver ciyərini qarğaya.

Dostum israr etdi:

– Sözlərin istəyimə müvafiq, sualıma mütabiq olmadı. Yalnız xəyanətkarlar sorğu-sualdan qorxar.

Beyt

Düzlüyü çox sevər taleyi yazan,
Görmədim düz yolda yolunu azan.

Filosoflar demişlər: "Dörd adamın dörd adamdan xoşu gəlməz: quldurun – sultandan, oğrunun – qarovulçudan, əyyaşın – xəbərçidən və fahişənin – dargadan. Haqq-hesabı düz olanın hesab verməkdən nə qorxusu!".

Şeir

Düşməni sən aciz etmək istəsən,
İşində heç israf eləmə zinhar.



Sən təmiz həyat sür, kimsədən qorxma
Ki, daşa çırpılar natəmiz paltar.

Dedim:

– Sənin hekayətin tülkünün əhvalatına oxşayır. Bir gün gördülər ki, tülkü özünü itirmiş halda qaçır, özünü ora-bura vurur, gah yıxılır, gah durur. Bir nəfər soruşdu: "Nə olub ki, belə qorxuya düşübsən?" Tülkü dedi:

– Eşitmişəm ki, dəvəni biyara aparırlar.

Soruşan dedi:

– Ay axmaq, dəvə ilə sənin nə əlaqən, heç sən dəvəyə oxşayırsanmı?

Dedi:

– Sus, əgər paxıllar qərəzlə desələr ki, dəvədir, məni də tutub apararlar. Onda kim dərdimə qalıb, can yandıracaq və mənim tülkülüyümü sübut edəcək? Eşitməmişsən ki, deyiblər: "Tülkü tülkülüyün sübut edincə, dərisini boğazından çıxardarlar?!"

– Sən ağıllı, düz və etibarlı adamsan. Lakin paxıllar pusquda, düşmənlər isə küncdə gizlənmişlər. Onlar gözləyirlər ki, imkan tapcaq sənin yaxşı sifətlərini şahın qarşısında pis qələmə versinlər və onun sənə qəzəbi tutsun. Belə bir hal baş verərsə, kimin danışmağa cürəti çatar ki, səni müdafiə etsin? Məsləhət görürəm ki, aza qənaət edib rəislik fikrindən daşınasan.

Beyt

Dənizdən çox xeyir olsa da hasil,
Şübhəsiz yaxşıdır yenə də sahil.

Dostum bu sözləri eşitcək hirsləndi, üzünü çevirib ağır sözlər deməyə başladı və dedi:

– Sən nə danışırsan, ağıllı, düşüncəli adam belə sözlər deyərmi? Atalar doğru demişlər: "Dost dar gündə bilinər, süfrə başında düşmən də dost görünər".

Şeir

Ona dost demə ki, süfrə başında,
Deyə: "Qardaşın da, dostun da mənəm"

Ona dost deyərəm ki, çətin gündə,
Dostun arxasında dayana möhkəm.

Dostumun acıqlandığını və nəsihətimi qərəz sandığını gördükdə Sahib – divanın[29] yanına getdim. Çoxdan bəri yaxın olduğumuza görə dostumun əhvalını ona nağıl etdim, ləyaqətli, və sədaqətli olduğunu söylədim. Nəhayət, dostumu kiçik bir vəzifəyə təyin etdilər. Bir müddət həmin vəzifədə işlədikdən sonra düz və bacarıqlı olduğunu görüb bəyəndilər, daha yüksək bir vəzifəyə təyin etdilər. Beləliklə, getdikcə onun tale ulduzu yüksəldi, nəhayət, istədiyi ən yüksək mərtəbəyə çatdı, hökmdarın rəğbətini qazanaraq onun ən yaxın xidmətçilərindən biri oldu. Kefinin köklüyündən xəbərdar olduqda sevinib dedim:

Beyt

Darıxma iş görünsə bir qaranlıq quyuda
Çünki qaranlıqdadır o dirilik suyu da.[30]

Beyt

Qardaşım, qəm çəkib etmə ahü – zar,
Allahın çox gizli mərhəməti var

Beyt

Zəmanə dərdindən çəkmə qəm, kədər,
Səbr acı olsa da, şirin bar verər.

Təsadüfən mən bir neçə dostumla səfərə getməli oldum. Məkkədən qayıdanda həmin dostum məni qarşılamağa gəldi. Dərhal duydum ki, işdən çıxarıblar. Çünki dövlət adamları ancaq işdən çıxarıldıqları zaman dostu axtarmağa vaxt tapa bilərlər.

Şeir

Vəzifə başında, bəxt gülən zaman.
Dostların üzünə baxmaz bircə an.
Kasıblıq, çətinlik üz verən dəmdə.
Dostuna söyləyər dərdini haman.



Üzündə qəm nişanəsi, qiyafəsində kədər ifadəsi görüb soruşdum ki, bu nə haldır?

Dedi:

– Necə ki, demişdin, elə də oldu. Bəzi adamlar paxıllıq edib, məni xəyanətkarlıqda ittiham etdilər. Hökmdar isə işin nə yerdə olduğunu aydınlaşdırmaq üçün səy göstərmədi. Qədimki dostlarım, səmimi yoldaşlarım da keçmiş sədaqəti unudaraq həqiqəti deməkdən çəkindilər.

Şeir

Vəzifə başında olan kəslərə,
Hamı söyləyər: mərhəba, afərin.
Vəzifə başından salan tək fələk,
Başından basarlar, ürəklərdə kin.

Xülasə, cürbəcür işgəncələrə məruz qaldım. Nəhayət, bu həftə həccə gedənlərin sağ-salamat qayıtmaları münasibətilə məni həbsdən azad etdilər və yalnız atadan qalan mirası geri verdilər.

Dedim:

– O zaman sözümü qəbul etmədin, hökmdarlara xidmət etmək dəniz səfəri kimidir, həm qorxusu var, həm faydası, ya xəzinə taparsan, ya dənizdə batarsan.

Beyt

Ya xacə bağrına basar simü zər,
Ya dəniz xacəni[31] bir gün qərq edər.

Bundan artıq onu danlamağı, yaralı könlünə duz səpib yenidən sızıldatmağı rəva görmədim, sözümü bu iki beytlə müxtəsər etdim:

Şeir

Bilmirdin, nəsihət dinləməyəndə,
Nəhayət ayağın düşəcək bəndə?
Əqrəb yuvasına barmaq uzatma,
Əgər ağrısına tab yoxsa səndə!

**17. Hekayət**

Dərvişlərdən bir neçəsi mənimlə dost idi. Onlar zahirən təmiz adamlar idilər. Buna görə də böyük mənsəb sahiblərindən biri onlara həddən artıq inanaraq, hərəsini bir vəzifəyə təyin etmişdi. Bir gün onların birindən dərvişə yaraşmayan bir hərəkət baş verdi, mənsəb sahibi hamımızdan şübhələnməyə başladı və beləliklə, bazarımız kasadlaşdı. Yoldaşların işini birtəhər yenidən bərqərar etmək üçün mənsəb sahibinin yanına getdim. Qapıçı bəd üz göstərib əvvəlcə məni içəri buraxmadı. Mən onda günah görmədim. Çünki məsəl var deyərlər:

Ş e i r

Əmirin, vəzirin və hökmdarın,
Səbəbsiz dolaşma ətrafında sən.
Dərban da, köpək də qəribi tutar,
Birisi yaxadan, biri ətəkdən.

Hökmdar mənim qapıda gözlədiyimi bilən kimi, dərhal məni içəri apartdırıb hörmətlə yuxarı başda yer göstərdi, lakin mən təvazökarlıqla aşağı başa keçib dedim:

B e y t

Nə olar, qoy olum sənə bir bəndə,
Bəndələr səfində oturum mən də.

Dedi:

– Allah eləməsin, bu nə sözdür?

B e y t

Otursan gözlərim üzərində sən
Nazını çəkərəm ki, nazəninsən.

Xülasə, oturub hər tərəfdən danışdıq, nəhayət, yoldaşların ağır yaşayışından söz açıb dedim.

Ş e i r

Nə gördü bizdə ki, nemət verən böyük sultan,
Baxır qəzəblə bizə, dindirir məlamətlə.



Xuda üçün yaraşar lütfü mərhəmət daim,
Günah görəndə belə lütf edər kəramətlə.

Bu söz hökmdara çox xoş gəldi, dostlarımın maddi vəziyyətini qabaqkı kimi bərpa etməyi, boş keçən günlərin də əmək haqqının verilməsini əmr etdi. Minnətdarlığımı bildirdim, vaxtını almağa cəsarət etdiyim üçün üzr istədim və təzim edərək çıxanda dedim:

Ş e i r

Kəbə niyaz qibləsidir, ona görə əhali,
Ziyarətə gələr onu uzaq-uzaq yollardan.
Sən də gərək çox dözəsən verdiyimiz zəhmətə,
Çünki barsız bir ağaca daş atmazlar heç zaman.

**18. Hekayət**

Bir şahzadəyə atasından çoxlu miras qaldı. O, əliaçıqlıq və səxavət göstərərək, əsirgəmədən qoşuna və camaata bəxşişlər verməyə başladı.

B e y t

İyləsən duymazsan ətrini udun,
Yananda ətrini duyarsan onun.
Böyüklük axtarsan, göstər səxavət
Ki, toxum əkməsən almazsan nemət.

Bir gün nadan yoldaşlarından biri ona öyüd-nəsihət verib dedi:

– Keçmiş hökmdarlar bu qədər mal-dövləti səy, zəhmətlə toplayıb yaman gün üçün yığmışlar. Bilməlisən ki, qabaqda bir çox hadisələr gözlənir, arxada isə düşmənlər gizlənir. Bu qədər israf düzgün deyildir, çünki lazım olan vaxtda pula əl çatmaz.

Ş e i r

Xəzinə bəxş etsən rəiyyətə sən,
Hər kəndə pay düşər bir düyü qədər.
Hər kəsdən bir arpa gümüş toplasan,
Payına hər gün bir xəzinə düşər.

Bu söz şahzadənin xoşuna gəlmədi, ona acıqlanıb dedi:

– Allah bu mal-dövləti ona görə mənə veribdir ki, həm özüm yeyəm, həm də başqalarına bağışlayam, nəinki gözətçi olub, qoruyam.

B e y t

Böyüklük istəsən xalqa bəxşiş ver,
Sən toxum səpməsən, nə bitirər yer?

B e y t

Qarun[32] belə qırx xəznədə verdi can,
Yaxşı adla yaşadı Nuşirəvan.

**19. Hekayət**

Nağıl edirlər ki, bir gün ədalətli Ənuşirəvan üçün ovlaqda kabab bişirirdilər, lakin duz yox idi. Duz üçün kəndə bir adam göndərmək lazım gəldi. Ənuşirəvan ona dedi:

– Duzu zorla deyil, pulla al ki, kənd xaraba qalmasın.

Soruşdular:

– Azacıq duzla kənd necə xaraba qalar?

Ənuşirəvan cavab verdi:

– Zülm dünyada əvvəlcə az idi, sonra hər gələn ona bir az artırdı, nəhayət, indiki həddə gəlib çatdı.

Ş e i r

Şah rəiyyət bağından bir alma dərsə həmən,
Nökərləri çıxarar ağacları kökündən.
Beş yumurta alıb şah zülm eyləyən zamanda,
Qoşunu min toyuğu şişə çəkər bir anda.

**20. Hekayət**

Eşitmişəm ki, nadan bir vəzir sultanın xəzinəsini doldurmaq üçün camaatın var-dövlətini əlindən alarmış. Görünür o, ataların bu sözündən xəbərsizmiş:

– Hər kim xalqa zülm edib, böyük və əziz Allaha asi olsa, Allah da həmin xalqı onun üzərinə qaldırıb, kökünü yer üzündən kəsər.



B e y t

Atəşdən daha da betər yandırar,
Məzlumun ürəkdən çəkdiyi ahlar.

Deyirlər heyvanların ən əzəmətlisi şir, ən alçağı eşşəkdir, lakin hamı təsdiq edər ki, yük daşıyan eşşək, adam öldürən şirdən yaxşıdır.

Ş e i r

Eşşək ki, deyirlər çox natəmizdir,
Yük çəkir, bununçun xalqa əzizdir.
Zəhmətkeş öküzlə, yük çəkən eşşək,
Bədxah insanlardan yaxşıdır bişək.

Yenə nadan vəzirin nağılına qayıdaq. Təsadüfən sultan vəzirin bəzi yaramaz işlərindən xəbərdar oldu. Elə bilmə ki, qan yerdə qalar. Sultan vəziri cəzalandırıb cürbəcür əziyyətlərlə öldürtdü.

Ş e i r

Sultanın istəyi yerinə yetməz,
Xalqının halına qalmasa əgər,
İstərsən ki, Allah səni ucaltsın,
Allahın xalqına mərhəmət göstər.

Belə deyirlər ki, sitəmdidələrdən biri vəzirin başı üstünə gəlib, ona necə cəza verildiyini müşahidə edib deyirdi:

Ş e i r

Bəzi arxalanıb öz qol gücünə,
Xalqın var-yoxunu əlindən alar.
Lakin udulsa da sivri bir sümük,
Göbəkdə bənd alıb, qarnı parçalar.

B e y t

Xalqına zülm edən zalım dünyada,
Həmişə lənətlə salınar yada.

## 21. Hekayət

Nağıl edirlər ki, bir mərdimazar hərbçi, rəhmdil bir dərvişin başına daş vurdu. Dərviş intiqam ala bilmədiyi üçün daşı götürüb saxladı. Bir gün hökmdar haman hərbçiyə qəzəblənərək onu quyuya saldı. Dərviş quyunun başına gəlib saxladığı daşı onun başına çırpdı.

Hərbçi soruşdu:

– Sən kimsən, məni niyə daşla vurursan?

Dərviş dedi:

– Mən haman adamam ki, bu daşı sən filan tarixdə mənim başıma vurmuşdun.

– İndiyə qədər bəs haradaydın?

– Xidmətdə olduğun zaman hiddətindən qorxurdum. İndi isə səni quyuda görüb, acığımı çıxmağa fürsət tapdım.

Ş e i r

Hər əclafa olsa əgər bəxti yar,
Fazil adam sükut edər ixtiyar.
Yoxundursa iti dırnaq və pəncən,
Vəhşilərlə heç vuruşa girmə sən.
Hər kim polad qola dursa müqabil,
O, öz lətif qollarını əzər, bil.
Gözlə, fələk onu yıxan zamanda,
Dost kamınca əz başını bir anda.

## 22. Hekayət

Keçmiş hökmdarlardan biri elə bir dərdə düşdü ki, adını çəkməsək yaxşıdır. Bütün həkimlər belə nəticəyə gəldilər ki, bu dərdin dərmanı ancaq filan xasiyyətlərə malik adamın ödü ola bilər. Hökmdar belə adamı tapmağı əmr etdi. Bir kəndli oğlunu tapdılar ki, həkimlərin dediyi xasiyyətlərin hamısı onda var idi. Hökmdar oğlanın atasını çağırtdırdı. Çoxlu mal və pul verib onları razı saldı. Qazı da şərən hökm verdi ki, hökmdarın sağlamlığını qorumaq üçün bir kəndlini öldürmək olar. Nəhayət, cəllad hazır olub oğlanın başını kəsmək istədi. Oğlan gülümsəyərək başını göyə qaldırıb, nə isə dodaqaltı danışmağa başladı. Hökmdar oğlandan nə üçün güldüyünü soruşdu. Oğlan dedi:



– Ey hökmdar, övlad ata-anasına arxalanar, şikayətçi qazı yanına gedər, hökmdardan aman dilərlər. İndi ata-anam məni dünya malına satıb, cəllad əlinə verdi, qazı ölüm hökmünü yazdı, hökmdar isə öz səlamətliyini mənim ölümümdə gördü. Əziz və böyük Allahdan başqa mənim heç bir pənahım yoxdur.

B e y t

Mən kimə eyləyim səndən şikayət,
Özün bax dərdimə, göstər ədalət.

Hökmdar oğlanın sözündən mütəəssir olub, gözü yaşardı. Dedi:

– Bir günahsızın qanını tökməkdənsə, mənim həlak olmağım yaxşıdır.

Sonra oğlanı bağrına basıb, üz-gözündən öpdü, saysız-hesabsız bəxşiş verib azad etdi. Deyirlər ki, hökmdar haman həftə içərisində xəstəlikdən şəfa tapdı.

Ş e i r

Nil çayının sahilində bir filban,
Əhaliyə söyləyirdi bir zaman:
"Ayağının altda nəsə qarınca,
Sən də osan fil ayağı altında".

## 23. Hekayət

Əmr Leysin[33] qullarından biri qaçmışdı, dalınca adam saldılar. Nəhayət, onu tapıb gətirdilər. Vəzirin ona qarşı ədavəti vardı. "Başqa qullar ibrət alıb, qaçmasınlar" – deyə o, qulu öldürmək üçün göstəriş verdi. Yazıq qul Əmr Leysə baş əyib dedi:

B e y t

Qəbuldur xoşuna gələn dərdü qəm,
Fərman səninkidir, aciz bəndənəm.

Sonra sözünə davam edib dedi:

– Lakin bu xanədanın çörəyi ilə böyüdüyümə görə, istəmirəm ki, nahaq qanım boynunuzda qalsın. İcazə verin, mən bu vəziri öldürüm, siz də onun qanın almaq üçün məni öldürün. Beləliklə, tökdüyünüz qan nahaq olmasın.

Qulun sözü hökmdarın xoşuna gəldi, gülüb vəzirə dedi:

– Necə məsləhət görürsən?

Vəzir dedi:

– Ey böyük hökmdar, sizi and verirəm rəhmətlik atanızın qəbrinə, bu həyasızı azad edin, yoxsa məni də bəlaya salar.

Şeir

Sapandlı adamla vuruşsan əgər,
Başına daima sənin daş gələr.
Düşmənə bircə ox atsan əgər sən,
Canını hədəf tək oxlayar düşmən.

**24. Hekayət**

Zəvzən[34] padşahının alicənab və xeyirxah bir xacəsi vardı, zahirdə hamıya hörmət edər, arxada hamının xeyrinə danışardı. Bir gün təsadüfən onun hansı hərəkətisə şahın xoşuna gəlmədi, əmr elədi ki, malını müsadirə edib, özünə cəza versinlər. Lakin ona əzab verəsi olan şah məmurları xacənin əvvəlki yaxşılığını unutmamış, çox şeydə ona borclu olduqlarını yaddan çıxarmamışdılar. Ona görə zəmanət müddətində döyüb əziyyət verməyi, incidib məşəqqət etməyi rəva görmədilər. Xoş dindirib, mülayim rəftar etdilər.

Beyt

İstəsən düşmən ola sülhdə daim sən ilə.
Dalda da eyb desə, üzdə onu təhsin et.
Söz ki, axırda ağızdan çıxacaq əğyarın,
Sözün acı diləməzsən dilini şirin et.

O, şahın ittihamlarının bəzisini rədd edə bildi, lakin yerdə qalanları üçün həbsdə oturmalı oldu. Qonşu şahlardan birisi ona gizli məktub göndərdi ki, sizin ölkənin şahı sənin kimi böyük bir şəxsiyyətin qədrini bilməyib hörmətsizlik etdi, bu bizə çox ağır gəldi. Əgər siz alicənabın (Allah aqibətinizi xeyr etsin) lütf edib bizim tərəflərə gəlməyə rəyi olsa, xatiri hər nə istəsə yerinə yetiriləcəkdir. Bizim ölkənin əyan və əşrafı cavabınızı gözləyir və sizi görməyi qəlbdən arzu edirlər.

Xacə məktubu alcaq qorxuya düşdü, aqibəti düşündü və dərhal elə bir cavab yazdı ki, ələ keçsə ziyanı dəyməsin.

Yaxın adamlardan biri bundan xəbər tutub şaha dedi ki, həbs buyurduğun filan adam qonşu şahlarla yazışır.

Şah qəzəblənib məktubu ələ keçirməyi əmr etdi. Qasidi tutub məktubu oxudular. Yazılmışdı: "Ali zatınızın bizə verdiyi qiymət layiq olduğumuzdan çoxdur, buyurduqları təklifə gəldikdə isə, onu qəbul etmək bəndənizə müyəssər olmayacaqdır, çünki, mən bu xanədanın nemətilə tərbiyə almışam, balaca bir məzəmmət üstündə öz nemət sahibinə vəfasızlıq etmək olmaz, necə ki, deyiblər:

Beyt

Haqqında kərəm etsə sənin əhli-nəcabət,
Bir ömr səni incidə məzur hesab et.

Xacənin haqşünaslığı şahın xoşuna gəldi, ənam verdi, xələt bağışladı, üzr istəyib dedi: "Səhv etmişəm, nahaq səni incitmişəm!"

Xacə dedi: – Ey yer üzünün şahı, mən burada sizdə bir səhv görmürəm, qəzanın əmri belə imiş, gərək mənim başıma bu iş gələymiş. Yaxşı ki, bu sizin əlinizlə oldu, çünki sizin mənim boynumda haqqınız vardır.

Şeir

Xalqdan bilmə əgər zəhmətə düşdünsə bir az,
Çünki xalqdan nə əziyyət, nə fərağət olmaz.
Düşməni, dostu xilafda yaşadan Allahdır,
Onların qəlbinə hakim də haman Allahdır,
Doğrudur ki, hədəfə atsa kaman hər tiri,
Bilik əhli, ox atanda görəcək təqsiri.

**25. Hekayət**

Bir əcəm şahı haqqında eşitmişəm ki, öz yaxın adamlarına belə deyirmiş:

– Filankəsin maaşını ikiqat artırın, çünki o işə yanandır, əmrə baxandır; başqaları isə eyş-işrətə aludə olub xidmət göstərməkdə kahallıq edirlər. Ariflərdən biri bunu eşitdi, dərindən bir ah çəkdi. Dedilər: "Nə oldu?"

Dedi: – Bəndələrin Allah dərgahındakı mənzələsi də belədir.

Ş e i r

İki səhər gedərsə şah yanına bir nəfər,
Üçüncü gün yenə də şahdan mərhəmət görər.
Ümid vardır dərgahdan qayıtmazlar naümid,
Allahına ixlasla ibadət eyləyənlər.

Ş e i r

Böyüklük fərmanı qəbulda olar,
Fərmanı tərk edən çox tez qovular.
Hər bir kəs düzlüyə eyləsə adət,
Tapar xidmətində böyük səadət.

**26. Hekayət**

Nağıl edirlər ki, zalım bir hakim zorla yoxsulların odununu ucuz qiymətə alıb, güclə varlılara baha qiymətə satarmış.

Ariflərdən biri onun haqqında belə demişdir:

B e y t

İlansanmı, kimi görsən tez çalırsan onu sən,
Ya bayquşsan harda olsan dağıdırsan təməldən?!

Ş e i r

Əgər gücün çatırsa da bizlərə,
Çata bilməz qadir, böyük Allaha.
Yer əhlinə sən belə zor göstərmə.
Ta göylərə yüksəlməsin bəd dua.



Hakim bunu eşitdikdə qəzəblənib haman adamı cəzalandırdı. Bir gecə mətbəxdən qığılcım keçib odun anbarına düşdü. Hakimin bütün var-dövləti yandı. Onun rahat otağı kül yatağına döndü. Təsadüfən həmin şəxs oradan keçirdi. Gördü ki, hakim yaxın adamlarına deyir:

– Bilmirəm bu od mənim sarayıma haradan düşdü?

Arif adam dedi:

– Yoxsulların ürəyindən yüksələn ahın odundan.

Ş e i r

Yaralı ürəkdən sən qorx hər zaman
Ki, yara nəhayət olacaq əyan.
Toxunma ürəyə, ona əl vurma,
Unutma, bir ahla dağılar cahan.

Deyirlər ki, Keyxosrovun[35] tacında yazılmışdı:

Ş e i r

Uzun illər, ömrlər, gəlib keçər dünyadan,
Tökülər üstümüzə torpağı çox ellərin.
Babalardan bizlərə qalan bağlar, binalar,
Keçəcəkdir əlinə gələcək nəsillərin.

**27. Hekayət**

Bir adam güləşməkdə şöhrət tapmışdı. O, üç yüz altmış fənd bilir, gündə bir fəndlə güləşirdi. Şagirdlərindən birinə hüsn-rəğbət bəslədiyinə görə ona üç yüz əlli doqquz fənd öyrətdi. Ancaq bir fəndi cürbəcür bəhanələrlə geri salır, öyrətmirdi. Xülasə, oğlan gücdə, ustalıqda elə məşhur oldu ki, onun qabağında heç kim dayana bilmədi. Hətta iş o yerə çatdı ki, o, bir gün hökmdar hüzurunda lovğalanaraq dedi:

– Ustam ona görə məndən üstündür ki, həm böyük, həm də mürəbbimdir. Yoxsa mən gücdə ondan əskik deyiləm, ustalıqda da ona bərabərəm.

Bu söz hökmdarın xoşuna gəlmədi. Əmr etdi, usta ilə şagird güləşsinlər. Hündür bir yer düzəltdilər, dövlət başçıları, saray xadimləri və ölkə pəhləvanları toplandılar. Oğlan qızmış bir fil kimi elə bir heybətlə meydana çıxdı ki, qabağında qurğuşun dağ olsaydı, yerindən qopardı.

Usta başa düşdü ki, şagirdi gücdə ondan üstündür. Ona görə gizli saxladığı fəndlə şagirdi ilə güləşməyə başladı. Oğlan ona girişə bilməyib hirsləndi. Usta onu başı üstə qaldırıb yerə vurdu. Camaat içərisində hay-küy qopdu. Hökmdar ustaya xələt, bəxşiş verməyi əmr elədi. Sonra oğlana acıqlanıb danladı ki, öz ustadına vəfasız çıxdın və etdiyin iddianı da başa çatdıra bilmədin.

Oğlan dedi:

– Ey hökmdar, o, pəhləvanlıqda mənə üstün gələ bilməzdi, bəlkə həyatı boyu məndən gizlətdiyi fənddən istifadə edib qələbə çaldı.

Hökmdar dedi:

– Demək, həmin fəndi belə bir gün üçün gizlədibmiş, zirək adamlar demişlər: "Dostu o qədər gücləndirmə ki, düşmənçilik fikrinə düşdükdə bir şey edə bilsin!". Eşitməmisənmi, öz şagirdindən cəfa görmüş bir mürəbbi nə deyibdir?

Ş e i r

Ya vəfa olmamış özü dünyada,
Ya onu heç kəsə etmir zəmanə.
Kimə öyrətdimsə ox atmağı mən,
Axırda qəlbimi etdi nişanə.

**28. Hekayət**

Tərki-dünya bir dərviş səhrada tənha bir guşədə oturmuşdu. Bir padşahın yolu onun yanından düşdü. Qənaət mülkündə əyləşən dərviş əsla ona etina etmədi. Böyüklər adətincə hökmdar bu etinasızlıqdan hiddətlənib dedi:

– Bu cındır geyinən tayfa eynən heyvan kimi şeydir, nə ünsiyyət bilir, nə insaniyyət.

Vəzir dərvişə yaxınlaşıb soruşdu:

– Ey qoca, dünya hökmdarı sənin yanından keçir, nə üçün baş əyib nəzakət qaydalarını yerinə yetirmirsən?

Dərviş dedi:

– Hökmdara de ki, xidməti o adamdan umsun ki, onun şahdan bir gözətləməsi olsun. Onu da bilməlisən ki, hökmdar rəiyyəti qorumaq üçündür, nəinki rəiyyət əl bağlayıb, onun qabağında qurumaq üçün.



Ş e i r

Padşah yoxsulun pasibanıdır,
Nə qədər olsa da güclü hökmran.
Qoyunlar çobanın malı deyildir,
Qoyuna baxmaqçın qoyulur çoban.

Ş e i r

Birisi olmuşdur bu gün namdar
Başqası döyüşdə edir ahü zar.
Sən bir an səbr eylə ta ki, bu torpaq,
Udaraq onları etsin tar-mar.
O zaman fərqlər qalxar aradan,
Bilinməz kim quldur, kimdir hökmdar,
Kim açsa ölünün qəbrini bilməz,
Bu yatan fəqirdir, ya da bir kübar.

Hökmdar dərvişin doğru sözünü bəyənib dedi:

– Məndən bir şey tələb et!

Dedi:

– Ey hökmdar, səndən tələbim budur ki, bundan artıq mənə əziyyət verməyəsən!

Hökmdar dedi:

– Mənə bir nəsihət ver!

Dedi:

Ş e i r

Qədrini bil əldə var ikən nemət
Ki, əl-əl dolanır bu mal, bu dövlət.

**29. Hekayət**

Bir vəzir Zünnuni Misrinin[36] yanına gedərək dedi: – Mənə bir xeyir-dua verin, gecə-gündüz şah xidmətində qulluq edirəm, buna baxmayaraq, əziyyət verməyəcəyindən arxayın deyiləm.

Zünnun ağlayıb dedi: – Sən sultandan qorxduğun qədər mən Allahdan qorxsaydım, onun ən sadiq adamları mövqeyinə qalxmış olardım.

Şeir

Rahatlıq, əziyyət, ümid və qorxu,
Olmasa yoxsulun nə dərdi vardı?!
Allahdan çəkinib qorxsaydı vəzir,
Şahdan çox hörmətə layiq olardı.

**30. Hekayət**

Bir padşah günahsız bir adamın öldürülməsini əmr etdi, günahsız dedi:

– Ey hökmdar, mənə qəzəblənib özünə ziyan vurma, çünki cəza bir anda qurtarar, qanım isə əbədi olaraq sənin boynunda qalar.

Şeir

Acılıq, şirinlik və yaxşı, yaman,
Səhrada külək tək keçdi durmadan.
Sitəmkar sandı ki, zülm etdi bizə,
Biz dözdük, günaha batdı o nadan.

Hökmdar onun nəsihətini bəyənib, ölümündən vaz keçdi.

**31. Hekayət**

Bir dəfə Ənuşirəvanla vəzirləri mühüm bir məsələni müzakirə edirdilər və hərəsi öz fikrini deyirdi. Şah da bir fikir dedi. Bozorcmehr də şahın fikrinə qoşuldu. Gizlində Bozorcmehrə dedilər:

– Şahın fikrində nə məziyyət gördün ki, onu bu qədər ağıllı adamların sözündən üstün tutdun?

Dedi:

– İşin axırı məlum deyil, heç kəs də bilmir ki, kimin fikri doğru çıxacaq, kiminki yalan. Ona görə şahın rəyinə qoşuldum ki, düz çıxmasa tərəfini saxladığım üçün qəzəbindən azad olam.

Şeir

Kim şahın sözündə çıxartsa yalan,
Yazar öz qətlinə əlilə fərman.
Gündüzə gecədir desə şah əgər,
Gərəkdir desinlər budur ay, ülkər.



**32. Hekayət**

Bir fırıldaqçı saçlarını dərviş kimi hörərək Həccdən gələnlərə qoşulub bir şəhərə daxil oldu. O, hacılarla birlikdə saraya gedib yazdığı bir qəsidəni hökmdara təqdim etdi. Hökmdar başqa şairlər kimi onu da qəbul etdi, hörmət göstərib, çoxlu bəxşiş verdi. Təsadüfən hökmdarın həmən il dəniz səfərindən qayıtmış yaxın adamlarından biri hiyləgər dərvişi görüb dedi:

– Mən bu adamı qurban bayramı günü Bəsrədə[37] görmüşəm. Məlum oldu ki, o hacı deyildir.

Başqa birisi dedi:

– Onun atası Məlatiyyə[38] şəhəri xristianlarındandır, bəs bu cənab necə seyid ola bilər?

Oxuduğu şeri də Ənvərinin[39] divanında tapdılar. Hökmdar onu bu qədər yalan danışdığına görə döyüb qovmağı əmr etdi. O isə yalvarıb dedi:

– Böyük hökmdar, icazə ver bir söz də deyim, doğru olmasa, nə cəza versəniz layiqəm.

Hökmdar dedi:

– Nə söz deyəcəksən? Dedi:

Şeir

Sənə qatıq versə bir qərib əgər,
İki qab su olar, bir çömçə ayran.
Düzünü istəsən, ərz edim sizə,
Dünya görmüşlər də çox deyər yalan.

Hökmdarı gülmək tutub dedi:

– Ömründə bundan doğru söz deməmisən. Sonra əmr etdi; hər nə istəyirsə ona verib, xoşluqla yola salsınlar.

**33. Hekayət**

Nağıl edirlər ki, öz tabelərinə rəhm edən və yoldaşlarına xeyirxahlıq göstərən bir vəzir var idi. Təsadüfən bir gün hökmdarın qəzəbinə məruz qaldı. Dostları onu qurtarmağa çalışdılar, cəza məmurları mülayimliklə rəftar etdilər, mənsəb sahibləri isə hər yerdə onun yaxşı xasiyyətlərindən danışdılar. Nəhayət, hökmdar onun təqsirindən keçdi. Arif bir şəxs bu hadisədən xəbərdar olub dedi:

Şeir

Dostların qəlbini qazanmaq üçün,
Ata bostanını satsan yaxşıdır.
Xeyirxah insanın işi uğrunda,
Var-yoxun sonuna çatsan yaxşıdır.
Hətta pislərə də yaxşılıq elə,
İtə də bir sümük atsan yaxşıdır.

**34. Hekayət**

Harunərrəşidin oğlanlarından biri hirslənmiş halda atasının yanına gəlib dedi ki, filan sərhəngin oğlu anamı söydü. Harun dövlət başçılarından soruşdu:

– Belə adamın cəzası nədir?

Biri öldürməyi, digəri dilini kəsməyi, üçüncüsü isə qovmağı məsləhət gördü. Harun isə oğluna müraciət edib dedi:

– Oğlum, mərdlik odur ki, bağışlayasan. Bağışlaya bilməsən, sən də onun anasını söy, lakin elə etmə ki, intiqam həddini aşsın, çünki belə olduqda biz müttəhim olarıq, o, müddəi.

Şeir

O adam, mərd deyil aqil yanında
Ki, qızmış fillərə oxuya meydan.
Bəli, mərd odur ki, düzlüyü sevə,
Acıqlı zamanda deməyə hədyan.

Şeir

Bir nadan, alimə eyib tutanda,
O dözüb dedi: ey nöqsan göstərən!
Çalışıb məndə çox nöqsan axtarma,
Mən qədər bilməzsən nöqsanımı sən.

**35. Hekayət**

Bir necə böyük şəxslərlə gəmidə oturmuşduq ki, birdən arxadan gələn bir qayığın çevrildiyini gördük. İçindəki iki qardaş burulğana düşdü. Böyüklərdən biri gəmiçiyə dedi:



– Onların hər ikisini xilas et, hərəsi üçün sənə əlli dinar verərəm. Gəmiçi dərhal suya atılıb qardaşlardan birini xilas etdi. O biri isə boğuldu.

Mən dedim:

– O biri qardaşın əcəli çatmışdı, buna görə də gəmiçi onu tuta bilməyib, bunu xilas etdi.

Gəmiçi güldü və dedi:

– Orası elədir, ancaq birincini qurtarmağa mən özüm artıq səy göstərdim, çünki bir dəfə biyabanda piyada qaldığım vaxt o məni dəvəyə mindirib xilas etmişdi, o biri qardaşdan isə uşaqlıqda qamçı yemişəm.

Dedim:

– Allah düzgün buyurubdur: "Yaxşılıq etsən də özünə qayıdar, pislik etsən də".

Şeir

Bacardıqca heç bir qəlbə toxunma
Ki, bu yolda, unutma, var çox tikan,
Yoxsulların hayına qal, sənin də,
Başqasına işin düşər bir zaman.

**36. Hekayət**

İki qardaş var idi, biri şah sarayında xidmət edər, o birisi isə öz zəhmətilə çörək yeyərdi. Bir gün varlı qardaş yoxsul qardaşa dedi:

– Nə üçün şaha qulluq etmirsən ki, canını əziyyətdən qurtarasan?

Qardaşı dedi:

– Bəs sən nə üçün işləmirsən ki, qulluq fəlakətindən xilas olasan? Ağıllı adamlar demişlər ki, kəmərə qızıl qılınc bağlayıb qul kimi durmaqdansa, öz yavan çörəyini yeyib evdə oturmaq yaxşıdır.

Beyt

İsti, qaynar əhəngi sən əllərinlə yoğursan,
Xoşdur əli döşə qoyub şah önündə durmaqdan.

Şeir

Qiymətli ömrümüz buna sərf oldu
Ki, yayda nə yeyim, qışda nə geyim?
Ey qarın, bir parça çörəyə döz ki,
Qulluqda ikiqat olmasın belim!

**37. Hekayət**

Bir adam ədalətli Ənuşirəvanın yanına gedib, xoş bir xəbər apardı:

– Deyirlər ki, Allah sənin filan düşmənini aradan götürdü.

Ənuşirəvan cavab verdi:

– Məni öz yerimdə saxlayacaqmı?

Şeir

Düşmən ölümünə olmaram dilşad,
Bizə də əbədi deyildir həyat.

**38. Hekayət**

Bir gün Kəsranın[40] hüzurunda bir neçə alim yığışıb məsləhətləşdilər. Onların başçısı Bozorcmehr də orada idi. Lakin susur, bir kəlmə də danışmırdı. Sükutunun səbəbini soruşduqda o belə cavab verdi:

– Həkim yalnız xəstəyə dərman verər. Görürəm siz sağlam məsləhət verirsiniz, odur ki, mənim danışmağıma ehtiyac yoxdur. Sözü təkrar etmək ağıllı adamlara yaraşmaz.

Şeir

Əgər iş səs-küysüz düzəlirsə, mən,
Qaçaram dil açıb bir söz deməkdən.
Korun qarşısında görsəm quyu var,
Bu zaman dinməsəm, çox günah olar.

**39. Hekayət**

Harunərrəşid[41] Misir ölkəsini aldıqdan sonra demişdi:

– Misirdə allahlıq iddiasında olan bu tüğyançıların acığına bu ölkəni qullarımdan ən alçağına tapşıracağam. Onun həddən artıq yaramaz bir zəncisi var imiş. Harun Misrin hökmdarlığını həmin zənciyə tapşırdı. Deyirlər ki, zənci o qədər ağılsız imiş ki, bir gün Misir əkinçiləri onun yanına şikayətə gəlib, Nilin ətrafında əkdikləri pambığın vaxtsız yağmurdan tələf olduğunu söylədikdə, o demişdi:

– Yun əkəydiniz.



Şeir

Biliklə artsaydı insanın varı,
Acından ölərdi aləmdə nadan.
Qanmaza o qədər dövlət çatır ki,
Qalır bu əmələ yüz alim heyran.

Şeir

Biliklə tapılmaz bəxtü səadət,
Göylərin əmrilə verilir qismət.
Dünyada hesabsız, bədbəxt, yazıq var,
Alçaqlar hörmətli, aqil isə xar.
Kimyagər evdə ölür acından,
Tapır xərabədə xəzinə nadan.

**40. Hekayət**

Şahlardan birinə bir çinli kənizi gətirdilər; məst halda ona yaxınlıq etmək istədi. Qız mane olub müqavimət göstərməyə başladı. Şah qəzəblənib onu qara bir qula bağışladı. Qulun üst dodağı burun pərələrini aşır, alt dodağı döşünə düşürdü. Elə bədheybət idi ki, Səxr cinni[42] onu görsəydi uzaqdan qaçardı, qoltuğunun altında da çox üfunətli bir iy vardı.

Beyt

Əbədi tapmışdı dünyada ikmal
Onda eybəcərlik, Yusifdə camal.

Şeir

Belə çirkin yaranıbmı, görəsən, bir insan,
Onu təsvirə ola dildə, qələmdə imkan.
Qucağı, üzdəniraq, bir qatı murdardır ki,
Onu mordad[43] günəşi pak edə bilməz bir an.

Deyirlər ki, bu zaman qara qulun şəhvəti coşmuş, gözü qızmış, nəfsini saxlaya bilməyib qızın bəkarətini almışdı. Sabahısı gün şah qızı

axtardı, tapa bilmədi. Əhvalatı danışdılar, qan başına vurdu, əmr etdi qul ilə qızı biri-birinə bağlayıb qalanın kəlləsindən dərənin dibinə atsınlar.

Xeyirxah vəzirlərdən biri baş əyib təzim etdi və dedi:

– Şahın ömrü uzun, dövləti əbədi olsun, burada yazıq qulun günahı yoxdur, onun da başqa qullar kimi şahdan mərhəmət gözləməyə haqqı vardır.

Dedi: – Bir gecə səbr etsəydi dünya dağılmazdı ki, mən ona kənizin qiymətindən daha çox dövlət verərdim.

Dedi: – Ey yer üzünün allahı, düz buyurdunuz, lakin:

Şeir

Ciyəri təşnə olan çeşməyə çatdıqda məyər,
Çəkinərmi dəli fildən, buna de, kim inanar:
Boş otaq, süfrə dolu, mədəsi boş bir dinsiz,
Ramazandan[44] çəkinib süfrədə heç ac oturar?!

Bu lətifə şahın xoşuna gəldi. Dedi:

– Yaxşı, qulu sənə bağışladım, bəs kənizi neyləyim?

Dedi:

– Kənizi də qula bağışla ki, onun artığı özündən başqa heç kəsə layiq deyil.

Şeir

Pis yerə gedəndən sənə dost olmaz,
Dostunu yaxşı seç və yaxşı tanı.
Təşnənin ürəyi götürməz içsin
Üfunət ağızdan artıq qalanı.

**41. Hekayət**

Rumlu İskəndərdən[45] soruşdular:

– Qərbdən Şərqə qədər uzanan bu ölkələri necə tutdun? Halbuki keçmiş hökmdarların ömrü, xəzinəsi, mal-dövləti səndən artıq olmuş, lakin sənin qədər fəthlər edə bilməmişlər.

İskəndər dedi:

– Səbəbi budur ki, hər ölkəni aldıqda camaatını incitmədim, şahlarına hörmət edib, adlarını ehtiramla çəkdim.



Beyt

Onu böyük saymaz aqil olanlar
Ki, böyük kəsləri pisliklə anar.

Şeir

Keçici hər bir şey, heç olur şəksiz,
Təxt ilə bəxt və əmrlə kirdar.
Pisləmə köçənin yaxşı adını,
Ta sənin öz adın qalsın paydar.

## II FƏSİL

## DƏRVİŞLƏRİN ƏXLAQI HAQQINDA

**1. Hekayət**

Yüksək mənsəbli bir şəxs zahiddən soruşdu:

– Adamlar filan abidin dalınca pis danışırlar, sən onun haqqında nə deyə bilərsən?

Dedi:

– Zahirində eyib görmürəm, batininə isə bələd deyiləm.

Şeir

Hörmət et, hər zaman, yaxşı adam bil,
Hər kimi çox sadə geyinmiş görsən.
Batini dərk etmək bir müşkül işdir.
Darğa tək hər evə daxil olma sən.

**2. Hekayət**

Gördüm bir dərviş üzünü Kəbənin[46] astanasına sürtür və hey belə deyir: "Ey kərim Allah, rəhim Allah, sən özün bilirsən ki, zalım və cahillərdən nə xətalar baş verə bilər".

Qitə

Xidmətində müqəssirəm əfv et.
Çünki yoxdur ümid taətdən,
Tövbə eylər günah üçün asi,
Arif üzr istəyər ibadətdən.

Abidlər dualarının icrətini, tacirlər mallarının qiymətini istərlər. Mən isə nə dua etmişəm, nə mal gətirmişəm, baş götürüb dərgahına dilənməyə gəlmişəm. Vəziyyətimə görə yox, ləyaqətimə görə mənimlə rəftar et.

Şeir

Kəbənin önündə bir yolçu gördüm.
Ağlaya-ağlaya deyirdi haman:



"Demirəm, qəbul et itaətimi,
Lütf edib, keç mənim günahlarımdan"

Beyt

Öldürsən, ya bağışlasan mən dönmərəm astanandan,
Üzüyola bir qulunam, əmrin nədir, nədir fərman?

**3. Hekayət**

(Bir dəfə) gördülər ki, Əbdülqadir Gilani[47] (Allah ona rəhmət eləsin) üzünü Kəbə mehrabının xırda daşlarına sürtüb belə deyir: "İlahi, məni bağışla, əzab-əziyyət verəcəksənsə, qiyamət günü kor elə ki, bağışlananları görüb utanmayım".

Şeir

Hər səhər küləyi əsən zamanda,
Torpağa üz sürtüb yalvarıram mən.
"Ey səni heç zaman unutmadığım,
Heç məni yadına salırsanmı sən?.."

**4. Hekayət**

Bir gün zahidin evinə oğru gəldi. Nə qədər axtardısa, bir şey tapa bilməyib kədərləndi. Bunu görən zahid, altındakı palazı çəkib oğrunun yolu üstə atdı ki, əliboş qayıtmasın.

Şeir

Eşitdim ki, Allah adamı bir an,
Düşmən qəlbini də sıxmaz heç zaman.
Belə bir məqamə çata bilməzsən,
Sən ki dostlarınla hey vuruşursan.

**Tərbiyət.** Sədaqət əhlinin səmimiyyəti üzdə də, dalda da eyni olar, naəhl adamlar isə üzdə sənə qurban olar, dalda isə eyib tutar.

Beyt

Zahirdə bir yazıq qoyuna oxşar,
Arxada sanki bir quduz canavar.

Beyt

Hər kim sənə özgənin eybini dedi, bişək
Sənin də hər eybini başqasına deyəcək.

**5. Hekayət**

Bir neçə səyyah yoldaş olub, səyahətə çıxmışdı. Onlar qabaqlarına gələn bütün əziyyətlərə birgə qatlaşır, mənzillərdə birgə rahatlaşırdılar. Mən də onlarla qonşu olmaq istədim, razı olmadılar. Dedim:

– Miskinlərin söhbətindən üz döndərib, onları öz söhbətinin ləzzətindən məhrum etmək kərəm sahiblərinə yaraşmaz. Mən isə öz nəfəsimdə elə bir təsir və qüdrət bilirəm ki, adamların xidmətində ürək sıxan daş deyil, könül açan yoldaş ola bilərəm.

Beyt

Gedərəm piyada yanınızla mən,
Olum yəhər tutan, üzəngi çəkən.

Onlardan biri dedi:

– Sözümüzdən incimə, çünki bu günlərdə bir oğru özünü dərviş qiyafəsinə salıb yanımıza gəldi.

Beyt

İnsanın qəlbini göstərməz paltar,
Yazan özü bilər kağızda nə var.

Dərvişlər safürəkli olduqlarından heç nədən şübhələnməyib onu yoldaşlığa qəbul etdilər.

Şeir

Arifin geyimi köhnə olsa da,
Ona xəlqiliyi bəsdir dünyada.
Nə geysən özün bil, yaxşı ol, ancaq,
Ya tac qoy, ya da tut çiynində bayraq,
Zahid atmalıdır eyşi-işrəti



Nə təkcə paltarı, varı, dövləti,
Döyüşdə mərdanə olmağı öyrən,
Lakin müxənnəsə qarşı durma sən.

Bir gün axşamacan yol gedib, gecəni bir qalanın yanında qalmalı olduq. Biz yuxuda ikən o uğursuz oğru, yoldaşının qumqumasını götürüb, həyətə çıxmaq bəhanəsi ilə oğurluğa getmişdi.

Beyt

Möminə bax, xirqə geyib necə vüqarla gedir.
Kəbəninsə örtüyünü eşşəyinə çul edir.

O, yoldaşlarının gözündən yayınıb qalanın bürcündən içəri girmiş, bir sandıq cavahir oğurlamış, gecə ikən oradan qaçıb uzaqlaşmış, biz isə heç şeydən xəbərimiz olmadan, yatıb yuxuya qalmışdıq. Səhər açılan kimi qala gözətçiləri gəlib hamımızı qalaya apardılar, döydülər və həbsə saldılar. O gündən bəri yadlarla dostluğu tərk edib, başqalarından kənar gəzməyi qərara almışıq. Məsəl var deyərlər: tək başım, dinc başım.

Şeir

Tayfadan bir qanmaz çıxarsa, əlbət,
Böyük də, kiçik də çəkər xəcalət.
Eşitməmisənmi bir məsəl də var:
"Bir dana naxırın adını korlar".

Dərvişin bu söhbətini dinlədikdən sonra dedim:

– Allahın izzət və calalına şükür olsun, zahirən dərvişlərdən ayrı düşüb tək qalsam da, onların verdiyi bu öyüd mənim kimi adamlar üçün ömür boyu bəsdir.

Şeir

Məclisdə bir nəfər nanəcib olsa,
Bütün məclis əhli incik görünər.
Doldursan gülabla bir hovuzu sən.
Bircə it düşərsə, çirkaba dönər.

**6. Hekayət**

Bir zahid bir padşaha qonaq idi. "Hökmdarın yanında hörmətim artsın" – deyə o, süfrə başında əyləşərkən adətindən az yedi, ibadətə başladıqda isə namazı həddən artıq uzatdı.

Beyt

Kəbəyə çatmazsan ərəb, ayıq ol,
Türküstan yoludur bu getdiyin yol.

Elə ki, evinə qayıdıb gəldi, yemək istədi. Onun ağıllı bir oğlu var idi, atasından soruşdu:

– Ata, nə üçün hökmdar hüzurunda doyunca yemədin? Zahid dedi:

– Hökmdar hüzurunda karlı bir şey yeyə bilmədim. Oğlu dedi:

– Elə isə namazını da təzələ, çünki karlı namaz da qıla bilmədin.

Şeir

Ey məğrur, ey əli hünər bilməyən.
Eyiblə, nöqsanla öyünürsən hey...
Pis günə düşərsən, işin əyəndə,
Belə qəlp puluna verməzlər bir şey.

**7. Hekayət**

Yadımdadır, uşaqlıqda gecələr ibadətlə məşğul olur, dindarlığa maraq göstərirdim. Bir gecə atamla birlikdə səhərə qədər yatmayaraq, Quran oxuyurduq. Ətrafımızda isə hamı yatmışdı. Atamdan soruşdum:

– Bunların biri də başını qaldırmır ki, heç olmasa, iki rükət namaz qılsın, onlar elə qəflət yuxusuna gediblər ki, sanki yatmamışlar, ölmüşlər.

Atam dedi:

– Ey əziz oğlum, xalqın qeybətini etməkdənsə, yatsaydın daha yaxşı olardı.

Şeir

Müddəi özündən qeyrisin görməz,
Çünki xudpəsəndlik tutmuş gözünü.
Allahı görməyi bacarsa hər kəs,
Hamıdan zavallı görər özünü.



**8. Hekayət**

Böyük adamlardan birini məclisdə tərifləyir və yaxşı sifətlərindən uzun-uzadı danışırdılar. Nəhayət o, başını qaldırıb dedi:

– Mən özüm bilirəm ki, mən kiməm.

Beyt

Ey mənə hey tərif deyib incidən,
Kaş xəbər tutaydın bu batinimdən.

Şeir

Bütün aləm mənə baxıb zahirimi xoşlayır.
Bu natəmiz batinimsə məni edir xəcalət.
Xalq heyrandır min rəng ilə gəzən tavus quşuna.
Tavus isə ayağına baxıb çəkir xəcalət.

**9. Hekayət**

Ərəb ölkələrində öz kəramətilə şöhrət tapmış bir Livan şeyxi bir gün Dəməşq məscidində daş hovuz kənarında dəstəmaz alarkən ayağı sürüşüb hovuza düşdü. Çox çətinliklə oradan çıxa bildi. Namaz qurtardıqdan sonra əshabələrindən biri dedi:

– Bir şey mənə qaranlıqdır, icazə versəydiniz soruşardım.

Dedi: – O nədir?

Dedi: – Şeyxim, yadımdadır deyirdiniz ki, siz Məğrib dənizinin[48] üzərində yeriyir, heç ayağınız da islanmırmış, indi nə oldu ki, siz az qala balaca bir hovuzda boğulmuşdunuz?

Şeyx bir müddət fikrə daldı, sonra başını qaldırıb dedi:

– Eşitməmisənmi ki, peyğəmbəri-aləm (Məhəmməd) səlləllahi əleyh vəsəlləm demişdir: "Mən bəzən Allaha o qədər yaxın oluram ki, heç mələklər və nəbilər də bizə yaxınlaşmağa cürət etmirlər". Lakin o deməmişdir ki, həmişə belə olur.

Bildiyin kimi, bəzən o Cəbrail və Mikaili[49] yanına buraxmazdı, bəzən isə Həfsə və Zeynəbi[50] yanından buraxmazdı.

Şeyxlər[51] demişlər ki, müqəddəs adamların haqqı dərk etməsi zühur ilə qeyb arasındadır. O gah görünər, gah yox olar.

Beyt

İşvəylə üz göstərib, qaçıb uzaq durursan,
Bazarı qızışdırıb, bizə də od vurursan.

Şeir

Haçan ki, sevgilim keçir fikrimdən,
O zaman yolumu itirirəm mən,
Eşqinin oduyla yandığım zaman,
Lütfüylə söndürür bu odu haman.

Şeir

Birisi soruşdu qoca Yəqubdan:
Ey qəlbi nur saçan ağıllı insan.
Bir köynək iyini duydun Misirdən.
Kənanda quyunu görmədin nədən?[52]
Dedi ki, halımız bir kəhkəşandır.
O gah əyandırsa, gah da nihandır.
Edərəm gah yüksək səmayə pərvaz,
Gah öz önümü də görmərəm bir az.
Dərviş qalsa əgər durğun halda bil,
Hər iki aləmdə o salmaz mənzil.

**10. Hekayət**

Vaxtilə Bəlbək[53] məscidində bir dəstə cahil, korafəhm adamlara moizə edirdim. Hələ zahiri aləmin bəhsini qurtarıb, batini aləmə keçməmişdim ki, taqətdən düşdüyümü hiss etdim; nə qədər danışırdımsa göz yaş odunu yandıra bilmədiyi kimi, mənim də sözlərim onlara təsir etmirdi. Xülasə, belə heyvanların tərbiyəsi üçün çalışdığıma təəssüflənir və sanki korlar məhəlləsində güzgü gəzdirirdim. Lakin artıq məna xəzinəsinin qapıları açılmış, söz mirvariləri silsiləsi düzülməyə başlamışdı. "Və nəhnu əqrəbu ileyhi min həblil vərid"[54] ayəsini izah edib deyirdim:

Şeir

**Dost mənə məndən də yaxında ikən.**
**Bəs niyə mən onun fərağındayam?!**



Dərdimi mən kimə, necə söyləyim
Ki, yar yanımda mən sorağındayam.

Mən bu sözün badəsi ilə məst olub sanki axırıncı qədəhi əlimdə tutmuşdum ki, bu zaman kənardan keçənlərdən biri son sözümün təsirindən elə bir nərə çəkdi ki, bütün məclis cuşa gəldi, elə bil, yatmışlar huşa gəldi. Öz-özümə dedim: Aman Allah! Necə oldu ki, uzaqdakı gözüaçıqlar yaxınlaşdı, yaxındakı korlar isə uzaqlaşdılar.

Şeir

Sözü əgər anlamırsa dinləyən,
Söz deyənin təbi artmaz dünyada.
Acıq, geniş, təmiz bir meydan gərək.
Ta natiq də at çapa, top oynada.

**11. Hekayət**

Bir gecə Məkkə səhrasında yuxusuzluqdan ayaq atmağa halım qalmamışdı, başımı yerə qoyub dəvəçiyə dedim: Sən məndən əlini üz!

Şeir

Necə yol yerisin yazıq piyadə
Ki, dəvə yorulub ahü vay edər.
Bir kök arıqlayıb çöpə dönüncə,
Arıq çoxdan ölüb dünyadan gedər.

Dedi: – Ay qardaş, hərəm qarşıdadır, hərami dalda, ayaq atsan sağ qalacaqsan, yıxılıb yatsan, həlak olacaqsan.

Beyt

Səhrada kol altında yatmaq xoş olsa da, sən
Köç gecəsi gərəkdir canından əl çəkəsən.

**12. Hekayət**

Bir dəniz kənarında bir zahid gördüm, onu pələng yaralamışdı və heç bir dərmanla sağalmırdı. Çoxdan idi ki, yara ona əziyyət verir, o isə hey Allaha şükür edirdi. Soruşdular: – Bəs şükür nə üçündür?

Dedi: – Şükür edirəm, yaxşı ki, xəstəliyə yatmışam, günaha batmamışam.

Şeir

Gər mənim qətlimə fərman verə ol yari-əziz,
Sən güman etmə çəkəm mən bu yazıq can qəmini
Deyərəm ki, nə günah etdim o yar incidi ah,
Çəkərəm mən belə bir hissilə canan qəmini.

**13. Hekayət**

Bir dərvişə böyük ehtiyac üz verdi. Sadiq dostunun kilimini oğurladı. Qazı əlini kəsməyi əmr etdi. Kilim sahibi rəhmə gəlib dedi: – Mən malımı ona halal edirəm. Qazı dedi: – Sənin halal etməyinlə şəriət qanununu poza bilmərəm. Kilim sahibi dedi: – Doğru buyurursunuz, lakin yoxsul malı vəqf[55] malıdır, vəqf malını oğurlayanın isə əlini kəsməzlər.

Qazı oğrunu bağışlayıb danlamağa başladı və dedi: – Başına yer qəhət idi ki, gedib belə bir dostunun evini yardın?

Dedi: – Qazı sağ olsun, eşitməmisən ki, deyiblər: "Dost evini silsüpür et, düşmən qapısına getmə?!"

Beyt

Ruhdan düşmə, üz verərsə sənə çətinlik günü
Soy düşmənin dərisini, dostunsa al kürkünü.

**14. Hekayət**

Bir hökmdar bir zahidi görüb soruşdu: – Bizi heç yada salırsanmı?
Dedi:
– Bəli, Allahı unudanda.

Beyt

Kimi Allah qovarsa, onu sərgərdan edər,
Kimə olsa rəğbəti, salsaz onu dərbədər.



**15. Hekayət**

Əməli saleh adamlardan biri yuxuda gördü ki, padşah cənnətdədir, zahid cəhənnəmdə. Soruşdu ki, bunun belə yüksəlməsinin və onun belə alçalmasının səbəbi nədir? Camaat bunun əksini gözləyirdi. Nida gəldi ki, bu padşah yoxsullara yaxşılıq etdiyi üçün cənnətdə, o zahid şahlara yaxınlıq etdiyi üçün cəhənnəmdədir.

Şeir

Nəyinə lazımdır bəzəkli paltar
Yaxşıdır özünü pis işdən qurtar.
Dəri papaq qoyub çox qaldırma boy.
Dərvişsifət olub sadə papaq qoy.

**16. Hekayət**

Hicaz karvanı Kufədən[56] keçərkən ayaqyalın, baş açıq, çılpaq piyada bir yoxsul bizə qoşuldu. O, yorğun bir halda gedir və deyirdi:

Şeir

Nə dəvəyə minmişəm, nə dəvə tək yüküm var
Nə ağaya bir qulam, nə də qula şəhriyar.
Qəmim yoxdur dünyada bilmərəm qorxu nədir,
Asudəyəm, dərdü qəm ruhuma biganədir.

Dəvəyə minmişlərdən biri ona dedi:

– Ey dərviş, hara gedirsən; qayıt, yol çətindir, ölərsən. Dərviş qulaq asmayaraq yoluna davam etdi. Karvanımız Nəxleyi-Məhmuda[57] yetişəndə həmin dəvəyə minmiş adamın əcəli çatdı. Dərviş onun başı üstə gəlib dedi:

– Mən piyada ölmədim, sən isə dəvə üstündə həlak oldun!

Beyt

Ağladı bütün gecə bir adam xəstə üstə,
Ağlayan gündüz öldü, sağaldı, durdu xəstə.

Şeir

Çox olmuş qaçan at yollarda batmış.
Çolaq eşşək isə mənzilə çatmış.
Çox sağlam ağlayıb qəbrə gömüldü.
Yaralı ölmədi, sağaldı, güldü.

**17. Hekayət**

Nağıl edirlər ki, şah bir abidi yanına çağırmışdı. Abid fikirləşdi: "Bir az dərman atıb zəifləyim, bəlkə çox ibadət etdiyim zahirimdən məlum ola, mənə olan etiqadları bir qədər də arta". Deyirlər dərman öldürücü zəhər imiş, atmağı ilə ölməyi bir oldu.

Şeir.

Püstə kimi məğz hesab eylədiyim,
Soğan kimi pərdəliymiş o yaramaz.
Çox zahidi gördüm xalqa üz tutaraq
Qibləsinə dal çevirib qılır namaz.

Beyt

Allahını salanda hər bir bəndəsi yada,
Lazımdır ki, başqa şey tanımasın dünyada.

**18. Hekayət**

Yunan ölkəsində yol kəsənlər bir karvanı çapıb, çoxlu qənimət ələ gətirdilər. Tacirlər nə qədər ağlayıb, sızlayıb, Allaha – peyğəmbərə and verdilərsə, bir faydası olmadı.

Beyt

Oldusa bir qəddar oğru kamiran,
Qəm yeməz, ağlasa, bütün karivan.

Həkim Loğman da həmin karvanda idi. Karvandakılardan biri ondan xahiş edib dedi:



– Oğrulara öyüd-nəsihət ver, moizə oxu, bəlkə mallarımızın bir hissəsi əlimizdə qala. Heyifdir bu qədər mal tələf ola.

Loğman dedi:

– Heyif hikmətli sözdür ki, onlara deyilə.

Şeir

Pas yemiş dəmirdən mümkün deyildir,
Silməklə yenidən saf dəmir almaq.
Daş qəlbə kar etməz öyüd-nəsihət,
Dəmir mıxı olmaz qayaya çalmaq.

Şeir

Şad günündə sınıq qəlbləri güldür,
Zorla könül qırmaq yamandır bilsən,
Sayil nə istəsə, xoşluq ilə ver,
Yoxsa zalim alar zorla əlindən.

**19. Hekayət**

Görkəmli alim, böyük şeyx mərhum Əbülfərəc ibn Cövzi[58] mənə musiqi məclisində iştirak etməyi mən edərdi. Lakin başımda gənclik havası, qəlbimdə eyş-işrət həvəsi olduğundan qoca ustadın dediyinə qulaq asmır, musiqi məclislərinə getməkdən həzz alırdım. Şeyxin verdiyi öyüd-nəsihəti xatırladıqda isə öz-özümə deyirdim:

Beyt

Qazi bizlə otursa, eyləyər rəqsə həvəs,
Darğa içsə mey özü, məsti müqəssir etməz.

Yenə bir axşam bir kef məclisinə yetişdim, orada elə bir mütrüb gördüm ki,

Beyt

Qırır qəlbin tellərini mizrab ilə nə ki var,
Səsi mərhum atasının səsi kimi xırıldar.

Məclisdəkilər onun səsini eşitdikdə gah öz qulaqlarını tuturdular, gah "sus!" – deyə barmaqlarını dodaqlarına qoyurdular.

Beyt

Sevərlər səs ilə hər xanəndəni,
Sən sussan daha çox sevərlər səni.

Beyt

Səsin razı salmaz heç bir adamı
Susduqda sevinib şadlanar hamı.

Şeir

Elə ki, səsləndi o bərbət yenə,
Dedim kəndxudaya: "Allah eşqinə,
Ya tök qulağıma civə kar olum,
Ya aç bu qapını tez kənar olum".

Xülasə, dostların xatirinə bütün gecəni bu qayda ilə səhər eylədim.

Şeir

Müəzzin qışqırır yersiz, mövqesiz,
Bilməyir nə qədər keçib gecədən.
Soruş gözlərimdən uzun gecəni,
Çünki bircə an da yatmamışam mən.

Dan yeri sökülərkən qurşağımdan bir dinar çıxarıb, başımdakı çalmanı açdım və onları xanəndəyə bağışladım, sonra qucaqlayıb minnətdarlıq elədim. Dostlar mənim ona qarşı göstərdiyim bu ehtiramı adətdən xaric bilib, ağılsızlığıma yozdular. Dostlarımdan biri dili-uzunluq edib məni danlamağa başladı ki, ovcunda bir gümüş, dəfində bir quruş görməyən xanəndəyə şeyxlik paltarını bağışlamaqda ağıllı iş görmədin.

Şeir

Bu məclisdən uzaq olsun, var idi bir nəğməxan
Ki, bir yerə iki dəfə çağrılmazdı heç zaman.



Rast oxumaq istər ikən məlum oldu hünəri,
Eşidənin bədənində biz-biz oldu tükləri.
Saray quşu qorxusundan eyvandan uçdu getdi,
Boğazını yırtdı özü, bizi yarımcan etdi.

Dedim:

– Məncə ağzını yumub, etiraz etməsən, daha yaxşıdır. Çünki bu adamın kəraməti mənə aydın oldu.

Dostum dedi:

– Elə isə nə üçün səbəbini mənə demirsən ki, mən də ona hörmət edib, zarafatla dediyim sözün üzrünü istəyim?

Dedim: – Səbəbi budur ki, hörmətli şeyxim mənə çoxlu öyüd-nəsihət verər, musiqi məclisində iştirak etməyimi qadağan edərdi. Mən isə qulaq asmazdım. Bu axşam isə mənə böyük bir səadət üz verdi, uğurlu taleyim gətirib məni bu evə çıxartdı. Burada həmin xanəndənin səsini eşitdikdə tövbə etdim ki, nə qədər ömrüm var, bir də belə məclislərdə iştirak etməyim.

Şeir

Gözəl ağız, şirin dodaq, xoş boğazdan gələn səs
Nəğmə desə, deməsə də, sevər onu hər bir kəs.
Amma Üşşaq, İsfahan və Hicaz kimi müqamlar.
Çirkin, kobud bir ağızdan çıxsa heç kim dinləməz.

**Hikmət.** Loğmandan soruşdular:

– Ədəbi kimdən öyrəndin?

Dedi:

– Ədəbsizlərdən. Onlarda gördüyüm xoşuma gəlməyən hərəkətləri təkrar etmədim.

Zarafatyana da deyilsə bir söz,
Ağıllı o sözdən götürər ibrət.
Əgər anlamaza yüz hikmət desən,
Oyuncaq görünər ona bu hikmət.

**20. Hekayət**

Yadımdadır, bir dəfə bütün gecəni karvanla yol getmiş, səhərə yaxın bir meşənin kənarında yatmışdıq. Bir dəli aşiq də bizimlə idi. Birdən nərə çəkib yerindən qalxdı, baş götürüb səhraya qaçdı, səhərə qədər bir an da belə aram olmadı. Gündüz ondan soruşdum:

– O nə hal idi?

Cavab verdi: – Gördüm ağacdakı bülbüllər naləyə gəlmiş, dağdakı kəkliklər, göldəki qurbağalar, meşədəki heyvanlar səs-səsə vermişlər. Dedim insafdan deyil ki, hamı vird edib, zikr oxusun, məni isə qəflət yuxusu aparsın.

Şeir

Dünən sübhə yaxın inlərdi bir quş,
Naləsi alırdı məndən əql, huş.
Səmimi dostlardan birisi demə –
Mənim halətimdən xəbərdar olmuş.
Demiş ki, heç güman etməzdim buna,
Səni bir quş səsi eyləsin mədhuş.
Dedim ki, adamlıq şərti deyildir,
Quş razü niyazda, mən isə xamuş.

**21. Hekayət**

Vaxtilə hicaz səfərinə çıxmışdım. Arif cavanlardan neçəsi də mənimlə idilər. Onlar bəzən astadan zümzümə edib, hikmətamiz şeirlər oxuyurdular.

Dərvişlərdən xoşu gəlməyən, onların mənəvi aləmlərindən xəbərdar olmayan və hənəfi məsləkinə[59] mənsub bir zahid də bizimlə həmsəfər idi. Bəni-hilal[60] tayfasına çatdıqda bir qarasifət ərəb uşağı rastımıza gəldi. O elə bir avazla oxudu ki, uçan quşlar göydən yerə endilər. Birdən gördüm zahidin dəvəsi də oynamağa başladı. Zahidi yerə vurub biyabana doğru baş aldı. Zahidə dedim:

– Ey şeyx, bu necə işdir ki, xanəndənin səsi heyvanı oyadır, lakin səndə heç bir təsir oyatmır?

Şeir

Heç bildin nə dedi səhər bülbülü?!
Dedi: "Ey eşqdən xəbərsiz insan,



Dəvə də rəqs edir ərəb şerilə,
Sənin zövqün yoxsa, pissən heyvandan".

Şeir

Onun zikrində hər bir şey gəlir vəcdə, edir tüğyan,
Bunu dərk eyləyər ancaq ürəklə dinləyən insan.
Güman etmə gülə bülbül oxur nəğmə, olub mayil,
Onun tərifinə bax ki, tikanlar da açıbdır dil.

**22. Hekayət**

Bir padşahın ömrü sona çatırdı, lakin taxtında əyləşəcək varisi yox idi. Vəsiyyət etdi ki, səhər tezdən şəhər darvazasından kim ilk daxil olsa, şahlıq tacını onun başına qoyub, ölkənin işlərini ona tapşırsınlar. Təsadüfən darvazadan ilk girən bir dilənçi oldu. O, bütün ömrünü tikə-tikə çörək yığmaq, cındır paltarına yamaq üstündən yamaq vurmaqla keçirmişdi. Dövlət xadimləri və ölkənin mötəbər adamları şahın vəsiyyətini yerinə yetirdilər. Qala və xəzinənin bütün açarlarını dilənçiyə verdilər və o bir necə müddət padşahlıq etdi. Necə deyərlər: loğmaya həsrət qalan, halva yedi bol, kalan.

Lakin çox çəkmədi ki, dövlət xadimlərindən bir neçəsi ona itaət etməkdən boyun qaçırdılar, qonşu hökmdarlar isə düşmənçiliyə başlayıb, hər tərəfdən ölkənin üstünə qoşun çəkdilər. Nəhayət, camaatla qoşun birləşib üsyan etdi. Ölkənin bəzi şəhərləri hökmdarın əlindən getdi.

Bu hadisələr yeni padişahı həddən artıq kədərləndirdi. Elə bu zaman keçmiş dilənçilik dövrü yoldaşlarından biri səfərdən qayıtdı, dostunun çox yüksək bir mərtəbəyə çatdığını görcək dedi:

– Şükür olsun Allahın izzət və calalına ki, nəhayət, sənin qızılgülün tikandan xilas oldu, yoxsulluq tikanı isə ayağından çıxdı. Yüksək taleyin, böyük səadətin yar olub, səni belə bir mənsəbə çatdırdı. Deməli, bütün çətinlik və əziyyətin axırda belə rahatlıq və asudəliyi də varmış.

Beyt

Çiçək gah açıqdır, gah da pünhandır,
Ağac gah geyimli, gah da üryandır.

Hökmdar dedi:

– Ey əziz dostum, sən gördüyün günlər çörəyin dərdini çəkirdim, indi isə dünyanın qəmini yeməli oluram.

Şeir

Var-dövlət olmasa dərd çəkər insan,
Olanda, rahatlıq yox olur ondan.
Xülasə, belədir bu qoca dünya
Əzabdır olsa da, ya olmasa da.

Şeir

Dövlətli olmağı istəsən bil ki,
Ancaq qənaətdir səfalı dövlət.
Dövlətli pul töksə ətəyinə, sən,
Onun savabından götürmə minnət.
Atalar söyləmiş: yoxsulun səbri
Varlı bəxşişindən yaxşıdır əlbət!

Beyt

Bəhram əgər gur ovlayıb görünsə də qəhrəman
O, zəifdir bir çəyirtkə sürüyən qarıncadan.[61]

**23. Hekayət**

Bir şəxsin dövlət xadimləri içərisində bir dostu var idi, çoxdan bəri onunla görüşə bilmirdi. Birisi soruşdu:

– Çoxdandır dostunla görüşmürsən?

Dedi:

– Görüşmək arzusunda da deyiləm.

Təsadüfən dostunun yaxın adamlarından biri orada idi, bu sözü eşitcək soruşdu:

– Dostunun günahı nədir ki, onunla görüşməyi arzulamırsan?

Dedi:

– Dostumun günahı yoxdur, lakin dövlət xadimini yalnız vəzifədən azad edildikdən sonra görmək olar. Mən isə öz rahatlığım üçün onun əziyyətə düşməsinə razı deyiləm.



Qitə

Böyüyər, qarışar başım işlərə,
Çıxar xatirindən dostlar, tanışlar.
Elə ki, rütbədən salınar yerə
Gələr, dosta açar nə ki dərdi var.

**24. Hekayət**

Nağıl edirlər ki, bir abid hər axşam on batman ağırlığında xörək yeyib səhərə qədər Quran oxuyarmış. Böyüklərdən biri bunu eşidib demişdir:

– Gündə yarım çörək yeyib yatsa idi, ariflərin nəzərində daha yaxşı olardı.

Şeir

Qarnını doldurma yeməklə ta ki,
Özündə görəsən mərifət nuru.
Başın boşdur, çünki doludur qarnın,
Qarnı dolmuşların olmaz şüuru.

**25. Hekayət**

Bir yoldan azmışın qarşısına haqq nuru səpələndi, əyrilikdən əl çəkib doğru yola gəldi, dərvişlərə qoşuldu, onların söhbətinin gücündən; nəfəsinin təsirindən pis adətləri unutdu, yaxşı xasiyyətlərə sahib oldu, əyyaşlıqdan əl çəkdi. Lakin ağzıgöyçək adamlar dili uzunluq edərək onun haqqında şayiə yaymağa başladılar ki, əvvəldə olduğu kimidir, pəhriz saxladığına, ibadət etdiyinə də etibar yoxdur.

Beyt

Qurtararsan üzrlə Allahın əzabından,
Xalqın dilindən ancaq qurtarmazsan bircə an.

Nəhayət, dedi-qoduya davam gətirməyib təriqət başçısının yanına şikayətə getdi. Mürşidləri dedi:

– Şükür etmək üçün bundan daha gözəl nə ola bilər ki, sən camaatın təsəvvür etdiyindən daha yaxşısan.

Beyt

Çox demə ki, paxıl adamlar mənə
Eyib axtarırlar hey axşam, səhər.
Gah tökmək istərlər qanımı mənim,
Gah da "pisdir" – deyib yayırlar xəbər.
Yaxşı ol, qoy "pisdir" desinlər sənə,
Nə ki pis olasan "yaxşı" desinlər.

Lakin fikir çəkib qəm yemək, həqiqətdə qüsurlu olub zahirdə nöqsansız hesab edilən mənim kimi adamlara lazımdır:

Beyt

Onlar tərif edən kimi olsaydım,
Yaxşılığa çəkilərdi bil adım.

Beyt

Yaxın qonşum bilə bilməz mənim heç bir əsrarımı,
Lakin yalnız Allah bilir bütün gizli-aşkarımı.

Şeir

Qapımızı xalq üzünə bağladıq,
Bilməyələr ta bizdə nə eyib var.
Nə fayda bu qapını bağlamaqdan
Ki, hər sirri Allah bilir aşikar.

**26. Hekayət**

Bir gün şeyxlərdən birinin yanına gedib şikayətləndim ki, filankəs mənim pisliyimə danışır.

Dedi:

– Sən yaxşılığına danış, utandır!

Şeir

Sən yaxşı işlər gör, ta ki pis gözlər,
Nə qədər axtarsa tapmasın nöqsan,
Əgər düz çıxarsa bərbətin səsi,
Çalğıçı qulağın burmaz heç zaman.



**27. Hekayət**

Şam[62] şeyxlərindən birindən soruşdular ki, sufiliyin mahiyyəti nədən ibarətdir?

Dedi: – Əvvəllər dünyada bir qrup adamlara deyirdilər ki, zahirən dağınıq idilər, daxilən mütəşəkkil; indi isə elə adamlara deyirlər ki, zahirdə mütəşəkkildirlər, daxildə dağınıq.

Qitə

Hər saat ürəyin bir yerdə olsa,
Təklikdə görməzsən rahatlıq, səfa.
Varsa çox dövlətin, əkinin, rütbən,
Qəlbin Allahlasa, xəlvətnişinsən.

**28. Hekayət**

Əbu Hüreyrə[63] (Allah ondan razı olsun) hər gün Məhəmməd peyğəmbərin yanına gələrmiş və həmişə də peyğəmbər ona deyərmiş:

"Ya Əbu Hüreyrə, zurni ğibbən təzdid hübbən", yəni: ya Əbu Hüreyrə, hər gün gəlmə ki, məhəbbətimiz çox olsun.

Bir arifə dedilər: – Günəşin bu qədər gözəl olmasına baxmayaraq, birinin ona vurulduğunu və ya dost olduğunu indiyə qədər eşitməmişik.

Dedi:

– Çünki hər gün görürsünüz. Bircə qışda, o az görünür, çox sevilir.

Şeir

Xalq ilə görüşmək eyib deyildir,
Lakin o qədər ki, deməsinlər "bəs".
Əgər sən özünü məlamət etsən,
Töhmət eşitməzsən heç kəsdən əbəs.

**29. Hekayət**

Böyüklərdən birinin qarnında yel vardı. Birdən burulmağa başlayıb dışarı çıxmaq istədi. O, nə qədər əlləşdisə, özünü saxlaya bilmədi. Axırda naqafil yel səslə dışarı çıxdı.

Dedi: – Dostlar, qəsdən etmədiyim üçün günahı mənə yetişməz, lakin mənə böyük bir rahatlıq nəsib oldu, siz də kəramətiniz xatirinə bunu üzürlü hesab edin.

Ş e i r

Ey aqil, qarındır yelə bir zindan,
Yeli bənddə qoymaz şüuru olan.
Qarında yel olsa saxlama zinhar,
Çünki o ürəyə ağır yük olar.

B e y t

Cansıxıcı hərifiə bir məclisdə oturma,
O rədd olmaq istəsə sən heç üstünü vurma.

**30. Hekayət**

Dəməşq dostlarımın söhbətindən yorulduğuma görə, baş alıb Beytül-müqəddəs[64] çölünə getmişdim. Orada heyvanlarla ünsiyyət tapıb yaşamaqda idim ki, firənglərə əsir düşdüm. Onlar məni Trablis[65] xəndəyində yəhudilərlə birlikdə torpaq işində işləməyə məcbur etdilər. Keçmişdə tanış olduğum Hələb başçılarından biri keçərkən məni tanıyıb dedi:

– Bu nə haldır?

Dedim:

Ş e i r

Qaçırdım bu xalqdan dağa-daşa mən,
Allahla birləşmək istərdim həmən.
İndi gör nə yazıq hala düşdüm ki,
Namərdlə tutmuşam tövlədə məskən.

B e y t

Dostlar ilə məhbus olmaq yaxşıdır, bir zindanda,
Nə ki, düşmən sənin ilə ömür sürə bostanda.



Mənə çox yazığı gəldi, on dinar verib əsirlikdən azad etdi və özü ilə Hələb şəhərinə apardı. Orada qızını mənə verib, yüz dinar mehrlə kəbinini kəsdirdi.

Deme, bu qız bədxasiyyət, həyasız və dikbaş imiş. Bir müddət keçdi. Qız diliuzunluğu ilə günümü qara etməyə başladı.

Ş e i r

Yaxşı kişi, pis arvadla həyat sürərsə bahəm.
Bu dünya da olar ona bir dözülməz cəhənnəm.
Pis arvadın əllərindən dadü fəryad, əlaman,
Allah! Bizi xilas eylə bu cəhənnəm odundan.

Axırda bir gün o tənə ilə üzümə qabarıb dedi:

– Sən o adam deyilsən ki, atam səni pul ilə firənglərin əsirliyindən azad etmişdir?

Dedim:

– Bəli, mən hamin adamam ki, atan məni on dinara firənglərin əlindən satın alıb, yüz dinara sənin çəngində əsir etdi.

Ş e i r

Eşitdim ki, bir pəhləvan zavallı bir qoyunu
Xilas etdi bir yırtıcı canavarın əlindən.
Axşamçağı boğazına bıçaq qoydu yazığın,
Dilə gəldi o qoyunun ruhu dedi: "Aman sən
Əgər məni canavardan qurtardınsa, nəhayət,
Əsil qurdum özün oldun, öldürdün uf demədən".

**31. Hekayət**

Padşahlardan biri oğul-uşağı çox olan bir abiddən soruşdu:

– Əziz vaxtını necə keçirirsən?

Dedi: – Gecə səhərə qədər minacat verirəm, səhərlər ehtiyacım üçün dua edirəm, bütün günü xərclik üçün əlləşirəm. Şah abidin nə demək istədiyini başa düşdü, əmr verdi ona maaş təyin etsinlər, ailə yükünü onun üzərindən götürüb əhli-əyalın təmin etsinlər.

Şeir

Ey ailə zəncirinə bağlı qalan binəva,
Rahatlıq və asudəlik xəyal etmə bir daha.
Övlad, çörək, paltar qəmi, dolanacaq kədəri,
Sənə imkan verməyəcək seyr edəsən göyləri.
Hər gün səhər əhd edirəm, mən verirəm iltizam
Ki, rəbbimlə razu niyaz edəcəyəm bu axşam.
Gecə olcaq mən hər şeyi unuduram nə ki var,
Dərd götürür ki, bəs sabah nə yeyəcək balalar?!

**32. Hekayət**

Şam abidlərindən biri meşədə yaşayır və ağac yarpağı ilə dolanırdı. Bir padşah onun görüşünə gedib dedi:

– Məsləhət görsəniz sizdən ötrü şəhərdə bir saray tikdirərəm. Orada həm siz asudə ibadət edərsiniz, həm də camaat sizin hikmətamiz sözlərinizdən faydalanar, pak əməllərinizi görüb ədəb öyrənərlər.

Zahid hökmdarın təklifini rədd etdi. Vəzirlərdən biri ona dedi:

– Hökmdarın dediyi söz hörmətinə, yaxşı olar ki, şəhərə gəlib bir neçə gün vəziyyəti öyrənəsiniz. Əgər yad adamlar vaxtınızı alıb, söhbətlərilə sizi narahat etsələr, yenə qayıda bilərsiniz.

Nağıl edirlər ki, zahid şəhərə gəldi. Hökmdarın öz xüsusi bağ və sarayında onun üçün çox səfalı və ürəkaçan bir yer verdilər.

Şeir

Gözəllər hüsnünə bənzər bu gülşəndə qızılgüllər,
Nigarın zülfü tək xoşdur bu yerdə türfə sünbüllər.
Qışın bərk şaxtası keçmiş, soyuqdan qalmamış qorxu,
Açıb sanki ağız tifli-gülüstan gözləyir qayğu.

Beyt

Yaşıl donlu budaqlarda düzülmüş nar gülü od tək,
Əcəbdir yarpaq üstündə belə qan rəngli od görmək!

Hökmdar dərhal göyçək bir kəniz də onun yanına göndərdi.



Şeir

Abidlər aldadan ay üzlü canan,
Huri tək gözəldir, tavus tək əlvan.
Onun camalını mömin də görsə,
Bilməz harda qaldı din ilə iman.

Şah onun ardınca yaraşıqlı, gözəl bir qulam da zahidə bağışladı.

Şeir

Xalq ölür atəşdən suçu yanında,
Suçu görərsə də bir damcı qıymaz.
Gözlərim doymayır səndən, necə ki,
İstisqa içərsə fəratı doymaz.

Zahid ləzzətli xörəklər yeyib, təmiz paltarlar geydi, dadlı meyvələrin, şirələrin ətrindən məst olub, gözəl kənizin və qulamın gül camalından zövq almağa başladı.

Ağıllı adamlar demişlər:

– Gözəllərin zülfü ağlı əsir edən bir kəmənd, zirək quşu tora salan bir bənddir.

Beyt

Imanımı, qəlbimi yar yolunda qoymuşam,
Sanki çox bildiyimdən tora düşən bir quşam.

Nəhayət, bütün bu xoşbəxtliklər zahidi zavala gətirdi.

Şeir

Mürşid də, mürid[66] də, qoca, cavan da
Xülasə hər kəs ki, qoca cahanda
Bu alçaq dünyaya bir həvəs saldı,
Milçək kimi bala yapışıb qaldı.

Hökmdar ikinci dəfə onu görməyə gəldikdə gördü ki, zahidin əvvəlki solğun rəngi dəyişmiş, ətə-qana dolub qıpqırmızı qızarmışdır. İpək yastığa söykənmiş, mələk kimi gözəl qulam onun başı üzərində tavus qanadı kimi bir çətir açmışdır. Xülasə, hökmdar, zahidin səhhə-

tinin sağalmağından sevindiyini bildirib, hər tərəfdən söhbət açdı. Axırda söhbətinə yekun vuraraq dedi:

– Mən iki cür adama məhəbbət bəsləyirəm: bir alimə, bir də zahi-Dünyada mənim kimi onları sevən yoxdur.

Orada olan dünyagörmüş ağıllı bir vəzir dedi:

– Ey hökmdar, məhəbbətin şərti budur ki, bacardıqca hər ikisinə yaxşılıq edəsən: alimlərə qızıl verəsən ki, daha artıq elm qazansınlar, zahidlərə bir şey verməyəsən ki, zahid olaraq qalsınlar.

Şeir

Könül alan gözəl üzlü gözələ,
Üzük, sırğa, bəzək-düzək nə lazım?!
Xoş əxlaqlı, xoş məcazlı zahidə,
Qapı-qapı pay diləmək nə lazım?!

### 33. Hekayət

Bu sözün qüvvəsi, bir padşaha böyük bir məsələ üz vermişdi. Əhd etdi ki, əgər məsələ onun istədiyi kimi həll olsa, zahidlərə çoxlu pul bağışlasın. İş o istədiyi kimi də həll olundu. Hökmdarın ürəyi sakitləşdi, sonra öz əhdini yerinə yetirmək qərarına gəldi. Xüsusi qullarından birinə bir kisə qızıl pul verdi ki, aparıb zahidlərə paylasın.

Deyirlər ki, qul çox ağıllı və zəkalı idi, bütün günü şəhərdə gəzib, axşam olduqda şahın hüzuruna qayıtdı, qızıl kisəsini öpüb qarşısına qoydu və dedi:

– Nə qədər axtardımsa, bir zahid tapa bilmədim.

Padşah bundan hirslənib dedi:

– Mənim bildiyimə görə ölkədə 400 zahid vardır. Qul cavab verdi:

– Ey böyük hökmdar, əsl zahid almaz, alan isə zahid olmaz.

Hökmdar güldü və nədimlərinə dedi:

– Nə qədər möminlərə rəğbət, bu arsıza ədavət bəsləsəm də, onun haqq olduğunu etiraf etmək lazımdır.

Şeir

Bir zahid alarsa dirəmlə dinar,
Ondan daha mömin bir zahid axtar.



Bir zahid göz diksə özgə malına
Yaxşıdır heç zahid demə sən ona...

### 34. Hekayət

Etibarlı alimlərin birindən soruşdular:

– Necə bilirsiniz, vəqf çörəyi halaldır, ya yox?

Dedi: – Cəmiyyət üçün alırlarsa, halaldır, mənimsəmək üçün cəm olurlarsa haram.

Beyt

İbadətçin çörək lazımdır, əlbət,
Çörək üçün etməmişlər ibadət.

### 35. Hekayət

Bir dərviş gəlib bir yerə çıxdı ki, oranın yiyəsi əliaçıq, qəlbi geniş bir adam idi. Zövq əhli, fəzilət sahibləri onun evinə toplanır, dərin hikmətlər, zərif lətifələr söyləyirdilər. Dərviş ac-yalavac uzaq yoldan gəlmiş, dilinə bir şey dəyməmişdi. Zarafatyana biri dedi:

– Sən də bir söz de!

Dedi: – Mən başqaları kimi gözəl danışmağı bilmirəm, savadım da o qədər çox deyil, ancaq bir beyt ilə sözümü qurtaracağam.

Hamısı maraqlanıb dedi: – Söylə!

Dedi:

Beyt

Mən bir acam önümdə də süfrə dolu xoş təam,
Sanki arvad hamamının önündə bir subayam.

Dostlar onun çox ac olduğunu başa düşüb süfrə açdılar. Ev yiyəsi dedi: – Əzizim, bir az gözlə, xidmətçilər sənə döyülmüş ət hazırlasınlar. Dərviş başını qaldırıb güldü və dedi:

Beyt

Döyülmüşə, döyülmüş ət nə gərək?!
Ac olana küftədir hər duz-çörək.

## 36. Hekayət

Bir mürid öz mürşüdünə dedi:

– Adamların əlindən zara gəlmişəm. O qədər görüşümə gəlirlər ki, vaxtımı alır, narahatlığıma səbəb olurlar. Onlardan xilas olmaq üçün mənə bir yol göstər.

Dedi:

– Yoxsullara borc ver, varlılardan borc istə. Bir daha ətrafına dolanmazlar.

Beyt

Əgər islam ləşkərində gəda düşsə önə tək,
İstəməsin bir pay deyə, kafir qaçar Çinədək.

## 37. Hekayət

Fiqh elmini[67] öyrənən bir tələbə atasına dedi:

– Vaizlərin bu gurultulu və bəzəkli sözləri əsla mənə təsir etmir, çünki onların sözləri əməllərilə düz gəlmir.

Şeir

O, hamıya bu dünyanı at deyir,
Özü isə qızıl-gümüş cəm edir.
Hər alim ki, əməl etməz sözünə,
Heç vaxt onun inanmazlar özünə.
Alim odur pislik etməz heç kəsə,
Əməl edər özü, xalqa nə desə.

Beyt

Bir adam ki, hər zaman öz xeyrini axtara,
Özü yolu azmışdır, o hara, rəhbər hara?!

Atası dedi:

– Ey oğul, belə bir səhv mülahizəyə əsaslanıb xeyirxah adamların tərbiyəsindən üz çevirmək, alimləri azğınlıqda taqsırlandıraraq, məsum alim axtarıram – deyə elm öyrənməkdən məhrum olmaq düzgün iş deyildir. Bu, palçığa batmış korun məsəlinə bənzəyir. Nağıl edirlər ki, bir kor gecə qaranlıqda gedərkən palçığa batmışdı. O, çığırıb deyirdi:



– Ey müsəlmanlar, heç olmazsa, mənim yolumun üstünə bir çıraq tutun.

Hazırcavab bir qadın korun sözünü eşidib dedi:

– Sən ki, çırağı görmürsən, çıraqla nə görəcəksən?

Həmçinin, moizə məclisi bəzzaz dükanı kimidir: orada pul verməsən, mal ala bilməzsən; buraya rəğbət bəsləməsən, səadət əldə edə bilməzsən.

Qitə

Alim hər nə söyləyərsə, canla-başla qulaq as,
Nəsihətçin onun dili bir söz tutana qədər.
O müddəi düz deməmiş, yanılmışdır sözündə,
"Bir yatmışı başqa yatmış necə oyada bilər?"[68]
Mərd odur ki, deyiləni yaxşı yadda saxlasın,
Daş üstündə qazılsa da öyüd, nəsihət əgər!

Şeir

Xanəqahdan[69] mədrəsəyə gələrək,
Bir sahibdil atdı əhli-təriqi.
Dedim : "Fərqi nədir alim, abidin
Ki, alimi tutub, atdın rəfiqi?"
Dedi: "O, öz kilimini qoruyur,
Bu çalışır xilas etsin ğəriqi"*

## 38. Hekayət

Bir sərxoş gənc yol kənarında yatmış, özündən bixəbər yerə sərilib qalmışdı. Bir abid oradan keçərkən bu iyrənc mənzərəyə nəzər saldı. Gənc məstlik yuxusundan baş qaldıraraq bu ayəni oxudu: – Mömin adamlar iyrənc şeylərin yanından keçərkən, kəramət edib onu görməməzliyə vurarlar...

Şeir

Günahkar görəndə eybini açma,
Daima səbirli, mərdanə ol sən.

* ğəriq – suda boğulan

Bir nöqsan görsən də mənim işimdə,
Olmazmı lütfünlə onu örtəsən?

Ş e i r

Hər günah edəndən sən üz döndərmə,
Ona əfv edənlər kimi sal nəzər,
Mən əgər cavanmərd deyiləm işdə.
Sən mərd ol, kərəmlə bir qayğı göstər.

**39. Hekayət**

Bir dəstə əyyaş bir dərvişlə sözə gəldilər, ağızlarına gələn nalayiq söyüşlər söyüb onu əzişdirdilər. Dərviş şikayət üçün mürşüdün yanına getdi, başına gələni nəql etdi.

Dedi: – Ey oğul dərviş xirqəsi razılıq, dözümlük libasıdır, onu geyən hər zülmə qatlaşmalıdır, əks halda, dərvişliyi tərk edib xirqəni çıxartmalıdır.

B e y t

Ümman bir daş ilə heç dalğalanmaz,
Arif inciyərsə, dayazdır, dayaz.

Ş e i r

Bir zərər dəyərsə sənə səbr elə,
Əfv ilə günahdan təmizlənərsən;
İndi ki, hər şeyin sonu torpaqdır,
Torpaq tək sakit qal, elə indidən.

**40. Mənzum hekayət**

Sənə bir hekayət söyləyim dinlə,
Bağdadda deyişdi bayraq pərdəylə
Bayraq öz alından edib şikayət
Pərdəyə acıqla dedi, nəhayət,
"Biz ki, hər ikimiz mərdü mərdana,
Xidmət eləyirik eyni sultana.



Neçün dincəlmirəm xidmətdə bir an,
Səfərdə puç olur ömrüm hər zaman.
Sən isə bilmirsən əziyyət, hasar,
Nə səhra görürsən, nə toz, nə qubar,
Belə ağır ikən mənim xidmətim,
Bəs neçün sən qədər yoxdur hörmətim?
Sən gözəl bəndələr qucağındasan,
Səninlə əl verir hər nazlı canan.
Mən isə gəzirəm hey əldən-ələ.
Çöllərdə sərgərdan qalmışam hələ".
Dedi: "Mənim başım asitandadır.
Lakin sənin başın asimandadır.
Kim bica boynunu dik tutsa hər an,
Gəzər boyunlarda belə sərgərdan".

**41. Hekayət**

Ariflərdən biri bir pəhləvanı hirslənmiş və ağzı köpüklənmiş görüb soruşdu:

– Buna nə olubdur?

Dedilər:

– Filan adam onu söyübdür.

Arif adam dedi:

– Bu necə işdir ki, bu yaramaz min batmanlıq daşı götürə bilir, lakin bircə sözü götürə bilmir?

Ş e i r

Sən, gücündən dəm vurub, demə "cavanmərdəm mən"
Mərdlik deyil nəfsinə qul olub aciz durmaq.
Hünərin var şirin et bir ağızı, yoxsa ki,
Cavanmərdlik deyildir ağıza zərbə vurmaq.

Ş e i r

Birisi filə də qalib gəlirsə,
O, hələ qəhrəman cavan deyildir.
Torpaqdan yoğrulmuş insanın zatı,
Təmkini olmasa, insan deyildir.

**42. Hekayət**

Bir böyük adamdan Səfa qardaşlarının[70] xasiyyətlərini soruşdum. Dedi:

– Ən azı odur ki, dostlarının xeyrini öz şəxsi mənafelərindən üstün tutarlar.

Alimlər deyiblər: "Yalnız öz hayına qalan qardaş, nə qardaşdır, nə yoldaş".

Beyt

Yol yoldaşı tələsərsə, qoy o getsin, sən dincəl,
Sənlə dostluq etməyənə, sən də ürək vermə, gəl.

Beyt

Dəyanət görməsən əgər qohumdan,
Qısırlıq yaxşıdır belə doğumdan.

Yadımdadır, müddəilərdən birisi mənim bu beytimə etiraz edib dedi ki, Allah öz müqəddəs kitabında rəhmsiz olmağı qadağan etmiş, yaxın adamları sevməyi buyurmuşdur, sənin dediklərin isə bunlara ziddir. Dedim, qələt edirsən, Quranda deyilmişdir:

"Əgər ata-anan çalışıb bir şeyi mənə şərik qoşmağa səni vadar etsə, onlara itaət etmə!"

Beyt

Haqqı yad etməyən min qohumdansa,
Xoşdur bir yad dosta ürək bağlansa.

**43. Mənzum hekayət**

Bağdadda çox zərif bir qoca vardı,
Qızını bir başmaq tikənə verdi.
Qızın dodağını o kobud, nadan;
Elə sordu ondan axdı qızıl qan.
Səhəri atası bu halı görcək,
Damadın yanına yola düşdü tək.
Soruşdu: "Ay alçaq, bu necə dişdir?



Dodaq çeynəyirsən, bu necə işdir?"
Bunu zarafatla deməyirəm mən.
Şuxluğu ataraq ciddini al sən.
Təbə hakim olsa pis xislət, inan,
Ölüncə o şəxsin çıxmaz canından.

**44. Hekayət**

Bir fəqirin həddən artıq çirkin bir qızı vardı. Cehiz, var-dövlətə baxmayaraq, qızını alan olmurdu.

Beyt

İpək də, xara da çirkin görünər,
Çirkin bir gəlinə örtülsə əgər.

Nəhayət, qızını bir kora vermək məcburiyyətində qaldı. Nağıl edirlər ki, o zaman Sərəndibdən[71] bir həkim gəlmişdi, o qədər məharətli idi ki, kor gözü də aça bilirdi. Bir gün adamlar alimdən soruşdular:

– Nə üçün kürəkənini müalicə etdirmirsən?

Alim dedi:

– Qorxuram ki, gözü açılandan sonra qızımı boşasın!

Misra

Çirkin arvadlara kor ər gərəkdir.

**45. Hekayət**

Bir padşah dərvişlərə alçaq nəzərlə baxırdı. Onlardan biri bunu sezib dedi: – Ey şah, bu dünyada doğrudur, ordumuz yoxdur, bunda səndən daldayıq, lakin güzəranımız xoşdur. Öləndə bərabərik, qiyamətdə isə səndən irəlidə olacağıq.

Şeir

Ölkə alan padişahlar qoysalar da qızıl tac.
Dərvişlər də çörək üçün duysalar da ehtiyac,
Hər ikisi ölən dəmdə olar bir cür natəvan.

Aparmazlar bir kəfəndən başqa bir şey dünyadan.
Can mülkündən bir gün köçmək lazım gələrsə, əgər
Gədalıq çox sultanlıqdan şərafətli görünər.

**46. Hekayət**

Dərvişliyin zahiri əlaməti köhnə paltar, qısa saçdır, lakin həqiqətdə nəfsini öldürüb, qəlbini diri saxlamaqdır.

Şeir

Arif deyil qapılarda dolaşan,
İddiası rədd olduqda savaşan.
Arif odur, dağdan uçsa bir qaya,
O qayanın qarşısından qaçmaya.

**Tərbiyət.** Dərvişliyin yolu zikr, şükür, ibadət, itaət, sədəqə, qənaət, tohid, təvəkkül, hər çətinliyə qatlaşıb hər bəlaya dözməkdir. Bu sadalanan sifətlər kimdə varsa, əba geymiş olsa da əsl dərvişdir. Lakin, hərzə-hərzə danışan, binəmaz, xeyrə-şərə yaramaz, əyyaş, səhərdən axşama qədər şəhvət hayına qalan, axşamdan səhərə qədər qəflət yuxusuna dalan, qabağına gətiriləni yeyən, ağzına gələni deyən, əba geymiş olsa da, dərviş deyil, lotudur.

Batini təqvadan[72] boş olan yazıq.
Zahirdə geymisən riyadan paltar
Qapından yeddi rəng pərdə, gəl, asma,
Sənin ki evində bircə həsir var.[73]

**47. Mənzum hekayət**

Təzə gül gördüm mən, bir neçə dəstə,
Bağlanıb ot ilə bir-biri üstə.
Dedim: "Vəcsiz otun nə nisbəti var
Ki, tutsun gül ilə bir səfdə qərar?
Ot həmən ağlayıb dedi: "Sus, bir az,
Kəramət əhlinə bu söz yaraşmaz.
Yoxsa da ətirim, rəngim, camalım,



Mənim də o bağda artmış kəmalım.
O bağın otuyam vəfalı bəndə,
Onun sayəsində boy atdım mən də.
Hünərli, hünərsiz olsam da, həmən
Allahın lütfündən yaranmışam mən.
Yoxsa da zatımda bir qabiliyyət.
Qüdrətim çatmırsa edim ibadət.
O özü tapacaq bu dərdə çarə,
Başqa yol qalmamış hər etibarə
Qaydadır böyüklər fərman verəndə
Əvvəl azad olar qocalmış bəndə".
Dünyanı düzən ey böyük yaradan,
Bu qoca bəndəni bağışla haman.
Ey Sədi, razılıq Kəbəsinə gir,
Allahın qapısı sənin yerindir,
Yazıqdır bu böyük qapıdan qaçan.
O başqa bir qapı tapmaz heç zaman.

**48. Hekayət**

Bir filosofdan soruşdular: "Səxavət yaxşıdır, yoxsa şücaət?"
Dedi:
– Səxavəti olanın şücaətə nə ehtiyacı?

Beyt

Bəhrami-gur məzarında yazılmışdır aşikar,
Kəramətdə zorlu qoldan daha artıq qüvvət var.

Şeir

Qalmadı dünyada Hatəmi-Tai[74]
Onu yaxşılıqdır daim yaşadan.
Malından zəkat ver, çünki üzüm də
Artar, meynələri kəsdikcə bağban.

III FƏSİL

## QƏNAƏTİN FƏZİLƏTİ HAQQINDA

**1. Hekayət**

Hələb[75] şəhərinin bəzzazlar bazarında Qərb ölkələrindən gəlmiş bir dilənçiyə rast gəldim. O, xalqa müraciətlə deyirdi:

– Ey varlılar, sizdə insaf, bizdə qənaət olsaydı, dünyada dilənçilik qalmazdı.

Şeir

Məni ey qənaət, dövlətli eylə,
Dünyanın səndən xoş neməti yoxdur.
Loğmanın hikməti səbrilə oldu,
Kimdə səbr olmasa hikməti yoxdur.

**2. Hekayət**

Misirdə iki şahzadə var idi. Biri elm oxuyur, digəri mal toplayırdı. Nəhayət, biri əsrinin alimi, o biri Misirin hakimi oldu. Bir gün hakim qardaş alim qardaşa həqarətlə baxıb dedi:

– Mən səltənət aldım, sən isə yoxsulluqda qaldın.

Dedi:

– Mən öz taleyim üçün o böyük Allaha daha çox şükür etməliyəm, çünki peyğəmbərlər və alimlər mirası, yəni elm mənə; Firoun və Haman[76] mirası, yəni Misir hökmdarlığı isə sənə çatmışdır.

Şeir

Qarıncayam, ayaq altda əzilləm,
Mən deyiləm neştər vuran bir arı.
Bu nemətə necə şükr etməyim ki,
Gücüm yoxdur incidəm insanları.

**3. Hekayət**

Nağıl edirlər ki, bir dərviş ehtiyacın alovu içində yanır, cındır paltarını yamayır, öz küskün könlünə təskinlik verib deyirdi:



Beyt

Biz razıyıq sadə paltar, su və quru çörəkdən,
Xoşdur çəkmək möhnət yükü xalq minnəti çəkməkdən.

Kimsə ona dedi:

– Nə oturubsan, dur, filan adamın yanına get! O, çox səxavət, kəramət sahibidir, dərvişlərə rəğbət bəsləyir. Hamı onu ürəkdən sevir. Halından xəbərdar olsa, məmnuniyyətlə qarşılayıb, sənə hörmət edər.

Dərviş dedi:

– Sus, başqalarına əl açmaqdansa, aclıq içində ölmək yaxşıdır!

Şeir

Yamaq tikib bir guşədə səbr eyləmək yaxşıdır,
Nə ki, gedib paltar üçün xanı tərif eləsən,
Doğrudan da bir cəhənnəm işgəncəsi kimidir,
Öz qonşunun sayəsində sən cənnətə gedəsən.

**4. Hekayət**

Əcəm hökmdarlarından biri Məhəmməd peyğəmbərin yanına bilikli bir həkim göndərdi. Həkim bir neçə il Ərəbistan ölkələrində qaldı, lakin bu müddət ərzində heç kim ona müalicə üçün müraciət etmədi. Nəhayət, o, Məhəmməd peyğəmbərin yanına gəlib şikayətləndi:

– Məni sizin adamlarınızı müalicə etmək üçün buraya göndəriblər. Ancaq bu müddət ərzində heç kim yanıma gəlməyibdir ki, öhdəmə düşən vəzifəni yerinə yetirəm.

Peyğəmbər dedi:

– Bu camaatın bir adəti var: acmamış yeməzlər, doymamış yeməkdən əl çəkərlər.

Həkim dedi:

– Deməк onların sağlamlıqlarının səbəbi bu imiş.

Sonra təzim edib yeri öpdü və getdi.

Şeir

Ariflər o zaman başlar kəlamə,
Ya da əl uzadar o vaxt təamə
Ki, söz söyləməsə törəsin ziyan,

Ya da ac qalarsa zəifləsin can.
Mütləq dediyində bir hikmət olar
Yeyib-içdiyi də bir qüvvət olar.

**5. Hekayət**

Biri hey tövbə edər, sonra da həddən çox yeyərdi. Axırda bir şeyx ona dedi: – Görünür çox yeməyə adət edibsən, nəfsin asıldığı tövbə bağı isə tükdən də nazikdir, sən ki, bu nəfsini belə bəsləyirsən, o, tük nədir lap zənciri də qırar.

Beyt

Birisi bəslərdi qurd balasını,
Böyücək məhv etdi öz ağasını.

**6. Hekayət**

Ərdəşir Babəkan[77] haqqında nağıl edirlər ki, bir gün o, bir ərəb hakimindən soruşdu:

– Gündə nə qədər yemək lazımdır?

Dedi:

– Yüz dirəm ağırlığında.

Dedi:

– Bu qədərdən nə güc olar?

Dedi:

– Bunun gücü səni ayaq üstə saxlayır. Ondan çox isə artıq yük olar!

Beyt

Yemək lazım yaşamaqçın, deməkçin,
Səncə həyat lazım ancaq yeməkçin?!

**7. Hekayət**

İki xorasanlı dərviş yol yoldaşı olub səfərə çıxdılar. Biri arıq idi, iki gündən bir yeyərdi. Digəri kök idi, gündə üç dəfə nahar edərdi. Təsadüfən bir şəhərə girəndə onları casus güman edib tutdular və hər



ikisini zindana saldılar. İki həftə sonra günahsız olduqları aşkar oldu. Onları azad etmək istərkən kökün öldüyünü, arığın isə salamat qaldığını gördülər.

Camaat bu işə təəccübləndi. Orada bir alim var idi, dedi:

– Bunun əksi təəccüblü olardı; çünki kök çox yeyən idi, aclığa dözməyib öldü, arıq az yeyən idi, aclığa tab gətirib, xilas oldu.

Şeir

Adam az yeməyə edərsə adət,
Çətinlik zamanı tab edə bilər.
Qarınpa firavan yaşayar, amma,
Darlığa düşəndə acından ölər.

Beyt

Qarın təndirini tez-tez qalayan,
Dərd çəkər qıtlığa düşdüyü zaman.

**8. Hekayət**

Alimlərdən biri oğlunu çox yeməkdən çəkindirib dedi: "Doyunca yemək adamı xəstələndirər!". Oğlu dedi:

– Ay ata, adamı aclıq öldürər! Məsəl var deyərlər: "Acından ölməkdənsə, toxluqdan ölmək yaxşıdır!"

Atası dedi:

– Oğul, hər şeyin dərəcəsi var, eşitməmisənmi demişlər: "Yeyin, için, amma həddini bilin!"

Beyt

O qədər çox yemə ağırlıq etsin,
O qədər ac qalma, can əldən getsin.

Şeir

Yemək verməlidir vücuda ləzzət,
Çox olsa, verəcək əzab, əziyyət.
Gülşəkər ziyandır, çox yesən əgər.
Az yesən, küt çörək olar gülşəkər.

Beyt

Qarınpa olmaqdan əl çək kişisən,
İt də çox yeməklə düşər hörmətdən.

**9. Hekayət**

Bir xəstəyə dedilər: – Ürəyin nə istəyir? Dedi: – Ürəyim "heç nə" istəyir.

Beyt

Bir mədə pozulub, ağrısa qarın,
Nə xeyri dünyada dövlətin, varın?

**10. Hekayət**

Vasit[78] şəhərində yaşayan bir baqqalın sufilərdə bir qədər pulu vardı. O hər gün pulunu tələb edir, sufilərə ağzına gələni deyirdi. Borclular isə onun təhqirli sözlərindən zara gəlir, lakin dözməkdən savayı çarə tapmırdılar. Gördüm, onların arasında olan ağıllı bir adam belə deyir:

– Baqqaldan dirəm almaqdansa, nəfsini öldürüb ac qalmaq yaxşıdır.

Şeir

Dərbanların cəfasını çəkməkdənsə, yəqin ki,
Ağaların ehsanını rədd eyləmək yaxşıdır.
Qəssabların pis üzünü görməkdənsə bir daha,
Ürəyində ət arzusu qalıb ölmək yaxşıdır.

**11. Hekayət**

Tatar[79] müharibəsində bir igid ağır yaralanmışdı. Biri ona dedi:

– Filan tacirdə dərman var, istə, bəlkə verdi.

Deyirlər ki, o tacir xəsislik və paxıllıqda məşhur imiş.

Beyt

Süfrəsində çörək deyil, günəş olsaydı, əgər
İşıqlı gün görməz idi bu dünyada bir nəfər.



İgid dedi.

– Dərman istəsəm, ya verəcək, ya verməyəcək; versə, ya xeyir edəcək, ya etməyəcək. Demək, elə bir tacirdən dərman istəməyin özü mənim üçün zəhər içmək kimi bir şeydir.

Beyt

Minnətlə alınsa alçaqdan təam,
Yeyib kökəlsə də, alçalar adam.

Atalar demişlər: "Abrını alıb, dirilik suyu versələr, ağıllı adam onu almaz, çünki zillətlə yaşamaqdansa, izzətlə ölmək yaxşıdır".

Beyt

Xoş sifətli bir adamdan alıb qanqal da yesən
Çox yaxşıdır bədsifətin verdiyi bal, şəkərdən.

**12. Hekayət**

Bir alimin yeyəni çox idi, gəliri az. Mənsəb sahiblərindən birinin alimə hörməti var idi, məsələni ona açdı. Mənsəb sahibi qaşqabağını tökdü, alimin dilənməsi ona iyrənc göründü.

Şeir

Sən bəxtindən şikayət edib küskün sifətlə
Əziz dostun yanına getmə, qəmlətmə onu.
Bir xahiş eyləyəndə gülər üzlü, şad görün,
Açıq alın istəyər iş sahibi dostunu.

Nağıl edirlər ki, o, alimin vəzifəsini balaca artırdı, lakin ona olan hörmətini xeyli azaltdı. Bir az keçdikdən sonra alim özünə qarşı əvvəlki hörmətin olmadığını hiss etdi və dedi:

– Zəhrimar olsun o yemək ki, rəzalətlə qazanacaqsan, qazan ocaqda qaynayacaq, sən isə rüsvay olacaqsan!

Beyt

Alçalmaq yoluyla kim tapsa çörək,
Özünü alçaltmış o adam demək.

B e y t

Çörəyim artdıqca əskildim haman,
Yoxsulluq yaxşıdır sail olmaqdan.

**13. Hekayət**

Bir dərvişin bir şeyə artıq dərəcədə ehtiyacı var idi. Biri ona dedi:

– Filan adam çoxlu mal-dövlət sahibidir, əgər möhtac olduğunu bilsə, mütləq sənə kömək edər.

Dərviş dedi:

– Axı, mən onunla tanış deyiləm.

Dedi:

– Mən tanış edərəm.

Dərvişin əlindən tutub haman adamın evinə apardı. Dərviş evə daxil olduqda sallaqdodaq, qaraqabaq bir adamın oturduğunu gördü, dərhal dinməz-söyləməz geri döndü.

Bələdçi soruşdu:

– Sən nə etdin?

Dedi:

– Onun xələtini sir-sifətinə bağışladım.

Ş e i r

Dərdini deyəndə o şəxsə de ki,
Ən azı xoş dillə dindirər səni.
Nanəcib adamdan mətləb istəmə
Ki, acı dililə rədd edər səni.

**14. Hekayət**

Bir il İskəndəriyyədə[80] quraqlıq oldu. Yoxsulların taqəti əldən getmiş, səbri tükənmiş, göylərin qapısı yerin üzünə qapanmış, yerdəkilərin ahı göyə dayanmışdı.

Ş e i r

Dərd çəkir hər canlı balıq, quş, ilan,
Yırtıcı vəhşilər, qarınca belə,



Bəs neçün cəmlənib dönmür insanın
Ahları buluda, göz yaşı selə?!

Belə bir ildə rəzil bir adam var idi ki (dostlardan uzaq olsun), onun pisliklərini təsvir etmək, xüsusilə böyüklər qarşısında ədəbsizlik olar, lakin o haqda bir şey deməmək də ədalətsizlikdir, bəziləri bunu yazıçının acizliyi kimi qəbul edə bilər. Ona görə bir-iki beytlə kifayətlənmək istəyirəm, çünki, deyiblər: "Azlıq çoxluğa dəlalət edir, bir ovuc – xarvar əlamətidir".

Ş e i r

Bir tatar öldürsə bu müxənnəsi,
Tatardan alınmaz bir də intiqam.
Bağdad körpüsünün neçə müddətdir,
Altından su keçir, üstündən adam.

Mərifətini bir balaca eşitdiyiniz bu adamın haman qıtlıq ilində bitməz-tükənməz sərvəti var idi, yoxsullara qızıl-gümüş paylayır, aç-yalavaclara süfrə açırdı.

Dərvişlərin bəziləri aclıqdan taqətdən düşmüş, canlarından bezmişdilər. Onun qapısına getmək qərarına gəldilər, məsləhət üçün mənə müraciət etdilər.

İzzəti-nəfsim yol vermədi, onların bu fikrinə razı olmadım və dedim:

Ş e i r

Şir yeməz heç zaman it artığını,
Acından ölsə də bir mağarada.
Biçarə, qarnı ac yaşasan belə,
Alçağa əl açma, sakın dünyada.
Hünərsiz bir adam Fridun olsa,
Rədd eylə, baxma heç dövlətə, ada
Naəhlin geydiyi o ipək paltar,
Salar divardakı bəzəyi yada.

**15. Hekayət**

Hatəmi-Taidən soruşdular ki, dünyada özündən səxavətli bir adam görüb, eşitmisənmi?

Dedi:

– Bəli, bir gün qırx dəvə qurban kəsib ərəb əmirləri ilə səhranın bir guşəsinə çəkilmişdim. Meşədən şələ bağlayıb aparan bir odunçu gördüm.

Dedim: – Nə üçün Hatəmin qonaqlığına getmirsən, bu saat bütün xalq onun süfrəsi başına toplanmışdır.

Dedi:

Kim öz əməyilə dolansa əlbət,
Hatəmi-Taidən götürməz minnət.

İnsafla demək lazımdır ki, mən onu özümdən daha səxavətli və mərd gördüm.

**16. Hekayət**

Musa[81] əleyhissəlam gördü ki, çılpaq bir dərviş utandığından özünü quma basdırıb.

Dərviş dedi: – Ya Musa, dua et, Allah mənə var versin, yoxsulluqdan canım boğazıma yığılıb.

Musa dua edib getdi.

Bir neçə gündən sonra minacatdan qayıtdıqda gördü ki, haman dərviş zəncirlənmiş və başına çoxlu adam toplanmışdır. Dedi:

– Buna nə olmuşdur?

Dedilər:

– Şərab içib, dava salmışdır, adam öldürmüşdür. Edamını əmr etmişlər.

Şeir

Mümkündür bir aciz güclənib gedə,
Başqa acizləri qıra, məhv edə.

Musa əleyhissəlam dünya yaradıcısının hikmətinə bir daha afərin dedi, belə bir duaya cürət etdiyi üçün üzr istədi...



Şeir

Bir namərdin artsa pulu, rütbəsi,
Lazım gəlir ona sillə vurasan,
Bilmirsənmi o filosof nə dedi:
Qarıncaya pər verməsin yaradan.

Beyt

Bir kəs ki, var-dövlət sənə verməyir
O sənin xeyrini səndən çox bilir.

Atasının çoxlu balı vardır, övladı isə qızdırmadan sayıqlayır.

**17. Hekayət**

Bəsrədə[82] cavahir satanlar içərisində bir dəvəçi ərəb ilə tanış oldum. O nağıl edirdi ki, vaxtilə çöldə yolu azmışdım, yeməyə bir şeyim olmadığı üçün ölümü gözümün qabağına almışdım. Bu anda bir kisə mirvari tapdım. Güman etdim qorğadır, elə sevindim ki, o sevinc hələ indi də yadımdan çıxmayıbdır, mirvari olduğunu bildikdə isə elə kədərləndim ki, hələ indi də o acınacaqlı halımı unuda bilmirəm.

Şeir

Susuz biyabanda, isti qumlarda,
Təşnəyə mirvari, inci nə gərək?
Acından yıxılıb qalançın nə fərq,
Qurşaqda dürr olsun, ya quru təzək.

**18. Hekayət**

Bir ərəb susuz bir səhrada təşnəlikdən dad çəkərək deyirdi:

Şeir

Nolardı ölümdən qabaq bircə gün.
Çataydım arzuma mən də müxtəsər.
Bir çaya düşəydim suyu dizədək,
İçəydim tuluğum dolana qədər.

**19. Hekayət**

Bir müsafir Bəsit çölündə azmış, azuqəsi də qurtarmışdı. Qurşağındakı bir neçə dirəmdən savayı heç bir şeyi qalmamışdı. O nə qədər gəzib-dolaşdısa, yolu tapa bilmədi və nəhayət, aclıq və susuzluqdan həlak oldu. Bir neçə yoldan ötən onun başı üstə gəlib gördülər ki, dirəmləri gözləri qarşısına qoyub, torpaq üstə bu sözləri yazmışdır:

Şeir

Cibi saf qızılla dolu bir şəxsə,
Çörəksiz yaşamaq mümkünmü bir an?
Səhrada istidən yanan, bir kəsə
Bişmiş şəlğəm xoşdur bir cib qızıldan.

**20. Hekayət**

Mən heç vaxt zəmanənin gedişindən nalə etməmiş və fələyin gərdişindən şikayətlənməmişəm, yalnız bir dəfədən başqa. Bir dəfə ayaqyalın qalmışdım, ayaqqabı almağa isə imkanım yox idi. Qanı qara halda Kufə məscidinə gəldim, ayaqsız bir adam gördüm: Allaha şükür edib, ayaqqabısızlığa dözdüm.

Şeir

Qızardılmış cücələr tox adamın gözünə,
Süfrə üstə qoyulmuş tərədən pis görünər.
Pulsuz və ac adama bişmiş şəlğəm özü də,
Qızardılmış cücədən daha nəfis görünər.

**21. Hekayət**

Hökmdarlardan biri qış fəslində bir dəstə yaxın adamları ilə birlikdə ova çıxıb, şəhərdən xeyli uzaqlaşmışdı. Qaranlıq düşdükdə hökmdar yaxınlıqda bir kəndli daxması görüb soyuqdan qorunmaq üçün orada gecələməyi məsləhət bildi. Vəzirlərindən biri etiraz edərək dedi:

– Yüksək mənsəbli hökmdara yaraşmaz ki, çirkli bir kəndlinin daxmasına pənah gətirsin. Əmr et, elə burada çadır qurub, od yandırsınlar.



Kəndli bu məsələdən xəbərdar olcaq yemək hazırlayıb, çadıra gətirdi və təzim edərək dedi:

– Kəndli daxmasına gəlməklə hökmdarın qədir-qiyməti azalmazdı, lakin görünür ki, kəndlinin qədir-qiymətinin artmasına razı olmamışlar.

Kəndlinin sözü hökmdarın xoşuna gəldi və gecə ikən köçüb onun evinə getdi. Səhər kəndliyə çoxlu pul və bəxşiş verilməsini əmr etdi.

Hökmdarı müşayiət edərkən kəndli ondan bir neçə addım geridə gedir və deyirdi:

Şeir

Sultanın şöhrəti aşağı düşməz,
Olarsa bir gecə kəndliyə mehman.
Kəndlinin yüksələr fələyə başı,
Qonağı olarsa qüdrətli sultan.

**22. Hekayət**

Nağıl edirlər ki, nankor bir dilənçi çoxlu mal yığmış, hədsiz dövlət toplamışdı.

Beyt

Gecə-gündüz həris idi qızıl-gümüş yığmağa,
Qızıl-gümüş düşmüş idi bir namərddə dustağa.

Padşahlardan biri ona dedi: – Danışırlar ki, sənin sərvətin həddini aşıbdır, bizim isə pula böyük ehtiyacımız vardır. Əgər ondan bir az əlborcu versən, məhsul yığıldıqda, vergi toplandıqda qaytarılıb sənə təşəkkür edilər. Dedi: – Ey yer üzünün allahı, şahın şəninə yaraşmaz ki, əlini mənim kimi bir dilənçinin murdar malı ilə çirkaba bulasın. Çünki mən onları dilənçilik yolu ilə dənə-dənə toplamışam, xırda-xırda yığmışam. Şah dedi: – Eybi yoxdur, düşmənə verəcəyəm.

Beyt

Nəsrani quyusu pak olmasa gər,
Cuhud meyyidini yumağa dəyər.

Beyt

Dedilər ki, əhəgin xəmiridir natəmiz,
Dedik ayaqyoluna suvayarıq onu biz.

Deyirlər ki, şahın təklifini rədd etdi, höcətə başladı, min bir bəhanəyə əl atdı. Şah əmr etdi, lazım olan pulu ondan zorla döyə-döyə alsınlar.

Şeir

Bir iş ki, lütf ilə yerinə yetməz,
Axır hörmətsizlik baş verər əbəs.
Hər kəs başqasına xeyir verməsə
Düz olar, ona xeyir verməsə bir kəs.

**23. Hekayət**

Bir tacirin yüz əlli dəvə yükü malı, qırx qulu və xidmətçisi var idi. Bir axşam o Kiş adasında[83] məni öz yanına çağırdı, bütün gecəni sakit olmayıb boş-boş danışmağa başladı ki, Türküstanda filan anbarım var, Hindistanda filan malım, bu filan yerin qəbaləsidir, bu filan şeyin zəmanəti. Gah deyirdi: İskəndəriyyənin havası xoşdur, oraya gedəcəyəm, gah da əvvəl dediyinin əksinə danışırdı. Yox, Məğrib dənizi qorxuludur, ora gedə bilmərəm. Sonra dedi: – Ey Sədi, bir səfərim də qalmışdır, əgər o baş tutsa, qalan ömrümü bir guşədə oturub dinc yaşayacağam.

Soruşdum:

– O hansı səfərdir?

Dedi:

– Farsdan Çinə kükürd aparacağam, eşitdiyimə görə çox bahadır. Oradan Çin kasası alıb Ruma[84], Rumdan ipək alıb Hindistana, Hindistandan polad alıb Hələbə, Hələbdən şüşə alıb Yəmənə, Yəməndən də paltar alıb vətənə qayıdacağam. Ondan sonra artıq ticarət daşını atıb bir dükanda oturacağam.

Xülasə, o qədər belə hədərən-pədərən danışdı ki, axırda taqətdən düşdü. Sonra mənə müraciət edərək dedi:

– Sədi, sən də gördüklərindən, eşitdiklərindən bir şey danış!

Dedim:



Şeir

Eşitdinmi biyabanda bir tacir,
Atdan düşüb söylədi son sözünü:
"Doydurar ya qəbir, ya da qənaət
O dünyagir xəsisin ac gözünü".

**24. Hekayət**

Nağıl edirlər ki, Hatəmi-Tai səxavətdə məşhur olduğu kimi, bir varlı da xəsislikdə şöhrət tapmışdı. O, zahirini dünya malı ilə bəzəmiş, lakin batinində elə bir xəsislik kök salmışdı ki, nə Əbu Hüreyrənin pişiyinə bir tikə ət verər, nə də Əshabi-Kəhfin itinə bir parça sümük atardı. Can bahası olsaydı da heç kimə bir tikə çörək verməzdi. Xülasə, onun qapısını və süfrəsini açıq görən olmamışdı.

Beyt

Yoxsul onun qapısında iy çəkərdi xörəkdən,
Quşlar belə həyatında tapmazdı bir dənə dən.

Bir gün o varlanmaq məqsədilə Məğrib dənizi ilə Misrə doğru səfərə çıxdı. Qarşı tərəfdən güclü külək əsməyə başladı, o, gəminin qərq olacağını başa düşdü.

Beyt

Mümkündür səndəki xislətə dözmək,
Düz gəlməz çox zaman gəmilə külək.

O, əllərini qaldıraraq faydasız yerə qışqırmağa və dua oxumağa başladı. Adamlar gəmiyə minəndə qorxularından Allaha əl açıb dua edir və dinə sadiq olduqlarını inandırmağa çalışırlar.

Beyt

Möhtac bəndə dua vaxtı Allahına əl açar,
Kərəm çağı əllərini qoynuna qoyub qaçar.

Şeir

Qızıla, gümüşə etmə qənaət,
Onları sərf edib ömür sür rahət.
Bu ev ki, yadigar qalacaq səndən,
Düzəlt kərpicini qızıl-gümüşdən.

Həmin adam tufanda qərq oldu. Onun Misirdəki yoxsul qohumları bu ölüm münasibəti ilə cındır paltarlarını yırtıb, varlıdan miras qalmış ipək və xəzdən təzə paltar tikdirdilər. Hələ bir həftə keçməmiş gördüm ki, varislərindən biri yorğa bir ata minib, bir qulun müşayiəti ilə hara isə gedir.

Şeir

Əgər ölən dirilərək gəlsəydi,
Qohumları içinə şad, üzü şən.
Mərhumun ölümü yüngül olardı,
Onun mirasını geri verməkdən.

Onunla qabaqcadan tanış olduğuma görə ətəyindən tutub dedim:

Şeir

Ye, ey xoşbəxt, heç nəyə uf demədən,
Bədbəxt öldü yığdığını yemədən.

**25. Hekayət**

Bir zəif balıqçının toruna bir güclü balıq düşdü. Nə qədər əlləşdi, onu saxlaya bilmədi, balıq zor gəlib, toru balıqçının əlindən aldı, dartıb özü ilə apardı.

Şeir

Nökər getdi çaya ki, su gətirsin,
Çay daşaraq aldı onu apardı.
Tor həmişə balıq dolu gələrdi,
Bu dəfə də balıq toru apardı.



Camaat balıqçını danlamağa başlayıb dedilər: – Adam da elə balığı əldən buraxarmı?! Dedi: – Ay qardaş, nə edim, görünür, mənə qismət deyilmiş, ya əcəli çatmamışmış.

Hikmət

Ruzusu olmasa, ovçu Dəclədə balıq tuta bilməz,
Əcəli çatmasa, balıq quru yerdə də ölməz.

**26. Hekayət**

Əli-ayağı olmayan bir adam bir qırxayağı öldürdü. Yoldan ötən bir arif onu görüb dedi:

– Çox təəccüblüdür! Görünür ki, bu qırxayağın əcəli çatmışdı ki, qırx ayağı ola-ola bir əlsiz-ayaqsızın əlindən qaçıb qurtara bilmədi.

Şeir

Quduz düşmən gələn zaman sürətlə dal tərəfdən,
Qaçan atın ayağını əcəl tutub bağlayar.
Düşmən saysız qoşun çəkib keçən zaman hücuma
Çəksən Kəyan kamanını fələk tutub saxlayar.[85]

**27. Hekayət**

Qarnıyoğun bir əbləh əynində bahalı paltar, başında Misirsayağı çalma bir ərəb atına minib hara isə gedirdi.

Bir adam məndən soruşdu:

– Sədi, belə naxışlı ipək paltarı belə qanmaz bir heyvanın əynində necə görürsən?

Dedim:

Beyt

Eşşəkdir deyirəm mən bu nadana,
Səsindən öküzdür, yerişdə dana.

Bir gözəl xilqət min ipək xələtdən yaxşıdır.

Ş e i r

Bənzədir insana kim bu heyvanı?
Paltarı andırır azca insanı,
Hər şeyi haramdır bu nanəcibin,
Halaldır təkcə bir tökülsə qanı.

Ş e i r

Nəcib yoxsul olsa, yəqin bil, onun,
Azalmaz el içrə qədri, qiyməti.
Qızıl mıx vursalar gümüş təxtinə,
Yenə nanəcibin artmaz qiyməti.

**28. Hekayət**

Bir oğru bir dilənçiyə dedi: – Heç utanmırsan ki, bir quruşdan ötrü hər kəsə əl açırsan?

Dedi:

B e y t

Əlim açılsa da hər kəsə bil sən
Yaxşıdır kəsilən bir oğru əldən.

**29. Hekayət**

Nağıl edirlər ki, bir yumruqvuran (boksçu), yoxsulluqdan və ağır yaşayışdan zara gəlmişdi. Öz vəziyyətindən atasına şikayət edərək dedi ki, səyahətə çıxmaq fikrindəyəm, bəlkə qolumun gücü ilə özümə bir gün qazana biləm.

B e y t

Söylə, nəyə lazımdır görsənməyən bir hünər?
Ud yananda, mişk isə əziləndə iy verər!

Atası dedi:

– Oğul, bu boş xəyalı başından çıxar, rahatlıq istəyirsənsə qənaət et. Böyük adamlar demişlər: dövlət təkcə çalışmaqla deyil, çətinliyə alışmaqla da mümkündür.



B e y t

Zor ilə kimsə mal toplaya bilməz,
Korun qaşlarına vəsmə çəkilməz.

B e y t

Başının hər tükündə yüz hünər olsa əgər,
Baxtın yoxsa bu hünər bir iş görməz tük qədər.

Oğlan dedi:

– Ey ata, səyahətin bir çox faydaları var: adamın könlünü açır və mənfəət gətirir. Səyahət edən adam dünyanın əcaib və qəraib şeylərini görüb eşidir, şəhərləri gəzib, xeyirxah adamlarla görüşür; məlumatı artır, yar-yoldaş tapır, şöhrət qazanır, var-dövlət sahibi olur, təcrübə əldə edir. Necə ki, təriqətçilər demişlər:

Ş e i r

Evə və dükana bağlansan əgər,
Ey naşı, dünyada avam qalarsan.
Fürsətin var ikən get dünyanı gəz,
Köçməmiş bu qoca, köhnə dünyadan.

Atası dedi:

– Ey oğul, doğrudur, səyahətin mənfəəti çoxdur, ancaq beş qrup adam üçün: birinci, çoxlu malı, gözəl kəniz və qulamı, bacarıqlı xidmətçiləri olan tacir üçün; çünki hər gün bir şəhərə gedib, hər axşam bir yerdə gecələr, hər an təbiətin nemətlərindən faydalanıb, hikmətli sözlər eşidər.

Ş e i r

Dövlətli dağda da qərib deyildir,
O hara gedərsə hörmət qoyular.
Hər kəs ki, məhrumdur dünya malından,
Doğma evində də qəriblik duyar.

İkinci, şirin söhbəti, qüvvətli fəsahəti, qüdrətli bəlağəti sayəsində hər yerdə hörmət, izzət qazanan alim üçün;

Şeir

Ağıllı adamlar qızıl kimidir,
Haraya getsələr olar hörməti.
Böyük adamınsa səfeh övladı,
Saxta pul kimidir, olmaz qiyməti.

Üçüncü, aşiqlərin hüsn-rəğbətini cəlb edən nazənin dilbər üçün; çünki böyük adamlar demişlər: azca gözəllik dünyaca var-dövlətdən yaxşıdır! Gözəl dilbər xəstə qəlblərin dərmanı, bağlı qapıların açarıdır. Kim onunla müsahib olsa, özünü bəxtiyar sanar, ona xidmət göstərən minnətdar olar.

Şeir

Gözəl hara getsə hörmət qazanar,
Valideyni onu evdən qovsa da.
Tavus lələyini Quranda gördüm,
Dedim: "Layiqmisən belə büsata?"
Dedi: "Sus, hər kəsin olsa camalı,
Rədd olmaz haraya getsə dünyada".

Şeir

Övladın kamalı, camalı olsa,
Ata da rədd etsə qorxusu yoxdur.
Mirvari sədəfdə qalmasın gərək
Ki, dürri-yetimi sevənlər çoxdur.

Dördüncü, xoş avazı ilə çayda axan suyu, göydə uçan quşu saxlayan xanəndə üçün; çünki o, bu məlahətli səsi ilə musiqi aşiqlərinin könlünü alar, məhəbbət əhli hər yerdə onunla dost olmağa çalışıb xidmət göstərməyə can atar.

Beyt

Bir gözəl nəğməni eşidirəm mən,
Kim çalıb oxuyur belə ürəkdən?



Şeir

Gözəldir hər səsdə olsa məlahət,
O səhər məstinə verər təravət.
Gözəl səs yaxşıdır gözəl camaldan,
Bu, ruha güc verər, o, nəfsə ləzzət.

Beşinci, bir parça çörəkdən ötrü biabır olmamaq üçün öz əməyinin gücü ilə pul qazanan peşəkar üçün; çünki ağıllı adamlar demişlər:

Şeir

Qürbətə getsə pinəçi şübhəsiz,
Duymaz həmən yerdə ağır möhnəti.
Ölkəsini tərk eləsə padişah,
Ac yataraq hiss eləyər qürbəti.

– Ey oğul, bu dediyim sifətlər səyahət zamanı xatircəmliyə və gözəl istirahətə səbəb olar. Bu sifətlərdən məhrum olan adamlar xam xəyala düşüb dünyanı gəzərlərsə, heç kəs onlardan bir xəbər tutub, adını belə çəkməz.

Şeir

Hər bir kəsə kinlə baxsa ruzigar,
Nə istəsə, istədiyi əks olar.
Yuvasına dönməməli bir quşu,
Qəza sərrast tora tərəf aparar.

Oğlan dedi:

– Ata, alimlərin dediklərinə necə zidd ola bilərəm ki, demişlər: – Doğrudur, hər kəsin bir ruzusu var, lakin ona çatmaq üçün insan bütün imkanlardan istifadə etməlidir, hərçənd olacağa çarə yoxdur, amma buna baxmayaraq, fəlakətə səbəb olan hadisələrdən qaçmaq lazımdır.

Şeir

Şübhəsiz ki, ruzi verir yaradan,
Lakin gərək özün çarə tapasan.

Hər adamı aparsa da bir əcəl,
Əjdahanın ağzına sən girmə gəl.

Bir də mən elə güclüyəm ki, qızmış fili yıxar, qəzəblənmiş şirlə pəncələşə bilərəm. Ey ata, yaxşısı budur ki, səyahətə çıxım, yoxsa bundan artıq yoxsulluğa taqətim yoxdur:

Ş e i r

Kim itirsə var-dövləti, nə qəmi
Sərbəst gəzsin qoy o bütün aləmi.
Varlı yatar saraylarda gecələr,
Yoxsul isə harda olsa gecələr.

Oğlan bunu deyib atasından xeyir-dua aldı. Vidalaşıb yola düşərkən o, öz-özünə deyirdi:

B e y t

Hünər sahibi olsa bəxtsiz adam,
Gedər bir yerə ki, tanınmaz tamam.

Oğlan bir qədər getdikdən sonra böyük bir çayın sahilinə çatdı. Çay elə güclü idi ki, iri qayaları bir-birinə çırpır, gurultusu bir ağac məsafədən eşidilirdi.

B e y t

Elə bir çay ki, ördəyi qorxudurdu hər zaman,
Xırdaca dalğasına dözmürdü daş-dəyirman.

Gördü ki, çayın kənarında bir dəstə adam səfər yükünü bağlayıb oturmuşdur. Pulsuz gəncin ehsan əli bağlı olduğuna görə, sədəqə əlini açmalı oldu. Lakin, nə qədər yalvardısa yardım göstərən olmadı. Hətta rəhmsiz gəmiçi də istehza ilə ondan üz çevirib dedi:

B e y t

Pulsuz keçə bilərsənmi zorla dəniz yolunu,
On dirinin zorundansa ver bir ölü pulunu!



Gənc, gəmiçinin tənəsindən hiddətlənib ondan intiqam almaq istədi. Lakin, bu zaman gəmi hərəkət etməyə başladı. Gənc sevinərək gəmiçiyə dedi:

– Əynimdəki paltara razı olsan, verərəm!

Gəmiçi tamahkarlığına görə gəmini qaytardı.

B e y t

Hərislik ağılı salar kəməndə,
Tamahsa quşları, balığı bəndə.

Elə ki, gəncin əli gəmiyə çatdı, gəmiçinin yaxasından tutub onu möhkəmcə döydü.

B e y t

Əlinə keçərsə məhv et əğyarı
Ki, qisas ürəkdən silər qubarı.

Gəmiçinin yoldaşı gəmidən çıxıb ona kömək etmək istədi. Lakin o da bacara bilmədi. Nəhayət, bu qərara gəldilər ki, gənclə barışıb, onu pulsuz aparsınlar.

Ş e i r

Acıq, hirs görəndə sus dayan zinhar,
Bəlanın qarşısın müdara alar.
Hər kimin olarsa bir şirin dili,
Tük ilə o çəkər dalınca fili.
Bərkliyə rast gəlsən yumşaqlıq göstər
Ki, yumşaq ipəyi doğramaz xəncər.

Onlar gəncin ayaqlarına düşüb üzr istədilər və öpüşüb gəmiyə götürdülər. Gəmi yola düşdü. Bir qədər getdikdən sonra suyun ortasında yunanlılardan qalmış təmir sütununa rast gəldilər. Gəmiçi sərnişinlərə müraciət edərək dedi:

– Gəmi xarab olubdur, onu təmir etmək lazımdır. Bir nəfər güclü, igid adam sütuna çıxmalı və gəminin kəndirini ona bağlamalıdır. İgidliyinə qürrələnən gənc, incidilmiş ürəkdəki kini unutdu, halbuki, atalar

demişlər: könlünü bir dəfə sındırdığın adama yüz dəfə yaxşılıq etsən də, yenə o bir pisliyin intiqamından ehtiyat etməlisən. Çünki süngü yarası sağalar, söz yarası sağalmaz!

Beyt

Xilbaşa verirdi Bəktaş nəsihət[86]
Düşməni döydünsə oturma rahət.

Şeir

İncitsən bir qəlbi arxayın olma
Ki, sənin öz qəlbin asudə qalar.
Hasarın bürcünə daş atsan bil ki,
Bir daş da hasardan sənə atılar.

Gənc gəminin kəndirini qoluna sarıyıb sütuna çıxan kimi, gəmiçi kəndiri dartıb onun əlindən aldı və gəmini sürüb getdi, yazıq gənc heyran qaldı. O, suyun ortasında iki gün əziyyət və əzab çəkdi, üçüncü gün yuxu onun yaxasından tutub suya saldı. Bir gecə-gündüz suda əl-ayaq çalıb əlləşdikdən sonra, nəhayət, ölümcül bir halda sahilə çıxdı, ağac yarpaqlarından, ot köklərindən yeyərək azacıq cana gəldi, sonra baş alıb çöllərə yollandı. Xeyli yol getdikdən sonra o, ac-susuz taqətdən düşmüş halda bir quyu başına çatdı. Bura toplanmış camaat hərəsi bir qara pul verib su içirdi. Gəncin isə pulu yox idi. O, zorla məqsədə çatmaq istədisə, yenə mümkün olmadı. Ümidi kəsildi, bir neçə adamı götürüb yerə vurdu. Camaat birləşib onun üstünə düşdülər, döyüb möhkəm əzişdirdilər.

Şeir

Fildə çox olsa da qüvvət, cəsamət,
Hünülər birləşsə yıxarlar yəqin.
İttifaq bağlasa qarıncalar da,
Dərisin deşərlər qızmış şirlərin.

Gənc çarəsiz qalıb, nəhayət karvanın dalınca yola düşdü. Karvan axşam vaxtı elə bir düşərgəyə çatdı ki, orada hər an oğruların basqın etməsi ehtimalı var idi. Karvan əhlinin qorxudan əsdiyini və ölümü gözləri qabağına gətirdiyini gördükdə gənc dedi:



– Mən tək başıma əlli adamın cavabını verə bilərəm. Əgər o biri gənclər də kömək etsələr, heç kim bizə bata bilməz.

Karvan əhli bu gopa inanıb ürəkləndilər, gənclə yoldaş olmaqdan sevinərək, onu su və yeməklə təmin etməyi lazım bildilər. Oğlanın acından az qalmışdı canı çıxsın. O, lap taqətdən düşmüşdü. Buna görə də onların verdiyi çörəkdən bir neçə tikə acgözlüklə yeyib, üstündən su içdi, toxtayıb şirin yuxuya getdi. Karvanda qoca bir kişi vardı. O, yoldaşlarına müraciət edib dedi:

– A yoldaşlar, mən oğrulardan çox sizin yanınızdakı bu adamdan qorxuram. Deyirlər ki, bir ərəb bir qədər pul toplamışdı. O, oğruların qorxusundan gecələr evində tək yata bilmirdi, buna görə dostlarından birini evinə gətirdi ki, ona ürək-dirək olsun. Dostu bir neçə gün evdə qaldıqdan sonra pulların yerini öyrəndi və oğurlayıb şəhərdən qaçdı. Sabahısı gün camaat ərəbin gözündə yaş, cibini boş görüb soruşdu:

– Sənə nə olub? Yoxsa, pullarını oğru aparıbdır?

Dedi:

– Pullarımı oğru yox, gözətçi apardı.

Qitə

İlandan arxayın yaşamadım mən,
Bilirəm çalmaqdır onun xisləti.
İlanın dişindən daha bətərdir,
Dostcildli düşmənin qafil zərbəti.

Nə bilirsiniz, bəlkə bu gənc də oğrudur. O yəqin karvana qoşulubdur ki, fürsət tapıb yoldaşlarına xəbər eləsin. Məsləhət görürəm ki, onu yuxuda qoyub yola düşək.

Karvandakı gənclər qocanın məsləhətini qəbul etdilər. Pəhləvanın qorxusu qəlblərinə çökdü, onu yuxuda qoyub yola çıxdılar. O bir vaxt yuxudan ayıldı ki, günəş xeyli qalxmış, karvandan isə heç bir əsər qalmamışdı. Yazıq nə qədər dolanıb axtardısa, yolu tapa bilmədi. Ac-susuz üzüqoylu yıxıldı, ölümünü gözünün qabağına gətirərək dedi:

Beyt

Dəvələr yollandı, artdı qəm-kədər,
Qəribin həmdəmi olar qəriblər.

B e y t

Qəribə o adam verər əziyyət
Ki, özü görməmiş ömründə qürbət.

Yazıq bu halda ikən ova çıxıb, qoşunlarından ayrı düşmüş bir şahzadə gəlib onun yanına çıxdı və oxuduğu bu şeirləri eşitdi.

Şahzadə gənci diqqətlə gözdən keçirdi, görkəmini sadə, əhvalını isə pərişan görüb soruşdu:

– Haralısan, necə olub gəlib bura çıxmısan?

Gənc başına gələn hadisələrin bəzilərini nağıl etdi. Şahzadənin qəlbi riqqətə gəldi, ona bəxşiş, xələt verdi, öz şəhərinə salamat çatması üçün etibarlı bir adamla yola saldı.

Atası onu gördükdə çox sevindi, sağ-salamat qayıtdığı üçün şükür etdi. Axşam olduqda gənc atasına gəmidə gəmiçinin verdiyi əziyyətdən, quyu başında çəkdiyi məşəqqətdən, səhrada karvan əhlinin ona rəva gördüyü xəyanətdən danışdı. Atası dedi:

– Oğul, gedəndə sənə demədimmi ki, yoxsulların güclü əlləri sındırılmış, pəhləvan qolları qırılmışdır.

B e y t

Nə gözəl söylədi yoxsul pəhləvan,
"Bir qızıl yaxşıdır, dağ qədər zordan".

Oğlan dedi:

– Lakin xəzinə tapmaq üçün zəhmətə qatlaşmaq, qələbə çalmaq üçün ölümlə çarpışmaq, taxıl əldə etmək üçün dən səpib yer şumlamaq lazımdır. Görmürsənmi ki, azacıq əziyyət çəkməklə necə xoş rahatlığa çatdım, balaca acılıq dadmaqla necə şirin həyat tapdım?

B e y t

Artıq yeməsə də insan ruzidən,
Lazımdır yenə də bir iş görəsən.

B e y t

Nəhəngdən qorxarsa dənizdə qəvvas,
Heç zaman qiymətli incilər tapmaz.



Dəyirmanın alt daşı hərəkət etmədiyi üçün bütün ağırlıq onun üzərinə düşür.

Ş e i r

Mağara içində nə tapar aslan?
Uçmayan qartala ovmu gələcək!
Kim evdə oturub ruzi gözləsə,
Axırda o dönüb olar hörümçək.

Atası dedi:

– Ey oğul, bu dəfə fələk sənə yar, taleyin huşyar olmuşdur. Bir dövlət sahibi sənə rast gəlmiş, əliaçıqlıq göstərərək həyata qaytarmışdır. Belə hadisə nadir hallarda olar. Nadir hadisələrə isə bel bağlamaq olmaz. Amandır, ayıq ol, tamaha düşüb bir də belə boş xəyallara aldanma!

B e y t

Ovlamaz həmişə ovçu ahunu,
Bəzən də parçalar pələng ovçunu.

Necə ki, nağıl edirlər: Fars hökmdarlarından birinin barmağında qiymətli qaşı olan bir üzük varmış. Bir gün o bir neçə yaxın adamları ilə birlikdə Şirazda Müsəllayə[87] gəzməyə çıxır və əmr edir ki, həmin üzüyü Əzüdüddövlə məqbərəsinin[88] günbəzinin üstünə sancsınlar. Kim nişan alıb oxu üzüyün halqasından keçirsə, üzük onun olsun. Hökmdarın yanında dörd yüz məharətli ox atan varmış. Onların hamısı üzüyü nişan alıb atırlar, lakin heç birinin oxu üzüyə dəymir. Təsadüfən orada oynayıb, o yan-bu yana havayı ox atan bir uşağın oxunu külək gətirib üzüyün halqasından keçirir. Beləliklə, uşaq üzüyə sahib olub varlanır. Bundan sonra o uşaq ox atmağı tərk edib kamanını yandırır. Camaat bunun səbəbini soruşduqda deyir:

Ona görə ki, əldə etdiyim şöhrəti saxlaya bilim.

Q i t ə

Mümkündür gah qoca, müdrik bir alim,
Səhv etsin, işində olsun nöqsanı.

Gah da bir anlamaz, hünərsiz uşaq,
Səhvən sərrast atıb vursun nişanı.

**30. Hekayət**

Nağıl edirlər ki, bir şeyx bir mağarada yurd salmış, qapısını camaatın üzünə bağlamışdı.

Şeir

Dünyada tək xilas olar dünyadan
Qapını üzünə bağlayıb qalan.

Qənaətin bərəkətindən nə şahlıq şövkətinin əhəmiyyəti və nə varlıların dövlətinin qiyməti onun nəzərində deyildi:

Şeir

Yolçuluğu kim öyrənsə dünyada,
Ölənədək hər yetənə əl açar.
Hərisliyi at bir yana şahlıq et,
Tamahsızın başı daim ucalar.

O tərəfdəki hökmdarlardan biri xəbər göndərdi ki, "mömin adamların kəraməti xatirinə xahiş edirik ki, bizimlə duz-çörək kəsməyə razılıq versin".

Şeyx razılıq verdi, çünki rəvayətə görə peyğəmbər deyibdir ki, dəvəti qəbul edərlər, çağırılan yerə gedərlər.

Sabahı gün şeyxin halından xəbər tutmaq üçün şah onun ziyarətinə getdi. Şeyx dərhal yerindən sıçrayıb onu qucaqladı, təşəkkür etdi, şahı mədh etməyə başladı.

Şah getdikdən sonra müridlərdən biri ürək edib şeyxdən soruşdu:
– Bu gün şaha göstərdiyiniz bu hörmət adətinizə düz gəlmirdi, indiyə qədər belə etdiyinizi görməmişdik, səbəbi nə idi? Dedi:
– Eşitməmisinizmi deyiblər:

Beyt

Kimin süfrəsində bir loğma yesən,
Gərəkdir durasan xidmətində sən.



Lətifə

Mümkündür ki, ömür boyu qulaqlar,
Eşitməsin cəng nəğməsi, ney və tar.
Göz bacarsa seyr etməsin çəməni,
Görməsin bir laləni, yasəməni.
Pərqu balınc olmasa da bir zaman,
Daş üstündə yatar yuxusuz insan.
Qucmaq üçün tapılmasa yar əgər,
Özünü də qucaqlayar bu əllər.
Lakin qarın, səbr etməz ac qalanda,
"Yox" sözünü başa düşməz bir an da.

IV FƏSİL

## SUSMAĞIN FAYDALARI HAQQINDA

**1. Hekayət**

Dostlarımdan birinə dedim:

Danışmaqdan ona görə imtina edirəm ki, çox zaman sözün yaxşısı da olur, pisi də; düşmənlar isə yalnız pisini görürlər.

Dedi: – Düşmən yaxşısını görməsə yaxşıdır.

B e y t

Bəllidir ki, xeyir işin şər görünər düşmənə
Bilə-bilə yalandan o, böhtan düzəldər sənə.

B e y t

Bil ədavət gözündə eyibdir hər bir hünər,
Sədi – güldür, lakin o, düşmənə xar görünər.

B e y t

Həyat verən bu günəşin özü də,
Çirkin şeydir yarasanın gözündə.

**2. Hekayət**

Bir tacirə min dinar ziyan dəydi. Oğluna tapşırdı ki, bu haqda heç kimə bir söz deməsin.

Oğlu dedi:

– Ey ata, əmr sizindir, demərəm. Lakin bir başa sal görüm, gizlətməyin nə faydası?

Dedi:

– Ondan ötrü ki, müsibət ikiqat olmasın: biri sərmayənin əldən getməsi, ikincisi qonşuların tənə etməsi.

B e y t

Dərdini düşmənə söyləmə aman,
Qəlbində toy-bayram eləyər haman.



**3. Hekayət**

Ağıllı-kamallı, elmli, məlumatlı bir gənc var idi, lakin təbiətən adamlara uyuşmaz, alimlər məclisində bir kəlmə də danışmazdı. Bir dəfə atası ona dedi:

– Ey oğul, sən də görüb bildiklərindən bir şey danış!

Dedi:

– Qorxuram, bilmədiklərimdən soruşalar, xəcalət çəkəm.

Ş e i r

Deyirlər ki, bir sufi[89]
Mıx çalırmış başmağına
Bir xan onu tutub deyir:
"Nal vur atın ayağına".

B e y t

Kimsə bir söz deməz sən sussan əgər,
Lakin söz dedinmi, dəlil də göstər.

**4. Hekayət**

Hörmətli bir alimin bir dinsizlə (Allah ona lənət eləsin) mübahisəsi düşdü, lakin onunla höcətləşə bilmədi. Söz qalxanını yerə qoyub geri qayıtdı. Biri ona dedi: – Bu qədər bilik və kamal sahibi olmağına baxmayaraq, bir dinsizin öhdəsindən gələ bilmədin.

Dedi:

– Mənim elmim Quran, hədis və şeyxlərin dediyinə əsaslanır, o isə bunların heç birinə inanmır, onun dedikləri də mənim işimə yaramır.

B e y t

Bir kəs ki, Qurana inanmayır heç
Cavabı odur ki, cavab vermə, keç!

**5. Hekayət**

Həkim Calinus[90] gördü ki, bir nadan bir alimin yaxasından tutub onu təhqir eləyir.

Dedi:

– Əgər o, alim olsaydı, nadanla işi bu dərəcəyə çatdırmazdı.

Ş e i r

Ağıllı olanlar heç vaxt vuruşmaz,
Alim nadanlara heç də baş qoşmaz.
Sözünü acıqla söyləsə nadan,
Ağıllı dindirər onu mehriban.
İki alim qoymaz bir tük qırılsın,
İstəməzlər sülhə zəncir vurulsun.
Hər iki sözləşən olarsa cahil,
Ehtiram zəncirin tez qırarlar bil
Birinə bir nadan çirkin söz dedi.
O biri təmkinlə belə söylədi:
Sən məndə çox eyib axtarma hədər.
Bilməzsən eybimi mən bilən qədər!

**6. Hekayət**

Səhbani-Vail[91] fəsahətlə danışmaqda misilsiz idi. Belə ki, bütün il boyu danışsaydı, onun sözlərində təkrar görməzdin. Əgər bir sözü ikinci dəfə deməyə məcbur olsaydı, başqa ibarələrlə ifadə edərdi. Bunu da deyim ki, saray xadimlərinə layiq xasiyyətlərdən biri də məhz bundan ibarətdir.

Ş e i r

Əgər söz olarsa incə və şirin,
O sözü eşidən deyər afərin.
Bir dəfə dedinmi, təkrar etmə sən,
Xoş olar halvanı bir kərə yesən.

**7. Hekayət**

Eşitmişəm ki, alimlərdən biri demişdir:

– Başqasının sözünü kəsib danışmaq, öz qanmazlığını etiraf etmək deməkdir.

Ş e i r

Hər sözün ey alim, baş-ayağı var,
Sözün arasına söz qatma zinhar.
Ağıllı sakitlik görməsə bir an,
Dil açıb bir söz də söyləməz inan.



**8. Hekayət**

Sultan Mahmudun xidmətçilərindən bir neçəsi Həsən Meyməndidən[92] soruşdu:

– Sultan hansı məsələ haqqında səninlə məsləhət edirdi?

Həsən Meyməndi cavab verdi:

– Məncə, o məsələdən sizin də xəbəriniz var.

Dedilər:

– Sultan sənə dediyini bizə demir.

Dedi:

– Ona görə ki, başqasına deməyəcəyimə arxayındır. Bəs nə üçün məndən soruşursunuz?

B e y t

Bildiyi hər sözü söyləməz insan,
Verməz şah sirrinə başını qurban.

**9. Hekayət**

Bir evi almaq üçün beh verməkdə tərəddüd edirdim. Bu zaman bir cuhud dedi ki, mən bu məhəllənin böyüklərindənəm, o evi məndən soruş, heç bir eybi yoxdur, al!

Dedi: – Sənin qonşuluğundan başqa!

Ş e i r

Bu evin ki, sənin kimi qonşusu var, şübhəsiz,
O ev dəyməz onca dirəm sikkəsi qəlp pula həm.
Ümid etmək olar ki, sən ölüb getsən dünyadan,
O binanın qiyməti də bəlkə ola min dirəm.

**10. Hekayət**

Bir şair oğrubaşının yanına gedib onu təriflədi. Oğrubaşı şairi soyundurub kənddən qovmağı əmr etdi. Yazıq çılpaq halda şaxtada gedərkən itlər dalınca düşüb hürməyə başladılar. İtləri qovmaq üçün yerdən bir daş götürmək istədi, yer don olduğuna görə daşı qopara bilmədi. Dedi:

– Bu necə haramzadə camaatdır ki, iti açıb, daşı bağlayıblar!

Oğrubaşı eyvandan bunu görüb şairin sözünü eşitdikdə güldü, onu yanına çağırıb dedi:

– Könlün nə istəyir, məndən tələb et!

Dedi:

– Öz paltarlarımı mənə bağışla, səndən ənam almaqdansa, baş götürüb qaçmaq yaxşıdır.

B e y t

Başqasının xeyrinə çalışar comərd olan,
Səndən xeyir ummuram, ancaq yetirmə ziyan.

Oğrubaşının ona yazığı gəlib paltarlarını qaytardı, bir kürk, bir qədər pul verib sevindirdi və evinə razı yola saldı.

**11. Hekayət**

Bir münəccim evə gəldikdə arvadının yad bir kişi ilə oturduğunu gördü. Söyüş söydü, təhqir etdi, hay-küy saldı, dava-dalaş başladı. Bu hadisənin şahidi olan arif bir adam dedi:

B e y t

Hardan bildin göylərin üst qatında nə vardır,
Bilmirsən öz evində belə biganə vardır?

**12. Hekayət**

Pis səsli bir vaizin öz səsindən xoşu gəlirdi, elə boş-boş qışqırırdı ki, elə bil, qarğa qarıldayır, yaxud ulaq anqırırdı.

B e y t

Xətib Əbülfəvarisin[93] kobud səsi çıxanda,
Anqırtısı İstəxridə[94] qala yıxar bir anda.

Vaiz şan-şöhrət sahibi olduğundan qəsəbənin sakinləri onun pis səsinə dözür, könlünə dəyməyi məsləhət görmürdülər.



Onunla gizli ədavəti olan başqa bir vaiz bir gün onun görüşünə gəlmişdi, dedi:

– Xeyr olsun, səni yuxuda görmüşəm!

Dedi:

– Necə görmüsən?

Dedi:

– Yuxuda görmüşəm ki, sənin xoş səsin var, camaat da sənin səsindən həzz alır.

Vaiz bir qədər fikrə getdi, sonra dedi:

– Yaxşı oldu ki, belə bir yuxu görüb eybimi mənə anlatdın. Məlum olur ki, mənim səsim pisdir, camaat ucadan oxumağımdan əziyyət çəkir. Söz verirəm ki, bu gündən etibarən uca səslə oxumayım.

Ş e i r

Dostlardan həmişə şikayətim var
Ki, yaxşı deyirlər pisimə onlar.
Eybimi görərlər bir hünər kimi,
Gül hesab edərlər hər tikənimi
Hardadır həyasız, rəzil düşmənim
Ki, açıb göstərsin eybimi mənim?!

**13. Hekayət**

Bir nəfər Sincar[95] məscidində zəhlə tökən bir səslə azan verərdi. Məscidin sahibi ədalətli və xoş təbiətli bir əmir idi, onun könlünü sındırmaq istəmirdi, ona görə dedi:

– Ay kişi, bu məscidin qədimdən bəri xüsusi azançıları var, hər birisi məndən beş dinar alır. Sənə on dinar verərəm, bu şərtlə ki, gedib başqa məsciddə azan versən.

Onlar razılaşdılar. O getdi və bir müddət sonra buradan keçərkən əmirin yanına gəlib dedi:

– Ey hökmdar, on dinar verib məsciddən çıxartmaqda mənə zülm edibsən; getdiyim yerdə başqa məscidə köçmək üçün 20 dinar verirlər, qəbul etmirəm.

Əmir qəşş edincə güldü və dedi:

– Ayıq ol, əlli dinara razı olmayınca getmə!

Beyt

Bıçaq ilə şüşə üstdən can sıxar gil qaşımaq;
Kobud səsin daha betər qaşıyar hər könlü bax.

**14. Hekayət**

Pis səsli bir şəxs ucadan Quran oxuyurdu. Onun yanından keçən bir arif soruşdu:

– Bu Quran oxumağın üçün sənə nə qədər verirlər?

Dedi:

– Heç nə qədər.

Dedi:

– Bəs nə üçün özünə əziyyət verirsən?

Dedi:

– Allah xatirinə oxuyuram.

Dedi:

– Allah xatirinə, oxuma!

Şeir

Bu avazla oxusan Quran yəqin,
Apararsan müsəlmanlıq rövnəqin.



V FƏSİL

## EŞQ VƏ CAVANLIQ HAQQINDA

**1. Hekayət**

Həsən Meymənddidən soruşdular:

– Sultan Mahmudun hər biri dünya gözəli adlandırıla biləcək bu qədər qulamı olduğu halda, nə üçün Ayazı[96] hamısından çox istəyir, halbuki, Ayaz o qədər də yaraşıqlı deyildir.

Dedi: – Ürəyə yatan, gözə də xoş dəyər.

Şeir

Padişah hər kəsə eləsə hörmət.
Pis iş də tutsa, hey tərif olunar.
Şah kimdən azacıq bədgüman olsa.
Ən yaxın adamı çıxmaz havadar.

Şeir

Kim nəyə baxarsa inkar gözüylə,
Yusif hüsnünə də çirkindir deyər.
Lakin məhəbbətlə o, divə baxsa,
Gözünə misilsiz mələk görünər.

**2. Hekayət**

Deyirlər bir xacənin çox gözəl bir qulu var idi və xacə onunla dostluq büsatı qurmaq istəyirdi. Dostlarından birinə dedi: – Heyif bu boy-buxundan, bu gözəllikdən ki, özü kobud, dili uzundur.

Dedi: – Qardaşım, eyş-işrət keçirdiyin adamdan hörmət gözləmə, aşiq-məşuqluq ortaya çıxanda, hakim-məhkumluq aradan qalxar

Beyt

Xacə bir nazənin bir pərisifət –
Qul ilə oynarkən gülərsə üzü,
Təəccüb deyildir qulu naz etsə,
Naz çəksə həvəslə xacənin özü...

**3. Hekayət**

Gördüm bir zahid eşq içində yanır, nə səbr edə bilir, nə dərdin açır. Çox əziyyət çəkir, çox məzəmmət eşidir, lakin fikrindən dönməyir və deyirdi:

Şeir

Əlimi üzmərəm mən ətəyindən,
Bir iti qılıncla vursan da məni.
Axı səndən başqa ümidim yoxdur,
Qaçsan bil taparam yenə də səni.

Bir dəfə onu danlayıb dedim:
– Səlis əqlinə nə olmuşdur ki, xəsis nəfsin ona üstün gəldi?
Bir az fikrə getdi, sonra dedi:

Şeir

Haraya girərsə eşqin sultanı,
Alar iradədən tabü-təvanı.
Çirkaba qərq olan biçarə məgər,
Dünyada heç təmiz yaşaya bilər?

**4. Hekayət**

Birisi könlünü vermiş, canından keçmişdi. Lakin göz dikdiyi yer qorxulu, getmək istədiyi yer təhlükəli idi: hazır kökə deyildi ki, əl atıb götürsün, xam cücə deyildi ki, tez tora düşsün.

Beyt

Puluna baxmazsa nazənin dilbər,
Qızılın torpaqla olar bərabər.

Yenə nəsihət edərək ona dedilər: – Bu sevdadan əl çək, çoxları bu xam xəyala düşmüş, lakin gör necə olmuş, nə hala düşmüşlər?!
Nalə çəkib dedi:

Şeir

A dostlar, etməyin mənə nəsihət
Ki, mənim gözlərim ondadır fəqət,



Cəngavər məhv edər zorla düşməni,
Yar isə naz ilə öldürür məni.

O necə məhəbbətdir ki, can qorxusundan canandan əl çəkəsən?!

Şeir

Sən əgər özünü unutmamışsan,
Sənin aşiqliyin yalandır demək.
Dost ilə birləşmək mümkün deyilsə,
Onun arzusuyla öləsən gərək.

Beyt

İmkan tapsam tutaram ətəyindən nigarın,
Yoxsa gedib ölərəm, qapısında o yarın.

Onun işləri ilə maraqlanan, qayğı göstərib səhhətinin hayına qalan yaxın adamları çox səy göstərdilər, öyüd verdilər, yalvarıb-yaxardılar, xeyri olmadı.

Beyt

Təbibim deyir ki, səbr eylə, dayan,
Bu həris nəfs isə dözməyir bir an.

Şeir

Bilirsənmi nazlı dilbər bir gecə,
Aşiqanə pıçıldadı gizlicə.
Belə diqqət verirkən sən özünə,
Heç qiymətim görünərmi gözünə?

Nağıl edirlər ki, onun aşiq olduğu şahzadəyə xəbər çatdırdılar ki, çoxdandır xoş təbiətli, şirindil bir cavan bu tərəflərə gəlib-gedir, gözəl sözlər danışır, mənalı söhbətlər edir. Deyəsən, qəlbində bir məhəbbət, başında bir sevda var.

Şahzadə başa düşdü ki, cavanın könlünü çalmış, onu öz bəla girdabına salmışdır. Tez ata minib o tərəfə getdi. Cavan uzaqdan şahzadənin gəldiyini gördükdə ağlayaraq dedi:

Beyt

Qatilim yenə də gəlib dayandı,
Sanki qurbanına ürəyi yandı.

Şahzadə cavanı xoş dindirdi, kefini soruşdu, adı, yeri, sənətilə maraqlandı, cavan dostluq dəryasına elə qərq olmuşdu ki, nəfəs almağa taqəti, cavab verməyə qüdrəti olmadı.

Beyt

Əzbərdən bilsən də Quranı inan,
Çaşsan əlif, bey də çıxar yadından.

Şahzadə dedi: – Nə üçün mənimlə danışmırsan, mən də dərvişəm, dərvişlərlə oturub-duranam, hətta onlara qulağı sırğalı bir qulam.

Bu zaman məhbubunun nəvazişindən qüvvət alan cavan başını dostluq dəryasının dalğaları arasından çıxararaq dedi:

Beyt

Səninlə bir məkanda olmaq bir əmri-mahal,
Sən sözə dil açanda olar mənim dilim lal.

Bunu dedi, bərkdən bir nərə çəkdi və canını haqqa təslim etdi...

**5. Hekayət**

Son dərəcə gözəl bir şagird var idi, insan təbiəti gözəlliyə meyl etdiyi üçün müəllim də ona mail olmuşdu.

Ona görə başqa şagirdlərə etdiyi əziyyət və tənbehi ona rəva görməzdi. Təklikdə rast gələndə isə ona belə deyərdi:

Şeir

Ey mələk, mən sənə elə valehəm,
Ki, bütün varlığım çıxıb yadımdan.
Kirpiyin qəlbimə oxlar atsa da,
Mən kirpik vurmayıb baxaram heyran.



Bir dəfə şagird ona dedi: – Dərsimə nəzər yetirdiyin kimi, tərbiyəmə də fikir ver ki, xoşuna gəlməyən şeyləri düzəltməyə çalışım.

Dedi: – Ey oğlan, sən bunu başqalarından soruş, o gözlə ki, mən sənə baxıram, hünərdən başqa bir şey görmürəm.

Şeir

Bədxahın gözləri çıxsın dünyada,
Görür nöqsan kimi hər hünərini.
Varsa yetmiş eybin, bircə hünərin.
Dost ancaq görər o bir hünərini.

**6. Hekayət**

Yadımdadır, bir gecə sevimli dilbərim qapıdan girdi, onu görcək özümü itirib elə tələsik ayağa qalxdım ki, ətəyim yellənib çırağı söndürdü.

Beyt

Bu, yuxumu, gün çıxıb qatı zülməti boğdu.
Bu xoşbəxtlik ülkəri əcəb haradan doğdu!

O oturdu və gileylənib dedi:

– Məni görcək çırağı söndürməyində nə məna var?

Dedim:

– Bunun iki mənası var, birinci budur ki, səni görüb günəş çıxdığını zənn etdim, ikincisi isə bu şeri xatırladım:

Şeir

Şamın qabağını bir çirkin kəssə,
Tut öldür o saat qoy görsün hamı.
Yox, əgər şirindil bir nazəninsə,
Yapış ətəyindən tez söndür şamı.

**7. Hekayət**

Biri çoxdan idi ki, dostunu görmürdü; soruşdu:

– Hardasan, nə vaxtdandır intizarını çəkirəm.

Dedi:

– İntizar çəkmək təngə gəlməkdən yaxşıdır.

Ş e i r

Gec gəldin ey nazlı məstanə gözəl,
Çəkmərəm yaxandan bu tezliklə əl.
Xoş olmaz məşuqi görmək nüdrətən,
Lazımdır yarını tez-tez görəsən.

**Hikmət**. Əgər sevgilin öz yoldaşları ilə sənin yanına gələrsə, demək, incitmək üçün gəlmişdir, çünki bu halda ya qısqanclıq baş verəcəkdir, ya düşmənçilik.

B e y t

Dostlarla sən məni görməyə gəlsən,
Dava axtarırsan, sülhə də gəlsən.

Ş e i r

Yar əğyarla bir anlığa belə söhbət edərkən,
Qeyrətimdən titrədim mən az qaldı ki, verəm can.
Gülüb dedi: mən məclislər çırağıyam, ey Sədi!
Mənə nə var bir pərvanə özünü etsə qurban.

**8. Hekayət.**

Yadımdadır, qədim zamanlarda bir dostum var idi, bir qabıqda iki badam içi kimi yaşayırdıq. Birdən başqa yerə getməli oldu. Bir müddətdən sonra qayıtdıqda şikayətlənməyə başladı və dedi:

– Bu müddət ərzində mənə bir qasid belə göndərməyibsən!

Dedim:

– Rəva görmədim ki, qasidin gözü sənin camalının nuru ilə işıqlansın, mən isə məhrum qalım.

Ş e i r

Köhnə dostum, gəl sən mənə öz dilinlə tövbə vermə,
Hər kəs məni qılınc ilə bu cür yola qoya bilməz.
Paxıllığım tutur hər kim sənə baxsa doyunca yar,
Sonra yenə deyirəm ki, heç kim səndən doya bilməz.



**9. Hekayət**

Gördüm bir alim birinə aşiq olmuş, pərdə də sirrinin üzərindən götürülmüşdü. Çox iztirab çəkir, ağır əziyyətlərə davam gətirirdi. Bir dəfə ona ürək-dirək verib dedim: – Bilirəm sənin bu dostluqdan məqsədin birinə əziyyət vermək, bu məhəbbətdən istəyin birinin qəlbini incitmək deyildir. Belə olan halda alimə yaraşmaz ki, nahaq yerə günaha batsın, bir tərbiyəsizin üstdə özünü hörmətdən salsın.

Dedi: – Ey əziz dost, gəl məzəmmət əlini bu dərdli yaxamdan çək, sənin etdiyin bu məsləhət haqqında mən dəfələrlə düşünmüşəm, görmüşəm ki, onun cəfasına dözmək, ayrılığına tab gətirməkdən yüngüldür. Alimlər deyiblər ki: "Sözü ürəyə salıb dərd etmək, gözü gözəldən ayırmaqdan asandır".

Ş e i r

Ayrı qalmaq müşkülsə bir dilbərdən,
Zülm etsə də gərək zülmə dözəsən.
Bir gün çəkdim əllərindən əlaman,
Sonra oldum etdiyimdən peşiman.
Yar gərəkdir yar yolunda can verə,
Nə ki bir söz deyəndə o yan verə.
Özü bilər ya çağırar, ya qovar,
Məgər onda deyilmi hər ixtiyar?!

**10. Hekayət**

Cavanlıq vaxtlarında, bildiyin üzrə hamının başına gəldiyi kimi, mən də bir gözələ aşiq olmuş, and içib əhd-peyman bağlamışdım, özü xoşəxlaq, üzü isə on dörd gecəlik ay kimi parlaq idi.

B e y t

Yar üzünün nəbatı bax ab-həyat içib gülər,
Kim ki, nabatə meyl edər şəkkərinə salar nəzər*

* Bu beytdəki "Nəbat" sizü birinci misrada ot (səbzi), ikinci misrada nabat (qənd) mənasındadır. (*Mütərcim*)

Təsadüfən ondan xoşa gəlməyən bir hərəkət baş verdi, ürəyim sındı, sidqim siyrildi, məhəbbət daşını atıb dedim:

Beyt

Bir yol tap get sən də məqsədə asan,
Barı bax özünə, bizə baxmırsan.

Eşitdim ki, gedə-gedə deyirdi:

Beyt

Yarasa sevmirsə nurlu günəşi,
Günəşin əskilməz bundan atəşi.

Bundan sonra o, başqa şəhərə getdi. Amma sözü mənə yaman yer etdi.

Beyt

Çıxdı əldən yar vəsli, getdi şadlıq nemәti
Kim əzabdan əvvəl anlar var olan xoş ləzzəti?

Beyt

Qayıt, gəl, vur, öldür, bu ölüm, bilsən
Xoşdur mənə, sənsiz ömür sürməkdən.

Şükür olsun ki, bir müddətdən sonra geri qayıtdı, çənəsinin almacığı heyva kimi zərif tüklərlə örtülmüş, rəngi solmuş, əvvəlki gözəllikdən bir nişan qalmamışdı. Ümid edirdi ki, durub üzündən öpəcəyəm. Oturub üzümü kənara çevirdim və dedim:

Şeir

O gün ki camalın xətti gözəldi,
Qoymadın bir salam o xəttə nəzər.
Bu gün sülh edərək gəlmişsən çünki,
Qoyulub o xəttə indi zir-zəbər.



Şeir

Tazə baharım, varağın soldu bax,
Qoyma, qazan, söndü, bu od, bu ocaq.
Bunca çəkib sən özünü dartma gəl,
Anla daha indi deyilsən gözəl.
Get onu tap kim sənə pabənd ola,
Bir kəsə naz et ki, sənə bənd ola.

Şeir

Dedilər ki, bağda göyərti xoşdur,
Sözün doğrusunu deyənlər bilər.
Yəni gözəl üzdə tər səbzi bitsə,
Aşiq məftun olub təmənna dilər.
Lakin qanqal bitmiş sənin üzündə,
Yolduqca daha çox artıb yüksələr.

Şeir

Səbr etsən, etməsən bunu yaxşı bil,
Gözəllik əyyamı keçib gedəcək.
Sənin tək canımdan əl çəkməsəydim,
Saqqalı qoymazdım çıxa həşrədək.

Şeir

Yarımdan sual etdim: hanı o hüsnü camal,
Qaralmışdır ay üzün, batmısan dərdə-ğəmə.
Cavab verdi: bilmirəm bu üzümə nə oldu
Görünür hüsnüm üçün batmış belə matəmə.

**11. Hekayət**

Bağdad bədəvi ərəblərinin birindən soruşdular:

– Yeniyetmələr haqqında nə deyə bilərsən?

Dedi: – Onlardan xeyir umma, nə qədər ki, gözəl və zərifdirlər, kobudluq edərlər, elə ki, çirkinləşib kobudlaşdılar, məhəbbət göstərib dostluq edərlər.

N ə z m

Yeniyetmə nə qədər ki, gözəldir,
Dili acı olar, xisləti yaman.
Elə ki, üzünün gülşəni soldu,
Hamıya dil töküb olar mehriban.

**12. Hekayət**

Bir alimdən soruşdular: – Bir adam gözəl bir nigarla xəlvət otağa çəkilə, qapını daldan bağlaya, rəqiblər yuxulamış, şəhvət coşmuş ola, ərəblər demişkən: "Xurmalar dəymiş, bağban yatmış ola", insan öz nəfsini saxlayıb gözəllərin əlindən qurtara bilər, ya yox?

Alim dedi:

– Gözəllərin əlindən qurtarsa da, söz gəzdirənlərin dilindən qurtara bilməz.

B e y t

İnsan qurtarsa da pis əməlindən.
Qurtarmaz bədxahın tənələrindən.

B e y t

Bacararsan bir iş görüb salmayasan səsə sən,
Bacarmazsan lakin xalqın dillərini kəsəsən.

**13. Hekayət**

Tutuquşu ilə qarğanı bir qəfəsə salmışdılar. Tutuquşu qarğanın çirkin sifətini görməkdən xoşlanmayaraq, öz-özünə deyirdi:

– Bunun nə kifir, eybəcər və yöndəmsiz sir-sifəti var?! Kaş aramızda məğriblə məşriq qədər məsafə olaydı!

Ş e i r

Hər kəs səhər duranda görsə sənin üzünü,
Onun parlaq gündüzü tutqun axşama dönər.



Sənin kimi bir nacins sənə həmdəm olmalı,
Təəssüf ki, dünyada sənə tay yox bir bəşər.

Daha qəribəsi orasında idi ki, qarğa da tutuquşu ilə bir yerdə olmaqdan kədərlənərək təəssüflənir və həyatının gedişindən şikayətlənib deyirdi:

– Bəxtim qara, taleyim dönük, fələk vəfasız imiş! Mən gərək indi bir qarğa ilə bir bağda divar üstə nazlana-nazlana gəzə idim!

B e y t

Sıxar möminləri sanki bir zindan,
Rindlərlə bir yerə düşdüyü zaman.

Görəsən nə günah işləmişəm ki, ruzigar məni cəzalandırıb belə xəbis, lovğa və nacins bir axmaqla həmsöhbət etmiş və fəlakətə salmışdır.

Ş e i r

Şəklini çəksələr divara sənin,
O evə heç yaxın gəlməz bir insan.
Behiştdə sən olsan əgər, adamlar,
Qaçıb cəhənnəmdə salarlar məkan.

Bu məsəli ona görə gətirdim başa düşəsən ki, alim adam cahilə nə qədər nifrət edərsə, cahil yüz dəfə, min dəfə artıq ona nifrət bəsləyər.

Ş e i r

Rindlər məclisində vardı bir zahid,
Bəlxli bir cavan ona dedi: "Sus!
Narazı olsan da qaşqabaq tökmə;
Sən də biz deyən tək deyilsən, əfsus!"

Ş e i r

Hamı birləşmişdir gül və lalə tək,
Sən isə arada quru odunsan.
Ey naxələf şeyx, müxalif külək,
Qar kimi soyuqsan, buz kimi donsan.

**14. Hekayət**

Bir dostum var idi, onunla çox səfər etmiş, çoxlu duz-çörək yemişdik, aramızda möhkəm bir səmimiyyət yaranmışdı. Bir dəfə cüzi bir mənafe üstündə könlümə toxundu, dostluğumuz pozuldu. Lakin buna baxmayaraq, qəlbimizdə olan məhəbbət bağları hələ qırılmamışdı. Eşitdim bir gün məclisdə mənim şerimdən bu iki beyt:

Ş e i r

Duzluca gülərkən mənim nigarım,
Bir az da duz səpər yarama aman.
Dərvişin əlinə nola zülfündən
Bircə tel düşərək olaydı dərman!

– oxunarkən dostlarım, bu sözlərin xatirinə yox, bəlkə əxlaqlarının təmizliyinə görə şeri bəyənib afərin demişlər, o cümlədən həman adam da məni tərifləmiş, köhnə dostluğumuzun qırılmasına təəssüf etmiş, təqsirini boynuna almış, günahını etiraf etmişdir.

Beləliklə, onun da barışmaq arzusunda olduğu meydana çıxdı, dərhal bu şeri yazıb göndərdim, sülh bərpa oldu.

Ş e i r

Vəfayə söz verdik, peyman bağladıq,
Sən cəfa edərək vəfanı atdın.
Dünyada bir sənə könül vermişdim.
Tezliklə sən onu vurdun, qanatdın.
Barışmaq istəsən gəl şad et məni,
Əzəldən daha çox sevərəm səni.

**15. Hekayət**

Bir adamın gözəl və cavan arvadı öldü, kəbini üzündən çox qocalmış qayınanası onun evində yaşamalı oldu[97]. Kişi qayınanasının söhbətindən bezmiş, lakin arvadın kəbinini verə bilmədiyindən onunla bir evdə yaşamaq məcburiyyətində qalmışdı. Dostlarından bir neçəsi onu görməyə gəldilər. Onlardan biri soruşdu:

– Əziz sevgilinin dərdinə dözmək çoxmu ağırdır? Kişi cavab verdi:



– Qayınana üzü görmək mənim üçün arvad dərdinə dözməkdən daha ağırdır.

Ş e i r

Güllər tarac oldu, tikanlar qaldı,
Xəzinə dağıldı, ilanlar qaldı.
Gözümə batarsa zəhərli mismar,
Düşməni görməkdən daha xoş olar.
Kaş ki, mən itirim min dostu, yarı,
Görməyim yanımda bircə əğyarı.

**16. Hekayət**

Xatırımdadır, cavanlıq günlərindən birində bir küçədən keçərkən gözəl bir nigara rast gəldim. Təmuz[98] ayı idi, istisi ağızları qurudur, səmum yeli beyinləri qaynadırdı; qızmar günorta günəşinə tab gətirməyib divar kölgəsinə pənah apardım, dedim bəlkə bir adam bir içim su verib Təmuz atəşini söndürə. Birdən bir evin qaranlıq dəhlizindən bir nur parladı, yəni elə bir camal göründü ki, qadir bir natiq onun nadir gözəlliyini təsvir etməkdən acizdir. Sanki qaranlıq bir gecədən səhər açıldı, ya zülmətdən həyat suyu tapıldı. Əlində qarlı su ilə dolu bir piyalə vardı, içinə qənd tökülmüş, müşk qarışdırılmışdı. Bilmirəm onu gülablamı belə ətirləndirmiş, yoxsa gül yanağından ona bir neçə qətrə tər damcılatmışdı.

Xülasə, onun incə əllərindən piyaləni alıb başıma çəkdim, dirilib cana gəldim.

B e y t

Qəlbimdə sonsuz bir atəş var inan,
Dənizi içsəm də doymaram bir an.

Ş e i r

O xoşbəxtə eşq olsun ki, göz açanda hər səhər,
Belə huri camalına baxıb edir iftixar.
Şərab məsti gecə yarı ayılsa da, şübhəsiz,
Bu saqidən məst olanlar qiyamətdə ayılar.

**17. Hekayət**

Məhəmməd Xarəzmşah[99] Çin ilə əlverişli sülh bağladığı ildə mən Kaşğər[100] şəhərinə gəlmişdim. Orada olduqca gözəl və yaraşıqlı bir oğlan uşağı gördüm. Onun kimilər haqqında belə deyirlər:

Şeir

Müəllimin sənə hər bir ədanı öyrətdi,
Bu nazü qəmzəni, zülmü cəfanı öyrətdi.
Bu hüsndə, bu gözəllikdə görmədim insan,
Mələkmi, yoxsa sənə bu liqanı öyrətdi?

O, Zəməxşərinin[101] "Müqəddimeyi-Nəhv" kitabını əlində tutaraq oxuyurdu: "Zeyd Əmri vurdu...". Dedim: – Ay oğlan, Xarəzm ilə Çin sülh bağladılar, Zeydlə Əmrin[102] düşmənçiliyi hələ də davam edir?

Güldü, haralı olduğumu soruşdu.

Dedim: – Şiraz torpağındanam.

Dedi: – Sədinin sözlərindən nə bilirsən?

Ərəbcə dedim:

Şeir

Dilçi bir alimə rast gəldim bu gün
Zeyd Əmrə baxan tək baxdı üzümə.
"Kəsrə" tək başını aşağı saldı,
"Zəmmə" tək hücuma keçdi üstümə.

Bir az fikrə getdikdən sonra dedi: – Sədinin şeirlərinin çoxunu burada farsca oxuyurlar, sən də bu dildə desən daha tez anlaşılar. Adamla onun biliyinə görə danışarlar.

Dedim:

Şeir

Nəhvə qarışdı başın ey yar bu gün,
Səbrimizi məhv elədin büsbütün.
Aşiqinin qəlbi əsirin ikən,
Zeyd ilə Əmr oldu sənin məşğələn.



Ertəsi gün səhər tezdən səfərə çıxmağa hazırlaşarkən, ona dedilər ki, filankəs Sədidir. Qaça-qaça gəlib çox üzrxahlıq etdi və sonra gileylənib dedi: – Nə üçün demədiniz ki, Sədiyəm, lazım olan xidməti edəm?!

Dedim: – Səni gördükdə nitqim tutuldu.

Dedi: – Nə olar bir neçə gün burada qalıb dincələsən, biz də sizin söhbətinizdən feyzyab olaq.

Dedim: – Aşağıdakı hekayətə görə qala bilmərəm.

Şeir

Mən dağlarda rast gəldim bir alimə,
Yaşayırdı mağarada yalqız, tək,
Dedim: neçin gəlməyirsən şəhərə
Ömr edəsən gözəl həyat sürərək?
Dedi: axı, şəhərdə çox gözəl var,
Fil sürüşər yerdə çox olsa çiçək!

Bunu dedim, bir-birimizlə öpüşüb vidalaşdıq.

Şeir

Belə öpüşmənin nə mənası var
Ki, öpüb tez yola salasan yarı.
Elə bil alma da yardan ayrılmış,
Bir üzü al olmuş, bir üzü sarı.

Beyt

Can verməsəm dostumla vidalaşan dəmdə mən,
Xəbərsizəm deməli sədaqətdən, diləkdən.

**18. Hekayət**

Hicaz karvanı ilə gedərkən bir dərviş də bizə qoşuldu. Ərəb əmirlərindən biri ona yüz dinar bağışladı ki, o da qurban kəsdirsin. Yolda Xəface[103] yol kəsənləri tökülüb karvanı çapdılar, hər nə var idisə, sil-süpür edib apardılar. Tacirlər ahu-fəryad etməyə, nahaq yerə dadi-bidad qoparmağa başladılar.

Beyt

Ağlayıb-sızlasan sən hər nə qədər,
Geriyə qaytarmaz oğru bircə zər.

Vəziyyətini dəyişməyib sakit oturan bir adam var idisə, o da haman dərviş idi.

Dedim: – Məgər sənin pullarını oğrular aparmayıblar?

Dedi:

– Nə üçün, aparıblar, ancaq mən pulun varlığında ona bağlı deyildim ki, yoxluğunda ağlayam.

Beyt

Bir kəsə, bir şeyə könül vermə, bax,
Çətindir, könülü geriyə almaq.

Dedim: – Söylədiyin vəziyyət tanışdır, çünki mənim də cavanlıqda sevgilim olmuşdur. Mən o dilbərə elə bağlı idim ki, camalı gözümün qibləsi, vüsalı ömrümün sərmayəsi idi.

Şeir

Səmadan nazil olmuş bir mələkdi sanki xilqətdə
Ki, yerdə bir bəşər mümkün deyildir bu lətafətdə.
Qəsəm ol dostluğa kim, ondan ayrı boşdur hər söhbət
Ki, olmaz insan övladı belə hüsnü vəcahətdə.

Birdən ölüm yatağına yatdı, ayağı əcəl torpağına batdı, evlərindən qalxan fəraq naləsi göyə dayandı, qəlbim od tutub yandı. Bir neçə gün qəbri üstdən ayrılmayıb, fəraqi haqqında bir şeir yazdım. O cümlədən dedim:

Şeir

Ayağına batan zaman əcəlin sərt tikanı,
Kaş başımı öz əlilə qoparaydı bu fələk.
Ta ki, gözüm görməyəydi sənsiz qalmış cahanı,
Məzarına mənəm gələn başıma kül tökərək.



Şeir

O gözəl ki, heç bir qərar tutmadan,
Gül nəstərən bəsləyəydi hər zaman.
Öz gülünü soldurdu bu zəmanə,
Torpağında bitirdi vəhşi tikan.

Dilbərin fərağından sonra and içdim, nə qədər sağam bir daha eyş fərşini açmayam, ömrümün sonuna qədər işrət məclisinə qədəm basmayam.

Şeir

Dəniz fayda verərdi çox olmasaydı tufanı,
Gül söhbəti xoş olardı olmasaydı tikanı,
Tavus kimi nazlanırdım dünən vüsal bağında
Bu gün isə qıvrılıram ilan tək fərağında.

**19. Hekayət**

Ərəb əmirlərindən birinə Leyli və Məcnun əhvalatını danışaraq dedilər:

– Məcnun elm-fəzilət sahibi olmasına baxmayaraq, əqlini itirib çöllərə düşmüşdür.

Əmr etdi ki, Məcnunu tapıb onun hüzuruna gətirsinlər. Məcnunu gətirdilər. Əmir onu danlayaraq dedi:

– Şərəfli insan sifətində nə nöqsan gördün ki, heyvan xasiyyətini qəbul edib, adamlarla ünsiyyətdən əl çəkdin?

Məcnun ağlayaraq cavab verdi:

Beyt

Onu sevdiyimə gülənlər ki, var,
Kaş yarı bir dəfə görəydi onlar!
Hər kəs axtarırsa mənim eybimi,
Kaş yarın hüsnünü görəydi bir an.
Onun camalına olaraq heyran.
Əlini kəsəydi bir turunc kimi.

Məcnunun sözlərinin düzgün olub-olmadığını öyrənmək, bu qədər fitnəyə səbəb olan bir gözəli görmək məqsədilə əmir Leylini ça-

ğırtdırmağı əmr etdi. Bütün ərəb tayfalarını gəzib Leylini tapdılar və onu əmirin sarayına gətirdilər. Əmir Leylini gözdən keçirdi, qarayağız, arıq bir qız gördü, xoşuna gəlmədi, onun hərəmxanasında olan ən axırıncı kəniz gözəllikdə Leylidən qat-qat üstün idi. Ona görə də artıq Leyliyə əhəmiyyət vermədi. Məcnun bunu hiss edib dedi:

– Leylinin gözəlliyini dərk etmək üçün, ona Məcnunun gözü ilə baxmaq lazımdır.

Ş e i r

Yar kuyindən gələn səsi göyərçinlər eşitsə,
Mənim kimi fəğan edib inildəyər onlar da.
Ey dostlarım, mənə tənə vuranlara deyiniz
Ki, dərdimi duymaq üçün duyğu yoxdur onlarda.

Ş e i r

Sağlamlar nə bilir nədir dərdü ğəm,
Dərdimi anlayar dərd çəkən həmdəm.
Arı neştərini dadmayana sən,
Arıdan nə üçün söhbət edirsən?
Olmasa əhvalın bizim tək əgər,
Halımız sənə bir əfsanə gələr.
Ağrımı özgəyə bənzətmə sən də,
Duz onun əlində, yarasa məndə.

Ş e i r

Sən bilməzsən məndə olan əhvalı,
Mənim dostum öz həmdərdim olmalı.
Ta söyləyim dərdimi o həmdərdə,
İki odun yaxşı yanar bir yerdə.

**20. Hekayət**

Həmədan qazısı haqqında danışırlar ki, o bir nalbənd oğluna bənd olmuş, qəlbinin nalını oda qoymuşdu, bir müddət dərdilə kədərlənmiş, bir müddət ətrafında hərlənmiş, gah dalınca düşüb gedərmiş, gah haqqında danışıb, şeir deyərmiş.



Ş e i r

Gözümə göründü o sərv qamət,
Qəlbimi qaparaq saldı ayağa.
Ürəyi kəməndə salan bil, gözdür,
Qəlbi qorumaqçın gözünü bağla.

Deyirlər ki, bir dəfə yoldan keçərkən oğlan qazının yolunu kəsdi, özü haqqında deyilən bəzi sözləri eşitdiyinə və bərk incidiyinə görə, qazını söyməyə başladı, ürəyi soyumadı, sonra onu daşladı, ağzına gələni dedi, olmazın hörmətsizliklər etdi.

Qazı əhvalatı müşahidə edən, onunla birlikdə gedən üləmalardan birinə demişdi:

B e y t

Gözəlin acığı nazə bərabər,
Üzünü turşutsa şirin dad verər.

Ərəb ölkələrində belə bir məsəl var, deyərlər: "Sevgilinin söyüşü şirin kişmiş kimidir".

B e y t

Sənin gül əlindən yumruq yesəm mən,
Xoşdur öz əlimlə çörək yeməkdən.

Qara-qışqırıq salır, demək, razılıq iyi gəlir.

B e y t

Üzüm qora çağı turş olar yəqin,
Üç-dörd gün səbr elə ki, olsun şirin.

Qazı bunu deyib geri döndü, gəlib qəzavət kürsüsündə oturdu. Onun xidmətində olan mənsəb sahiblərindən bir neçəsi baş əyib təzim etdilər, yeri öpüb belə dedilər:

– Ədəb xaricində olsa da, icazə verin sizə bir sual verək. Böyüklər deyiblər:

Beyt

Hər bir sözə irad tutmaq bil, deyildir, məsləhət,
Böyüklərə qələt tutmaq özü sayılar qələt.

Lakin bütün ömrümüz boyu sizdən mərhəmət görüb, ənam aldığımız üçün, bildiyimiz məsləhəti deməsək, xəyanət etmiş olarıq. Yaxşısı budur ki, sən bu nalbənd oğlundan əl çəkib öz ehtiras süfrəni yığışdırasan, pak qəzavət kürsüsünü belə çirkin işlərlə kəsafətə bulaşdırmayasan. Hərifin kim olduğunu gördünüz, hərfin nə olduğunu eşitdiniz.

Şeir

Biri həyasızlığa etmişsə adət,
Özgə həyasına verərmi qiymət?
Çox olmuş əlli il yaxşı qalan ad
Bir çirkin iş ilə olmuşdur bərbad!

Qazı dostlarının fikrini bəyəndi, onların xeyirxahlığına qarşı təşəkkür etdi və dedi: – Mənim haqqımda əziz dostlarımın dedikləri tamamilə düzdür, ona etiraz ola bilməz, çünki doğru sözdür, lakin:

Beyt

Nə qədər kefindir elə məzəmmət
Zəncini yumaqla ağarmaz, əlbət.

Beyt

Bu dünyada səni mənə unutduran iş varmı?
Başı qopmuş bir ilanam, qıvrılmasam olarmı?

Bunu deyib onu yola gətirmək üçün adam saldı, mal tökdü, pul xərclədi, hədiyyə aldı. Demişlər ki, kimin qızılı qovluğundadır, onun gücü də öz qolundadır; kimin dünyada kisəsi boşdur, onun da dünyada heç kəsi yoxdur.

Beyt

Qızılı kim görsə ona baş əyər
Dəmirqol tərəzi olsa da əgər.



Müxtəsər, bir gecə aranı xəlvət eləmişdilər ki, darğaya da xəbər çatdı. Qazı bütün gecəni şərab içir, sevgilisinin gah sağına, gah soluna keçir, məhəbbətin şiddətindən belə zümzümə edirdi:

Şeir

Ey kaş xoruz banlamasın bu səhər erkən,
Aşiqlər hələ doymadı məşuqələrindən.
Yatdıqda yarın sən oyaq ol, fürsəti vermə,
Bu ömrü, amandır, belə bivayə keçirmə.
Məsciddən azan səsləri yüksəlsə də hər an,
Ya təbl səsi qalxsa Atabəy sarayından.
Sən açma xoruz gözləri tək ləbləri zinhar,
Əfsanə demə, etmə sən öz sirrini izhar.

Qazı bu vəziyyətdə idi ki, yaxın adamlarından biri gəlib dedi:
– Nə oturmusan qalx, nə qədər bacarırsan tez qaç! Paxılların sənə həsəd aparıb xəbərçilik etmişlər, bəlkə də haqq demişlər. Nə qədər ki, fitnə odu alovlanmayıb, bəlkə onu tədbir suyu ilə söndürək, sabaha qalsa, güclənib yanğına çevrilər, yayılıb dünyanı bürüyər.
Qazı gülümsəyərək ona baxdı və dedi:

Şeir

Şirlər ov üstünə pəncə açanda,
Nə fayda itlərin hürüşməsindən.
Yarınla üz-üzə söhbət elə, qoy
Əlinin dalını çeynəsin düşmən.

O gecə şaha da məlumat verdilər ki, sənin ölkəndə belə bir murdar hadisə baş vermişdir, əmrin nədir?
Şah dedi: – Mən onu əsrimizin görkəmli alimi, misilsiz qazısı kimi tanıyıram, ola bilər düşmənləri bu hadisəni onun haqqında uydurmuş olalar, bu məsələni yoxlamayınca mən ona inana bilmərəm. Ağıllı adamlar deyiblər:

Şeir

Hirslənib qılınca tezcə əl atsan,
Sonra peşmançılıq baş verər inan.

Qazının yanına gəldi. Gördü şam yanır, oğlan oturub, şərab dağılıb, qədəh sındırılıb, qazı isə özündən getmiş, dünyadan bixəbər, məst, sərxoş, bihuş, mədhuş bir halda yatır. Şah ehmalca qazını oyadaraq ahəstə dedi: – Dur, günəş çıxmışdır.

Qazı işin nə yerdə olduğunu başa düşüb soruşdu:

– Hansı tərəfdən çıxmışdır?

Dedi: – Hər gün çıxdığı tərəfdən, məşriqdən.

Dedi: – Allaha şükür olsun ki, tövbə qapıları hələ açıqdır, hədisdə deyilib: "Tövbə qapıları o zaman bağlanar ki, günəş məğribdən çıxsın". İlahi tövbə edirəm, bağışlanmağımı istəyirəm.

Şeir

Mənə iki şeyi tutdular nöqsan,
Qarabəxt dedilər, bir də ki nadan.
Sən məni həbs etsən, haqdır, yeri var,
Əfv etsən cəzadan daha xoş olar.

Şah dedi: – İndiki halda, öldürüləcəyini bildikdən sonra tövbənin faydası yoxdur, hətta bu barədə belə bir ayə də vardır: "Cinayətdən sonra tövbənin xeyri yoxdur".

Şeir

O oğrunun tövbəsindən nə fayda
Ki, kəməndi ata bilmir saraya.
Ucaboya "meyvə dərmə" deməli,
Gödəklərin onsuz da çatmır əli.

Belə bir iyrənc iş tutduqdan sonra bağışlanmağın qeyri-mümkündür.

Şah bunu decək, cəza müvəkkilləri tökülüb qazının əl-ayağını bağladılar.

Qazı dedi: – Şaha deyəcək mənim daha bir sözüm qalmışdır.

Şah eşitdi və dedi: – O nə sözdür?

Qazı dedi:

Şeir

Ətəyindən məlamət yağdıranda mənə sən.
Zənn etmə ki, əlimi üzərəm ətəyindən.
Bu günah ki, mənim var, xilas olmaq çətindir,
Bircə ümid qalıbdır, o da kəramətindir.



Şah dedi: – Bu şeri çox gözəl dedin, sözü qəribə bir məharətlə yerində işlətdin. Lakin əqlə müvafiq, şərə mütabiq olmaz ki, sənin bugünkü hazırcavablığın canını mənim əlimdən xilas etsin. Əmr edəcəyəm, səni saray qülləsindən atsınlar ki, başqaları da görüb ibrət alsınlar.

Dedi: – Ey yer üzünün allahı, mən sənin xanədanının yetişdirməsiyəm, özü də bu günahı tək mən etməmişəm, çoxları etmişlər, başqaların at ki, mən ibrət alım.

Şahı gülmək tutdu, təqsirindən keçdi, qətlini tələb edənə isə belə dedi:

Beyt

Sənin öz canında varikən nöqsan,
Neçin başqasında eyb axtarırsan?

**Mənzum hekayət**

Gülərüz bir gözəl, xoşsifət cavan
Gəmidə olmuşdu yarla mehriban.
Belə oxumuşam, ümmanda bir gün,
Girdabə düşdülər bəxtləri küskün.
Gəmiçi atıldı dəryaya həmən
Cavanı qurtarsın bəlkə ölümdən.
O isə dalğada əl-qol ataraq,
Deyirdi yarımı xilas et ancaq,
Bu sözü deyincə qaraldı gözü,
Bu oldu cavanın sonuncu sözü.
Eşqə sadiq sanma hər riyakarı
Ki, bərk gündə ata yarı, ilqarı,
Sevənlər bax belə yaşadı, bil sən,
Bir söz də gəl dinlə, qoca Sədidən.
Sədi bilir eşqin hər dəlilini,
Bağdadlı bilən tək ərəb dilini.
Könül veribsənsə bir canana sən,
Gərək göz yumasan bu cahana sən,
Leylinin Məcnunu dirilsə əgər,
Eşqin hədisini burdan öyrənər.

# VI FƏSİL

## ZƏİFLİK VƏ QOCALIQ HAQQINDA

**1. Hekayət**

Dəməşq məscidində bir neçə alimlə mübahisə edirdik. Bu zaman bir gənc məscidə girib soruşdu:

– Sizlərdən fars dilini bilən varmı?

Hamı məni göstərdi, mən ondan soruşdum:

– Nə sözün var?

Dedi:

– Yüz əlli yaşında bir qoca can üstdədir. O, fars dilində nə isə danışır, biz isə başa düşmürük, mərhəmət göstərib qocanın yanına getmək zəhmətini qəbul etsəniz savab olar, bəlkə vəsiyyət edir.

Mən qocanın başı üstə çatan zaman o, bu şeri oxuyurdu:

Şeir

Bir zaman dedim ki, kamə çataram,
Bilmədim bu arzu boş bir həvəsdir.
Təəssüf ki, ömrün bol süfrəsindən,
Bir tikə götürdük, dedilər, bəsdir.

Beytin mənasını şamlılara ərəbcə dedim. Onlar qocanın ömrünün uzunluğuna, eləcə də həyatın vəfasızlığına etdiyi təəssüfə təəccübləndilər. Mən qocadan soruşdum:

– Özünü necə hiss edirsən? Cavab verdi:

– Nə deyim?

Şeir

Bilmirsənmi bir adamın çıxarsalar dişini,
Kefi necə pozular və halı olar pərişan?
İndi özün hesab elə necə olar əhvalı,
O kəsin ki, bədənindən çıxıb gedə əziz can.

Dedim:

– Ölüm fikrini başından çıxart. Özünü qorxutma, çünki yunan filosofları demişlər: Bədən nə qədər sağlam olsa, onun həmişə belə qalacağına ümid bağlamaq olmaz, xəstəlik nə qədər ağır olsa, onun həmişə ölümlə nəticələnəcəyinə hökm vermək yaramaz. Müalicə etdirmək istəyirsənsə, həkim çağıra bilərəm. Qoca üzünü çevirib güldü və dedi:

Şeir

Bir təbib görsə ki, yamandır xəstə,
Əlini tez qoyar əlinin üstə.
Xacənin xəyalı, nəqşi-eyvandır,
Ev isə binadən belə virandır.
Qocanın işləri olarkən əngəl.
Sürtürdü arvadı hey ona səndəl.
Əhval ki, dolaşdı, pozuldu məzac,
Nə əfsun sağaldar, nə də ki, əlac.

**2. Hekayət**

Bir qoca belə nəql edirdi ki, bir qızla evlənmişdim, evi gül-çiçəklə bəzəmiş, aranı xəlvət eləmişdim, könlümü ona vermiş, gözümü ona dikmişdim. Uzun gecələri yatmaz, ona lətifələr və məzhəkələr deyərdim ki, bəlkə ürəyini ələ alam, qorxudan çıxa, mənimlə ünsiyyət bağlaya, o cümlədən bir gecə deyirdim: "Baxtın sayıq, dövlətin ayıq imiş ki, tərbiyəli, təcrübəli, dünyagörmüş, zamanın isti-soyuğunu dadmış, yaxşı-pisi tanıyan, qədir bilən, söz anlayan, təbiəti xoş, dili şirin, dostluq bacaran mənim kimi mehriban bir qocaya rast gəldin".

Şeir

Çalışıb qəlbini alaram ələ,
İncitsən dözərəm zülmə cananım.
Tuti tək xörəyin qənd olsa əgər,
Bax sənə qurbandır bu şirin canım.

Nə yaxşı ki, sən şorgöz, acısöz, hərdən bir xəyalə düşən, ayağı sürüşkən, hər gecə bir yerdə yatan, hər gün bir yarla dostluq qatan, qocaların əksinə olaraq, əql ilə deyil, cəhl ilə rəftar edən bir nadan cavanın çənginə keçməyibsən.

### Şeir

Gözəl, ay camallı nazlı hər cavan,
Olmaz məhəbbətdə sadiq çox zaman.
Bülbülü eşqinə sanma vəfadar
Ki, hərdəm bir gülün üstünə qonar.

### Beyt

Özündən yaxşıyla gəz axşam-səhər,
Özün kimisiylə vaxtın boş keçər.

O qədər belə yağlı dil tökdüm, elə bildim könlünü ələ ala bilmiş, özünü tələyə sala bilmişəm. Elə bu zaman dərdli sinəsindən soyuq, dərin bir ah çəkib dedi: – Sənin dediyin bu sözlərin çəkisi mənim ağıl tərəzimdəki çəkisi, vaxtı ilə məni tutmuş mamaçadan eşitdiyim bir söz qədəri də deyildir. Mamaçam deyirdi:

– Cavan gəlinin yanında tirin uzanması, pirin oturmasından yaxşıdır.

### Şeir

Arvad ər önündə bir şey gördü ki,
Oruc dodaqlartək büzülüb qalmış.
Dedi ki, ölüyə əfsun kar etməz,
Bu yazıq əbədi yuxuya dalmış.

### Şeir

Əgər arvad ər yanından acıqlanıb durarsa,
Belə evdə cəngü-cədəl, fitnə-fəsad törəyər.
Bir qoca ki, əsa ilə qalxıb durur ayağa,
Öz əsası qalxarmı heç çalışsa da nə qədər.

Xülasə, razılıq olmadığı üçün ayrılmalı olduq. İddə[101] vaxtı qurtardıqdan sonra onu tünd xasiyyət, acıdil, bədtinət, yoxsul bir cavana ərə verdilər. Qadın döyülür, söyülür, əzab-əziyyət çəkirdi.

Bununla belə ağızdolusu deyirdi: – Allaha şükür, o əzablı dəhşətdən qurtarıb bu nəşəli nemətə çatmışam.



### Şeir

Tünd xasiyyət, inadla mənə çox zülm etdin sən,
Yenə nazın çəkirəm, çünki ay tək gözəlsən.
Cəhənnəmdə səninlə birgə yanmaq yaxşıdır,
Başqasıyla cənnətdə könülsüz kef çəkməkdən.
Bir gözəlin ağzından soğan iyi gələrsə,
Xoşdur çirkli əlində tutduğu gül-çiçəkdən.

**3. Hekayət**

Diyarbəkrdə bir qocaya qonaq oldum. Onun çoxlu malı və gözəl bir oğlu var idi. Bir gecə qoca dedi:

– Ömrümdə bundan başqa övladım olmayıbdır. Bu vadidə ziyarətgah deyən bir ağac vardır ki, adamlar dilədiklərini almaq üçün ora gedirlər. Mən həmən ağacın altında uzun gecələr oturub ağlamış və çoxlu dua etdikdən sonra Allah bunu mənə əta etmişdir.

Oğlan isə bu vaxtda astadan yoldaşlarına deyirdi:

– Kaş o ağacın yerini biləydim, gedib dua eləyəydim, atam öləydi.

Ata sevinirdi ki, oğlum ağla çatıb; oğul deyinirdi ki, atam nə üçün ölmür.

### Şeir

İllər keçir, lakin güzər etmirsən,
Öz atanın məzarına heç zaman.
Sən atana nə hörmətlər etdin ki,
O hörməti gözləyirsən oğlundan?

**4. Hekayət**

Bir gün cavanlığıma salıb bərk qaçmış, yorulub gecəni bir dağın ətəyində qalmışdım. Karvanın arxasınca asta-asta gələn bir qoca dedi:

– Nə oturubsan, bura yatmaq yeri deyil!

Dedim: – Necə yeriyim, ayağım getmir.

Dedi: – Eşitməmisən ki, deyiblər: "Yeriyib oturmaq, qaçıb yıxılmaqdan yaxşıdır".

Şeir

Ey mənzilə çatmaq üçün tələsərək can atan,
Heç tələsmə, səbrli ol, mənə qulaq as bir az,
Ərəb atı tələsərək qoşa çapar, yorular,
Dəvə isə gecə-gündüz asta gedər yorulmaz.

**5. Hekayət**

Cəld, gülər üz, şirin söz bir cavan oğlan mənimlə dostluq edirdi, heç bir dərdi ürəyinə salmaz, heç bir qəmi yaxına buraxmaz, dodaqları gülüşdən əskik olmazdı.

Çoxdan idi ki, görüşmürdük, bir dəfə ona rast gəldim, gördüm arvad almış, övlad basmış, şadlığın kökü kəsilmiş, şənlik gülü solmuş. Dedim:

– Kefin necədir, necə dolanırsan?

Dedi:

– Uşaqlar olandan uşaqlığı buraxmışam.

Beyt

Uşaqlıq və gənclik, qocalıq nədir?
Bizi xofa salan bu zəmanədir.

Şeir

Qocaldınsa əl götür uşaqlıq şıltağından
Burax qalsın gənclərə hər oyun, hər zarafat.
Cavanlığın şövqini qocalardan gəl umma,
Gedən sular dübarə arxa qayıtmaz, əlbət.

Şeir

Keçdi cavanlıq daha yox iqtidar,
Ah nə yaman getdi o xoş ruzigar.
Getdi qolumdan necə şir qüvvətim,
Şadlanaram olsa penir qismətim.
Qaraltmışdı tüklərini bir qarı.
Ona dedim: ey kecən il kaftarı,
Saçlarını rəngləmək olmaz çətin,
Amma düzəlməz bu kəman qamətin.



**6. Hekayət**

Bir gün cavanlıqda nadanlıq edib anamın üstünə bərk qışqırdım. O, qəlbi incimiş halda küncdə oturdu, ağlayıb dedi:

– Körpəliyini unudubsan ki, belə kobudluq edirsən?

Ana oğlunu zorlu görcək haman,
Belə söylədi: – Ey pələng ovlayan!
Yada düşsə idi uşaqlıq çağın
Ki, qoynumda gücsüz çəkərdin fəğan.
Bu gün eyləməzdin mənə zülmlər
Ki, sən güclüsən indi, mən natəvan.

**7. Hekayət**

Xəsis bir dövlətlinin xəstə bir oğlu vardı. Xeyirxah adamlar ona dedilər:

– Bu oğluna ya bir Quran xətm etdir, ya bir qurban kəsdir.

Bir az fikirləşdikdən sonra dedi:

– Quran otaqdadır, sürü uzaqda. Quran yaxşıdır.

Bir arif bunu eşidib dedi:

– Quran ona görə yaxşı oldu ki, o, dil ilə başa gəlir, qurban isə pul ilə.

Şeir

İtaət olsaydı, pul ilə əgər,
Çoxları ulağtək batardı gilə.
Yüz dəfə əlhəmdü oxuyar, amma,
Zərərə qatlaşmaz bir dinar belə.

**8. Hekayət**

Bir qoca kişiyə dedilər: – Nə üçün evlənmirsən?

Dedi: – Qoca arvadın nə ləzzəti. Dedilər: – İmkanın ki var, cavan al.

Dedi: – Mən qoca ola-ola qoca arvadı bəyənmirəm, o cavan ikən mən qocanı necə sevə bilər?

Beyt

Yetmiş yaşlı bir qoca cavanlıqdan vursa dəm
Deməli, kor istəyir görsün işıqlı aləm.

Beyt

Xanımı zor ilə razı etməzsən,
Ona zor yaxşıdır on batman ətdən.

Lətifə

Eşitmişəm bu günlərdə əldən düşmüş bir qoca,
İstədi ki, bu yaşında alsın cavan bir arvad.
Göhər adlı bir qız tapdı, gözəl, göyçək dilaram
Ki, dünyada tapılmazdı gizli qalmış belə zad.
Bütün qayda-qanun ilə elçi saldı, toy etdi,
Lakin əvvəl həmləsində boşa getdi hər murad.
Kaman çəkib ox atdısa hədəfindən yan keçdi,
Qalın paltar tikmək üçün iynə olmalı polad.
Dostlarına gileylənib qoca dedi: bu şux qız
Necə yıxdı evimi, gör, etdi işimi bərbad.
Ərlə arvad arasında dava düşdü, belə ki,
Darğa, qazi işə baxdı, Sədi qopardı fəryad,
Dedi: – Qızda nə günah var, axmaq qoca bir utan,
Titrək əllə inci deşə bilərsənmi sən? Heyhat!



VII FƏSİL

## TƏRBİYƏNİN TƏSİRİ HAQQINDA

**1. Hekayət**

Bir vəzirin bir kütbeyin oğlu var idi. Bir alimin yanına göndərdi ki, buna tərbiyə ver, bəlkə ağıllana.

Alim bir müddət ona tərbiyə verdi, təsiri olmadı. Atasının yanına adam göndərib xəbər çatdırdı ki, oğlun ağıllanmır, amma məni dəli edib.

Şeir

Heç seyqəl götürməz zatı pis dəmir,
Nə qədər çalışsan bədgöhər olar.
İti yeddi dəniz su ilə yusan,
Yaş olcaq daha da beş-bətər olar.
İsanın eşşəyi Məkkəyə getsə,
Qayıdıb gələndə yenə xər olar.

**2. Hekayət**

Bir alim oğlanlarına öyüd-nəsihət verib dedi:

– Əziz oğlanlarım, sənət öyrənin ki, dünya malına etibar yoxdur. Səfərdə qızıl-gümüşün qorxusu var, ya oğru aparar, ya xərclənib qurtarar, sənət isə qaynar bulaq, tükənməz bir xəzinədir. Sənət sahibi dövlətdən məhrum olsa da, qorxusu yoxdur, çünki sənət özü elə bir dövlətdir ki, ona sahib olan hara getsə, hörmət qazanıb yuxarı başda oturar. Sənətsiz adam isə dara düşdükdə, əl açıb dilənçiliklə dolanar.

Beyt

Ağırdır rütbədən düşüb qul olmaq,
Naza öyrəşəndən sonrakı danlaq.

Şeir

Nagahan Şamda bir iğtişaş düşdü,
Hərə baş götürüb qaçdı bir yana.

Elmli, kamallı kəndli övladı,
Gedib vəzir oldu şaha, sultana.
Lakin fərasətsiz vəzir balası,
Kəndlərdə diləndi hey yana-yana.

Şeir

Ata mirasını istəyirsənsə,
Çalışıb atanın elmini öyrən!
Çünki dövlətini bir gün içində,
Havaya sovurub xərc edəcəksən.

**3. Hekayət**

Alimlərdən biri bir şahzadəyə dərs deyir, lakin rəhmsizcə onu döyür, olmazın əziyyətlər verirdi. Bir dəfə uşaq tab gətirə bilməyib atasının yanına şikayətə getdi. Köynəyini çıxarıb göyərmiş bədənini atasına göstərdi. Atasının ürəyi yandı, müəllimini çağırtdırıb dedi:

– Mənim oğluma etdiyin o əziyyət və tənbehi heç bir rəiyyət övladına etmirsən, bunun səbəbi nədir?

Dedi: – Səbəbi odur ki, gərək hamı danışanda ağzının sözünü bilsin, xalq yanında özünü yaxşı aparsın, xüsusilə padşahlar; çünki şahların dediyi hər söz dillər əzbəri, tutduğu hər iş əllər vərdişi olur, qara camaatınkına isə o qədər əhəmiyyət verən olmaz.

Şeir

Yüz nalayiq iş görərsə bir kasıb,
Yüzdən birin bilməz dostlar, aşnalar.
Amma sultan bircə gülünc söz desə,
Dilə düşər, ölkə-ölkə dolanar.

Deməli, böyüklərin uşaqlarının tərbiyəsilə daha çox məşğul olmaq, onların əxlaqının gözəlliyinə daha çox fikir verməK müəllimin borcudur.

Şeir

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.



Yaş çubuğu, istəsən hər şəkilə salarsan
Od qurudub düzəldər o çubuğu, nəhayət.

Alimin cavabı, oğluna qarşı tələbkarlığı şahın xoşuna gəldi. Ənam bağışladı, xələt verdi, rütbəsini artırdı.

**4. Hekayət**

Məğrib ölkəsində qaraqabaq, acıdil, tündxasiyyət, mərdimazar, gəda təbiət, bədkirdar bir mədrəsə müəllimi gördüm. Sir-sifətini görən müsəlmanların işi düz gətirməz, Quran oxumasına qulaq asanların üzü gülməzdi. Bakirə qızlar, pakizə oğlanlar onun əlindən zara gəlmişdilər, nə gülməyə cürət edirdilər, nə danışmağa cəsarət; gah birinin al yanağına şillə vurardı, gah o birinin əl-ayağını fələqqəyə qoyardı. Müxtəsəri, axırda valideynlər onun qəddarlığını başa düşdülər, döydülər, incitdilər, mədrəsədən qovdular. Dərsləri həlim, yumşaq xasiyyət, mehriban, ehtiyacı olmayınca danışmayan, heç kəsin qəlbinə dəyməyən, könlünə toxunmayan bir müəllimə tapşırdılar.

Birinci müəllimin qorxusu şagirdlərin ürəyindən çıxdı, ikinci müəllimin mələk təbiətli olduğunu görüb div xasiyyətli olmağa başladılar. Onun həlimliyinə bel bağlayıb elm öyrənməyi tərk etdilər, oxumaq əvəzinə oyun çıxardır, min bir kələk qururdular, əlindəki yazı lövhələrini bir-birinin başına vurub qırırdılar.

Beyt

Müəllim olarsa səssiz, mülayim,
Uşaqlar bazarda oynayır daim.

İki həftədən sonra həmən mədrəsənin yanından keçirdim. Gördüm birinci müəllimin könlün alıb yenə öz yerinə qaytarmışlar. Açığını deyim ki, bərk incidim, ixtiyarsız olaraq dedim: "Yenə də bu iblisi bu mələklərə müəllim ediblər?!" Dünyagörmüş hazırcavab bir qoca dedi:

Şeir

Mədrəsəyə göndərdi oğlunu bir padşah,
Gümüş bir lövhə qoydu onun yanına həmən.
Lövhün başı üstündə qızıl xətlə yazdırdı,
Xoşdur ustad cəfası ata məhəbbətindən.

**5. Hekayət**

Bir zahid oğluna əmilərindən çoxlu miras qaldı. O, bunu eyş-işrətə israf etməyə başladı. Görmədiyi yaramaz iş, dadmadığı içki qalmadı. Nəhayət, ona nəsihət verib dedim:

– Oğul, adamın gəliri çaya, eyş-işrət isə dəyirmana oxşar. Yalnız o adam kefi istədiyi kimi xərcləyə bilər ki, kifayət qədər gəliri olsun.

Xərcini az elə, yoxdursa gəlir,
"Dəniz mahnısı"nda belə deyilir:
"Yağmasa dağlara əgər yağış, qar,
Bir ilin içində Dəclə quruyar".

– Ağlını başına toplayıb eyş-işrətdən əl çək. Var-dövlətin tükənər, darlığa düşüb peşmançılıq çəkərsən!

Kef məclisində çalğıya qulaq asmaq oğlana xoş gəldiyi üçün sözüm qulağına batmadı, etiraz edərək dedi:

– Bu günün şadlıq və sevincini sabahkı qəm qorxusu ilə puç etməyi ağıllı adamlar bəyənməzlər.

Ş e i r

O varlı-dövlətli bəxtəvərlərin,
Bəd gündən varmıdır qorxusu, bəyəm?
Kefindən əl çəkmə bir anda, dostum,
Sabahkı gün üçün bu gün çəkmə qəm.

Bundan əlavə, mən səxavət taxtında oturub, mərhəmət kəmərini belimə bağlamışam və əliaçıqlıqda camaat içində şöhrət qazanmışam.

Ş e i r

Kimin səxavətdə çıxdısa adı,
Pulu saxlamağı o bacarmadı,
Elə ki, yaxşı ad qazandı insan,
Kərəm qapısını bağlamaz bir an.

Nəsihət qəbul etmədiyini və mənim isti nəfəsimin onun soyuq dəmirinə təsir etmədiyini gördükdə, öyüd verməkdən əl çəkdim, onunla dostluğu kəsdim və filosofların bu sözünü yerinə yetirdim: "Sən sözünü de, qəbul etməsələr, özləri təqsirkardırlar".



Ş e i r

Sözünə yoxsa da bir qulaq asan,
Sən yenə öyüd ver mərd-mərdana.
Çox çəkməz görərsən döşünə döyən
İlişib düşəndə dara, zindana,
Əlini dizinə vurub söyləyir:
Kaş qulaq asaydım o mərd insana.

Az keçdikdən sonra, necə ki, düşünmüşdüm, elə də oldu. Onu acınacaqlı bir vəziyyətdə gördüm: paltarlarına yamağı yamaq üstündən vurub, bir loğma çörək üçün dilənirdi. Əhvalına ürəyim yandı, bu halda onu danlamağı və yaralı ürəyinə duz səpməyi insafsızlıq hesab edib öz-özümə dedim:

Ş e i r

Yaramaz bir hərif məstlik zamanı,
Düşünməz ki, sabah qalacaq darda.
Ağaclar baharda meyvə versə də,
Qış fəsli lüt qalar soyuqda, qarda.

**6. Hekayət**

Bir şah oğlunu bir ədibə tapşırıb dedi:

– Bunu öz övladın kimi tərbiyə et!

Ədib baş əyib hökmdarın tapşırığını qəbul etdi. O, uzun müddət oğlanın tərbiyəsilə məşğul olub, səy göstərdisə də, heç bir fayda vermədi. Ədibin öz oğlanları isə elm və bilikdə şöhrət tapdılar. Şah ədibə qəzəblənib dedi:

– Vədə xilaf çıxıb, tapşırığımı sədaqətlə yerinə yetirmədin. Ədib dedi:

– Böyük hökmdar bilməlidir ki, tərbiyə eyni idi, qabiliyyət isə müxtəlif!

Ş e i r

Doğrudur ki, daşdan çıxar cəvahir,
Lakin hər daşda bil cəvahir olmaz.
Hər yerdən görünər Süheyl[105] ulduzu,
Lakin hər məkanda təsir bir olmaz.

**7. Hekayət**

Bir mürşüdün öz müridinə belə dediyini eşitdim:

– Əgər insan övladı ruziyə bağlı olduğu qədər ruzi verənə bağlı olsaydı, mövqeyi mələklərdən üstün olardı.

Şeir

Allah səni unutmadı öz ananın bətnində
Ki, huşsuz və hissiz olan bir nütfəydin o zaman.
Belə yazıq vəziyyətdə qaranlıq bir guşədə.
Əta etdi sənə: əqil, nitq, şüur, camal, can.
Əllərində yaratdı o xoş düzülmüş on barmaq,
İki güclü qol düzəldib asdı iki yanından.
Ey hümmətsiz, indi necə xəyalına gəlir ki,
Gün keçdikcə unudacaq səni böyük yaradan.

**8. Hekayət**

Gördüm bir ərəb oğluna hey belə deyir: – Ey oğul, qiyamət günü səndən soruşacaqlar əməlin nədir, soruşmayacaqlar atan kimdir.

Şeir

Kəbə örtüyünü öpməyirlər ki,
Onu toxumuşdur bir ipək qurdu.
Bəlkə o, bir əziz kəslə oturub,
Onun şərəfilə möhtərəm oldu.

**9. Hekayət**

Alimlərin yazdığına görə əqrəbin doğumu başqa heyvanların doğumuna oxşamaz. Əqrəbin balası anasının qarnını deşib bayıra çıxar. Buna görə onların yuvasından əqrəb qabıqları tapılar.

Bir gün bir hökmdarın yanında həmin məsələ haqqında danışdım. O dedi:

– Mən də bu sözün doğruluğuna inanıram, şübhəsiz, bu cür də olmalıdır, çünki ancaq kiçiklikdə anası ilə belə rəftar edən, böyüklükdə belə bir şöhrət tapar və hörmət qazanar.



Şeir

Oğluna vəsiyyət edərkən ata,
Dedi, gəl unutma bu nəsihəti,
Kim sadiq olmasa öz nəsəbinə,
Nə bir dostu olar, nə də hörməti.

**10. Hekayət**

Yoxsul bir dərvişin arvadı hamilə idi, doğum vaxtına az qalırdı, dərvişin isə ömründə uşağı olmamışdı. Dedi:

– Əgər Allah mənə oğul versə, əynimdəki xirqədən başqa nəyim varsa, hamısını fəqir-füqəraya bağışlayacağam.

Təsadüfən oğlu oldu, əhdini yerinə yetirib var-yoxunu dərvişlərə payladı.

Şam səfərindən qayıdarkən yolum o kənddən düşdü, kefini soruşdum, dedilər zindandadır. Səbəbini bilmək istədim. Dedilər: – Oğlu şərab içibdir, dava edibdir, kimin isə qanın töküb qaçıbdır. Onun əvəzinə atasının boynuna kəndir salıb, ayağına zəncir vurub aparıblar.

Dedim: – Bu bəlanı o özü dua edib, Allahdan istəmişdir.

Şeir

Ey əqli başında olan kişi bil,
Hamilə qadınlar doğsalar ilan,
Cəmiyyət gözündə daha da xoşdur,
Yaramaz, naxələf övlad doğmaqdan.

**11. Hekayət**

Uşaq idim, bir böyükdən hədd-buluğ haqqında soruşdum. Dedi:

– Kitablarda oxumuşam ki, üç əlaməti var: biri on beş yaşına çatmaq, ikincisi, şeytani olmaq, üçüncüsü, buğ yeri tərləmək. Amma həqiqətdə bir nişanı vardır, o da öz nəfsinin xeyrindən çox, Allah rizasına çalışmağıdır. Kimdə bu xüsusiyyət yoxdursa, ağıllı adamlar onu hədd-buluğa çatmış, kəmalə yetmiş hesab edə bilməzlər.

Şeir

Bir qətrə su ana bətnində qırx gün,
Qaldıqda surətdə adama bənzər.

Qırx yaşlının əqli, ədəbi yoxsa,
Yaraşmaz ki, ona adam deyələr.

Şeir

Zənn etmə ki, surətdədir, qamətdədir adamlıq,
Cavanmərdlik, səxavətdir adamlığa əlamət.
Şübhəsiz ki, mahir rəssam al və yaşıl rəngilə
Divarlarda çəkə bilər adama bənzər surət.
Nə fərqi var divardakı bu nəqş ilə insanın,
Əgər onda yoxdursa bir ehsan, hünər, fəzilət.
Hünər deyil bu dünyanı ələ almaq əzizim,
Hünərin var bir ürəyi ələ alıb, qıl rahət.

**12. Hekayət**

Bir dəfə Həcc zəvvarları arasında dalaşma düşdü, mən də piyadalar içərisində idim, əməlli-başlı vuruşurduq, bir-birimizi kötəkləyib baş-gözünə vururduq, söyüş söyürdük, ağzımıza gələni deyir, əlimizə keçəni döyürdük. Eşitdim dəvə üstə kəcavənin bir gözündə oturan adam o biri gözündə oturana belə deyirdi:

– Qəribə şeydir, piyada şahmat xanasında gedib başa çatanda vəzir, yəni əvvəlkindən yaxşı olur, bu Həcc piyadaları Məkkəyə çatanda niyə belə dəli olublar?!.

Şeir

Bu sözümü söyləyiniz o zülmkar hacıya,
Ki, zülmlə soyur xalqın dərisini yanmadan,
Özü deyil, hacı onun dəvəsidir belə ki,
O zavallı tikan yeyib, yük daşımış hər zaman.

**13. Hekayət**

Bir hindli məşəl atıb-tutmaq öyrənirdi. Bir arif görüb dedi:
– Sənin ki, evin qəmişdir, bu nə məşğələdir, nə işdir?

Beyt

Yerli hesab etmədiyin sözü demə heç zaman,
Elə cavab vermə ki, o, gətirə bilsin ziyan.



**14. Hekayət**

Bir kişinin gözü ağrıyırdı, baytarın yanına gedib dedi: "Gözümə bir dərman ver!" Baytar heyvanların gözünə çəkdiyi dərmandan onun gözünə çəkdi. Kişi kor oldu. Onlar dalaşıb hakimin yanına getdilər. Hakim dedi:

– Baytarın taqsırı yoxdur. O kişi heyvan olmasaydı baytarın yanına getməzdi. Həmin hekayəni deməkdən məqsədim bunu başa salmaqdır ki, naşı adama böyük iş tapşıran axırda peşman olar və ağıllılar yanında axmaq sayılar.

Heç zaman iş bilən, ağıllı usta
Bədəslə ən mühüm vəzifə verməz.
Toxucu olsa da həsir toxuyan,
Lakin ipək işi ona verilməz.

**15. Hekayət**

Böyük ruhani başçılarından birinin oğlu öldü. Soruşdular:
– Qəbir daşının üstünə nə yazaq?

Dedi: – Quran ayələrinin izzət və hörməti daha yüksək olduğundan rəva deyil ki, belə yerlərə yazılsın, çünki zaman keçdikcə pozulub gedər, camaat onu tapdalayıb keçər, ya da üzərində bir it xarablıq edər. Əgər bir şey yazmaq zəruridirsə, bu beyt bəsdir:

Şeir

Bostanda bitəndə yamyaşıl otlar,
Şadlıqdan ürəyim əsərdi tir-tir.
Gəl ey dost, indi gör bahar çağında,
Necə qəbrim üstə yaşıl ot bitir.

**16. Hekayət**

Bir zahid bir dövlətlinin yanından keçərkən, gördü ki, bir qulun əl-ayağın bərk bağlayıb döyür. Dedi: – Oğlum, Allah sənin kimi bir məxluqu sənin əlində əsir edib, sənə üstünlük vermişdir. Xudavəndi-aləmə şükür et və onu bu qədər incitmə. Yaxşı deyil ki, sabah qiyamət günü o, üzü ağ olsun, sən üzü qara.

Şeir

Sən çox da qulunu qəzəblə söymə,
Qəlbini incitmə, özünü döymə.
Sən onu almısan on dirəm pula,
Can verməmisən ki, o yazıq qula.
Nə qədər duracaq bu zor, bu rəftar,
Unutma ki, səndən böyük Allah var.
Ey Aquş və Arslan[106] atası olan,
Sən də öz ağanı çıxarma yaddan.

**Hədis:** Peyğəmbər səlləllahü əleyhdən eşidiblər, deyib ki, qiyaməti günü ən böyük dərd odur ki, əməli saleh qul behiştə, onun bəd əməl ağası isə cəhənnəmə gedə.

Şeir

Gücsüzü, tabei çox incitmə sən,
Qəzəbdə, hiddətdə eyləmə ifrat.
Hesab çəkiləndə rüsvayçılıqdır
Ki, xacə zəncirdə, qul isə azad.

**17. Hekayət**

Bir dəfə Bəlxdən səfərə çıxarkən şamlılarla yoldaş oldum. Yollar qorxulu idi. Bu zaman döyüşkən, ox atan, silah oynadan bir gənc pəhləvan da bizə qoşuldu. O elə güclü idi ki, on adam onun kamanının yayını çəkə bilməz, məşhur pəhləvanlar arxasını yerə vura bilməzdi. Lakin buna baxmayaraq, o, naz-nemət içərisində böyümüş, ömründə nə səfərə çıxmış, nə çətinlik görmüş, nə igidlərin gur səsi qulağında cingildəmiş, nə də süvarilərin qılınc parıltısı gözünü qamaşdırmışdı.

Beyt

O heç vaxt düşmənə əsir olmamış.
Üstünə yağmamış oxlardan yağış.

Xülasə, biz onunla birlikdə sürətlə gedirdik. O, gücünü göstərərək qabağına çıxan köhnə divarı bir yumruqla yıxır, qocaman ağacı kökündən çıxarıb qürurla deyirdi:



Beyt

Fil hanı ta görsün pəhləvan nədir,
Şir hanı ta görsün qəhrəman nədir?!

Qəflətən bir daşın arxasından iki hindli çıxıb bizi öldürmək istədi. Onlardan birinin əlində çomaq, o birininkində toxmaq var idi. Gəncə dedim:

– Nəyi gözləyirsən?

Beyt

Zorunu, gücünü göstər bunlara!
Düşmən öz xoşuyla gəlmiş məzara!

Gördüm kaman oğlanın əlindən sürüşdü, qorxudan canına titrətmə düşdü.

Beyt

Sivri ox ilə tükü yara bilən hər bir kəs
Vuruşda pəhləvanla üz-üzə dura bilməz.

Başqa çarə tapmadıq, silah və paltarımızı verib canımızı xilas etdik.

Şeir

Göndər çətin işlərə iş bilən bir insanı
Ki, kəməndə salsın o, qəzəblənmiş aslanı,
Cavan əgər fil kimi gücə malik olsa da,
Düşmən hücum edəndə qorxuya düşər canı,
Mahir döyüşçü bilər döyüş nədir, vuruş nə
Necə ki, alim bilər şəriəti, Quranı.

**18. Hekayət**

Gördüm bir dövlətli oğlu atasının qəbri üstə oturmuş, bir kasıb uşağı ilə mübahisəyə qızışmış və deyir:

– Mənim atamın qəbri ağırdır, üstü yazılıdır, ətrafı bəzəklidir, daşı mərmərdəndir, torpağı ənbərdəndir, kənarına mina səpiblər, qırağına

kaşı döşəyiblər. Sənin atanın goru nəyə oxşayır, üstünə iki qarış torpaq töküblər, vəssalam.

Kasıb uşağı dedi:

– Sənin atan bu ağır daşların altından tərpənənə qədər mənim dədəm behiştdə olar.

B e y t

Ulağa yükü az çatsalar əgər,
Şübhəsiz yolunu asudə gedər.

Ş e i r

Ömründə çox əzab görən, aclıq çəkən bir kasıb,
Yəqinimdir ölümündən düşməyəcək dəhşətə.
Lakin dövlət, naz-nemətə öyrənmiş hər bəxtəvər,
Ölüm vaxtı, şübhəsiz ki, gələcəkdir vəhşətə.
Məlumdur ki, dar məhbəsdən azad olan bir əsir
Həbsə gedən bir əmirdən çox layiqdir hörmətə.

**19. Hekayət**

Böyüklərdən birindən soruşdular:

– Nə üçün hədisdə deyilmişdir ki, sənin ən birinci düşmənin iki böyrün arasında yerləşmiş nəfsindir?

Dedi:

– Ona görə ki, hər hansı düşmənə yaxşılıq etsən dost olar, nəfsə güzəştə getsən, düşmənçiliyi artar.

Ş e i r

İnsan az yeməklə mələyə dönər,
Heyvantək yesə o fərqlənməz daşdan.
Kimi razı salsan qul olar sənə,
Nəfsi razı salsan əsir olarsan.



## VARLILIQ VƏ YOXSULLUQ HAQQINDA SƏDİNİN MÜDDƏİ İLƏ MÜBAHİSƏSİ

Zahirdə dərvişə oxşayan, lakin batində dərviş olmayan bir adamın bir məclisdə oturub nalayiq-nalayiq danışdığını, şikayət dəftərini açıb varlıları məzəmmət etdiyini gördüm; sözü o yerə çatdırmışdı ki, deyirdi: yoxsulların qüdrət əli bağlanmış, varlıların isə səxavət ayaqları sınmışdır.

B e y t

Kərəmi olanın dirəmi yoxdur,
Dirəmi olanın kərəmi yoxdur.

Böyüklərin neməti ilə böyüdüyüm üçün bu söz mənə ağır gəldi. Dedim: – Dostum, varlılar yoxsulların xəzinəsi, zahidlərin dəfinəsi, zəvvarların pənahgahı, səyyahların və qonaqların mehmannəvazıdırlar. Onlar başqalarının rahatlığı üçün ağır yükə qatlaşar, xidmətçiləri və qulluqçuları yeyib doyduqdan sonra özləri taama əl atarlar, artıq qalanlarını dul qadınlara, qohum-qardaşa, qonum-qonşuya paylarlar.

Ş e i r

Dövlətlidə hər şey vardır, vəqf, nəzir, qonaqlıq,
Zəkat, fitrə, iltifat, qurbanlıq, bir də ehsan.
Yazıq, sənin nəyin var, tay olasan onlara,
İki rükət namazın, onu da ağ qılırsan.

Səxavət və ibadətə gəldikdə isə, o da dövlətlilər üçün tez müyəssər olar, çünki xüms-zəkat vermək üçün var-dövlət onlarda, razü-niyaz etmək üçün təmiz paltar və boş vaxt onlardadır. Ağıllı adamlar bilirlər ki, ziyarətin gücü ləziz yeməklərdə, ibadətin duzu təmiz geyməklərdədir. Boş mədədə nə qüvvət, boş əldə nə mürüvvət, yalın ayaqda nə seyr, ac qarında nə xeyir ola bilər?!

Ş e i r

Gecəni narahat yatar o kəs ki,
Sabahın xərcindən çəkir xəcalət.
Qarınca yay vaxtı çalışıb yığar
Ki, qışda yaşasın asudə, rahat.

Aydındır ki, aclıq ilə rahatlıq, yoxsulluq ilə şadlıq bir yerə sığa bilməz. Biri axşam yeməyi yeyib şam namazı qılır, biri: "Allah mənə axşam yeməyi yetir" – deyə üzüqoylu yıxılır. Bunları necə bir-birinə bənzətmək olar?!

B e y t

Dövlətli edirkən haqqa ibadət,
Acın qəlbi çəkir çörəyə həsrət.

Əlbəttə ki, varlıların ibadəti tez qəbul edilər, çünki onların hər şeyi hazır, qəlbi rahat, ürəkləri asudədir; nə fikirləri dağınıq, nə xəyalları pərakəndədir. Varlıların məişəti xoş keçdiyindən onlar ibadəti də təmənnasız edirlər. Ərəb deyər: "Allah, məni ağır yoxsulluqdan, mərdimazar qonşuluqdan özün saxla!" Hədisdə deyilib ki, "Yoxsulluq hər iki dünyada üzü qaralıqdır".

Dedi: – Eşitməmisənmi peyğəmbər əleyhissəlam buyurubdur: "Yoxsulluq mənim fəxrimdir". Dedim: – Sus, peyğəmbər əleyhissəlamin işarəsi o adamlara aiddir ki, onlar qənaətə qane olub, özlərini qəza oxuna qurban verirlər, bunların haqqında deyilmişdir ki, dərviş paltarı geyib, sədəqə ilə alver edirlər.

Ş e i r

İçi boş təbil tək ey hay-küy salan,
Əlində nəyin var çıxarkən yola
Kişisən xalqdan tamahını kəs,
Təsbehi çevirmə boş sağa-sola.

Mərifətsiz dərviş o qədər deyinər ki, axırda küfr deməyə başlar. Odur deyiblər ki, yoxsulluq aparıb axırda dinsizliyə çıxarar. Lütü yoxdan geyindirmək mümkün olmaz, biz hara, dövlətlilər hara, verən əl ilə diləyən əlin nə müqayisəsi?! Görnürsənmi xudavəndi-aləm Quranda behişt əhlinin nemətlərindən danışarkən deyir ki, onların ruzusu hazırdır. Onu da bilməlisən ki, dolanacaq hayında olan əxlaq qayğısına qala bilməz, onun rahatlığı ruzi üzüyünün arxasında olar.

B e y t

Hər susuz yatarkən yuxuda bişək,
Bütün kainatı çeşmə görəcək.



Mən bu sözləri deyirdim ki, dərvişin səbr kasası daşdı, özünü saxlaya bilməyib iti dilini işə saldı, qılınc çəkdi, qalxan qaldırdı, fəsahət atını səfahət meydanında çapdırıb mənim üstümə hücuma keçdi və dedi:

– Sən varlıları o qədər təriflədin, onlar haqqında o qədər cəfəngiyat danışdın, güman etmək olar ki, onlar hər bir dərdin dərmanı, ya da nemət kanıdırlar. Halbuki onlar lovğa, xudpəsənd, dövlətmənd, xalqdan qaçan, mal-nemət düşkünü, rütbə-sərvət vurğunu olan bir ovuc adamlardır ki, onlar ağızlarını xeyrə açmaz, xoş nəzərlə heç kəsə baxmazlar. Onlar yoxsulları başıboş axmaq hesab edirlər, alimləri gözüac, gəda təbiətli qələmə verirlər. Dövlətlərinin zahiri şöhrətinə, rütbələrinin xəyalı hörmətinə arxalanaraq hamıdan yuxarıda oturar, özlərini hamıdan yuxarı tutarlar. Başqalarına baş əyib birinci salam verməyi özlərinə ar bilərlər. Onlar bilmirlər ki, ağıllı adamlar deyiblər: "Kimin səxavəti az, sərvəti çoxdursa, o zahirdə varlı, əslində isə yoxsuldur".

B e y t

Bir hünərsiz dövlətilə rişxənd etsə alimə
Onu eşşək quşqunundan daha alçaq zənn elə.

Dedim: – Bunları çox da məzəmmət etmə, kərəm sahibidirlər.

Dedi: – Səhv edirsən, dirəm aşiqidirlər. Nə olsun ki, yağmurlu buluddurlar, yağmırlar; nurlu günəş mənbəyidirlər, işıq saçmırlar; nemət atına miniblər, lakin çapmırlar; allah xeyrinə bir qədəm atmaz, başa qaxmadan, üzə vurmadan bir dirəm verməzlər. Əzab – əziyyətlə mal toplayar, acgözlüklə qoruyub saxlar, sonra isə həsrətlə qoyub gedərlər.

Huşyar adamlar deyiblər: "Xəsisin malı o vaxt torpaqdan çıxar ki, özü torpağa gedər".

B e y t

Birisi zəhmətlə toplayar nemət
Başqası xərcləyər çəkmədən zəhmət.

Dedim: – Sən ona görə nemət sahiblərini xəsis adlandırırsan ki, özün gözüacsan, yoxsa gözütox adamlara xəsis ilə səxavətli eyni görünər. Qızılı məhək daşı tanıyar, xəsisi dilənçi.

Cavab verdi: – Mən bunu təcrübədən bilirəm, onlar qapılarında elə kobud, qaba, tərbiyəsiz, güclü, mərhəmətsiz adamlar saxlayırlar ki, onlar qapıya yanaşan düz adamların döşündən vurub geri qaytarsınlar, möhtərəm adamlara hörmətsizlik edib yola salsınlar, fəqir-füqəranı döyüb bayıra atsınlar və desinlər: "Rədd olun, evdə adam yoxdur". Hər halda belə deməkdə səhv etmirlər.

B e y t

Bir evdə ki yoxdur ağıl, himmət, tədbir, xoş rəftar,
"Bu evdə bir adam yoxdur" desən əgər yeri var.

Dedim: – Çünki borc istəyənlərin əlindən cana gəliblər, dilənçilərin dilindən fəğana. Adamın ağlına batmır ki, səhraların qumu dürr olsa da, gədaların gözü doysun.

B e y t

Tamahkarın gözü dünyada doymaz,
Necə ki, şəbnəmlə bir quyu dolmaz.

Harada çətinlik çəkmiş, acılıq dadmış adama rast gəlirsən, görürsən ki, özünü oda, suya vurur, təhlükəli işlərə əl atır, nəticəsindən qorxmur, halala, harama fərq qoymur.

Ş e i r

Bir itin başına dəysə bir kəsək?
Sevinib kəsəyi sümük zənn edər.
İki şəxs çiynində meyit aparsa,
Tüfeyli pay bilib ardınca gedər.

Varlılara gəldikdə isə Allahın mərhəmət nəzəri onların üzərindən əskik olmaz, halalı harama qarışdırmağa qoymaz. Fərz edək ki, mən bunları sənə söyləməmiş, fikirlərimi sübut üçün dəlil gətirməmişəm. Lakin xahiş edirəm düzünü deyəsən, heç görübsənmi yoxsulluqdan səvayı özgə bir səbəbə görə bir adamın qolu dalına bağlansın, bir köməksiz, yazıq həbsə alınsın, bir məsum qızın ismət pərdəsi yırtılsın, ya birinin əli biləyindən vurulsun?! Çox zaman şir ürəkli mərd adamlar



ehtiyac üzündən lağımlarda ələ keçir, ayaqları sındırılıb aşıq sümükləri ipə keçirilir.

Aydın məsələdir ki, bir yoxsulun ehtirası coşsa, şəhvətini söndürmək istəsə və evlənmək imkanı olmasa, mütləq zinaya yol verəcək, cinayət edəcəkdir, çünki nəfs və həvəs ayrılmaz yoldaşdır, yəni bir qarında bəslənmiş əkiz qardaşdır. Nə qədər bu oyaqdır, o biri də ayaq üstə duracaqdır.

Nağıl edirlər ki, bir dərvişi bir cavanla pis iş üstdə tutdular, rüsvayçılıq bir yana dursun, daşqalaq qorxusu vardı, yalvarıb deyirdi: – Ay müsəlmanlar, rəhm edin, varım yoxdur evlənəm, taqətim yoxdur səbr edəm. Çarəm nədir, islam dinində də ki, rahiblik[107] qadağandır.

Dövlətlilərin ürəklərinin sakit və könüllərinin rahat olmasının bir səbəbi də odur ki, hər gecə bir sənəmi qoynuna salır, hər gün bir gözəli bağrına basır. Deməli:

M i s r a

Hər səhər yenidən bəyliyə başlar.

Səhər şəfəqi onun xoşbəxtliyindən vəcdə gəlib qızarır, sərv ağacı xəcalətindən aşağı baxmağa utanır.

B e y t

Batırıb əlini dostun qanına,
Fındıqça qoymuşdur dırnaqlarına.

Belə gözəllər ola-ola varlıların günaha batmaları, ya başqa çirkin işə əl atmaları inandırıcı deyildir.

B e y t

Bir könül ki, əsir etmiş behişt hurilərini
Qəlbi qarət olmuşlara əhəmiyyət verərmi?

B e y t

Əlində xurması olan, bir nəfər,
Bir də daş atarmı ağaca məgər?

Əliboşların çoxu natəmiz adlarını günah çirkabına bulayar. Aclar isə çörək oğurlamağa belə məcbur olarlar.

### Beyt

Yırtıcı it ət tapanda artar şövqi, həvəsi,
Sormaz Dəccal eşşəyidir bu, ya Saleh dəvəsi[108].

Çox görünüb ki, ən namuslu adamlar kasıblıq üzündən pis işlərə qoşulmuş, xalq içində yaxşı adını itirərək bədnam olmuşlar.

### Beyt

Pəhrizə olarmı acın imkanı?
Yoxsulun deyərlər, olmaz imanı.

Hatəmi-Tai səhrada yaşardı. Şəhərdə olsaydı dilənçilərin əlindən aciz qalardı, əynindəki paltarı tikə-tikə olardı.

Cavab verdi: – Yox, mən varlıların halına acıyıram. Dedim: – Yox, varlarına həsrət çəkirsən.

Biz hələ uzun müddət belə sərt danışdıq, hücum edən hər piyadəsini dəf etməyə çalışdım, harda "şah" dedisə, "vəzirlə" qarşısını aldım. Nəhayət, mərifət xəzinəsində nə qədər sözü vardısa, hamısını dedi, höcət heybəsində nə qədər oxu vardısa, hamısını atdı.

### Şeir

Fəsahət əhlinin içindən rədd et,
O kəs ki, şişirdir özünü hər an.
Din əhli, mərifət sənət sahibi,
Ona öz yerini verməli nişan.

Axırda dəlili qalmadı, zəlil etdim. Əlin işə saldı, söyüş söyməyə başladı. Adətən cahil adamların peşəsi belədir, müxalifinə söz ilə bata bilməyəndə, düşmənçiliyə əl atırlar. Büttəraş Azər də belə etmişdi, sözdə oğluna üstün gələ bilmədiyi üçün davaya başlamış və demişdi: "Sözünü geri götürməsən, səni daşla vuracağam".

Məni söydü, ondan da ağırını dedim, yaxamdan yapışdı, çənəsindən tutdum.



### Şeir

Mən onu qovuram, o qovur məni,
Xalq bizə rişxəndlə gülür arxadan.
Bizim sözümüzü eşidənlərin,
Barmağı ağzında qalmışdır heyran.

Müxtəsər, mürafiə üçün qazının yanına getdik, ədalətlə nə deyərsə razılaşacağımızı qət etdik. Dedik: qoy müsəlman hakimi bu məsələni həll etsin, varlılarla yoxsullar arasındakı fərqi şərh etsin.

Qazı diqqətlə üzümüzə baxdı, ciddiyyətlə sözümüzə qulaq asdı. Sonra dərin fikrə getdi. Bir azdan sonra başını qaldırıb dedi:

– Ey varlıları tərifləyib, yoxsulları təhqir edən şəxs, bilməlisən ki, gül tikansız, xəzinə ilansız ola bilməz, harda şərab var, orda məst də olacaqdır, harda sədəf var, orda nəhəng də olacaqdır. Dünyanın şirin ləzzəti dalında ölümün acı şərbəti durmuşdur, behişt nemətləri qarşısında Məkkarə sədləri qurulmuşdur.

### Beyt

Dostu sevən dözməlidir sitəm etsə də əğyar,
Xəznə-ilan, gül və tikan, fərəh-fəğan bir olar.

Görmürsənmi bağda həm salxım söyüd olur, həm də quru çubuq. Eləcə də varlılar içərisində şükür edənlər olduğu kimi, küfr edənlər də vardır. Yoxsullar içərisində səbr edənlər olduğu kimi, diltəng olanlar da vardır.

### Beyt

Hər bir şeh damlası dürr olsa əgər,
Bazarı qığ kimi doldurar gövhər.

Allaha o varlılar yaxındır ki, dərviş təbiət olsunlar, o yoxsullar yaxındır ki, varlı xislət olsunlar.

Varlıların ən böyüyü odur ki, yoxsulların halına qalsın, yoxsulların da ən yaxşısı odur ki, varlıların qapısını az açsın. "Allaha təvəkkül" ilə yaşayanların ruzisi çatacaqdır.

Sonra qazı məzəmmət nəzərlərini müddəiyə tərəf çevirib dedi:

– Ey deyən ki, varlıların başı qarışıqdır, işləri səhv, peşələri əyyaşlıqdır. Doğru deyirsən, beləleri vardır, onların ağlı kəm, mürüvvəti azdır, əllərinə keçən nemətin qədrini bilməzlər, oğurlayar, gizlədər, özləri yeməz, başqalarına da verməzlər. Fərz edək ki, birdən quraqlıq olsa, ya Nuhun tufanı[109] qopsa, onlar öz varlarına arxayın olub yoxsulların halına qalmazlar və Allahdan qorxmayıb deyərlər:

Beyt

Başqası yoxluqdan olsa da həlak,
Biz ördək kimiyik tufandan nə bak*?!

Beyt

Dəvə üstə kəcavədə asudəcə oturan,
Bir arvadın nə vecinə quma batmış bir insan.

Beyt

Alçaqlar canını xilas edən dəm,
Deyərlər bizə nə batsa da aləm.

Bəli, bu dediyim kimiləri vardır. Lakin ehsan verən, dua oxuyan, həm bu dünya, həm axirət hayına qalanları da yox deyildir. Məsələn, dünya üzünün adil şahı, qələbələr və zəfərlər hakimi, islam dininin hamisi, Süleyman mülkünün varisi, zəmanə şahlarının ən ədalətlisi Müzəffərəddin Atabəy Əbubəkr ibn Səd ibn Zənginin (Allah onun ömrünü uzun, bayraqlarını zəfərli etsin) bəndələri bu qəbildəndir.

Şeir

Bir ata oğluna onu etmədi
Ki, sən səxavətlə etdin insana,
Allah əvəzində səni qaldırdı,
Hökmüran eylədi bütün cahana.

Qazı sözü bu dərəcəyə çatdırdıqda, bizdən daha artıq mübaliğə atını fəsahət meydanında çapdırdıqda yürütdüyü mühakimə, çıxardığı

* Bak – qorxu



hökmlə razılaşmalı olduq. Aramızda olub-keçənləri unutduq. Bir-birimizə baş əyib salam verdik, dalaşmağı barışmaqla əvəz etdik. Qucaqlaşıb öpüşdük, fitnə yatdı, düşmənçilik aradan qalxdı, sülh yarandı, söhbətimiz bu sözlə tamamlandı:

Şeir

Ey kasıb, dövrandan etmə şikayət,
Əgər bədbəxt olub, bədbəxt ölsən də.
Ey varlı xoşbəxtsən, həm ye, həm bəxş et,
Bu dünya səndədir, o dünya səndə.

VIII FƏSİL

## SÖHBƏT QAYDALARI HAQQINDA

(*Hikmət və nəsihətlər*)

**Hikmət**. Mal-dövlət yaşamaq üçündür, yaşamaq mal-dövlət yığmaq üçün deyil.

Ağıllı bir adamdan soruşdular:

– Xoşbəxt kimdir, bədbəxt kim?

Dedi:

– Xoşbəxt odur ki, əkər – yeyər, bədbəxt odur ki, qoyub – gedər.

Beyt

Namaz qılma o heçə ki, heç bir xeyir demədi,
Ömrü boyu ehtirasla mal topladı, yemədi.

**Hədis**. Musa əleyhissəlam Qaruna nəsihət edib deyirdi: – Başqalarına yaxşılıq elə, necə ki, Allah sənə yaxşılıq edibdir. Eşitmədi, aqibətin eşitdin.

Şeir

O adam ki, dinar, dirəm ilə xeyir görmədi,
Dinar, dirəm üstə başı getdi əldən, nəhayət.
İstəyirsən xoş olasan sən hər iki dünyada,
Xəlqə kərəm et ki, sənə Allah etmiş kəramət.

**Nəsihət.** Ərəblər deyirlər: bağışla, lakin minnət qoyma, çünki faydası özünə qayıdacaqdır.

Şeir

Kəramət ağacı hara düşdüsə,
Boy atıb yüksəldi fələklərəcən.
Əgər istəyirsən bar verə daim,
Minnət ərəsilə onu kəsmə sən.



Şeir

Allaha şükr elə ki, fayda vardır
Onun baxışında, fəzilətində,
Şaha minnət qoyma xidmətinlə, bil
Səni o saxlamış öz xidmətində.

**Hikmət**. İki adam havayı zəhmət çəkib, faydasız əmək sərf edər: biri yığıb yeməyən, o biri bilib etməyən.

Şeir

Biliyin olsa da bir ümman qədər,
Nadansan əməlin olmasa əgər,
Eşşəyə yüklənsə bir neçə kitab,
Nə alim olar o, nə də süxənvər.
Başı boş o yazıq heyvan nə bilsin,
Dalında odundur, ya kitab-dəftər.

**Nəsihət**. Elm əqidəli olmaq üçündür, dünya malı yığmaq üçün deyildir.

Beyt

Kim satsa biliyi, məsləki, dini,
Elə bil odlamış öz xirmənini.

**Hikmət**. Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər.

Beyt

Faydasız keçirsə ömrünü insan,
Qızılı tullayar bir şey almadan.

**Hikmət**. Ölkə ağıllı adamlarla gözəllənər, din pak adamlarla möhkəmlənər.

Şahlar alimlərin məsləhətinə daha çox möhtacdır, nəinki alimlər şahların mərhəmətinə.

Şeir

Ey padişah, əgər məndən istəyirsən nəsihət,
Bu mənalı sözlərimi sən həmişə sal yada:
İşi ancaq alimlərə tapşır sən əl-əlbət
Hərçənd alim işə möhtac deyildir heç dünyada.

Üç şey əbədi yaşamaz: Mal ticarətsiz, elm mübahisəsiz və hökmdar siyasətsiz...

Pislərə rəhm edib, yaxşıları incitmək – zalimləri bağışlayıb, məzlumlara zülm etməkdir.

Beyt

Xəbisə nə qədər etsən ehtiram,
Sənin dövlətinə qatacaq haram.

**Hikmət**. Padşahların dostluğuna, uşaqların xoşavazlığına etibar yoxdur. Biri riya ilə dəyişilər, biri röya ilə.

Beyt

Min dostlu məşuqə könül vermə sən,
Verəndə ürəyi ayır bədəndən.

**Nəsihət.** Sirrini yoldaşına bildirmə, nə bilirsən bəlkə bir gün düşmən oldu. Düşməninə də çox zərər vurma, bəlkə bir gün dost oldu. Gizlətmək istədiyin sözü ən sədaqətli dostuna belə demə, çünki hər bir dostunun öz dostu, dostunun da öz dostu var...

Şeir

Susmaq çox yaxşıdır, nə ki, sirri sən
Birinə deyərək, "demə" deyəsən.
Suyunu gözündən bağla çeşmənin,
Çünki arx dolarsa, daşacaq yəqin.

Beyt

O söz ki, aşkarda deyə bilməzsən,
Onu gizlində də heç söyləmə sən.



**Nəsihət.** Zəif düşmən tabe olursa, o bunu güclü ola bilmək xatirinə edir. Əgər dostların dostluğuna etibar yoxdursa, düşmənin yaltaqlığına necə etibar etmək olar?! Kiçik düşmənə etinasız baxmaq, xırda qığılcıma məhəl qoymamaq kimidir.

Şeir

Əlinə keçəntək düşməni öldür,
Çünki od yüksəlsə odlanar cahan.
Qoyma düşməni heç oxa əl atsın,
Onu tik ox ilə o əl açmadan.

**Nəsihət.** İki düşmən arasında elə söz danış ki, onlar dostlaşanda utanmayasan!

Şeir

İki şəxsin arasında savaş bənzər bir oda,
Odun tökər od üstünə söz gəzdirən o bədbəxt.
Vuruşanlar çox çəkməz ki, barışarlar yenidən,
O naxələf ortalıqda qalıb çəkər xəcalət.
Anlamazdır iki adam arasına od salan,
Çünki özü bu atəşdə yanacaqdır, nəhayət.

Şeir

Sözünü dostuna yavaşca danış,
Ta qulaq asmasın qan içən əğyar.
Divar qarşısında söz deyən zaman,
Bil ki, divarın da qulaqları var.

**Hikmət**. Düşmənlə barışanın məqsədi dostlarla savaşmaqdır.

Beyt

Ey ağıl sahibi o dostdan yan dur
Ki, daim düşmənlə oturub-durur.

**Nəsihət.** Bir işə başlarkən tərəddüd etsən az zərərli tərəfini qəbul et.

Beyt

Sərt danışma başqası deyərsə xoş söz sənə,
Dava cavabı vermə sülh qapısın döyənə.

**Nəsihət.** Qızıl ilə düzələn işdə, canı təhlükəyə salmaq ağılsızlıqdır.

Beyt

Elə ki, əl üzdün bütün ümiddən,
Haqlısan qılınca əl atanda sən.

**Nəsihət.** Zəif düşmənə rəhmin gəlməsin, güclənsə sənə rəhm etməyəcəkdir.

Beyt

Düşməni zəif görcək qürrələnmə heç zaman,
Hər sümükdə bir məğz var, hər köynəkdə bir cavan.

**Nəsihət.** Kim pis adamı öldürsə, xalqı onun bəlasından qurtarar, onu isə Allahın əzabından.

Şeir

Yaxşılıq çox yaxşı sənətdir, amma,
Cəllad yarasına məlhəm qoyma sən.
İlana rəhm edən bilməyir məgər,
Adəm övladına zülm edir həmən.

**Nəsihət**. Düşmənin nəsihətini qəbul etmək xatadırsa, onu eşitmək rəvadır, çünki dediyinin əksinə əməl etdikdə, tamamilə düzgün iş görmüş olarsan!

Şeir

Qaç düşmən dediyi sözlərdən hər an,
Olarsan axırda bil ki, peşiman.
O sənə göstərsə yolu dübbədüz,
Sola dön, o yolu hesab etmə düz.



Hədsiz sərtlik dəhşət yaradar, yersiz mülayimlik hörmət azaldar. Nə elə qaba ol ki, səndən qaçsınlar, nə elə yumşaq ol ki, üzünə qabarsınlar!

Şeir

Adam həm sərt olar, həm də mülayim,
Aqil peşə etməz sərtliyi daim.
Olsan çox mülayim qudurar düşmən,
Sərt olsan düşərsən qədrü qiymətdən.
Çalış həddən artıq özünü öymə,
Həddindən artıq da qəddini əymə!

Şeir

Qoca atasına dedi bir çoban:
– Mənə bir öyüd ver, ey aqil insan!
Dedi: Xeyrxah ol, nə bir o qədər
Ki, qurdlar sürünü eyləsin hədər.

**Hikmət**. İki adam dinin və dövlətin düşmənidir: elmi olmayan hakim, elmi olmayan alim.

Beyt

Olmasın ölkədə elə padişah
Bilməsə ki, ondan böyükdür Allah.

**Nəsihət.** Gərək şah düşmənə elə hiddətlənməsin ki, dostların da inamı qırılsın.

Hirs atəşinin ilk odundan qəzəb sahibi yanar, alovun düşmənə çatıb-çatmaması isə sonraya qalar.

Şeir

Torpaqdan yaranan insan övladı,
Yel kimi təkəbbür göstərməz bir an.
Belə ki, odlusan, təkəbbürlüsən,
Bilmirəm oddansan, ya ki torpaqdan.

Şeir

Biləqanda[110] bir abidlə görüşdüm,
Dedim: mənə bir öyüd ver, et dua.
Dedi: get sən dözümlü ol, torpaqtək,
Biliyini basdır ya da torpağa.

**Hikmət**. Xasiyyəti pis adam elə bir düşmən əlinə keçmişdir ki, hara getsə canını onun çəngindən qurtara bilməyəcəkdir.

Beyt

Bədcins bəla əlindən fələyə qaçsa əgər,
Öz xisləti əlindən yenə də bəla çəkər.

**Nəsihət.** Düşmən qüvvələrini dağılmış görsən, cəm ol, toplanmış görsən, sayıq.

Şeir

Düşmənlər pərişan olduğu zaman,
Dostlarla kef elə, çəkmə dərdü qəm.
Gördün ki, düşmənlər dilbirdir, durma,
Kamanı saz elə, hasarı möhkəm.

**Hikmət**. Tədbirləri baş tutmayanda düşmən dostluq fikrinə düşər və dostluqla elə işlər görər ki, onu heç bir düşmən bacarmaz.

**Nəsihət.** İlanın başını düşmən əlilə əz, hər iki tərəfi xeyirlidir: düşmən qələbə çalarsa, ilanı öldürmüş olarsan, ilan qalib gələrsə, düşməndən qurtararsan!

Beyt

Davada qorx zəif düşməndən hər an,
O, şiri hədələr öldüyü zaman.

**Nəsihət.** Xəbər ürək açan deyilsə, sən sus, başqası desin.

Beyt

Ey bülbül, sən gətir bahar xəbəri,
Qoy bayquş söyləsin pis xəbərləri.



**Nəsihət**. Qəbul edəcəyinə əmin olmayınca, heç kəsin xəyanətini şaha açma, yoxsa öz həyatını təhlükəyə salmış olarsan.

Beyt

Sözünü o zaman söylə ki, yəqin,
Nəticə verəcək sənin sözlərin.

**Nəsihət.** Nəsihətdən dəm vuran adamın özü başqalarının öyüdünə möhtacdır!

Düşmənin sözünə aldanma, məddahın tərifini qulağa alma; biri kələk üçündür, biri çörək! Qoyunu topuğundan püfləyəndə şişdiyi kimi, axmağı da tərifləyəndə şişər!

Şeir

İnanma o məddah şairlərə ki,
Bir zərrə nəfüçün səni mədh edər.
Verməsən ona bir mənfəət, inan,
Eybini sayacaq beş yüz o qədər.

**Hikmət**. Danışana eyib tutan olmasa, danışığı islah olmaz!

Beyt

Öz sözünün lütfünə qürrələnmə bir belə,
Qanmazın boş tərifi və öz bəyənməyinlə.

**Hikmət**. Hər kəsə özü kamallı, övladı camallı görünər!

Lətifə

Yəhudilə müsəlman savaşırdı bir zaman,
Gülmək tutdu məni çox onların əhvalından.
Müsəlman deyirdi ki, qəbaləm yalansa qoy,
Bir yəhudi olum mən, olmasın məndə vicdan.
Yəhudi söyləyirdi Tövrata and içirəm,
Əgər mən yalan desəm, qoy adlanım müsəlman.
Ağıl silinsə əgər bu dünyadan büsbütün,
Yenə bir kəs özünü bilməz cahil və nadan.

**Hikmət**. On adam bir süfrə başında yeyə bilər, iki it bir cəmdək üstə dalaşmaya bilməz! Tamahkara dünyanı da versən doymaz, gözütoxa bir çörək də bəs olar. Mal çoxluğundansa, göz toxluğu yaxşıdır!

Beyt

Bir çörək doldurar bağırsaqları,
Dar gözü doydurmaz dünyanın varı.

Şeir

Ölən zaman atam edib vəsiyyət,
Mənə verdi ancaq bircə nəsihət.
Dedi: Şəhvət oddur, uzaq ol ondan,
Uzaqlaş sən bu cəhənnəm odundan.
Cəhənnəmdə yanmağa tab etməzsən,
Öz səbrinlə su səp ona indidən.

**Nəsihət.** Varlı vaxtında kömək etməyən, yoxsul zamanında kömək görməz.

Beyt

Dünyada ən bədbəxt mərdimazardır,
Dara düşsə hamı ondan bezardır.

Tələsik düzələn şeyin ömrü çox olmaz.

Şeir

Deyirlər ki, qırx ilə Şərq elində,
Qayırırlar bir dənə çin kasası
Mərvdəştdə[111] hər gün yüzü qayrılar,
Görürsən də necə olur bahası?!

Şeir

Yumurtadan çıxan kimi cücə ruzi axtarar,
Bilməz lakin şüur nədir, doğulanda hər insan.
O tez qandı, tez usandı, axır qaldı əli boş



Bu təmkinlə, fəzilətlə şöhrət tapdı anbaan.
Şüşə boldur, buna görə ona qiymət verilməz,
Qiymətlidir inci, çünki olubdur az tapılan.

**Nəsihət.** Hər şey səbrlə düzələr, tələsən tərsə düşər.

Şeir

Gözümlə görmüşəm biyabanda mən,
Təmkinlə yol gedən qaçanı ötdü.
Sürətli səmənd at yoruldu yolda,
Dəvəsə ahəstə mənzilə yetdi.

**Nəsihət.** Nadan üçün susmaqdan yaxşısı yoxdur, lakin əgər o bunu bilsəydi, nadan olmazdı.

Şeir

Sənin ki, kamalın, şüurun yoxdur,
Yaxşıdır dilini salasan bəndə.
Adamı öz dili hörmətdən salar,
Puç qoz da bilinər yüngül gələndə,

Lətifə

Bir əbləh daima çalışırdı ki,
Eşşəyə öyrətsin hərfi təmamən,
Bir ağıllı dedi: – Ay axmaq kişi,
Əl çək bu xam xəyal, sarsaq əməldən,
Heyvan danışmağı səndən öyrənməz,
Barı sən susmağı heyvandan öyrən.

Şeir

Hər kəs çalışsa ki, tez versin cavab,
Çox sözü səhv olar çəkər iztirab,
Ya dil aç, söz söylə huşlu insantək,
Ya da sus danışma dilsiz heyvantək.

**Hikmət**. Kim özündən çox bilənlə mübahisə etsə ki, biliyi meydana çıxsın, biliksizliyi ortaya çıxar.

Beyt

Səndən ağıllılar bir söz deyəndə,
Etiraz eləmə, yaxşı bilsən də.

**Hikmət**. Pislə oturan yaxşılıq qazana bilməz.

Şeir

Mələk divlə oturarsa bir yerdə,
Öyrənəcək hiylə, riya, xəyanət.
Sən pislərdən öyrənməzsən yaxşılıq,
Qurddan olmaz kürk dərisi, nəhayət.

**Nəsihət.** Xalqın gizli eybini açma ki, onları rüsvay edərsən, özünü etibardan salarsan.

Elm oxuyub əməl etməyən adam, yer sürüb toxum səpməyən əkinçiyə bənzər!

İmansız adamda ibadət olmaz, ağılsız adama dövlət yaraşmaz! Savaşda zirəng olan adam mülayim olmaz!

Beyt

Sanma ki, çadrada bir cananədir,
Bəlkə açıb gördün qarı nənədir.

**Hikmət**. Əgər hər gecə Qədr gecəsi olsaydı, onda əsl Qədr gecəsi qədrsiz olardı.

Beyt

Gövhər adlansaydı dünyada hər daş,
Bir qiymət alardı onda gövhər, daş.

**Hikmət**. Hər zahiri göyçək olanın batini də gözəl olmaz. İş təbiətdədir, surətdə deyil.

Şeir

Hər kişinin üzündən bilmək olar bir gündə,
Onun elmi, şüuru yüksəlmiş haralara,



Lakin onun qəlbini bildim deyə fəxr etmə!
İllər lazım özünü bildirsin qəlbi qara.

**Nəsihət.** Böyüklərlə davaya qalxanlar öz qanlarına qəltan olarlar.

Şeir

Özünü çox böyük hesab eyləmə,
Düz demişlər biri iki görər çaş.
Çox çəkməz kəlləni sınmış görərsən.
Qoçla vuruşmağa tab etməz bu baş.

**Hikmət**. Şirlə pəncələşmək, şəmşirlə yumruqlaşmaq ağıllı adamlara yaraşmaz.

Beyt

Məstilə gücünü sınama bir an,
Əlini qoynunda saxlayıb, dayan.

**Nəsihət.** Gücsüz güclüyə igidlik göstərmək istəsə, öz qətlində düşmənə kömək etmiş olar.

Şeir

Ana uşağının nə gücü vardır,
Vuruşsun cəngavər bir pəhləvanla.
Zəif nadanlıqdan qırar qolunu,
Döyüşsə dəmirqol bir qəhrəmanla.

Hər kəs nəsihət eşitməsə, danlaq eşitməlidir.

Beyt

Əgər qulağına girmir nəsihət,
Sus, səni danladığım vəqt!

**Hikmət**. Küçə itlərinin ov itini görməyə gözü olmadığı kimi, hünərsizlərin də hünər sahibini görməyə gözləri olmaz, hay-küy qopa-

rırlar, lakin qabağa gəlməkdən qorxarlar, yəni rəzil adam sənətdə birinə üstün gələ bilmədikdə böhtana başlayıb onun üstə düşər.

### Beyt

Paxıllar çox qeybət etməyi sevər,
Susarlar qarşıda dilli görsələr.

**Hikmət**. Qarın olmasaydı, heç bir quş tora düşməzdi, bəlkə də heç ovçu tor qurmazdı.

Filosoflar gec-gec yeyər, möminlər doymadan çəkilər, zahid qarnı tutunca, gənclər nimçədəki qurtarınca, qocalar tər töküncə, qələndərlər isə mədədə yer, süfrədə çörək qalınca yeyərlər.

### Beyt

İki gün qarınqulu yata bilməz sübhəcən,
Bir gün dolu mədədən, bir gün də boş mədədən.

**Hikmət**. Arvada qulaq asmaq, abdala süfrə açmaq günahdır.

### Beyt

Rəhm etsən qaniçən vəhşi pələngə,
Qoyuna zülm edib salırsan çəngə.

**Hikmət**. Kimin qarşısında öz düşmənidir, öldürməsə, özü öz düşmənidir.

### Beyt

Əldə daş, qıvrılır daş üstə ilan,
Səbr edib düşünməz ağıllı olan.

**Hikmət**. Bəziləri isə bu fikrin əleyhinədirlər. Onlar deyirlər: – Əsiri öldürməkdən, səbr etmək daha məsləhətdir, çünki ixtiyar əldədir, istəsən öldürərsən, istəsən bağışlarsan, lakin tələsik öldürsən, bir də lazım ola bilər, geri qaytara bilməzsən, peşman olarsan.



### Şeir

Dirini öldürmək mümkündür hər an,
Ölünü diriltmək olmaz heç zaman.
Ox atan lazımdır səbr etsin bir az,
Kamandan çıxan ox bir də qayıtmaz.

**Hikmət**. Cahillərə baş qoşan alim hörmət gözləməməlidir. Cahil adam heyvərəlik və uzunçuluqda alimə üstün gəlsə təəccüblü deyildir, çünki həmişə daş cavahiri sındırar.

### Beyt

Bülbülün qarğa ilə birgə olsa qəfəsi,
Təəccüblü deyildir çıxmasa onun səsi.

### Şeir

Əgər hünər sahibini incitsə bir hünərsiz,
Onun qanı bu təhqirdən zərrə qədər qaralmaz.
Çünki sınsa qara daşla bir zər kasa, heç zaman,
Daşın qədri yüksəlməz və zərin qədri azalmaz.

Ağıllı adamın axmaqlar qarşısında susmağı təəccüblü deyildir, çünki nağara səsi tar səsinə, sarımsaq iyi isə ənbər qoxusuna həmişə üstün gələr.

### Şeir

Bir cahil hay-küylə qaldıraraq səs
Qoymadı aqili bir alsın nəfəs.
Məlumdur ki, həzin ahəngli hicaz,
Döyüş təbilinin səsini basmaz.

**Hikmət**. Cavahir toz-torpağa batsa da yenə qiymətini itirməz, toz-torpaq göyə qalxsa da yenə qiymətə minməz. Tərbiyəsiz istedad heyfdir, istedadsız tərbiyə isə mümkün deyildir. Kül oddan əmələ gəldiyi üçün ali əsli-nəsəbi vardır, lakin özündə hünər olmadığından torpağa bərabərdir; şəkərin qiyməti qamışdan əmələ gəldiyi üçün deyil, təbiətində şirinlik olduğu üçündür.

Şeir

Kənanın yox idi hünəri, ona
Peyğəmbər nəsili açmadı müşkül
Sən qızıl göstərmə, hünəri göstər.
İbrahim[112] oddandır, tikandan da gül.

**Hikmət**. Müşk odur ki, ətir versin, nəinki əttar desin.

Beyt

İnsanda vardırsa hünərdən əsər,
Özü susarsa da danışar hünər.

Beyt

Aqil əttar dükanıtək: özü sakit, ətri xoş,
Cahil döyüş təbli kimi: özü küylü, içi boş.

Şeir

Məsəl var deyərlər: kamil bir alim
Cahillər içinə düşərsə əgər
O bənzər pəriyə korlar içində,
Ya zındıq evində Qurana bənzər.

**Nəsihət.** Bir ömürdə ələ gələn dostu, bir anda incidib əldən vermə.

Beyt

Neçə ilə daş ləl olar qoca dövran içində,
Aman daşa çırpma onu, sən də bir an içində.

**Hikmət**. İradəsiz kişi həyasız arvadın əlindən yaxasını qurtara bilmədiyi kimi, ağıllı da nəfsin əlindən öz canını qurtara bilmir. Gücə əsaslanmayan bir tədbir əfsanəyə bənzər, tədbirə əsaslanmayan bir güc isə divanəyə. Əvvəlcə tədbir və qabiliyyət lazımdır, sonra hökmranlıq.

Beyt

**Ölkəsindən əvvəl tədbir, zəka lazım hər şaha**
**Ki, nadanın səltənəti meydan oxur Allaha.**



Yeyib paylayan igid, yığıb saxlayan abiddən yaxşıdır. Yalnız camaatın xoşuna gəlmək xatirinə bu dünyanın eyş-işrətindən əl çəkən adam, halal şöhrəti atıb, haram şəhvətdən yapışmış olar.

Şeir

Abid Allah xatirinə guşənişin olmasa,
O yazıq nə görə bilər qaralmış bir aynada.

**Hikmət**. Dənə-dənə bol olar, dama-dama göl olar, yəni gücü çatmayan adamlar kiçik daş yığıb saxlayar, fürsət düşcək, zalimdən qisas alar.

Beyt

Qətrələr toplaşıb çay olur haman,
Çaylar da birləşib yaradır ümman.

Beyt

Yığılıb göl olar kiçik damlalar,
Balaca dənlərdən düzələr anbar.

**Hikmət**. Alim avamların səhvlərinə göz yummamalıdır. Bunun hər iki tərəfə ziyanı vardır: bu tərəfin əzəməti azalar, o tərəfin cəhaləti artar.

Beyt

Alçaqla danışsan xoş dil ilə sən,
O da lovğalanıb öyünər həmən...

**Nəsihət.** Şeytan əməli heç kimə yaraşmaz, xüsusilə alimə! Çünki elm şeytana qarşı bir silahdır, silah sahibi isə düşmənə əsir düşsə, rüsvayçılıq bir neçə qat artıq olar.

Şeir

**Günü qara olan bir avam, nadan,**
**Yaxşıdır xeyirsiz bir ağıllıdan**
**O kordu, görmədi yolu, sürüşdü**
**Bu iki göz ilə quyuya düşdü.**

**Hikmət**. Can bir nəfəsə bağlıdır, dünya isə iki yoxluq arasında bir varlıqdır, dini dünyaya satanlar xamdırlar, Yusifi satanlar əvəzində nə alacaqlar?!

Beyt

Düşmənin sözüylə dostunu satdın,
Gör kimlə birləşdin, gör kimi atdın?!

**Lətifə**. Şeytan düzdən qaçar, sultan pulsuzdan.

Şeir

Namaz qılmayana borc vermə aman,
Aclıqdan şikayət etsə də haman.
O Allah borcunu vermirsə, əgər,
Bəndənin borcunu necə ödəyər?

**Nəsihət.** Diriliyində adamın çörəyini yeməsələr, öləndən sonra adını çəkməzlər! Üzümün dadın bağ sahibindən çox, onu yığan dul qadın bilər. Misirdə qəhətlik üz verdikdə Yusif peyğəmbər doyunca yeməzdi ki, acları unutmasın!

Şeir

Bolluqda yaşayan toxlar nə bilir,
Acların əhvalı necə yamandır,
Yazığın halını o kəs bilər ki,
Aclığın dəhşəti ona əyandır.

Şeir

Köhlənə minən ey səvari bil ki,
Eşşəyi batanı atmaq günahdır.
Sən kasıb qonşundan od da istəmə,
Bacadan yüksələn tüstülər ahdır.

**Hikmət**. Qıtlıq ilində, vəziyyəti ağır olan dərvişə yalnız o şərtilə "Kefin necədir?" deyə bilərsən ki, yarasına məlhəm qoyasan, qabağına dirhəm.



Şeir

Bir kişinin görsən batıb gilə yüklü eşşəyi,
Ürəyində təəssüf et, lakin yaxın getmə sən,
Əgər gedib soruşdunsa nə olmuşdur? Gərəkdir,
Qol çırmayıb eşşəyinin quyruğundan çəkəsən.

**Hikmət**. İki şey mümkün deyildir – qismətdən artıq yemək və əcəl catmamış ölmək.

Şeir

Qəza bir də təkrar etməz dad etsə də bir qarı,
Min ah çəkib bir ağızdan qoparsa da min şivən.
Nə vecinə küləklərə vəkil olan mələyin,
Xəzan vaxtı bir qarının şamı söndü küləkdən.

**Nəsihət.** Ey ruzisi qalmış getmə, yeyəcəksən, ey əcəli çatmış acma, öləcəksən.

Şeir

Özün üçün çalışsan da, əgər çalışmasan da,
Yetirəcək öz ruzunu sənə böyük yaradan.
Sən ağzına girsən də lap qızmış şirin, pələngin,
Bir şey olmaz əgər əcəl çatmamışsa bu zaman.

**Hikmət**. Qismətin deyilsə, əlin çatmayacaqdır, qismətindirsə, harda olsan gəlib tapacaqdır.

Beyt

Ab-həyat[113] tapmaq üçün İskəndər çox yol keçdi,
Zülmətədək getdi, lakin onu təkcə Xızr içdi.

**Hikmət**. Qisməti olmayan ovçu Dəclədə balıq tuta bilməz, əcəli çatmamış balıq quruda ölməz.

Beyt

Yazıq xəsis dincəlməz, gəzər hey yorulunca,
O gəlirin dalınca, əcəl onun dalınca.

**Hikmət**. Fasiq varlı üstü qızılla suvanmış təzəkdir, sadiq yoxsul, üzü toza bulanmış bəzəkdir, bu Musanın yamaqlı paltarıdır, o Fironun yaraqlı saqqalı. Yaxşıların möhnətinin axırı sevinc olacaq, pislərin dövlətinin sonu heç.

Şeir

Hər kimin vardırsa dövləti, malı,
Onun ürəyinə yol tapmaz kədər.
Bir söylə heç dövlət, səadət, şadlıq,
Başqa bir saraya girərmi məyər?

**Hikmət**. Paxıl, Allahın başqasına verdiyi nemətindən paxıllıq edər və günahsız adamlardan da zəhləsi gedər.

Şeir

Kütbeyin bir kişi gördüm ki, varlı,
Bir şəxsin dalınca hey qeybət edir.
Dedim ki, ey xacə, sən bədbəxt isən,
Xoşbəxt bir adamın günahı nədir?

Şeir

Paxıla istəmə bəla, o yazıq,
Olmuşdur əbədi bəlayə düçar.
Nə lazım olasan paxılla düşmən,
Onun paxıllıqtək öz düşməni var.

**Həqiqət.** Həvəssiz şagird pulsuz aşiqə, bələdçisiz səyyah qanadsız quşa, əməlsiz alim barsız ağaca, elmsiz zahid qapısız evə oxşar. Quranın nüzulundan məqsəd yaxşı əxlaq üçündür, surələri varaqlamaq üçün deyildir. İbadət edən avam yeriyən piyadaya, riayət etməyən alim yatan süvariyə oxşar. Gözünü yuxarı dikən günahkar özünü yuxarı tutan dindardan yaxşıdır.

Beyt

**Mərhəmət sahibi olan bir sərdar,**
**Zülmkar qazıdan çox üstün olar.**



**Nəsihət.** Bir adamdan soruşdular:
– Barsız alim nəyə bənzər?
Dedi:
– Balsız arıya!

Beyt

Eşşək arısına deyək: "Ay arı,
Sən ki bal vermirsən, gəl sancma, barı!"

Mürüvvətsiz kişi-arvad, tamahkar abid-quldurdur.

Şeir

**Ağ geyinib xalq gözündə özünü düz göstərən,**
**Ey hər işi qəlbi kimi qara olan bişüur.**
**Bu dünyadan öz əlini üzən zaman nə fərqi,**
**Paltarının qolu qısa, ya da ki, çox uzundur.**

**Hikmət**. İki adamın: gəmisi batmış tacirlə, qələndərə dost olmuş varisin qəlbi təəssüf dərdindən, ayağı həsrət zəncirindən xilas ola bilməz.

Şeir

Dərvişlər gözündə halaldır qanın,
Onlara olmasa xeyrin, ehsanın.
Ya yoldaş olmasın sənə göy köynək,
Ya da ki, büsbütün evindən əl çək.
Ya dostluq eyləmə filbanla əsla
Ya fil girə bilən bir həyət saxla.

**Nəsihət.** Şah verən xələt nə qədər izzətli olsa da, öz paltarın daha izzətlidir. Hökmdar süfrəsindəki xörək nə qədər ləzzətli olsa da, öz heybəndəki çörək daha ləzzətlidir.

Beyt

Yaxşıdır öz halal sirkənlə tərən,
Kəndxuda verdiyi quzu ətindən.

**Hikmət**. Naməlum dərmanı həkimsiz içmək, nabələd yolu karvansız getmək ağıllı adamların işi deyil. İmam Məhəmməd Qəzalidən[114] soruşdular:

– Elmdə bu dərəcəyə necə çatdın?

Dedi:

– Bilmədiyim şeyi soruşmaqdan utanmadım.

Şeir

Sağlamlıq o zaman təmin olar ki,
Təbibə verəsən sən öz nəbzini.
Hər şeyi bilməsən soruş, utanma,
Sənə bu öyrədər bilik rəmzini.

**Nəsihət**. O şeyi ki, arxayınsan sənə deyəcəklər, soruşmağa tələsmə, çünki hörmətə zərəri var.

Şeir

Loğman görəndə ki, Davud əlində,
Bir dəmir parçası dönüb olur mum.
Sirri soruşmadı, bildi sorğusuz,
Olacaq az sonra məsələ məlum.

**Hikmət**. Qonşuluq şərtlərindən biri budur ki, ya özünə ev tikəsən, ya ev sahibi ilə yola gedəsən.

Şeir

Müsahib zövqüncə söz de hər zaman,
Əgər onun sənə vardırsa meyli.
Hər aqil Məcnunla oturub-dursa,
Sözü olmalıdır "Leyli və Leyli".

**Nəsihət**. Yaramaz adamlara qoşulan, onların təbiətini qəbul etməsə də, onların təriqətinə görə müttəhim edilər, xərabata namaz qılmağa getsə onu şərab içməkdə taqsırlandırarlar.



Şeir

Anlamaz yerinə qoydun özünü,
Nadanı özünə eylədin həmdəm.
Alimdən istədim versin nəsihət,
Dedi ki, nadanla oturma bir dəm,
Əgər alim isən nadan olarsan,
Nadansan olarsan nadan da kəm.

**Hikmət**. Dəvənin həlim olduğunu hamı bilir. Noxtasını bir uşaq tutub yüz ağac[115] aparsa yenə itaətindən çıxmaz. Lakin təhlükəli bir uçuruma rast gəldikdə, uşaq nadanlıq ucundan keçmək istəsə, dəvə artıq itaətdən boyun qaçırar, dartıb noxtanı uşağın əlindən alar, çünki belə vaxtda sərt olmaq əvəzinə həlim olmaq düzgün deyildir. Məsəl var deyərlər: Düşmən yumşaqlıqla dost olmaz, bəlkə bir az da tamahı artar.

Şeir

Qulu ol, baxsa sənə kimsə məhəbbətlə əgər,
Kim sənə əyri baxa, durma çıxar gözlərini.
Yumuşaq söyləmə sən qəlbi daşa sözlərini
Ki, pas atmış dəmirə incə yiyə etməz əsər.

**Nəsihət.** Hər kəs başqalarının sözünü kəssə ki, öz mərifətinin dərəcəsini bildirsin, tərbiyəsinin səviyyəsini göstərmiş olar.

Şeir

Ağıllı ta ondan soruşmasalar,
Dil açıb bir cavab verməz heç zaman.
Boşboğaz haq söz də desə, şübhəsiz,
Elə bilərlər ki, o, deyir yalan.

**Nəsihət.** Paltarımın altında bir yaram var idi, hər gün şeyx soruşardı:

– Yaran necədir? Soruşmazdı ki, yaran haradadır? Başa düşdüm qəsdən belə edir, bilir ki, hər üzvün adını deməyi rəva görməzlər. Ağıllı adamlar deyiblər: "Ölçülməmiş suala, biçilməmiş cavab verərlər".

Şeir

Qəti bilmədikcə doğrudur sözün,
Bir söz də deməyə ağzını açma.
Düz deyib zindanda qalmaq yaxşıdır,
Yalanla zindandan qurtarmaqdansa.

**Hikmət**. Yalan da xəncər yarası kimi bir şeydir, özü sağalsa da, izi qalar. Odur ki, Yusifin qardaşları yalançılıqda şöhrət tapdıqdan sonra doğrularına da inanan olmadı...

Şeir

Hər bir kəsi tanısalar daim doğru danışan,
Bir xətayə yol versə də keçərlər günahından.
Əgər adı şöhrət tapsa onun yalançılıqda,
İnanmazlar, şübhəsiz ki, doğru söz deyən zaman.

**Hikmət**. Bütün kainatın ən əzizi, zahirən insan, mövcudatın ən rəzili itdir. Lakin ağıllı adamların hamısı bu fikirdədir ki, vəfalı it vəfasız insandan yaxşıdır.

Şeir

Bir itə bir tikə çörək verəndə,
Unutmaz yüz kərə bassan da daşa.
Alçağa bir ömür çörək yedirsən,
Bir dəfə tünd olsan başlar savaşa.

**Nəsihət.** Öz hayına qalanda hünər olmaz, hünəri olmayandan rəhbər çıxmaz.

Şeir

Yekə bir öküzə rəhm eyləmə sən
Ki, çox yatan olar, həm də çox yeyən.
Kökəlmək istəsən gər öküz kimi
Ulaqtək insana xidməti öyrən.

**Hikmət**. İncildə yazılıbdır: "Ey insan övladı, dövlət verirəm – başın eyş-işrətə qarışır, məni unudursan; yoxsul edirəm – mısmırığını salıb oturursan".



Şeir

Gah nemət içində məğrursan ğafil,
Gah da yoxsulluqla əlbəyaxasan.
Yoxsulluq, bolluqda işin belədir,
Vaxt hanı haqqa da bir az baxasan.

**Hikmət**. Qəza birini şahlıq taxtından yerə salır, birini balıq qarnında diri saxlayır.

Şeir

Sənin zikrin munis olar hər yerdə, hər məkanda
Lap Yunistək mümkün olsa bir balığın qarnında.

**Hikmət**. Qəza qəzəb qılıncına əl atsa imamlar, peyğəmbərlər başların içəri çəkər, mərhəmət qaşını oynatsa, pislər vurub yaxşıları keçər.

Şeir

Olarsa məhşərdə qəhrilə xitab,
Üzrə dil açarmı heç bir peyğəmbər?
Qoy lütfün üzündə pərdə olmasın,
Axı əfv istəyir günahkar bəşər.

**Nəsihət**. Kim bu dünyadan ibrət alıb doğru yola gəlməsə, o dünyada əzab-əziyyətə mübtəla olacaqdır: "Biz bu dünyada onları yüngül imtahana çəkirik, axirətdə isə işgəncələr daha ağır olacaqdır".

Beyt

Əvvəlcə kiçiyə nəsihət olar,
O təsir etməsə bəndə vurular.

**Nəsihət.** Xoşbəxtlər özlərindən əvvəlkilərin başına gələn əhvalatlardan ibrət alarlar, bəd əməlləri ilə sonrakılara ibrət olmazlar.

Şeir

Quş quşu görüncə torun içində,
Dənə toxunmağa edərmi cürət,
Özgə əzabından sən ibrət götür,
Ta səndən almasın özgələr ibrət.

**Hikmət**. Bəxt qulağı kar yaradılan necə eşidə bilər, səadət kəməndi ilə aparılan necə getməyə bilər?!

Şeir

Qaranlıq gecədə Allah dostları,
Gündüztək aləmi işıqlandırar.
Qol gücü yaratmaz bu səadəti,
Əgər bəxş etməsə xudavəndkar.

Şeir

Axı səndən kimə edim mən şikayət, ey xuda,
Səndən daha üstün olan varmı bütün dünyada.
Kimə rəhbər sənsən onu heç kəs yoldan çıxarmaz,
Sən hər kəsi rədd eyləsən bir kəs çatmaz imdada.

**Hikmət**. Aqibəti pis şah olmaqdansa, nəhayəti yaxşı gəda olmaq yaxşıdır!

Şadlıqdan əzəlki kədər, qəm inan,
Xoşdur qəmdən əvvəl gələn şadlıqdan.

**Hikmət**. Göydən yerə nemət yağır, yerdən göyə torpaq qalxır. hər kəsin qabında nə varsa onu büruzə verir.

Beyt

Sənin nəzərində pis olsam da mən,
Öz yaxşılığını vermə əlindən.

O böyük çəlal sahibi həm görür, həm də üstünü örtür, qonşu isə heç nə görmür, amma ağzına gələni deyir.

Beyt

Xalq əgər qeybdən tutsaydı xəbər,
Dünyada olmazdı rahat bir nəfər.

**Hikmət**. Qızılı, mədəndən qazmaqla, xəsisdən isə canını almaqla əldə etmək olar.



Şeir

Alçaqlar yeməyib belə söyləyər,
"Yaxşıdır yeməkdən ümid dünyada".
Düşmənin kamınca bir gün görərsən.
O ölmüş, dövləti qalmışdır yada.

**Nəsihət.** Özündən gücsüzlərə rəhm etməyən, özündən güclülərin zülmünə rast gələr!

Şeir

Qolunda zor varsa göstərmə barı,
Sən basıb sındırma zəif qolları.
Gücsüzə zülm edib ziyan vermə sən
Ki, daha güclüdən zərər görərsən.

**Hikmət**. Ağıllı adam dava-dalaş gördü qaçar, barış gördü lengər salar. Orada salamatlıq kənardadır, burada rahatlıq ortada.

Zər atana se-şeş lazımdır, lakin se-yek gəlir.

Beyt

Meydandan min dəfə xoşsa çəmənzar,
Atın ki, əlində deyil ixtiyar.

Bir dərviş minacat çəkib deyirdi:

– İlahi, pislərə rəhmin gəlsin, yaxşılara rəhm edibsən ki, onları yaxşı yaradıbsan.

İlk dəfə paltara naxış vuran, barmağa üzük taxan Cəmşid[116] olmuşdur. Ondan soruşdular:

– Nə üçün zinəti sola veribsiniz, halbuki, fəzilətdə sağ ondan üstündür.

Cəmşid dedi:

– Sağa sağlığın özü böyük zinətdir.

Şeir

Çinli nəqqaşlara dedi Fridun,
Yazılsın təxtinə zərlə bu sözlər:

Ey aqil, pisləri yaxşı saxla ki,
Yaxşılar özləri olar bəxtəvər.

**Hikmət**. Böyük bir şəxsdən soruşdular:

– Sağ əl çox cəhətdən sol ələ üstündür, buna baxmayaraq nə üçün üzüyü sol ələ taxırlar?

Dedi:

– Bilmirsən ki, fəzilətli adam həmişə məhrum olar!

B e y t

Ləzzəti, əzabı yaradan budur,
Birinə bəxt vermiş, birinə şüur.

**Nəsihət**. Şahlara yalnız o adam öyüd verə bilər ki, başından qorxmasın, ya da bəxşiş ümidində olmasın!

Ş e i r

Allaha bir deyənin ayağına pul töksən,
Ya bir hindu qılıncı onun üstünə çəksən.
Aldanmaz və qorxmaz o, tohid buna deyirlər,
Dindarlığın əsası belə olmuş mötəbər.

**Hikmət**. Şah, adamları zülmkarlardan, darğa dələduzlardan qorumaq üçündür. Qazı isə oğruları doğruya çıxarmaq üçün. Buna görə də iki müddət haqq işə razı olsa, qətiyyən qazının yanına getməz.

Ş e i r

Bir həqqi ödəmək lazım gələndə,
Xoşluqla ver onu, nə lazım hədə?
Könüllü verməsə hər kəs borcunu,
Zor ilə nəhayət alarlar onu.

**Lətifə**. Hamının dişi turşdan qamaşar, qazınınkı şirnidən.

B e y t

Qazı rüşvət alsa səndən beş xiyar,
Yüz qarpız xırını xeyrinə yazar.



**Hikmət**. İşdən düşmüş, əxlaqsız bir qarı fahişəlikdən, işdən düşürülmüş insafsız bir darğa mərdimazarlıqdan əl çəkib tövbə etməsin, bəs nə etsin?!

B e y t

Bənzər qoca abidə guşənişin bir cavan
Ki, qocada onsuz da durmağa yox tab, təvan.

B e y t

Cavan gərək gözləsin özünü çox şəhvətdən
Ki, süst qoca onsuz da bizardır yox şəhvətdən.

**Hikmət**. Bir filosofdan soruşdular:

– Allah bu qədər hündür, qocaman ağaclar yaradıbdır, nə üçün meyvəsiz sərv ağacından başqa heç birinə "azad" demirlər?

Dedi:

– Ağaclardan hər birinin müəyyən vaxtda bəhrəsi olar, ona görə onlar gah açılar, gah solar. Sərv ağacının isə heç bir barı yoxdur, odur ki, həmişə təzədir. Bu isə azadələrin sifətidir.

Ş e i r

Hər keçən hadisəyə qəlbi verib aldanma,
Xəlfədən sonra da çox Dəclə axar Bağdadə.
Bacarırsansa əgər nəxl* kimi xurma yetir,
Mümkün olmazsa yaşa sərv kimi azadə.

**Hikmət**. İki adam öldü və dünyadan həsrətlə getdi: biri odur ki, yığdı yemədi, digəri odur ki, bildi eləmədi!

Ş e i r

Paxıl olsa əgər adlı bir fazil,
Hər kəs tapacaqdır onda bir nöqsan.
Kəramət sahibi yüz günah etsə,
Kərəmi eybini örtəcək hər an.

---

* Nəxl – xurma aqacı

## SONU

Allahın köməyi ilə bu "Gülüstan" kitabı bitdi və başqa müəlliflərdəki adətin əksinə olaraq özgələrinin şerindən istifadə edilmədi.

B e y t

Öz köhnə xirqəni geyməyin, inan.
Yaxşıdır birovuz təzə çuxadan.

Sədinin sözlərinin əksəriyyəti sevinc gətirən və məftun edəndir. Odur ki, gözü götürməyənlər öz tənəli dillərin işə salıb deyirlər ki, nahaq yerə beyni yormaq və faydasız olaraq çıraq tüstüsünü udmaq ağıllı adamların işi deyil. Lakin arif adamlara aydındır ki, (bu sözlər də onlar üçün yazılmışdır) şəfaverici nəsihət inciləri zərif ibarə sapına düzülmüş və acı məsləhət dərmanları şirin zarafat balına qarışdırılmışdır ki, insanın yorğunluğa mail olan təbiəti bu sərvəti qəbul etməkdən məhrum qalmasın.

Ş e i r

Yaşadıq dünyada biz də bir müddət,
Etdik bacardıqca neçə nəsihət,
Onu dinləməsə bir kəs nə olar.
Qoy bizdən dünyada qalsın yadigar.

Ey oxucum, müəllifə bəxşiş dilə Allahdan,
Katibə də istə onu bağışlasın girdikar,
Özünə də dua elə istəklərin doğrulsun,
Bu kitaba kim sahibsə, o da olsun bəxtiyar!



# *Lirik şeirlər*

# Qəzəllər

Ey sariban, ahəstə get, arami-canımdır gedən,
Yar könlümü çəkmiş mənim, ruhi-rəvanımdır gedən.

Səy eylədim əfsun ilə pünhan qılım mən dərdimi,
Pünhan işim çıxdı üzə, seyr eylə, qanımdır gedən.

Qaldım belə zarü zəlil, biçarəyəm qəlbim əlil,
Düşdüm o dilbərdən uzaq, asudə anımdır gedən.

Yox əhdinin bünyadı heç, bitməz onun bidadı heç.
Çıxmaz könüldən yadı heç, ən xoş zəmanımdır gedən.

Bir an dayan, ey sariban, qoyma gedə bu karivan,
Ol sərvə uymuşdur könül, sərvi-rəvanımdır gedən.

Bir dön geri, ey nazənin, göz məskənin olsun sənin,
Sənsiz bu sonsuz göylərə, ahü fəğanımdır gedən.

Can tərk edəndə cismini, insan açar öz hissini,
Yoxdur sözüm, görmüş gözüm, bu xəstə canımdır gedən.

Sədi, sənə layiq deyil yardan giley, ey bivəfa,
Gördüm mən ondan çox cəfa, səbrü təvanımdır gedən.

* * *

Gördün eşqində dünən mən nə pərişan oldum,
Tərk edərkən məni bir surəti-bican oldum.

Səni vəsf eyləməyi sanma unutmuş bu könül,
Hüsnünü gördüm, əzizim, sənə heyran oldum.

Sənsiz, ey gül, çəmənin seyrinə mən çıxmaram heç,
Söylə bəs çöldə neçin xari-muğilan oldum.

Vəslin ümmidi dirildərdi məni, sevdiciyim,
Lakin hicrində verib canımı qurban oldum.

Gecələr sübhə kimi yatmadım ümmid ilə mən,
Sevgilim, bəlkə səhər vəslinə mehman oldum.

Sədi hicrində yanarkən bunu söylər hər gün:
Əhdini qırsa da yar, mən ona canan oldum.

* * *

Ey nəfəsi nəşəli badi-səba,
Yarımı gördün, sənə yuz mərhəba.

Ver bizə, hüdhüd, gecədən bir xəbər,
Söylə necə halə düşübdür Səba.

Söylə yenə kinlimi cananımız,
Yoxsa olur qəlbimizə aşina.

Sülhə uyur, yoxsa ədavətlidir,
Xofa düşək, yoxsa edək biz rica.

Bir də əgər kuyinə etsən guzər,
Söylə bizim yarə, nəsimi-səba:

Öylə zəifəm ki, bitib qüvvətim,
Cansız olan cismdə olmaz bəqa.

Çatsam əgər vəslinə yarın bu gün,
Qalmaz o keçmişki uzun macəra.

Çəkmərəm əl mən ətəyindən sənin
Tutsa yaxamdan ölüm, ey dilrüba.

Dostmu deyərlər elə insanə ki,
Çəkməyə öz dostu yolunda cəfa.



Xəstəlik olmaz o qədər qorxulu,
Bilsən əgər dərdinə var bir dəva.

Hər səhər eşqindən açıb söhbəti,
Ertəsi gün mən görürəm macəra.

Dərdimin əhvalı tutub aləmi
Dinləməyir sözlərimi aşina.

Sədi, əgər dağ eşidə naləni,
Nalədən ətrafa salar min səda.

* * *

Ey deyən ən müşkül iş yalnız fəraqi-yar olur,
Olsa vəsl ümmidi, hicran, sanma ki, düşvar olur.

Gözlərim yaşı dedim xalqa həram eylər yuxu,
El yatanda ağladım, qorxdum hamı bizar olur.

Ox kimi kirpiklərin əlvan edir ağ çöhrəmi,
Könlümün dərdi bu xətlə aləmə izhar olur.

Getdi könlüm eyb qıldıqca yetən bidillərə,
Çox günah etsə cahanda kim, yəqin ki, xar olur.

Afərin söylə, nəsimi-sübh, sən dildarimə,
Yarını tərk eyləmiş çünki o, qeyrə yar olur.

Çox peşimanlıq çəkib üz tutmuşam divarə mən,
Hər kəsə açsam könül dərdin, dönüb divar olur.

Mən onun söhbətlərindən açmıram söhbət hələ,
Sanmayın bais bizim söhbətlərə əğyar olur.

Qadir olsan da məni incitməyə qəlb incimez,
Boynuma qoysan qılınc, sanma mənə azar olur.

Kim sevir dildarını, dərd çəkmək asandır ona,
Yıxdı Fərhad Bisütun, Şirin ona dildar olur.

Ay sənə bənzər gözəllikdə, fəqət yoxdur dili,
Sərvdə sanma sənin tək böylə xoş rəftar olur.

Könlüm eşqindən əgər divanəsə, eyb eyləmə,
Ayda nöqsan, zərdə nöqsan, gül yanında xar olur.

Sərvi boylum, kim səni görsə deyər yüz afərin,
Hüsnünə heyran sənin bu gümbədi-dəvvar olur.

Söyləyir dostlar mənə, Sədi, gözəl gülzarə çıx,
Mən sevən gül başqadır, sanma yeri gülzar olur.

* * *

Mehriban olmasa kimin yarı,
Tutar afaqı naleyi-zarı.

Nə qədər söyləsə acı sözlər,
Yenə şirindi yarə dildarı.

Getməyə taqət olmayır məndə,
Hər görəndə o nazlı rəftarı.

Dirilib qəbrdən durar ayağa
Aşiqin olsa bir vəfadarı.

Bir cavab tapmıram verim ona mən,
Sözüdür bir dəyərli mirvarı.

Eşqi gizlin qalırdı, bitdi səbir,
Pərdə yırtıldı, açdı əsrarı.

Yarımın xidmətində olsam mən,
Xidmətin olmaz həddi, miqdarı.



İtirər ağlını bütün aləm,
Yerisə sevgilim pərivarı.

Sədiyə görmək olmasın qismət
Nazlı yar ilə birgə əğyarı.

* * *

Nə zaman mümkün olur vəslini, canan, görmək,
Yox bu qəlbimdə daha taqəti hicran görmək.

Kuyuna gəlsəm əgər xislətin olsa bu təhər,
Qismətimdir, gözəlim, cövrü firavan görmək.

Məni tərk eylədi eşqində ağıl, qalmadı huş,
İstəyər kim özünü bisərü səhman görmək.

Hər qədəm atsan, ona canımı qurban verərəm,
İstəmirsən məni sən, bəs niyə qurban görmək.

Görürəm mən o qara zülfünü röyada gecə,
Mənə zəncir kimidir zülfü pərişan görmək.

Sərvi boylum, çəmənin seyrinə çıxsan sən əgər,
İstəməz kimsə, inan, sərvi-xuraman görmək.

O xumar nərgisinə baxsa gözüm, qəlb açılar,
İstəməz bir də könül baxçada reyhan görmək.

Sədi, bihudə yerə qəm yeyib axtarma əlac,
Bir əlac var ki, verib canını canan görmək.

* * *

Gəl, ey gözəl mələkim, gəl ki, macəramız var,
Çəkinmə, söylə bizə, bəlkə bir xətamız var.

Rəva deyil bu qədər qəlbi cəzb edib getmək.
Əgər bir insana zülm eyləsək, cəzamız var.

Yetişdi düşmənimiz kamə, keçdi çox günlər,
Gəlib fəqət demədi dostlar aşinamız var.

Nə dərd bilən tapılır ölkədə, nə də kimsə
Gəlib demir bu ağır dərdinə dəvamız var.

Şikəstə könlümüzü min dəfə bulandırsan,
O hüsni dilbəri gördükdə xoş səfamız var.

Yaxıbdır atəşimiz sərbəsər bu dünyanı,
Gəlib müsəvvir edir cəhli kimyamız var.

Yetişdi can boğaza, kamə çatmadıq əfsus,
Yetişsə kamə könül, söylərik şəfamız var.

Sənin əziz canına Sədi and içir, ey dost,
Deyir cahanda bizim bircə aşinamız var.

* * *

Ay surətindi gövhəri məna xəzinədən,
Eşqin bu qəlbə dağ çəkibdir dəfinədən.

Yanmışların olar əsər ahında, şübhəsiz,
Qoyma səmayə nalə çıxa odlu sinədən.

Ziynət verir gözəl üzə mərcan dodaqların,
Yox zülfünün təfavütü güldən neçin, nədən?!

Baş əymərəm zəmanədə heç padişahə mən,
Olmaz qul özgəyə, gözəlim, bu kəminədən.

Baxsa əgər gözün yada məndən xəta olar,
Sənsiz keçən ömür sayılarmı qərinədən?

Yalnız böyük o şəxs deyildir ki, olmasın
Qəlbində heç zaman bir əsər mehri kinədən.

Sədi gözəllər eşqinə oldunsa bir misal,
Aşiqliyin sorağı gəlir hər mədinədən.



* * *

Heç qibtə etmədim mən, nə mənsəbə, nə malə,
Uydu cahanda könlüm, yalnız mənim vüsalə.

Bilsən cahanda vəsfə layiqdi hansı sərvət,
Gözlər ki hər dəqiqə baxmaqda bir cəmalə.

Şad olsun öylə aşiq, çatmış vüsali-yarə,
Yox ehtiyacı əsla bir sorğuya, sualə.

Yağ-bal kimi qovuşsa cananə aşiq hərgah,
Munis olar könüllər, batmaz daha məlalə.

Yalnız gülər o cahil keyf əhlinə ki, bədbəxt
Ömründə uymayıbdır bir keyfə, əhli-halə.

Yarımdan ayrı düşdüm, çəkdim mən öylə qüssə,
Döndü zəif vücudum cansız quru xəyalə.

Düşdü kəməndi-yarə könlüm mənim əzəldən,
Uymazdı yoxsa aşiq böylə bir ehtimalə.

Yardan düşəndə ayrı hər gün mənə bir ildir,
İl gün qədər gödəkdir çatsam əgər vüsalə.

Vardır ay üzlü yarın daim iki hilalı,
Ayda dönür fəqət ay tək bir dəfə hilalə.

Zahid uyar cahanda mövhum xəyalə ancaq,
Sədi deyir qəzəllər yalnız belə qəzalə.

* * *

Görüşündü qəlbə rahət, gülüşündü afət, ey yar!
Nə qədər gözəl var aldın hamıdan məlahət, ey yar!

Hanı Çində öylə rəssam çəkə böylə incə surət,
Sənə ilk baharmı vermiş bu qədər lətafət, ey yar!

Sənin eşqin hər ürəkdə özünə tutanda bir yer,
O könüldə hakim oldun, elədin xilafət, ey yar!

Güzər eylə mərhəmətlə bizə sərv tək xuraman,
Görək ay üzündə vardır nə qədər təravət, ey yar!

Dedilər uzaq düşəndə olar hicrə səbrim, ancaq
Görürəm ki, sevgi bilmir arada məsafət, ey yar!

Edəsən ölümdə vədə əgər aşiqə, əminəm,
Ölümə gedər ürəklə, eləyər cəsarət, ey yar!

Həvəs etsə Sədi hərgah, sevə bir zərif nigarı,
Onu məhv edər cahanda belə bir zərafət, ey yar!

* * *

Hər kimin iltifatı var canə,
Demə var mehri nazlı cananə.

Məni bimar edən təbibimdir,
Ehtiyacım yox özgə dərmanə.

Səni salsa kəməndə cananın,
Qıl itaət hər əmrə, fərmanə.

Neyləsin tabe olmasın əmrə,
Baş əyir qul həmişə sultanə.

Aşiqə yüz desən ki, yardan keç,
Hər sözündür ona bir əfsanə.

Kim dənizdə batır nə fərq edəcək,
Düşə, ya düşməyə o tufanə.

Gül açıldı, gərək edib nalə,
Başlasın bülbül indi dastanə.



Nə qədər olsa da ağıl güclü,
Eşq qalib gələr hər insanə.

Ağlayar bir uşaq kimi aşiq,
Sevgidən düşsə dərdi-nalanə.

Qaşına uydu, sevgilim, hər kəs,
Oldu qəlbi hədəf o peykanə.

Eşqdən açma söz, əgər açsan,
Çıx sübut eylə mərd-mərdanə.

Sədi yarsız keçirsə bir anı,
Dönər aləm gözündə zindanə.

* * *

Xoşdur nə qədər cəfa qılır yar,
Var meydə xumar, güldə də xar.

Hər söz çıxa bal dodaqlarından,
Şirin olar, ey sevimli dildar!

Səndən kimə eyləyim şikayət?
Səndən sənə min şikayətim var.

Gülsən mənə eyb tutmaram, ah,
Göz yaşlarım eyləyib məni zar.

Göydə bulud ağlayan zamanlar,
Gülməzmi çəmən, çiçəkli gülzar.

Qəlbin gözü var sənin dalınca,
Qəlbinsə sənin deyil xəbərdar.

Can versəm əgər ayaqlarında,
Mən incimərəm, sözümdür aşkar.

Həsrət çəkirəm ölüb dirilsəm,
Bir də qabağında ölsəm, ey yar!

Bir daş kimi mən bucaqda qalsam,
Ya olsam əgər önündə divar,

Susmam yenə çünki daş da görsə,
Eylər sənə min məhəbbət izhar.

Sədi çəkilən deyil bəladən,
Zəncirlə hara gedər giriftar.

* * *

Mənim hicrim sənə dərdü qəm olmaz,
Yanında başqa yarsız bir dəm olmaz.

Əlindən aləmə mən tutmuşam üz,
Sənin hüsnün kimi bir aləm olmaz.

Düşüb eşqə sevənlər çoxdur, amma,
Mənim tək bu cahanda möhkəm olmaz.

Düşünməzdim cahan mülkündə əsla,
Pərinin sevdiyi yar adəm olmaz.

Yetər məcruh qıldın könlümü sən,
Sağaltmaqçın onu heç məlhəm olmaz.

Verim gəl canımı, ey yar, yolunda,
Xəsisliklə məhəbbət bir dəm olmaz.

Mənə sənsiz cahanda can nə lazım,
Məhəbbət olmasa bir həmdəm olmaz.

Kimə salmış nəzər Sədi deyirlər,
Mənə yar ilə qəm çəkmək qəm olmaz.

Deməz dost sirrini heç düşmənə dost,
Rəqib insanə əsla məhrəm olmaz.



* * *

Can istə, sənə verim bu canı,
Asan görürəm hər imtəhanı.

Canınçın, inan ki, verməərəm mən,
Tək bir tükünə bütün cahanı.

Yox kimsəyə mehrin, ancaq aləm
Sanmış səni yar mehribanı.

Ay üzlü, nə fitnələr törətdin,
Yıxdın yerə sonsuz asimanı.

Təşbih edir, heyf, görməyənlər,
Şimşada o sərvi-dilsitanı.

Görsə qaşını əgər hər ovçu,
Almaz ələ seyd üçün kəmanı.

Sədi sənin eşqinə düşəndən,
Zülfün kimi nazik oldu canı.

* * *

Mən sənin tək incə dilbər görmədim,
Çox çiçək gördüm, belə tər görmədim.

Yox sənin tək yer üzündə bir gözəl,
Hüsnünə hurini bənzər görmədim.

Ay sənə olmaz bərabər, ay gözəl,
Gözlərin tək parlaq ülkər görmədim.

Mən sənin ləlin kimi al-qırmızı,
Bir dəyərli ləli, gövhər görmədim.

Yırtılar qarşında dinin pərdəsi,
Sən kimi heç yerdə kafər görmədim.

Çox gözəl gördüm cahan mülkündə mən,
Hüsnünə lakin bərabər görmədim.

Uymayırsan, Sədi, sən səccadəyə,
Mən sənin tək bir qələndər görmədim.

* * *

Xəbərin varmı ki, sənsiz mənim aramım yox,
Ayrılıqdan, gözəlim, xoş keçən əyyamım yox.

Vəsfini söyləyirəm hər zaman hər yerdə sənin,
Təkcə sənsən, mələkim, başqa güləndamım yox.

Meylim ancaq o qara xala nəzər salmaq idi,
Tora düşdü bu könül, çıxmağa əncamım yox.

Gecələr fikrim odur bir daha gün doğmayacaq,
Gündüz ancaq görürəm sevgilim axşamım yox.

Mənə düşmən kəsilə aləm əgər, nazlı nigar,
Səndən ilham alıram, başqa bir ilhamım yox.

Hiylə ilə qapına gəlməmişəm, tənə yetər,
Sənə mən bir köləyəm, izzəti-ikramım yox.

Canına and içirəm, sevgili dostum, gözəlim,
Düşmənin sözlərini dinləmək imkanım yox.

Sevirəm mən səni, lütfün ola, ya olmaya heç,
Baxışın bəsdi mənə, bəxşişim, ənamım yox.

Məncə heyvandır o insan ki, deyir: Sədi, mənim
Sevgiyə yox həvəsim, incə dilaramım yox.



* * *

Ətrafa ətir saçanda gülzar,
Ətrin dəyəri olarmı, ey yar!

Bülbüllər ötən kimi çəməndə,
Qalxır yuxudan bütün çəmənzar.

Zahidliyi atmışıq kənarə,
Səccadəyə heç uyarmı xummar?!

Bir məsləkə uysa cümlə insan,
Nə xirqə qalar, nə büt, nə zinnar.

Qalx uyqudan, ey xumar baxışlım,
Min fitnə edir zəmanə izhar.

Bir qəlbi alardı incə dilbər,
Minlərlə könül alır bu əyyar.

Nə getməyə iz, nə qalmağa üz
Məşuqə kədərli, biz giriftar.

Hər yarə vurursa, məncə xoşdur,
Hər cövrünü çəkməyə gücüm var.

Gəl al hər iki cahanımı sən,
Yalnız mənə yarı ver, ey əğyar!

Sədi deyir: uyma çox cahanə,
Min zülm eləyib bu köhnə qəddar!

* * *

Etdi o daş ürəkli, dün qəlbimi pərişan,
Getdi könül dalınca, tən qaldı yerdə bican.

Dürr saçdı gözlərimdən hicranı nazlı yarın,
Dərya kimi yaş axdı, sildim qolumla mərcan.

Yoxdu gümanım əsla gündüz ola qaranlıq,
Oldu səhər zamanı dünya gözümdə zindan.

Əsdi sərin küləklər, döndü behiştə hər yan,
Etdi səhər nəsimi sanki cahanı rizvan.

Gördüm nəsimi sübhün gəldikcə ehtizazə
Bağlarda qönçələr də çak eyləyib giriban.

Könlüm deyildi yalnız eşqə uyan cahanda,
Gülçün düşübdür eşqə bülbül olub qəzəlxan.

Bir dərd olub bu hicran, min nalədən sağalmaz,
Yoxsa mən eyləyərdim naləmlə hicrə dərman.

Qalxdı o gizli pərdə, razi büruzə verdim,
Səbr ilə etmək olmaz qəlbində dərdi pünhan.

Sığmaz iki məhəbbət bir qəlbə, Sədi, əsla,
Tərk eylə canı getsin, qalsın könüldə canan.

* * *

Hər yerdə gözəl görsəm, göz çəkmək olur müşkül,
Kim etsə nəsihət də, qalmış yenə bihasil.

Yar olsa əgər dilbər, hər cövrü bizə xoşdur,
Görsəm üzünü bir an, hər dərdim olar zail.

Pəhriz eləyirdim mən əvvəlləri hər yerdə,
İndi görürəm olmuş hər söylədiyim batil.

Qatil sanır alimlər zəhri, fəqət aldanma,
Yar versə əgər zəhri, iç, sanma onu qatil.

Fərzanələr hər yerdə divanə desinlər qoy,
Can tərki deyil asan, çox yaxşı bilir aqil.



Hər kəs ki deyir baxma dilbər üzə, boş sözdür,
Dilbər üzə baxmaqdan, söylə, kim olur qafil.

Yüz mənzil uzaq salsa hicran məni canandan,
Yar gözdən uzaq düşməz, könlümdür ona mənzil.

Hər kəslə olar asan dostluq eləmək, Sədi,
Peyvəndi fəqət qırmaq sonra görünər müşkül.

* * *

Canı tərk eyliyə bilər insan,
Yarı tərk eyləmək deyil asan.

Acı söz söyləsən də aşiqinə,
Bir şəkərdir sözün mənimçin, inan.

Tövbə etdim görüb uca boyunu,
Sərvdən bir söz açmayım, canan.

Söyləyə bilmərəm nişanəni mən,
Səni görcək könül olur heyran.

Salmısan bir kəməndə aşiqini
Ki, deyə bilməyir əlindən aman.

Vəsfini yazmaq istədim, amma,
Özümə söylədim ki, yazma dayan.

Elə şirinsən, ey gözəl dilbər,
Sənə layiq deyildir hər dastan.

Bülbül istərmi heç onun gülünə
Söz qoşa bağça-bağda bir bağban.

Hər kəsin varsa yarına nəzəri,
Sirrini bilməsin gərək sarban.

Nə qədər eyləsə cəfa da rəqib,
Deməröm dərdimi sənə bir an.

Sözü yarə özün desən xoşdur,
Nəyə lazımdı başqa bir insan.

Sədinin etdiyi hekayələri
Hər ağızda gəzər, bilər bu cahan.

* * *

Səfərindən yenə yarım qayıdıb tazə gəlib,
Misrdən şəkkərimiz bir daha Şirazə gəlib.

Canımı almağa qəsd eylədi şahin baxışın,
Bir göyərçin kimi könlüm quşu pərvazə gəlib.

Dinimiz, şöhrətimiz getsə də yoxdur zərəri,
Dərd, bəla harda ola aşiqi-canbazə gəlib.

Bu cigər yandırıcı dağ ki var sinəmdə,
Dağa dəymiş alışıb dağ yanıb avazə gəlib.

Mən o günki üzünü gördüm o dilbər gözəlin,
Söylədim: aşiqi cəzb etmək üçün nazə gəlib.

Nə qədər ağla gələn incə gözəllik var isə,
Şübhə yoxdur ki, bizim dilbəri-mümtazə gəlib.

Sən qayıtdın, gözəlim, oldu gözüm içrə yerin,
Sədini gördü, hamı hörmətə, ezazə gəlib.

* * *

Sənə olsam fəda, könüldür şad,
Dostları etməyirsən əsla yad.

Bizə lütf ilə baxmadın, keçdin,
Sərv olmaz sənin kimi azad.



Afərinlər elə ata-anaya
Ki, yetirmiş sənin kimi övlad.

Bəxt yaxşı olar, ümid olsa,
Bədnəzər etməsə işi bərbad.

Çəkdi nəqqaş sən kimi gözəli,
Etdi dünyadə fitnələr icad.

Tutaram şahı yolda mən bir gün,
Çəkərəm yarımın əlindən dad.

Almasa intiqamımı Xosrov,
Can verib ömrü eylərəm bərbad.

O xumar gözlərin olub sərxoş,
Etməyir könlümü mənim azad.

Eşq ilə əgl bir yerə sığmaz,
Muzdurun dərdini çəkər ustad.

İstədim bağlayım səfər yükünü,
Yerim olsun ya Bəsrə, ya Bağdad.

Fars mülkündən özgə mənzil yox,
Misr ola, Şam, Bəsrə, ya Bağdad.

Məni cəzb eylədi bu Şirazın
Torpağı, bir də ki bu Rüknabad.

Eşq üçün torpağa düşən şəxsə
Eşq qəsd eyləyib olar cəllad.

Tələdən vəhşi quş ki hürkürdü,
Onu seyd eylədi bu gün səyyad.

Hamı yaddan çəkirsə dərd, Sədi
Öz əlindən, yazıq, edir fəryad.

* * *

Gəldi bahar, öt nəğməni, ey bülbüli şirinnəfəs,
Sən də mənim tək aşiq ol, zindanın olsun bir qəfəs.

Gündə sevir bir mehriban, namehriban canan hamı,
Mən sevmişəm bir dilbəri, çox eşqə düşməkdir əbəs.

Sən karivanın halını məndən soruş, ey sariban,
Yat sən, oyanma, yat əgər, zəng salsa da ətrafa səs.

Bağlanmışam bir bəndə ki, etməz nəsihətlər əsər,
Qaçsam ayıq ollam, mənim olmaz yerim bir də qəfəs.

Hər kəslə əyləşsəm bir an, yad etməsə yarı könül,
Sanki günəşsizdir günüm, müşkül olur çəkmək nəfəs.

Olsa yanımda dost mənim, vursa qılıncla düşmənim,
Bir yarə məftunəm, mənə təsir edərmi başqa kəs!

Mən karivanda müflisəm, kim qəsd edir, etsin mənə,
Qoymaz yanımda mütribi olduqca azğındır əsəs.

İstər nəsihət qıl mənə, istər kəməndə sal məni,
Divanəyə bir fərqi yox, heç bir şeyə etməz həvəs.

Dünyada saldın Sədini fəryadə, ey arami can,
Yetməzmi fəryadı onun, çat dadına fəryadı kəs.

* * *

Bir tiflsən öz-özünə heyran,
Tərifinə vardı çoxlu dastan.

Cövlan eləyib çəməndə heç sərv,
Olmaz belə sən kimi xuraman.

Hər kimsəyə söyləsəm inanmaz, –
Sinəndən olub günəş nümayan.



Səbr eyləmişəm nə görməsəm mən
Sənsiz mənə səbr yoxdu bir an.

Oldun nə üçün belə vəfasız,
Ey qaşı kəman, hanı o peyman.

Ümmid bizimlədir həmişə,
Çəkdikcə uzun bu dərdi-hicran.

Var qorxu bu işdə ki, nəhayət,
İskəndərə çatmaz abi-heyvan.

Hicran qəmini çəkən sağalmaz.
Duymazsa ətir o gül yanaqdan.

Bir dilbər əlində qaldı könlüm,
Aldı canımı sevimli canan.

Aqil gərək etməsin şikayət.
Dərdə tapılarsa yaxşı dərman.

Eşq atəşinə yananda Sədi,
Rəhm etməz ona, ay üzlü canan.

* * *

Görürük indi də xoşbəxtliyi falında onun,
Könül əndişədədir, göz də xəyalında onun.

Güzgüdə yar görər ancaq özü tək bir gözəli,
Olmaz aləmdə gözəl hüsni-cəmalında onun.

Yüz könül cəzb eləyir eşqi o dilbər sənəmin,
Hamının meyli olur daneyi-xalında onun.

Can verir, baş verir aşiq onun hər addımına,
Kimdə var cürət ola meyli vüsalında onun.

Düşsə bir quş, tələyə çırpına yüz dəfə əgər,
Qaçmağa qüvvət olarmı pərü balında onun.

Leylini hər sevənə söyləmək olmaz Məcnun,
Dəlilik olmalıdır eşqdən halında onun.

Peşəsi qanımı tökməkdi hərami gözünün,
Dostluğum tutmaz, həram vardı həlalında onun.

Xoş olar dərdimizi vəsl günü yarə desək,
Yoxsa məşuqə qalar vizrü vəbalında onun.

Sədinin dərdini bilmək sənə müşkül görünər,
Dərd çəkənlər olar, əlbəttə ki, halında onun.

* * *

Yar odur hər nə eyləsə dildar,
Deyə əlbəttə ixtiyarın var.

Qaç o kəsdən ki, görsə qəmli səni,
Yadlara eybini edə izhar.

Yar üçün yük daşı, gülün ətəyi,
Ehtimal eylə ki, olur dolu xar.

Eşqə mənzil olubdu meyxanə,
Orda şöhrət təmam olub inkar.

Uyma öz nəfsinin həvasına sən,
İt sümük eyliyər həmişə şikar.

Gecədə bir gözəl yanında olan,
Olar hər gün, yəqin ki, məsti-xumar.

Məncə aşiq odur həmişə sevə,
Yalnız bir gül üzlü incə nigar.

Sədidir indi eşq sultanı,
Eyləyib ən gözəl qəzali şikar.



* * *

Bülbüllərin nəvası həmişə səhər olur,
Kim yatsa sübhdən əbədi bixəbər olur.

Hər ox atanda sevgili canan kəman ilə.
Biçarə aşiqin sinəsi bir sipər olur.

Eşqin yolunda aşiq olan can verib keçər,
Can verməyənçin eşq yolunda xətər olur.

Hüsnün verir günəş tək işıq cümlə aləmə,
Kimdə sənin kimi, gözəlim, xoş nəzər olur.

Varmı görüb gözəl üzünü verməyən könül,
Varsa onun həyatı bütün bisəmər olur.

Yar qaşqabaq töküb acı söz söyləyəndə də
Hər cümləsi onun, elə bil ki, şəkər olur.

Aqil həmişə dərdi-bəladən uzaq gəzər,
Aşiqlərinsə sevdiyi hər an kədər olur.

Sədidə yoxdu yol yerimək taqəti, inan,
Quş tək sınıb qanadları, ömrü hədər olur.

* * *

Bir aşiqin olmuşsa sevda yeri bostanlar,
Bişübhə edər bihuş güllər onu, reyhanlar.

Gah nərə çəkir bülbül, gah köksünü yırtır gül,
Sən yadə düşən anda təsirsiz olur onlar.

Ey mehrin ürəklərdə, möhrünsə dodaqlarda,
Başlarda gəzir şurun, sirrinlə dolub canlar!

Uydum sənə əhd etdim, hər əhdi qırıb getdin
Sevdim səni, ey canan, getdi heçə peymanlar.

Xari-qəmi-eşqinlə dolmuş ətəyim, ey gül,
Verməz mənə bir şadlıq, bişübhə, gülüstanlar.

Düşsə belə bir dərdə kim xəstə olub yatsa,
Təsir eləməz əsla versən ona dərmanlar.

Axtarmağa mən yarı çəksəm də əziyyətlər,
Yormaz məni, incitməz düzlərlə biyabanlar.

Ox uçsa kamanından, bir qəlbi edər yarə,
Vardır sənə, ey canan, mən tək neçə qurbanlar.

Yay qaşlı, kaman qaşlı yar sevsə əgər aşiq,
Olmuş o sipər, uçsa, dəysə ona peykanlar.

Sədiyə demə: yazma eşqindən onun bunca,
Eşqdən dediyim itməz, keçsə neçə dövranlar.

* * *

Arifləri əzməkdə hər zərbeyi-cövganın,
Hər top düşə qoymaz ki, çıxsın onu meydanın.

Çıxsa günəş hər kəsçin dağdan ya düzənlikdən,
Olmuş günəşim lakin ağ sinəsi cananın.

Can təndə gələr rəqsə, şövqünlə əsib yellər
Bir şaxəni titrətsə yar hüsnü gülüstanın.

Yanmırsa mənə əsla daşdan yaranan qəlbin,
Cəzb etdi neçin qəlbi bəs çahi-zənəxdanın.

Can vermək olar asan eşqində sənin, lakin
Layiq deyil olsun can, ey sevgili qurbanın.

Nəqqaş nəyə lazımdır qəsrində vura ziynət,
Oldun belə hüsnünlə sən ziynəti eyvanın.



Cövrünlə olum xəstə, yanında ölüm ancaq,
Öldürməsin, ey dilbər, bu aşiqi hicranın.

Ey badiyeyi hicran, canan bizə yar olsa,
Aşiqləri qorxutmaz heç xari-müğilanın.

Bundan sonra qorxum yox, yüz fitnə-fəsad olsa,
Salmış məni qovğayə, yar, qaməti-fəttanın.

Bilməzsən ölüm artıq, Sədi, qoca dünyada,
Canındı sənin çünki bundan sora cananın.

* * *

Nə qanad qalıbdı məndə, nə könüldə uçmaq halı,
Hara üz çevirsəm əsla yenə yox ümid məcalı.

Nə edirsən aşinalıq, nə də qaçmağa yolum var,
Qəmə düşməyən bilərmi nə olur qəm ehtimalı.

Nədir hasilim, desəm də qəmi ruzigarı yarə,
Onun olmayıb mənimtək gecəsi bir il misalı.

Mənə xoşdur ayrılıqda bütün ömrü sərf edərsəm,
Əgər olsa bir müyəssər yenə dövləti vüsalı.

Nə bilir zavallı dərdli nə çəkib ömür boyunca
O kəsin ki olmayıbdır kədəri, qəmi, məlalı.

Mənə bircə kəlmə söz de, elə eşqinə əsirəm
Ki, vücudumin mənimlə daha yoxdu iştiğalı.

Nə dayanmısan qiyamət, bizə göstər öylə qamət
Ki, sənubərin çəməndə gedə əldən etidalı.

Dəfi qoy kənarə, çal ki, gələ bərbət ehtizazə,
Ürəyi açan səsilə ola məclisin cəlalı.

Günəş üzlü sevgilim yar, üzünü görəndə göylər,
Sınar ay, olar səmadə səhərin zəif hilalı.

O qara xəti, o xalı elə bil qələm çəkibdir,
Süzülüb olubdu nöqtə ay üzündə incə xalı.

Demə, Sədi bir günahdır bizə ay cəmalə baxmaq,
O adam günahlıdır ki, görə bilmir ay cəmalı.

* * *

Biz bu şəhr içrə qəribik, bu mülk içrə fəqir,
Olmuşuq qeydi kəməndinlə giriftarü əsir.

Hamı dünyada gəzir qəlbi açıq, köksü açıq,
Zülfünü eyləmisən könlümüzə sən zəncir.

Göz çəkə bilmirəm əsla o gözəl hüsnündən,
Nə üçün məndən o şirin gözəlim gendə gəzir.

Varsa məndən gözəl aşiqlərin, əmma deyirəm
Hüsnüdə sən kimi dünyadə gözəl yar nə gəzir.

Vardı könlümdə edim canımı canənə fəda,
Sonra sandım canımı sevgili canançın həqir.

Dediyim sözləri dərddən sizə şərh eyləyirəm,
Atəşə düşməsə verməz xoş ətir mişki əbir.

Deməsəm də biləcək hali pərişanımı yar,
Rəngi ruxsarıma baxdıqda görər qəlbim əsir.

Çəkmərəm göz o xumar gözlə kəman qaşlardan,
Gözümü ovsa da xoşdur mənə yar atsın tir.

Mənə kim etsə nəsihət, edirəm çox heyrət,
Deyirəm aşiqə etməz dediyin söz təsir.

Gözəl üz, Sədi, yaranmış ona göz baxmaq üçün,
Göz gözəl görməsə dünyada könül olmaz əsir.



* * *

Şəm yanır, sən hələ getmə, dayan, ey qulam,
Sübh açıla bir görüm surətini mən tamam.

Saqi yatıb, mütrübə qalmadı məclis daha,
Dilbərimiz burdadır, məclisim eylər davam.

Bülbül edir naləni, sübh açılıbdır daha,
Gün saçıb ətrafə nur, keçdi daha getdi şam.

Varımızı tərk edib, tək sənə uyduq bu gün,
Hər nə pəsənd eyləsən, aləmə olsun haram.

Bağla məni istəsən, istəsən azad elə,
Sən kimi bir ovçuda möhkəm olar hiylə, dam.

Düşməsə hər kəs oda, bizdən olar bixəbər,
Yanmış olanlar bilər kim, nədi sövdayi-xam.

Düşdüm o əndişəyə, olmaya çirkin adım,
Daş mənə qorxunc deyil, çünki daha sındı cam.

Sədi, əgər getsə ad sevgili canan üçün,
Qəm yemə, aşiq ölər, şöhrəti ölməz müdam.

* * *

Keçmiş gecə, ya rəb nə mübarək səhər oldu,
Yar gəldi mənim kuyimə, bu xoş güzər oldu.

Bundan sora hicran acısı qəlbimi sıxmaz,
Bir meyvə ki səbr ilə yetişdi, şəkər oldu.

Var yarda sədaqət, mənə baxdı yenə munis,
Yarın baxışı üstümüzə bir nəzər oldu.

Yanlışdı sənə ay deyim, ey sevgili canan,
Ay hüsnünü gördü gecələr dərbədər oldu.

Bir bağı-gülüstandı sənin hüsnü cəmalın,
Hər şaxəsinin meyvəsi parlaq qəmər oldu.

Dünyanı unutdum özümü bilmədim əsla,
Yardan o zaman ki mənə bir xoş xəbər oldu.

Mən istədim aləmdə yayım vəsfini, ey yar,
Ancaq iki aləm gözümə müxtəsər oldu.

Yarımla mən olsam, daha kimsə nəyə lazım,
Yar gəlmədi, dünya gözümə bisəmər oldu.

Kəskindi gözəl dilbərimin nazı qılıncdan,
Səbr etmək ilə könlüm ona bir sipər oldu.

Sədi, daha göz çəkmək olarmı o gözəldən,
Bir qəlb gedə əldən biləcəkmi nələr oldu?!



# Rübailər

1

Sən qonaq gələndə gecələr bizə,
Dönür gecələrim aydın gündüzə.
Deyirəm: şam sönsün, ay göydə batsın,
Günəş qonaq gəlib məclisimizə.

2

Boyunla ucalıb sərvü sənubər,
Dənizlər ağzından alıbdır gövhər.
Bənövşə görəndə sanıram, sənin
Saçını gətirib çölə küləklər.

3

Dostluq ilqarını pozanda dildar,
Tutdum ətəyindən onun biqərar.
Dedi: get, yuxuda görərsən məni.
Dedim: sənsiz yuxum olarmı, ey yar?

4

Söz verdi bir gecə məni şad etsin,
Qüssədən qəlbimi yar azad etsin.
O gündən nə qədər gecələr keçdi,
Yar bir də verdiyi sözü yad etsin.

5

Madam ki, yarından dönmürsən, könül,
Hər dərdə edəsən gərək təhəmmül.
Ya əl çəkməlisən çəməndə güldən,
Ya tikən görəsən dərəndə bir gül.

**6**

Deyirlər: yarında tünd xasiyyət var,
Layiqmi sevəsən elə bir nigar?
Deyirəm: girməyin araya, billah,
Yaxşı da, yaman da olsa, xoşdu yar.

**7**

Sanmayın dərdimi təbiblər bilər,
Məhəbbət dərdini həbiblər bilər.
Məni sevgilimin dərdi öldürür,
Bu sirri açmayın, qəriblər bilər.

**8**

Yüz yol tapşırıram hər axşam, səhər,
Yanında saxlama güzgü, ey dilbər.
Sən özün-özünə heyran olarsan,
Əgər ayinəyə salsan bir nəzər.

**9**

Gözümün önündən o sərv ötəndə,
Şux gözü qəlbimi saldı kəməndə.
Kimsəyə sən könül verməsən, gərək
Gözünü yumasan gözəl görəndə.

**10**

Yazıq o insan ki, sənə məftundur,
Qəlbi qanla dolu sanki Ceyhundur.
Əbədi ayrılsa səndən neyləyər,
Bir an ayrılanda səndən məhzundur.

**11**

Nə geysən yaraşar sənə, sərvnaz,
Bez geysən əynində görünər atlas.
Üzünə bir dəfə kim nəzər salsa,
Yaşadıqca səni əsla unutmaz.



**12**

Düşsə bir ahunun dalınca aslan,
Hürküyə düşməzmi o nazlı ceyran?
Buz suyun içində əriyib gedər,
Qar günəş altında qalarmı bir an?

**13**

Cananla hamama getmişdim xəlvət,
Gil sürtdü üzünə o nazlı afət.
Dedi: məni belə görsə kim sevər?
Əskilməz günəşdən, dedim, lətafət!

**14**

Yaqut dodağını görüb aynada,
Ağzının sirrini yar salıb yada
Ahəstə söylədi: bunu əmməkçin,
Nə canlar dodağa gəlib dünyada.

**15**

Şəkər dilli, pəri çöhrəli canan,
Heyifdir üzünü eyləsən pünhan,
Çirkinlər bürünər qara çadraya,
Ay gərək siyrilsin qara buluddan.

**16**

Baharda dağlardan çağlayan sellər
Ən möhkəm daşları sındırıb əzər.
Sonsuz sellər axır göz bulağımdan,
Neçin daş qəlbinə eyləmir əsər.

**17**

Bu gecə açılmaq istəmir səhər,
Quşlar da nədənsə ötmür nəğmələr.
Sanki daşdan çıxır bu səhər günəş,
Sübhəcən dağlara salmışam nəzər.

18

Sənsiz, lalə üzlüm, laləzarım yox,
Bahar buluduyam, növbaharım yox.
Üzünü görməyi edirəm arzu,
Sənsiz bir dəqiqə heç qərarım yox.

19

Yazıq o qəlbə ki, nəğməni duymaz,
Qəlbi daş olanlar sevgiyə uymaz.
Eşqi duymayanlar nəğmə duyarmı?!
Bir könül yanmasa tüstüsü çıxmaz.

20

Hardasan, deyilsən ağuşumda yar,
Dünən yanımdaydın, ey dilbər nigar.
Yanımda olmasan belə, ay gözəl,
Sanma dərdli könül səni unudar.

21

Gülsəydi üzümə əgər bu dövran,
Canımı o sərvə edərdim qurban.
Yolunda torpağa dönərdim, ancaq
Qorxuram üstümdən keçməsin canan.

22

Bizə lazım deyil limon, heyva, nar;
Səndə şəkər də var, püstə də, ey yar.
Nar gözəl deyildir məmələrindən,
Buxağında narınc kimi ətir var.

23

Qəlbini qəmlərə eyləmə əsir,
Başının üstünü qocalıq kəsir.
Düşməndən şikayət etsən də dosta,
Dostun cəfasına tapılmaz tədbir.



24

Nə qədər şirinsən, duzlu, göyçəksən,
Nə Aysan, nə Günəş, nazlı çiçəksən.
Başqaları kimi sən də adamsan,
Yox-yox, səhv edirəm, sən bir mələksən.

25

Bülbülüm, səndə var şirin bir nəfəs,
Dilindir yerini eyləyən qəfəs.
Darıxma, dostlara yetirər bir gün
Səni qəlbindəki o coşqun həvəs.

26

Qulam o şəxsə ki, sevib bir nigar,
Ya canan eşqinə olub giriftar.
O kəs ki, nə aşiq, nə məşuqədir,
Ömür sürməyinin nə mənası var?!

27

Məst edib gözünü, sevgilim, şərab,
Ariflər susuzdur, vüsalın sərab.
Suda, ya güzgüdə əks olar hüsnün,
Vəsfini yazmayıb hələ bir kitab.

28

Bildin neçin çıxdı ağzımdan bu raz?
Çünki könlüm quşu eylədi pərvaz.
Yarın cəfasından neçin inlədim, –
Polad bədənlidə zəiflik olmaz.

29

Əlin olsa əgər rəvan qanımda,
Sanma dərd duyaram şirin canımda.
Hardasan, deyilsən ağuşumda yar,
Bezirsən qalanda mənim yanımda?

## 30

Ayıq başım sənin eşqində məstdir,
Xoşdur məhəbbətin qəlbimə qəsdi.
Sənsiz bu cahanı mən heç sanardım,
Cahan olmasa da sən varsan, bəsdir.

## 31

Vaizin cəzb etdi məni sözləri,
Xirqəyə büründüm günlərdən bəri,
Unutdum vaizin dediklərini,
Görüncə o sərvi boylu dilbəri.

## 32

Dedim ki, salmayım sənə mən nəzər,
Başqa eşqə olsun ürəyim sipər,
Nə qədər baxıram, ey gözəl pəri,
Görmürəm mən səndən yaxşı bir dilbər.

## 33

O qəlbi daş kimi vəfasız dildar,
Hamıya şəm olub məni yandırar.
Neyləyim, əzəldən bəxtim belədir,
Yar düşmən də olsa, deyil günahkar.

## 34

Gəldi-gedərlərə vurulsa hər kəs,
Arifin gözündə yaxşı görünməz.
Qazi fitva verir iki şahidlə,
Aşiqə eyləyir bircə gözəl bəs.

## 35

Deyirlər, gözəldir ilk bahar olsa,
Bülbülün nəğməsi, şən gülzar olsa.
Bunlar xoş olardı mənimçin, əgər
Yanımda sevimli bir nigar olsa.



# Qitələr

Bir arif eyləyib mənə nəsihət,
Deyirəm yadında qalsın bu hikmət:
Nəyi ki, özünə rəva görmürsən,
Rəva görmə başqa şəxsə də, əlbət.

* * *

Yarasa gündüzdən olmur xəbərdar,
Bununçun günəşin nə qüsuru var?!
Məncə kor yaxşıdır o gözlüdən ki,
Göz yumub günəşi eyləyir inkar.

* * *

Bunu yaxşı bilir ağıllı insan,
Yamana yaxşılıq etməkdir nöqsan.
Edər qoyunlara böyük yamanlıq,
Etsə canavara yaxşılıq çoban.

* * *

Milçək bir gün dedi: çirkin hörümçək
Baldırın nazikdir, ayağın gödək.
Hörümçək söylədi: Toruma düşsən,
Dünya zülmət olar gözündə, milçək.

* * *

Salma həqarətlə yoxsula nəzər,
Bil ki, daşda olur dəyərli gövhər.
Nafənin xəttini həqir sanma gəl,
Nafədən alınır müşk ilə ənbər.

* * *

Nakəs olanlarda var belə xislət,
İki adam etsə əgər məsləhət,
Tez bədgüman olub düşər şübhəyə,
Deyər ki, eybimdən gedir bu söhbət.

* * *

Kiçikkən əzməsən qəddar düşməni,
Böyüyüb sonra o, məhv edər səni,
İlk çıxanda bulaq az olar suyu,
Böyüsə bağlamaq olmaz çeşməni.

* * *

Sındırsa qəlbini bir nadan əgər,
Arif buna görə çəkməz qəm, kədər.
Daş zərli kasanı sındırsa, daşın
Qiyməti artarmı, əskilərmi zər?!

* * *

İki kişi versə əl-ələ birdən,
Dəyirman daşını qaldırar yerdən.
On min adam gəlib versə əl-ələ
Dəyişdirə bilməz ziri zibərdən.

* * *

Zalimin nəfsidir zəhərli arı,
Sancmaqla incidir çox insanları,
Gün gələr əzilər ayaq altında.
Olmaz zalimlərin bir havadarı.



* * *

Bir insan qanını töksə hökmran,
Tökülər aləmdə çaylar qədər qan.
Gərək öldürəsən bir canavarı,
Başqa canavarlar qaçsın qorxudan.

* * *

Bir böyük şəhərdə olsa bir neştər,
Batar ayağına yoxsulun, deşər.
Tərəzi düzlükçün qiyas olsa da,
Zər olan tərəfə meyl edib düşər.

* * *

Arif tumarlamaz ilanı əsla,
İlan tumarlayan çəkər dərd, bəla.
Daş götür başını əzməyə dərhal,
Zəhərli bir ilan çıxsa qarşına.

* * *

Milçəyi qovmağa deyilsən qadir,
Ay uşaq, olarsan bir gün bahadır.
Bil qoca atanın qədrini onda,
Sən də qocalarsan, beş gün dünyadır.

* * *

Versələr hökmünə bütün dünyanı,
Bütün aləmləri, bu asimanı.
Qarunun gəncini, Cəmin mülkünü,
Dəymez incitməyə bircə insanı.

# QEYDLƏR VƏ ŞƏRHLƏR

## "BUSTAN"

*Alp Arslan* – Səlcuq sülaləsindən ikinci hökmdar, 1063-1073-cü illərdə hakimiyyət sürmüş. Böyük Səlcuq hökmdarı Məhəmməd Cəlaləddin Məlikşahın atasıdır.

*Baqrat* (*Bəqrat*) – təbiblər atası sayılan qədim yunan həkimi Hippokrat.

*Bağdad* – ərəb İraqının mərkəzi; orta əsrlərdə xilafətin və Əbbasilər sülaləsi xəlifələrinin mərkəzi və əsrlərlə böyük mədəniyyət mərkəzi olmuşdur. Sədi və bir çox başqa məşhur adamlar orada təhsil almışlar.

*Bijən* – İran eposunun qəhrəmanlarından əfsanəvi bir pəhləvan. Turanlılar Bijəni bir quyuda həbs etmişlər, Rüstəm Zal gəlib onu xilas etmişdir. Bijənin Mənijəyə aşiqliyi "Şahnamə"nin məşhur hekayələrindəndir.

*Bilqis* (*Bəlqis*) – Səba məmləkətinin əfsanəvi məlikəsi (bu ad Azərbaycanda Bilqeys şəklində işlənir).

*Bisütun* – Kirmanşah yaxınlığında dağdır. Üzərində Həxamənilər sülaləsi ilə əlaqədar mixi əlifbasında yazı var.

*Bəsrə* – cənubi İraqda bir şəhər

*Bəhmən* – İran eposunun qəhrəmanlarından biri, İsfəndiyarın oğludur. Rüstəm Zalın nəslindən öz atasının intiqamını almışdır.

*Bəhrami-Gur* – Sasanilər sülaləsindən 420-438-ci illərdə İranda padşahlıq etmiş hökmdar. İran əfsanələrində Bəhrami-Gur mahir bir ovçu və eyşü-işrət məclislərini sevən adam kimi təsvir edilir.

*Beytül-müqəddəs* – Yerusəlimin - qədim Fələstinin mərkəzi.

*Cəm* – Cəmşid adının qısaldılmış şəkli.

*Davud* – Tövrata görə, bir padşah olmuşdur. İslam əfsanələrinə görə, Davud dəmiri əlində muma döndərən mahir bir dəmirçi imiş. Guya zirehi ilk dəfə Davud qayırmışdır. Dinlər tarixində Süleyman peyğəmbərin atası sayılır.

*Dara* – İran şahlarının Keylər sülaləsinə mənsub hökmdar.

*Dəməşq* – Suriyanın mərkəz şəhəri; orta əsrlərdə Əməvilər sülaləsi xəlifələrinin də mərkəzi olmuşdur.

*Dəclə* – daxili Asiyada axan nəhəng çay. *Əbdül Əziz oğlu* – ikinci Ömər, Əməvilər sülaləsindən 717-720-ci illərdə xəlifə olmuşdur.

*Əbubəkr ibn Səd* – Fars hökmdarı (1226-1260), Sədinin təxəllüsü bunun atasının, yəni 1195-1226-cı illərdə Farsda hökmdar olmuş Sədin adından alınmışdır; Sədi, yəni Sədə mənsub. Bundan başqa Səd həm də xoşbəxtlik deməkdir. Həm Səd, həm də onun oğlu Əbubəkr dövrün güclü hökmdarları ilə – Xarəzmşahlarla və xüsusən moğollarla – bollu qızıl verərək sazişə girib,



ölkədə asayiş yaratmağı bacarmışlar. O, Əbubəkri ağıllı və ədalətli bir şah kimi qəsidələrində dəfələrlə mədh edir.

*Əbu-Zeyd* – Yaxın Şərq tarixində bu adda bir neçə şəxsiyyət vardır. Burada Sədinin nəzərdə tutduğu şəxs – bir sıra elmi, fəlsəfi və filoloji əsərlərin müəllifi Bəsrəli Əbu-Zeyd Ənsaridir. 772-ci ildə, təxminən yüz yaşında ölmüşdür.

*Əzüd* – İranın cənubunda və qərbində onuncu əsrin ikinci yarısında hökmdarlıq etmiş padşah.

*Əfrasiyab* – qədim Turanın əfsanəvi padşahlarındandır. İran şahlarının amansız düşməni imiş. On iki il İranda hakimiyyət sürmüş, nəhayət, Keyxosrovun əlində ölmüşdür.

*Fərhad* – Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında surət ("Ümman"dan sonra)

*Ğur* – Heratın şərqində dağlıq bir vilayətdir. XII əsrdə Ğurun mülkədarları arasında qüvvətli bir sülalə – Ğurilər sülaləsi çıxmış, az zamanda Xorasan vilayətinə, indiki Əfqanıstana və Hindistanın bir hissəsinə malik olmuşdur.

*Gorgin* – İran eposunun qəhrəmanlarından əfsanəvi pəhləvan.

*Güşyar* (*Guşyar*) – onuncu əsrin ikinci yarısında yaşamış ulduzşünas bir alim.

*Hicaz* – Ərəb yarımadasında yerləşən yaşayış sahəsi ("Hatəm"dən sonra).

*Hörmüz* – Nuşirəvan Adilin dördüncü oğlu, 579-590-cı illərdə onun varisi olmuşdur. Vəzirlərindən həmişə şübhəli olduğu üçün onlarla pis rəftar etmişdir. Saray adamları onu taxtdan salıb, yerinə oğlu Xosrov Pərvizi padşah qoymuşlar.

*Xizr* (*Xızr*) – dini əfsanələrdə möcüzələr göstərən Xizr peyğəmbər.

*Xosrov* – Sasanilər sülaləsindən Xosrov Pərviz adı ilə məşhur olan və 590-628-ci illərdə hökmdarlıq etmiş İran şahı. Onun oğlu Şiruyə, hələ taxtdan əl çəkən atası Xosrov sağ ikən, əyanlar tərəfindən taxta çıxarılmışdır. Şiruyə hökumət başına keçərək, onun əmri ilə atası Xosrov həbsxanaya atılmış, orada da öldürülmüşdür. Xosrov Pərvizin həyatı, onun Şirin ilə münaşiqəsi Nizaminin "Xosrov və Şirin" poemasında və yenə bu mövzuda yazılmış bir sıra poemalarda təsvir edilmişdir. Bu əsərlərə görə, Şiruyə gecə ikən Xosrovun yataq otağına girib onu öldürmüş, özü də beş-altı ay hakimiyyət sürəndən sonra taun xəstəliyindən ölmüşdür.

*Xütən* – Şərqi Türküstanda yerləşən şəhər.

*Xəlil* – İbrahim Xəlil peyğəmbər. Əfsanəyə görə, zalım padşah bütpərəst Nəmrud Xəlili, bütləri qırdığı üçün, oda atıb yandırmağı əmr etmiş, od Xəlili yandırmamışdır: Allah Cəbrayılı göndərmiş, o da od tonqalını gülşənə çevirmişdir.

*İskəndər* – Zülqərneyn ləqəbi ilə məşhur Makedoniyalı İskəndər. Eramızdan 330 il qabaq Daranı məğlub edib, İranı fəth etmişdir. O, orta əsrlərdə

Yaxın Şərqdə ən ağıllı hökmdar kimi şöhrət tapmışdır. Nizaminin "Şərəfnamə" və " İqbalnamə"si İskəndərin həyatını təsvir edir.

*İsfəndiyar* – İranın əfsanəvi padşahlarındandır. Keylər sülaləsi şahlarından Kəştasbin oğludur. Məşhur Rüstəm Zalın rəqibi olmuşdur. Firdovsinin "Şahnamə"sində İsfəndiyarın Rüstəm ilə davası təsvir olunmuşdur.

*Kərx* yaxud *Kərxi-Firuz* – Bağdadın yaxınlığında bir yerdir. Rəvayətə görə, məşhur zahid Məruf Kərxi buradan çıxmışdır.

*Qızıl Arslan* – Azərbaycanda 1136-1225-ci illərdə hakimiyyət sürmüş Eldənizlər nəslindən bir hökmdar. Hakimiyyət dövrü 1186-1191-ci illərdir. Xaqaninin müasirlərindən məşhur şair Zəhir Faryabi Qızıl Arslanın məddahı olmuşdur.

*Mustafa* – Məhəmməd peyğəmbərin adlarından biri.

*Məmun* – Abbasilər sülaləsindən 813-833-cü illərdə xəlifəlik etmiş yeddinci xəlifə.

*Mənat* – İslamiyyətdən əvvəl ərəblərin sitayiş etdikləri bütlərdən birinin adı.

*Məruf* yaxud *Məruf Kərxi* – Əbu Məhfuz ibn Firuz – xristianlıqdan dönüb müsəlman olmuş və 815-ci ildə vəfat etmiş məşhur sufi və zahid.

*Nil* – Afrikanın şimal-şərqində axan çay.

*Rüknabad* – Deyləmi hökmdarlarından Rüknüddövlənin Şirazda çəkdirdiyi kanal.

*Rüstəm* – İran xalqlarının Rüstəm Zal adı ilə məşhur əfsanəvi pəhləvanı; "Şahnamə"nin Keylər tarixi hissəsinin baş qəhrəmanı.

*Rəxş* – Rüstəm Zalın məşhur atının ləqəbi.

*Sana (Səna)* – Ərəbistanda Yəmən vilayətinin mərkəzi olmuş qədim bir şəhər adıdır. Bu adda Dəməşqin yaxınlığında da bir şəhər olmuşdur.

*Sindbad* – kitab adı. Bu kitab "Min bir gecə"yə bənzər hekayələr məcmuəsidir. Əsli, başlığından anlaşıldığı üzrə, hind dilində olmuş, onuncu əsrdə farscaya tərcümə edilmişdir, on birinci əsrdə şair Əzrəqi bu tərcüməni nəzmə çəkmişdir. Nə ilk mənsur tərcümə, nə də Əzrəqinin mənzum tərcüməsi bizə gəlib çatmamışdır. On ikinci əsrdə bu əsər yenidən nəsr ilə işlənmişdir. Sədi ya bundan, yaxud Əzrəqinin tərcüməsindən istifadə etmiş olmalıdır.

*Sistan* – İranın Zabilistanla sərhəd vilayətlərindən biri.

*Sumnat* – Hindistanda ay allahı ayinlərinin mərkəzidir.

*Süleyman* – əfsanəvi Süleyman peyğəmbər; eyni zamanda padşah olmuşdur. Rəvayətə görə, Süleymanın sehrli bir üzüyü varmış ki, onun vasitəsilə bütün heyvanlara, quşlara, küləyə və cinlərə hakim imiş. Bəzi qədim tarixçilərin fikrincə, Fars vilayəti Süleyman məmləkətinin mərkəzi hissəsi olmuşdur.

*Səba* – qədim Yəmən şəhərlərindən biri və qadın padşah Bilqeysin (Bəlqis) məmləkətidir. Rəvayətə görə, Nuhun nəvələrindən olan Səba tərəfindən salındığı üçün belə adlanır.



*Şiraz* – İranın mərkəz şəhərlərindəndir ("Şəğad"dan sonra).

*Şirin* – Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının qəhrəmanlarından biri.

*Şiruyə* – Bax: *Xosrov.*

*Şəğad* – Rüstəm Zalı xaincəsinə öldürmüş ögey qardaşı. Bu cinayətin qüvvətli bədii təsviri " Şahnamə"də verilmişdir.

*Toğrul (Doğrul)* – Səlcuq sülaləsinin birinci hökmdarı, 1038-1063-cü illərdə hökmdarlıq etmişdir.

*Təkəş* – Xarəzmşahlar sülaləsindən 1172-1200-cü illərdə hökmdarlıq etmiş, Reyi və İsfahanı fəth etmiş bir hökmdar.

*Ümman* – şərqi Ərəbistanın sahil boyu vilayəti.

*Yunan* – Avropanın cənub-şərqində yerləşən ölkədir.

*Yəmən* – Ərəbistanda kiçik ölkə. Qasimilər dövründə İrana tabe idi.

*Zabilistan* və *Zabülüstan* – Rüstəm Zalın və onun nəslinin malikanəsi.

*Zal* – pəhləvan Rüstəmin atası.

*Zindərud* – İsfahan şəhərinin içindən axan bir çay.

## "GÜLÜSTAN"

[1] "Gülüstan" əsərinin müqəddiməsində, Allahın, peyğəmbərin və Şiraz hökmdarı Əbubəkr ibn Zənginin tərifi vardır.

[2] *Atabəy Səd ibn Zəngi* – Sədinin dövründə 1195-1226-cı illərdə Şirazın hakimi olmuşdur. Sədi ondan hədiyyə görmüş, öz təxəllüsünü onun adından götürməklə, "Gülüstan" əsərini ona ithaf etmişdir.

[3] Sünbülinin "Gəndistan" əsəri əlyazması halında olub Azərbaycan MEA Əlyazmaları İnstitutunda saxlanılır. Bu əsər eynən Sədinin "Gülüstan"ı kimi başlayıb həzli məzmun daşıyır. Bunu "Gülüstan"a bənzətmə və ya təhzil adlandırmaq olar.

[4] *"Kəcavədə həmnişinim və hücrədə həmdəmim"* ifadəsindən aydın olur ki, Sədini "Gülüstan" əsərini yazmağa təşviq edən şəxs, onunla birlikdə səyahətə çıxıb, məhrəm söhbətlər edən özü kimi bir şair olmuşdur. Təəssüf ki, Sədi bu dostunun adını aydın söyləmir.

[5] *Ordibehişt* – İran şəmsi təqviminin ikinci ayı olub, 21 aprel ilə 21 may arasında davam edir.

[6] *Nəqşi Ərjəngi, yaxud Ərtəngi* – Sasani (226-651) – hökmdarlarından I Şapur vaxtında (241-272) İranda məşhur olan rəssam Maninin kitabının adıdır. Orada ən gözəl, nəfis şəkillər mövcud idi. Bu ifadə altında bəziləri Çin rəssamlarının rəssamlıq sənətini də nəzərdə tuturlar.

[7] *Bozorçmehr* – Sasani padşahı Ənuşirəvanın (531-579) ağıllı vəziri olmuşdur.

[8] *Əlvənd dağı* – İranda Həmədan şəhərinin yaxınlığındadır.

[9] *Kənan...* Bu misrada "Yusif və Züleyxa" poemasının qəhrəmanı Yusifə işarə edilir. Qardaşlarının xəyanətilə quyuya salınmış, qul kimi satılmış, ona aşiq olan Züleyxanın (ağasının arvadı) böhtanı ilə yeddi il zindanda qaldıqdan sonra, nəhayət, şahlığa çatmışdır.

[10] *Loğman* – Tarixi şəxsiyyət olması məlum deyildir. Keçmişdə müxtəlif dövrlərdə Ərəbistan və Yunanıstanda bir neçə Loğman adlı həkim və alim şəxslərin yaşadığı qeyd olunur. Yaxın Şərq xalqlarının klassik poeziyasında və xalq ədəbiyyatında bütün xəstəliklərin çarəsini bilən bir həkim kimi məşhurdur.

[11] *Hekayət* – "Gülüstan" kitabında müxtəlif həcmli və müxtəlif məzmunlu, əsasən şeirlə nəsrin qarşılıqlı əlaqəsi ilə yazılan kiçik hikmətamiz hekayələr belə adlanır. Burada da eyni adla saxlanılmışdır.

[12] *Fridun* – Əfsanəvi Pişdadiyan sülaləsindən altıncı padşah hesab olunur. Atasını zalim Zöhhak öldürmüş, anası onu xilas etmişdir. Dəmirçi Gavə Zöhhakı taxtdan saldıqdan sonra onu taxta əyləşdirmişdir.

[13] *Mahmud Səbüktəkin* – Qəznəvilərin ən məşhur və qüvvətli hökmdarlarındandır. 997-1030-çu illər arasındakı hökmranlığı dövründə İran, Türküstan və Hindistanın əsas hissəsini öz hakimiyyəti altında birləşdirmişdir.

[14] *Nuşirəvan* – Sasani sülaləsinin ən məşhur hökmdarı olmuşdur. 531-579-cu illərdə hakimiyyət sürərək İran və eləcə də bütün Yaxın Şərq ədəbiyyatında ədalətli bir hökmdar surəti kimi mədh olunmuşdur. Guya Məhəmməd peyğəmbər onun zamanında doğulması ilə fəxr edirmiş. Həqiqətdə isə Nuşirəvan çox zalım olmuş və azadixah Məzdək hərəkatını dağıtmışdır.

[15] *Tur dağı* – Qırmızı dənizin şimalında Sina yarımadasında bir dağdır. Yəhudilərin peyğəmbəri sayılan Musa guya Misirdə peyğəmbərliyə çatdıqda onun dinini qəbul etməyən Firounu bütün qoşunu və əmlakilə dənizə qərq etmiş, sonra öz tərəfdarları ilə Tur dağına çəkilmişdir. Dini rəvayətə görə guya Allahla bu dağın başında danışarmış.

[16] Gördüyün hər meşə sanma ki, boşdur,
Bəlkə də yatmışdır orada qaplan.

Bu iki misranın farsca əsli belədir:

Hər **bişe** gəman məbər ke, **xalist**
Şayəd ke, pələng xofte başəd.

Burada "bişe" (meşə) və "xali" (boş) sözlərinin bir də "bisə" yəni "xallı daş" və "xal" kimi oxunması ilə əlaqədar olaraq, tədqiqatçılar bunun mənasını



"hər qaraltını xallı daş hesab etmə, bəlkə o yatmış pələngdir" kimi də izah edirlər.

[17] *Dünyadan yox olsa gər hüma quşu,*
*Bir kimsə sayəban etməz bayquşu.*

Hüma quşu qədim nağıl və əfsanələrdə dövlət quşu kimi təsvir olunur. Guya bu quş kimin başı üzərində uçub kölgə salsa, o padşah olar. Əslində isə belə bir quş həyatda mövcud deyildir. Klassik ədəbiyyatda mifik hüma quşu nə qədər dövlət və səadət simvoludursa, bayquş da o qədər fəlakət və bədbəxtlik simvolu kimi qələmə alınmışdır.

[18] *Günəşi bürüdü zil bir qaranlıq,*
*Guya ki, Yunisi udmuşdur balıq.*

Dini əfsanələrə görə qədim İsrail xalqı peyğəmbər Yunisi guya dəryaya atmış, dəryada isə bir naqqa balıq onu udub qarnında salamat saxlamış və sonra işıqlı dünyaya buraxmışdır.

[19] *Pislərə yar oldu Lutun arvadı,*
*Ayrıldı peyğəmbər xanədanından.*
*İtisə bir zaman et Əshabi-kəhfin;*
*Yaxşılarla getdi, oldu bir insan.*

Dini rəvayətə görə qədim Fələstində peyğəmbər olan Lutun arvadı onun dinini qəbul etməyənlərə qoşulub ərindən üz döndərmişdir.

"Əshabi-kəhf" isə dini əfsanələrdə adı çəkilən "Mağara sahibləridir" (əshab – sahiblər, kəhf – mağara). Hədislərdə nağıl olunur ki, qədim Misirdə Dəqyanus adlı zalım bir hökmdarın 6 nəfər saray xadimi onun zülmündən qaçır, yolda bir çoban da öz iti ilə onlara qoşulur. Gecələdikləri bir mağarada guya Allah onlara qiyamətə qədər əbədi yuxu vermişdir, onların hamısı, o cümlədən çobanın iti də guya behiştə gedəcəkdir və o dünyada Əshabikəhfin iti ilə Lutun arvadının dərisini bir-birilə dəyişəcəklər.

[20] *Zal bir gün söylədi oğlu Rüstəmə...*

Zal farsların qədim əfsanəvi qəhrəmanı, misilsiz pəhləvan Rüstəmin atasıdır. Onun atası Sam, anadan ağ tüklü doğulmuş, buna görə də ona qoca mənası verən Zal adını vermişdir.

[21] *Oğulmuş* – Atabəy Özbək ibn Məhəmməd Cahan pəhləvanın yaxın adamlarından və Sultan Əlaəddin Məhəmməd Xarəzm şahın əmirlərindən biridir. Həmədan, Rey və İsfahanın alınmasında Özbəyə kömək etmiş və hə-

min yerlərə hakim təyin edilmiş, nəhayət 1217-ci ildə İsmayili fədailəri tərəfindən öldürülmüşdür.

[22] *Əcəm* – Ərəblər ərəb olmayanları, türklər isə iranlıları əcəm, yaxud əcəmi (yəni əcnəbi) adlandırmışlar.

[23] *"Şahnamə"* – Əbülqasim Firdovsinin (934-1020) məşhur əsəridir. Firdovsi bu ölməz epopeyasında İranın ən qədim dövrlərindən başlamış VII əsrə qədərki hökmdar və qəhrəmanlarını, tarixi-əfsanəvi hadisələri nəzmə çəkmişdir.

[24] *Zöhhak* – İranın qədim tarixində əfsanəvi hökmdardır. Rəvayətə görə ərəb nəslindəndir. Guya İblis onun hər çiynində bir ilan bitirmiş və bu ilanlara hər gün iki cavanın beyni verilirmiş.

Bundan cana doyan xalq Dəmirçi Gavənin başçılığı ilə üsyan edib, Zöhhakı öldürmüş və Cəmşidin oğlu Fridunu taxta oturtmuşdur.

[25] *Cənnət əhli bir cəhənnəm sanar ikən erafı,*
*Cəhənnəmin əhli üçün eraf özü cənnətdir.*

Dini xurafata görə guya cənnət ilə cəhənnəm arasında aralıq bir sahə var ki, "eraf" adlanır.

[26] *Kasıb da, varlı da bu yerdə quldur,*
*Daha dövlətlisə, daha yoxsuldur.*

Bu beytdə tərki-dünyalıq və dünya nemətlərindən əl çəkmək kimi mistik ideya müdafiə edilir. Orta əsr mistikasına görə dünya insan üçün müvəqqəti mənzildir. Mal-dövlət isə insanı bu müvəqqəti aləmə daha çox bağlayır, qul edir, onu o dünyaya, əbədi aləmə getməkdə ləngidir.

[27] *Həccac Yusif* (Həccac-ibn Yusif Əs-Səqəfi, 661-715). Əməvi dövlətinin ən zalım hökmdarlarından biridir. Qəddarlıqda adı zərbi-məsəl olmuşdur. 20 illik hakimiyyəti dövründə 120 min adamı edam etdirmiş və 54 yaşında dəhşətli bir xəstəlikdən ölmüşdür. Burada "bu duanın həm sənə, həm də bütün müsəlmanlara xeyri vardır" cümləsinin mənası odur ki, əgər sən tez ölsən daha xalqa zülm etməzsən, o dünya üçün günahın nisbətən azalar və müsəlmanlar da sənin zülmündən qurtarar.

[28] *Hicaz* – Ərəbistanda Məkkənin daxil olduğu vilayətin adıdır.

[29] *Sahib-Divan* – Hülaku xanın (1217-1265) vəziri Şəmsəddin Cüveyninin ləqəbidir.

[30] *Darıxma iş görünsə bir qaranlıq quyuda*
*Çünki qaranlıqdadır o dirilik suyu da.*



Birinci misrada Yəqub peyğəmbərin kiçik oğlu Yusifin qardaşları tərəfindən quyuya salınıb sonra böyük səadətə çatması və ikinci misrada Makedoniyalı İskəndərin də axtarıb tapa bilmədiyi əbədi dirilik suyunun zülmətdə olduğunu fərz edən qədim əfsanə nəzərdə tutulur.

[31] *Xacə* – Ağa, cənab. Burada dünyanın dərdlərini, gələcəyin işlərini nəzərə almayan qayğısız dövlətli adam nəzərdə tutulur.

[32] *Qarun* – Musa peyğəmbərin adı ilə bağlı əfsanəvi bir varlı obrazıdır. Var-dövlətin çoxluğundan özünü hamıdan yuxarı hesab edib, peyğəmbərə tabe olmazmış. Guya buna görə də bütün var dövləti ilə birlikdə yerə batmışdır.

[33] *Əmr Leys* – Səffarilər sülaləsindən ikinci hökmdar olub. Yəqub ibn Leysin qardaşı idi. 900-cü ildə Əmir İsmayıl Samani tərəfindən əsir edilib Bağdada Abbasi xəlifələrindən Mötəzilbillahın hüzuruna göndərilmiş və orada edam edilmişdir.

[34] *Zəvzən* – Herat ilə Nişapur arasında bir vilayətdir.

[35] *Keyxosrov* – Qədim İran padşahlarından Kəyanilər sülaləsinin üçüncü hökmdarıdır. Firdovsinin "Şahnamə" əsərinə görə Siyavuşun oğlu və Keykavusun nəvəsi hesab edilir.

[36] *Zünnuni-misri* – Əbülfeyz Suban ibn İbrahim. Dövrünün məşhur ərəb alimi və ədiblərindən olmuşdur. 859-cu ildə ölmüşdür.

[37] *"Mən bu adamı qurban bayramı günü Bəsrədə görmüşəm"*. Müsəlman aləmində hacı ləqəbi Məkkəyə gedib Kəbəni ziyarət edən adamlara verilir. Bu ziyarət isə hicri qəməri ilinin zilhiccə ayının 10-da, qurban bayramı günündə icra olunur. Buna görə də qurban bayramı günü Bəsrə şəhərində olan adam oradan çox uzaqda olan Məkkədə bayram ziyarəti mərasimində iştirak edə bilməzdi.

[38] *Məlatiyyə* – Fələstin yaxınlığında şəhərdir.

[39] *Ənvəri (Ovhədəddin)* – Klassik fars şerinin görkəmli nümayəndələrindən biridir. Tus şəhəri yaxınlığında Əbivərd qəsəbəsində doğulmuşdur. Xüsusən qəsidə yazmaqda böyük şöhrəti vardır. Səlcuq hökmdarlarından Sultan Səncərin əvvəllər hörmətini qazanmış, sonralar isə nücuma dair baş verən bir hadisə nəticəsində onun qorxusundan Bəlxə qaçmış, 1209-cu ildə orada vəfat etmişdir.

[40] *Kəsra* – Ümumiyyətlə Sasani sülaləsi padşahlarına verilən addır. Burada isə Ənuşirəvan nəzərdə tutulmuşdur.

[41] *Harunərrəşid* – Abbasilər (750-1258) sülaləsinin ən məşhur xəlifələrindəndir. Onun hakim olduğu 786–809-cu illərdə xilafət çox qüdrətli olmuşdur.

[42] *Səxr cinni*– Əfsanəvi əsatiri div obrazıdır. Guya Süleyman Peyğəmbərin üzüyünü oğurlamışdır. Eybəcərlik və bədheybətlilik timsalıdır.

[43] *Mordad* – Hicr şəmsiyyə ilinin 6-cı ayı, 23 iyuldan 22 avqustadək davam edir.

[44] *Rəməzan* – Orucluq ayı. Hicri qəməri ilinin 9-cu ayıdır.

[45] *Rumlu İskəndər* (*Makedoniyalı İskəndər*) – Eranızdan əvvəl 330-cu ildə İran şahı 1-ci Daranı məğlub edib, bütün Yaxın Şərqi istila etmişdir. Nizami ölməz "Xəmsə"sinin son böyük poemasını onun haqqında yazmışdır.

[46] *Kəbə* – Ərəbistanda Məkkə şəhərində müsəlmanların böyük ziyarətgahıdır.

[47] *Əbdul Qadir Kilani* – İranda məşhur təriqət başçısı olub 1165-ci ildə vəfat etmişdir.

[48] *Məğrib dənizi* – Aralıq dənizi, bəzən də Qara dənizə deyirlər.

[49] *Cəbrail və Mikail* – Dini mövhumi mələikə adlarıdır.

[50] *Həfsə və Zeynəb* – Məhəmməd peyğəmbərin arvadlarından ikisinin adlarıdır.

[51] *Şeyx* – Böyük qəbilə və təriqət başçılarına deyilir. Şeyx həm dini və həm də inzibati başçıdır.

[52] *Birisi soruşdu qoca Yəqubdan:*
*Ey qəlbi nur saçan ağıllı insan.*
*Bir köynək iyini duydun Misirdən*
*Kənanda quyunu görmədin nədən?*

Yəqub məşhur "Yusif və Zuleyxa" dastanının qəhrəmanı Yusifin atasıdır. Əfsanədə deyilir ki, hələ kiçik ikən böyük qardaşları paxıllıq edərək (Kənanda) Yusifi quyuya salıb, atalarına öldü xəbərini gətirmişlər. Lakin, Yusif quyudan xilas edilib Misrə aparılır, uzun iztirablı sərgüzəştdən sonra o, Misrin hakimi olur. Aclıq ilində təsadüfən onun yanına gəlmiş öz qardaşları vasitəsi ilə köynəyini atasına göndərir. Köynəyin qoxusunu guya Yəqub hələ karvan Misirdən çıxmamış hiss etmişdi.

Bu şeirdə Peyğəmbər "uzaqgörənliyinin" yalan və uydurma olduğuna istehza edilir, çünki Yəqub peyğəmbər Misirdə oğlunun köynəyini gördüyü halda, yaxında onun düşdüyü quyuda onu görməmişdi.

[53] *Bəlbək* – Fələstində qədim şəhər olmuşdur, hazırda xərabəlikləri qalmışdır.

[54] *"Və nəhnu aqrabu ileyhv min həblil vərid"*. Quranda bir ayədir. Mənası: "Mən onlara (insanlara) boyunlarının şah damarından da yaxınam".

[55] *Vəqf malı* – Məscidə və dini-xeyriyyə idarəsinə məxsus olan mal, mülkiyyət.

[56] *Kufə* – İraqda şəhərdir.

[57] *Nəxleyi-Məhmud* – Məkkənin yaxınlığında bir məntəqədir. XII əsr Azərbaycan şairi Əfzələddin Xaqani qəsidələrinin birində onun adını çəkir.

[58] *Şeyx Əbülfərəc ibn Cövzi* (*1115-1201*) – "Bağdad nizamiyyə" mədrəsəsinin məşhur müəllimi olmuşdur. Müxtəlif elmlərə aid əsərləri var.



[59] *Hənəfi məsləki* – İslam dini təriqətlərindən biridir.

Hənəfi təriqəti VIII əsrdə yaşamış, islam dini təriqətşünaslarından biri olan Əbu Hənəfi tərəfindən yaradılmışdır.

[60] *Bəni-hilal* – Məkkənin yaxınlığında vaxtilə kiçik yaşayış məntəqəsi olmuşdur.

[61] *Bəhram əgər gur ovlayıb görünsə də qəhrəman,*
*O, zəifdir bir çəyirtkə sürüyən qarıncadan.*

Məşhur "Süleyman və qarışqa" təmsilinə işarədir. Yəni bir guru bütöv şişə taxması ilə şöhrətlənən Bəhram, əslində öz bədəninin çəkisindən çox-çox ağır çəyirtkə budunu götürə bilən qarışqadan qat-qat zəifdir.

[62] *Şam*– Suriya, Dəməşq.

[63] *Əbu Hüreyrə* – Məhəmməd Peyğəmbərin yaxın adamlarından idi. Əsl adı Əbdür-rəhman ibn Səxr Əzdidir Pişiklərə son dərəcə yaxından qayğı göstərdiyindən Məhəmməd peyğəmbər tərəfindən Əbu Hüreyrə, yəni pişiklərin atası ləqəbini alıb. Bu adla da məşhur olmuşdur. 694-cü ildə 78 yaşında ölmüşdür.

[64] *Beytül – Müqəddəs çölü* – Fələstində Yerusəlim şəhəri ətrafındadır.

[65] *Trablis* – Livanda şəhərdir.

[66] *Mürşüd və Mürid* – Keçmiş vaxtlarda orta əsrlərdə ədəbi-dini təriqətlərin başçısı mürşüd (böyük), tabeləri isə mürid adlandırılırdı.

[67] *Fiqh elmi* – Şəriətin, dini qaydaların şərhindən bəhs edir.

[68] *"Bir yatmışı başqa yatmış necə oyada bilər?"* – Sədi burada XII əsr Şərq klassiklərindən "Hədiqətül-Həqaiq" adlı əsərin müəllifi, məşhur sufi Sənaini nəzərdə tutur və onu tənqid edir.

[69] *Xanəqah* – Dərinşlərin və onların şeyxlərinin toplandıqları yer.

[70] *Səfa qardaşları* – Orta əsrlərdə "İxvani-səfa" adlı məşhur təriqət məclisinin adıdır, qardaşlıq və bərabərlik onların əsas şüarı idi.

[71] *Sərəndib* – Hindistanın cənubunda Seylonda şəhərdir.

[72] *Təqva* – Allah xofu, ədalət, rəhimdillilik. Burada din, iyman nəzərdə tutulur.

[73] *Qapından yeddi rəng pərdə, gəl, asma,*
*Sənin ki evində bircə həsir var!*

Yəni öz daxili xasiyyət və xarakterini gizlətməyə nə qədər səy göstərsən də, o yenə üzə çıxacaqdır.

[74] *Hatəmi-Tai* – Şərq xalqları ədəbiyyatında ən səxavətli və qonaqcıllıqda misilsiz nümunə göstərən şəxs kimi mədh olunur. Deyildiyinə görə, Ərəbistanın Tai qəbiləsindən olduğu üçün həmin ləqəblə məşhurdur.

[75] *Hələb* – Suriyada şəhərdir.

[76] *Firoun və Haman* – Qədim Misrin əfsanəvi hökmdarıdır.

[77] *Ərdəşir Babəkan (226-240)* – Sasani sülaləsinin banisi hesab edilir.

[78] *Vasit* – İraqda şəhərdir. Deyildiyinə görə o, Bağdadla Bəsrə arasında orta məsafədə olduğundan Vasit (vəsət) yəni orta adını almışdır.

[79] *Tatar müharibəsi* – XIII əsrin əvvəllərində baş verən monqol hücumu nəzərdə tutulur.

[80] *İskəndəriyyə* – Misirdə şəhərdir.

[81] *Musa* – Din tarixində məşhur peyğəmbərlərdən biridir. "Tövrat" adlı şəriət kitabı guya Allah tərəfindən onun üçün göydən enmişdir. Miladidən əvvəl 1571-ci ildə doğulub, 1451-ci ildə vəfat etdiyi qeyd olunur. "Musa" sözünün lüğəvi mənası İbrani dilində "Sudan xilas olmuş" deməkdir.

[82] *Bəsrə* – İranda şəhərdir.

[83] *Kiş adası* – Fars körfəzində adadır.

[84] *Rum* – Bizans.

[85] *...Çəksən Kəyan kamanını fələk tutub saxlayar.*

Burada Kəyan şahları xanədanı nəzərdə tutulur. Eyni zamanda Kəyan sözü böyük mənasını da ifadə edir.

[86] *Bəktaş* – ağa, cənab deməkdir. Xilbaş isə Samanilər (875-999) dövründə və ondan əvvəl saray xidmətçiləri içərisində vəzifə dərəcəsi idi.

[87] *Müsəlla* – Şirazda səfalı bir yerdir ki, məşhur İran şairi Hafizin qəbri də oradadır.

[88] *Əzüdüddövlə məqbərəsi* – "Gülüstan"ın 1310-cu hicri (şəmsi) tarixli Tehran nəşrində naşirin qeydinə görə, Əzüdüddövlə Deyləminin tikdirdiyi məqbərə olmalıdır.

[89] *Sufi* – dərviş, dünya nemətlərindən əl çəkib, əbədi aləm, axirət, Allaha qovuşmaq ideyası ilə yaşayan, tərki-dünya; sufilər öz əqidələri etibarilə müxtəlifdir.

[90] *Həkim Calinus* – Qədim yunan filosoflarındandır.

[91] *Səhbani-Vail* – İslamiyyətin ilk dövründə məşhur ərəb natiqi və alimidir.

[92] *Həsən Meyməndi* (xacə Əhməd ibn Həsən Meyməndi) Sultan Mahmud Qəznəvinin vəziri idi.

[93] *Xətib Əbülfəvarisin kobud səsi çıxanda,*
*Anqırtısı İstəxrdə qala yıxar bir anda*

"Əbülfəvaris" ərəbcə eşşəyə verilən məcazi addır, atın atası deməkdir. Yeri gəldikdə yuxarıdakı məzmunda məsəl çəkilir.

[94] *İstəxr* – İranda şəhərdir.

[95] *Sincar* – İraqda şəhərdir.

[96] *Ayaz* – Sultan Mahmudun ən sevimli qulu idi.



[97] *"...kəbini üzündən çox qocalmış qayınanası onun evində yaşamalı oldu".* Şəriətə əsaslanan kəbin əslində qadının bir əmtəə malı kimi alınıb-satılmasını rəsmiləşdirən bir sənəddir. Sözün buradakı mənası Azərbaycan dilində mehr sözü ilə daha çox ifadə olunur. Evlənən şəxs kəbin kəsdirdikdə müəyyən məbləğdə (bu əsasən qızıl, yaxud mal-qara ilə olur) qadın üçün mehr verdiyini qeyd edirlər. Əgər o arvadı boşasa, həmin vəd olunmuş məbləği, yaxud mal-qaranı qadına verməlidir.

[98] *Təmuz* – Keçmiş təqvimdə iyul ayına müqabil, yayın ən isti ayıdır.

[99] *Məhəmməd Xarəzmşah* – XIII əsrin əvvəlində Orta Asiya Xarəzmşah dövlətinin axırıncı hökmdarıdır. Çingiz qoşunu ilə qəhrəmancasına vuruşması ilə məşhurdur.

[100] *Kaşğər* – Qərbi Çində şəhərdir, eyni zamanda vilayət mərkəzidir.

[101] *Zəməxşəri* – Məşhur ərəb filoloqu (1075-1144).

[102] *Zeyd və Əmr* – Ərəb qrammatika kitablarında misallarda çox işlənən adlardır.

[103] *Xəfacə* – Məkkə zəvvarlarına tez-tez basqın edən köçəri ərəb tayfalarından biri.

[104] *İddə* – Qadının boşandıqdan sonra 3 ay 10 gün gözləməli olduğu əlavə vaxt. O, ancaq bu müddət qurtardıqdan sonra yenidən ərə gedə bilər.

[105] *Süheyl* – Göyün cənub dairəsində ən parlaq ulduzun adıdır.

[106] *Aquş və Arslan* – Məşhur qul və ən çox yayılmış türk adlarındandır.

[107] *Rahib* – Bütün həyatını kilsədə qapalı dini xidmətə, ibadətə sərf edən kilsə xidmətçiləri.

[108] *Salehin dəvəsi və Dəccalın eşşəyi* – Saleh rəvayətə görə keçmiş peyğəmbərlərdən birisi hesab edilir. O ibadətə çağırdığı xalqın tələbi üzrə ən parlaq, əlvan rəngli bir dəvə zühur etdirməklə möcüzə göstərmişdir. Dəccal isə guya qeyb olmuş XII imamın zühurundan əvvəl eşşək belində gələcək, yalandan özünü peyğəmbər elan edəcəkdir. Salehin dəvəsi nə qədər təmiz və gözəl sayılarsa, Dəccalın eşşəyi də o qədər natəmiz və murdar hesab edilər.

[109] *Nuhun Tufanı* – Guya ən qədim dövrlərdə peyğəmbər Nuh öz tayfasını yüz illərlə dinə çağırmış, qəbul etməmişlər, axırda böyük bir tufan olmuş, su bütün dünyanı basıb məhv etmiş, ancaq Nuhun çağırışını qəbul edib onun böyük gəmisinə minənlər salamat qalmışlar.

[110] *Biləqan, yaxud Beyləqan* – Ağcabədi yaxınlığında, xərabəliyi hazırda mövcud olan məşhur Orənqala şəhərinin keçmiş adıdır. V əsrdə binası qoyulmuş, 1221-ci ildə Çingiz qoşunları tərəfindən dağıdılaraq, uşaqdan böyüyə bütün əhalisi qılıncdan keçirilmişdir. XV əsrə qədər şəhər tam viranə halında qalmışdır. Görünür Sədi burada monqollardan əvvəl şəhərin abad vaxtında olmuşdur.

[111] *Mərdəşt* (*Mərvdəşt*) – İranda yer adıdır. Çini qablar bişirmək üçün yararlı mədən torpağı ilə zəngindir.

[112] *İbrahim* – Məhəmməddən əvvəlki peyğəmbərlərdən birisinin adıdır. O, Məkkədə islamiyyətdən əvvəl müqəddəs sayılan bütləri qırmaqda və təhqir etməkdə şöhrət qazanmışdır.

[113] *Abi-həyat* – Dirilik suyu, guya Zülmət səfərində İskəndər bu suyu axtarıb tapmamış, Xızr adlı peyğəmbər isə onu tapıb içmiş və əbədi olaraq yaşayır.

[114] *İmam Məhəmməd Qazalı* – Zeynəddin Əbu Hamid Məhəmməd ibn Əhməd Tusi XII əsr fars ruhani alimlərindəndir (1058-1111). Bağdadda Mədrəseyi-Nizamiyyədə müəllimlik etmişdir.

[115] *Ağac* – Keçmişdə Azərbaycanda və eləcə də bütün Qafqazda 7 kilometrə bərabər olan məsafə vahididir.

[116] *Cəmşid* – Qədim İran tarixində Pişdadilər sülaləsinin dördüncü padşahı sayılır.



# LÜĞƏT

## A

**Abid** – ibadətkar
**Abi-heyvan** – əfsanəvi dirilik suyu.
**Afət** – 1) bəla, müsibət, 2) məc. gözəl.
**Ağaz etmək** – başlamaq
**Ahəstə** – yavaş, asta.
**An** – vaxt, ləhzə, saniyə.
**Arami-can** – can rahat edən; məşuqə, sevgili.
**Aşiqi-canbaz** – eşqi uğrunda hər dərdə, hər təhlükəyə qatlaşan aşiq.

## B

**Bad** – külək, yel, ruzgar.
**Badi-səba** – xəfif yel, nəsim.
**Badiyeyi-hicran** – ayrılıq badəsi
**Bak** – qorxu
**Beytülhəram** – Kəbə, Məkkə şəhərində müsəlmanların məbədi.
**Bədxah** – pis niyyətli
**Bədnam** – pis ad, təhqir
**Bədr** – dolğun ay, on dörd gecəlik ay, bax: hilal.
**Bəqa** – daimilik, əbədilik.
**Bəni-adəm** – Adəm övladları
**Bərbət** – çalğı aləti, qopuz.
**Bərəhmən** – hindlilərin qədim dini olan brahma dininə tabe adam; bu dinin ruhani rəisi.
**Bəzzaz** – toxuculuq məmulatı satıcısı
**Bidad** – amansızlıq, zülm, ədalətsizlik.
**Bidil** – ürəksiz, qəmli; aşiq, eşqdən əriyən.
**Bihasil** – nəticəsiz, səmərəsiz.
**Bikar** – işsiz; avara; mənasız.
**Biqərar** – aramsız bişək – şüğhəsiz
**Bimar** – xəstə, azarlı.
**Bisəmər** – faydasız; səmərəsiz; mənasız.
**Bişe** – meşə
**Bünyad** – bina, əsas, təməl.

## C

**Canbaz** – canından qorxmayan, canı ilə oynayan.
**Cani-pak** təmiz ürək
**Cəhl** – avamlıq
**Cəng** – müharibə, vuruşma.
**Cil** – qamışın həsir toxunan bir növü ("lığ" da deyilir)
**Comərd** – ürəyi geniş
**Cövr** – zülm

## Ç

**Çah** – quyu; *çahi-zənəxdan* – çənə ortasındakı çuxur.
**Çak (eyləmək)** – yırtmaq, paralamaq.
**Çəng** – arfa növündən musiqi aləti; pəncə, caynaq.
**Çövgan** – cıdırda at üstündən top tutub almaq və qaçırmaq üçün işlədilən ucu əyri ağac.

## D

**Darüssəlam** – Bağdad şəhərinin köhnə adı.
**Dəbilqə** – hərbilərə məxsus dəmir papaq, miğfər.

**Dəf** – uzaqlaşdırma
**Dərban** – qapıçı
**Dərbədər** – avara
**Dəvvar** – dövredən, fırlanan ("dəbilqə"dən sonra)
**Dilaram** – ürək sakit edən, könlü rahatlandıran gözəl.
**Dildar** – snvgili, məşuqə.
**Dilistan** – valeh edən
**Dilruba** – ürək açan, könül alan, hər kəsi özünə məftun edən gözəl, dilbər.
**Dilşad** – şən
**Dinar** – qədimdə qızıl pul.
**Dirhəm** – dəyəri iyirmi qəpiyə yaxın köhnə gümüş pul.
**Düşvar** – çətin, müşkül.

## E

**Ehsan** – xeyirxah, mərhəmət
**Ehtizaz** – titrəyiş, titrəmə.
**Etidal** – ədalətlilik, hər iki tərəfdə bərabərlik; orta hal, mötədillik.
**Ezaz** – əzizləmə, çox hörmət etmə.

## Ə

**Əcz** – acizlik, zəiflik.
**Ədavət** – düşmənçilik
**Əfkar** – fikirlər, niyyətlər.
**Əğyar** – rəqib, yad
**Ələf** – ot
**Ələst** – dini təsəvvürə görə insan yaradılışının ibtidası; əzəl.
**Ənam** – bəxşiş
**Əncam** – son, nəhayət, nəticə.
**Əndişə** – fikir
**Ərməğan** – hədiyyə, peşkəş.
**Əsəs** – gecə qarovulçusu.
**Əta** – bəxşiş
**Əyyar** – hiyləgər, hiyləbaz, xalqı aldadan, fırıldaqçı; *məc.* aldadıcı gözəl.

## F

**Fasiq** – ikiüzlü, hiyləgər
**Fazil** – bilikli, alim
**Fəda** – qurban
**Fəqih** – islam hüquqşünası, şəriət qanunları alimi.
**Fərmanrəva** – hökmdar; əmri yeriyən.
**Fərzanə** – alim, bilikli, ağlı, elmi ilə seçilən.
**Fəttan** – heyrətləndirici

## G

**Gəbr** – atəşpərəst; dinsiz
**Gənc** – xəzinə
**Giriban** – yaxa; *çaki-giriban* – yaxanın yırtılması.
**Giryan** – ağlar
**Güləndam** – bədəni gül kimi olan gözəl, dilbər.
**Gümbəd** – gümbəz
**Günbədi-dəvvar** – fələk, asiman
**Güzər** – keçmə, gəlib-getmə.

## H

**Həbib** – dost; sevilən, sevgili.
**Hədyan** – sayıqlama
**Həmdərd** – dost
**Hərami** – yol kəsən; *hərami göz* – ürəyi məftun edən gözəl gözlər.
**Hilal** – aypara; lakin mətndə: "dönür insanların bədri hilalə" misrasında bədr – kök, tox insanların dolğun, girdə sifəti; hilal – aclıqdan arıqlamış insanların zəif, incəlmiş üzü deməkdir.
**Huşyar** – ayıq; ağıllı; açıq fikirli.
**Hücrə** – mollaxana və mədrəsədə dərs oxunan otaq
**Hümmət** – cəhd

## X

**Xacə** – ağa, sahib
**Xali** – boş
**Xamuş** – susmuş
**Xanəgah** – rindlərin toplandığı yer
**Xar**[1] – alçaq, həqir, zəlil.
**Xar**[2] – tikan, gül tikanı.
**Xəfiyyə** – gizli agent
**Xərzöhrə** – eşşək, qatır kimi ot yeyən heyvanlar üçün yarpağı zəhərli bir ağac.
**Xilqət** – yaranış
**Xirqə** – dərvişlərin üst geyimi; köhnə qaba paltar.
**Xislət** – təbiət, xasiyyət.
**Xuda** – Allah
**Xudpəsənd** – özünüsevən

## İ

**İbarət** – ibarə; bir ifadənin mənasından kənar şəkli.
**İblis** – şeytan; xəbis adam; quranda şər allahı.
**İffət** – namus, qadının isməti. Abırı.
**İqamət** – oturma, sakin olma.
**İltimas** – xahiş
**İstiğfar** – günahlarının əfvini istəmə; tövbə etmə.
**İzhar** – etiraf
**İztirab** – həyəcan
**İzzəti-ikram** – mənlik

## K

**Kamiyab** – xoşbəxt, arzusuna çatan
**Kan** – mədən
**Kecavə** – saray xanımları üçün xüsusi düzəldilmiş səyyar təxt
**Kerdiğar** – Allah, yaradan
**Kərəm** – comərdlik, lütf, alicənablıq.
**Kərgədən (kərgədan)** – buynuzu burnu üstündə olan böyük vəhşi heyvan.
**Kirdar** – əməl, iş, hərəkət tərzi, davranış.
**Kuy** – yurd. Yer, vətən.
**Kübar** – zadəgan, şəhər dövlətlisi

## Q

**Qaraqulaq** – qarolaq, vaşaq
**Qazi** – dini məhkəmə rəisi.
**Qəddar** – mərhəmətsiz, zalım; xain.
**Qələndər** – dərviş
**Qəmər** – ay.
**Qəriq** – qərq olan, tələf olan, suda boğulan
**Qəzal** – ceyran
**Qəzəlxan** – qəzəl oxuyan.
**Qubar** – toz
**Qur** – zebr

## M

**Mehman** – qonaq
**Mehrab** – kəbəyə istiqamətlənmiş lövhə
**Məcruh** – yaralı
**Məhzun** – kədərli, hüznlü

**Məlal** – qəm, qüssə, kədər.
**Məlhəm** – dərman
**Mərəz** – xəstə
**Məsafət** – məsafə, iki yer arasındakı uzaqlıq.
**Məskən** – oturulan yer, yaşayış yeri.
**Mizraq** – nizə
**Moizə** – nəsihət
**Munis** – dost, yaxın yoldaş, mehriban adam.
**Mücavir** – məbəddə yaşayıb, ibadət edən; qonşu.
**Müddəi** – iddiaçı, tələb edən
**Müəmma** – gizli söz
**Müərrif** – bildirən, tanış edən, məlumat verən.
**Müflis** – varı əldən getmiş
**Müğilan** – tikanlı kol növü, dəvətikanı; xari-müğilan – müğilan tikanı.
**Müxənnəs** – qorxaq
**Mümtaz** – seçilmiş, seçilən, başqalarından fərqlənən; dilbəri-mümtaz – eşsiz gözəl.
**Müntəxəb** – seçilmiş.
**Mürği-səhər** – səhər quşu, bülbül
**Mürüvvət** – insanlıq
**Müsafir** – qonaq; yolçu, səfər edən.
**Müsəvvir** – təsvir edən; rəssam, surət çəkən.
**Mütrib** – çalğıçı. Xanəndə, sazəndə.
**Müztərib** – iztirablı, əzab çəkən.

## N

**Nadan** – xəbərsiz
**Nafə** – müşk verən ceyranın göbəyində olan müşk kisəciyi.
**Neyistan** – qamışlıq.
**Neysan** – yaz yağışı
**Neyşəkər** – şəkər qamışı.
**Nədamət** – peşmançılıq
**Nəxl** – xurma ağacı
**Nəqib** – qəbilə rəisi; qövm və ya qəbilənin əcdadını (şəcərəsini) bilən.
**Nəsimi-səba** – bax: badi-səba və səba.
**Nəsrani** – xristian, xaçpərəst
**Nifrin** – lənətlənmə, bəd dua.
**Nigar** – şəkil, rəsm; gözəl, sevgili.
**Niqab** – örpək
**Nümayan və nəmayan** – görünən, aşikar, göz qabağında olan.

## P

**Pabənd** – bağlı, asılı
**Padzəhr** – əkszəhər, zəhərə qarşı
**Para** – yaralı
**Parqu** – qu tükü
**Pars** – fars
**Pasiban** – gözətçi
**Peykan** – oxun, nizənin ucunda olan iti dəmir.
**Peyman** – vəd. Vədə, şərt, söz verib-alma.
**Pəriçöhrə** – pəri üzlü
**Pərivari** – pəri tək
**Pərü bal** – qanad, qol-qanad; məc. Azadlıq.
**Pəsənd** – bəyənmə
**Pəst** – alçaq
**Pünhan** – gizli

## R

**Raz** – sirr.
**Rehlət** – getmək, köçmək
**Riqqət** – incəlik, həssaslıq, qəlb incəliyi.



**Rind** – qeydsiz, qəmsiz, arsız
**Rişə** – kök
**Rizvan** – cənnət bağı; cənnət bağlarının qarovulçusu.
**Ruhi-rəvan** – gedən ruh; məc. Sevgili.
**Ruxsar** – üz
**Ruzigar** – dövran

## S

**Sahibxana** – ev sahibi
**Sahib-camal** – gözəl, camallı
**Sarıq** – əmmamə
**Sariban** – dəvəçi, karvan sürən.
**Seyd** – ov.
**Seyqəl** – alalama
**Səba** – yüngül və sərin yel.'
**Səccadə** – səcdə olunan yer
**Səqlab** – slavyanlar; slavyan ölkəsi.
**Səməndər** – odda yanmayan əfsanəvi bir heyvan.
**Səna** – tərif, mədh.
**Sənubər** – gözəl
**Sərfü nəhv** – morfologiya və sintaksis, qrammatika.
**Sərgərdan** – avara
**Sərhəng** – polkovnik
**Sərv** – məc. Gözəl, uzun boylu, dilbər.
**Sərvər** – başçı
**Sərvi** – həmişəbahar ağacı.
**Sərvnaz** – boylu-buxunlu gözəl qadın.
**Səthixak** – yer üzü
**Səyyad** – ovçu.
**Sim** – gümüş; *simü zər* – qızıl-gümüş.
**Sipər** – qalxan.
**Soxənvər** – şair, yazıçı
**Sövdagər** – tacir, gəzəyən tacir.
**Sui-zənn** – pis niyyət

## Ş

**Şaxə** – budaq.
**Şam** – axşam; gecə.
**Şəbnəm** – şeh
**Şəhriyar** – hökmdar, şah, məlik.
**Şətarət** – şux

## T

**Teşnə** – susuz
**Təbər** – balta.
**Təbil** – nağara
**Təhəmmül** – dözüm
**Təmbur** – musiqi aləti
**Tən** – bədən, vücud, əndam.
**Tərsa** – rahibə, xristian qadın
**Təvan** – taqət, qüvvət; *səbrü təvan* və *tabü təvan* – dözüm, dözümlülük.
**Təvazö** – başıaşağı
**Tifil** – uşaq
**Tovhid** – Allahın təkliyi
**Tüfli-gülüstan** – körpə gül-çiçək, tumurcuq
**Türfə** – ən əla, ən gözəl

## U

**Ud** – Hindistanda bitən bir cins ağac və onun odunu, yandırılanda xoş iy verir; çalğı aləti.

## V

**Vadi** – dərə
**Vaiz** – moizə edən, molla
**Vəfakar** – vəfalı
**Vəsf** – tərif
**Vizrüvəba** – günah

## Z

**Zarü zəlil** – zəif, bədbəxt, biçarə, zillətdə olan.

**Zəhi** – nə gözəl. Nə yaxşı! (nida.)

**Zəxirə** – ehtiyat

**Zəqqum** – ağu ağacı; meyvəsi acı bir ağac; müsəlmanlığa görə cəhənnəmdə bitən meyvəsi zəhərli ağac.

**Zər** – qızıl. Altun.

**Zinhar** – aman, ehtiyatlı ol, gözlə!

**Zir-zəbər** – zir ərəb əlifbasında qısa "i" səslisini bildirən işarə, kəsrə; zəbər – "ə" səslisini bildirən işarə, fəthə. Burada: dəyişdirə bilməz ziri-zəbərdən. On min adam gəlib versə əl-ələ. – yəni yazıya pozu, olacağa çarə yoxdur.

**Zühəl** – günəş aləmi ulduzlarının altıncısı; gözlə görünənlərin ən ucasıdır, əsatirə görə, nəhslik və bədbəxtlik ulduzudur.

**Zünnar** – xristian ruhanilərinin bağladığı müəyyən rəngli qaba qıldan qurşaq.



# MÜNDƏRİCAT


*Sədi: həqiqət və gözəllik şairi* . . . . 4

Bustan . . . . 15

Gülüstan . . . . 139

Lirik şeirlər . . . . 343
- Qəzəllər . . . . 345
- Rübailər . . . . 371
- Qitələr . . . . 377

*Qeydlər və şərhlər* . . . . 380

*Lüğət* . . . . 393

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəvan Mürsəlov* |
| Korrektor: | *Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 19.08.2004. Çapa imzalanmışdır 09.11.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 25. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 228.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

Ш6(5)
S 41